# AZƏRBAYCAN TARİXİ



9




DƏRSLİK

LAYİHƏ





# Azərbaycan Respublikasının Dövlət Himni

*Musiqisi Üzeyir Hacıbəylinin,*
*sözləri Əhməd Cavadındır.*

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

LAYİHƏ



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

LAYİHƏ

LAYİHƏ

Yaqub Mahmudlu, Qabil Əliyev,
Mehman Abdullayev, Leyla Hüseynova,
Hafiz Cabbarov

# AZƏRBAYCAN TARİXİ

# 9

*Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün*
*Azərbaycan tarixi fənni üzrə*

**DƏRSLİK**

Bu nəşrlə bağlı irad və təkliflərinizi
info@eastwest.az və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

LAYİHƏ

# MÜNDƏRİCAT


Giriş ..... 7

## I bölmə. Azərbaycan yeni dövrdə

### I fəsil. Azərbaycan XIX əsrin 30 – 50-ci illərində

1. Müstəmləkə rejiminin yaranması ..... 8
2. Təsərrüfat və əhalinin həyatı ..... 12
3. Xalq hərəkatı ..... 16
4. Müstəmləkə rejiminin möhkəmləndirilməsi ..... 19

### II fəsil. Azərbaycan XIX əsrin 60 – 90-cı illərində

5. Burjua islahatları ..... 24
6. Kənd təsərrüfatında yeniliklər ..... 27
7. Bakının dünyanın neft mərkəzinə çevrilməsi ..... 31
8. Sənayenin digər sahələri. Nəqliyyat, rabitə və ticarət ..... 36
9. Millətin formalaşması ..... 39
10. Xalq hərəkatı ..... 43
11. Cənubi Azərbaycan Qacarlar dövlətinin tərkibində ..... 47
12. XIX əsrdə təhsil və elm ..... 50
13. Milli mətbuatın, teatrın yaranması. Ədəbiyyat və incəsənət ..... 54

### III fəsil. Azərbaycan XX əsrin əvvəllərində

14. Sənayenin vəziyyəti ..... 58
15. Kənd təsərrüfatı. Yeni aqrar qanunlar ..... 61
16. Azadlıq hərəkatının yeni mərhələsi ..... 64
17. Azərbaycanlı əhaliyə qarşı ermənilərin törətdikləri kütləvi qırğınlar. Milli-demokratik hərəkat ..... 68
18. Milli partiya və təşkilatların yaranması ..... 72
19. Azərbaycan Birinci Dünya müharibəsi illərində ..... 75
20. Azərbaycan 1917-ci il Fevral inqilabından sonrakı dövrdə ..... 79
21. Mədəniyyət ..... 84


LAYİHƏ

## *II bölmə. Azərbaycan müasir dövrdə*

### IV fəsil. Azərbaycan Xalq Cümhuriyyəti

22. Şimali Azərbaycanda türk-müsəlman əhaliyə qarşı soyqırımları ........................ 89
23. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ........................ 92
24. Dövlət quruculuğu sahəsində tədbirlər ........................ 96
25. Ermәni işğalçılarına qarşı mübarizə ........................ 99
26. İqtisadi, sosial və mədəni tədbirlər ........................ 103
27. Xarici siyasət ........................ 106
28. Cənubi Azərbaycanda milli azadlıq mübarizəsi ........................ 109

### V fəsil. Azərbaycan 1920 – 30-cu illərdə

29. Sovet rejiminin qurulması ........................ 111
30. Sovet rejiminə qarşı xalq hərəkatı ........................ 115
31. Formal müstəqilliyin ləğvi ........................ 118
32. Azərbaycanın ərazi bütövlüyünə yeni qəsdlər ........................ 121
33. Azərbaycanda Sovet hökumətinin iqtisadi tədbirləri ........................ 124
34. Zorakı kollektivləşdirmə ........................ 126
35. Totalitar rejimin qurulması. Kütləvi repressiyalar ........................ 129
36. Mədəni quruculuq tədbirləri ........................ 132

### VI fəsil. Azərbaycan İkinci Dünya müharibəsi və sonrakı dövrdə

37. Azərbaycan SSR İkinci Dünya müharibəsi illərində ........................ 134
38. Cənubi Azərbaycanda milli azadlıq mübarizəsi ........................ 137
39. Azərbaycan SSR müharibədən sonrakı onillikdə ........................ 140
40. Milli oyanış cəhdləri ........................ 144
41. 1940 – 60-cı illərdə mədəniyyət sahəsində uğurlar ........................ 147
42. 1970 – 80-ci illərdə sosial-iqtisadi yüksəliş ........................ 150
43. Yenidənqurma siyasətinin iflası ........................ 153
44. Ərazi bütövlüyü və milli hüquqların qorunması uğrunda mübarizə ........................ 156
45. Cənubi Azərbaycan müharibədən sonrakı dövrdə ........................ 159
46. 1970 – 80-ci illərdə mədəniyyətin inkişafı ........................ 161

LAYİHƏ

## VII fəsil. Azərbaycan Respublikası müstəqillik dövründə (1991 – 2000-ci illər)


47. Dövlət müstəqilliyinin bərpası ........ 165
48. Qurtuluş hərəkatı ........ 169
49. Qarabağ müharibəsi ........ 171
50. Azərbaycan Respublikasının beynəlxalq və regional təşkilatlara üzv olması ........ 174
51. Dövlət müstəqilliyini möhkəmləndirmək tədbirləri ........ 176


## VIII fəsil. Azərbaycan yeni minilliyin başlanğıcında


52. Azərbaycan Respublikasının inkişafında yeni mərhələ ........ 181
53. Xarici siyasət ........ 185
54. Mədəniyyətin inkişafında böyük uğurlar ........ 188
İstifadə edilmiş ədəbiyyat ........ 192


ŞƏRTİ İŞARƏLƏR

– tədqiqata istiqamət

– araşdırma məqsədilə verilmiş sual və tapşırıqlar

– dövrə aid mənbələr

– mövzuların sonunda verilmiş sual və tapşırıqlar

– açar sözlər

LAYİHƏ

# GİRİŞ

***Əziz şagirdlər!***

Sizə təqdim olunan Azərbaycan tarixi dərsliyi Vətənimizdə yeni və müasir dövrdə baş vermiş ən mühüm hadisələrdən bəhs edir. Siz bu dərsliyə əsasən, XIX əsrin 30-cu illərindən bu günlərə kimi Azərbaycanda baş vermiş prosesləri: ən mühüm sosial-iqtisadi dəyişiklikləri, xalq hərəkatlarını, müstəqil dövlətçiliyimizin tarixini, qazanılmış ictimai-siyasi nailiyyətləri, insanların həyat tərzindəki inkişafı öyrənmək imkanı qazanacaqsınız. Dərslikdə müxtəlif mənbələrdən nümunələr verilmişdir. Bu nümunələr sizə tarixin müxtəlif dövrlərində baş vermiş real hadisələr, faktlar haqqında daha dolğun məlumat vermək üçün seçilmişdir. Tarixi şəxsiyyətlərə, tarixi hadisələrə müxtəlif yanaşmalar haqqında ilk mənbələrdən əxz edilmiş maraqlı məlumatlar sizə Azərbaycan tarixi dərslərində müqayisələr etməyə, müzakirələr aparmağa geniş imkan yaradacaq. Dərslikdə verilmiş xəritələr, mənbələr, şəkillər, sxem və cədvəllər isə tarixi məkanlar, eləcə də hadisələr haqqında biliklərinizin dərinləşməsində yardımçınız olacaqdır.

Çar Rusiyasının müstəmləkəçi siyasətinə qarşı xalq hərəkatı, milli oyanışı labüd edən şərtlər, həyata keçirilən islahatlar, mədəniyyətin yüksəlişi, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və fəaliyyəti, Şimali Azərbaycanda Sovet hakimiyyətinin bərqərar olması, Cənubi Azərbaycanda milli azadlıq mübarizəsi, müstəqil Azərbaycan Respublikasının qurulması və böyük uğurların əldə olunması haqqında məlumatlar sizi Vətənimizin həm yaxın keçmişi, həm də bu günü ilə tanış etmək məqsədi daşıyır.

Gerçək tariximizi öyrənməkdə sizə uğurlar diləyirik!

***Müəlliflər***

LAYİHƏ

# *I bölmə.* Azərbaycan yeni dövrdə
# *I fəsil.* Azərbaycan XIX əsrin 30 – 50-ci illərində

## 1. Müstəmləkə rejiminin yaranması

Siz müstəmləkə əsarətində olan ölkə ilə müstəmləkəçi imperiya arasındakı fərqi bilirsiniz. Bəs bu ölkələr arasında münasibətlər necə qurulurdu? Müstəmləkəçi dövlət inzibati idarə sistemi yaradarkən hansı prinsipləri əsas götürürdü? Müstəmləkələr necə idarə edilirdi?

Komendant, köçürmə siyasəti, “Erməni vilayəti”, alman məskənləri




*Şimali Azərbaycan XIX əsrin ilk onilliklərində*

**Hərbi işğal rejimi.** 1828-ci ildə Türkmənçay müqaviləsinin bağlanması ilə Vətənimiz iki yerə bölündü. Müstəqil dövlətçiliyimizin davamı olan xanlıqlar ləğv edilərək çar Rusiyasının əyalətlərinə çevrildilər.

LAYİHƏ

Ölkəmiz çar Rusiyası üçün mühüm geosiyasi[1] əhəmiyyət daşıyırdı. Ona görə də Rusiya zəbt etdiyi Şimali Azərbaycanda çox ağır hərbi-inzibati idarəçilik sistemi yaratdı. Bütün Qafqazı rus çarının təyin etdiyi baş hakim idarə edirdi. Xanlıq və sultanlıqların yerində yaradılmış əyalət, dairə və distansiyalara (məntəqələrə) isə **komendantlar** başçılıq edirdilər. Qafqazın baş hakiminin rus zabitləri içərisindən təyin etdiyi komendantlar çox geniş səlahiyyətlərə malik idilər. Onlar bütün gəlir mənbələrinə, təsərrüfat sahələrinə və vergilərin yığılmasına nəzarət edirdilər. Mahal naibi və ya kəndxuda təyin etmək də onların vəzifəsi idi.

*Əvvəlki siniflərdən qazandığınız biliklər və əlavə məlumat əsasında Azərbaycanın çar Rusiyası üçün geosiyasi əhəmiyyətini dəyərləndirin.*

Məhkəmə səlahiyyətləri də komendantların əlinə keçmişdi. Onlar vəzifələrindən istifadə edərək özbaşınalıqlara yol verir, hətta Rusiya imperiyasının qanunlarından kənara çıxırdılar. Komendantların rəsmən ölüm hökmü vermək hüququ yox idi, lakin onlar azərbaycanlıları məhkəməsiz öldürməkdən çəkinmirdilər.




*Komendantlara belə geniş səlahiyyətlər verilməsinin səbəbləri nə idi? Fikrinizi əsaslandırın.*

Çar hökuməti xanlıqlar dövründə geniş hüquq və imtiyazlara malik olan *ali müsəlman təbəqəsinin* (bəy, ağa və ruhanilər) torpaq hüququna və imtiyazlarına ağır zərbə vurdu. Onlar milli və dini ayrı-seçkiliyə məruz qaldılar. Feodalların bəzi nümayəndələri, ən yaxşı halda, komendantlara xidmət etmək – vergiləri vaxtlı-vaxtında toplamaq şərtilə kəndxuda və mahal naibi vəzifələrini daşıya bilərdilər. Komendantlar hökumətə sədaqətlə xidmət edən bu şəxslərə tiyul torpaqları bağışlayırdılar. Rusiyaya düşmən olan bəy və ağaların torpaqlarını isə müsadirə edirdilər.

Rusiyanın müsəlman əyalətlərində həyata keçirdiyi vergi siyasəti xalqımızın soyulub talan edilməsinə yönəlmişdi. Əyalətlərin açıq şəkildə qarət olunmasında əsas rol komendanta məxsus olsa da, digər məmurlar da özbaşınalıq və qanunsuzluq etməkdə ondan geri qalmırdılar. Kəndli, sənətkar və tacirlərin üzərinə qoyulan vergilərin miqdarı əvvəlki dövrlərdən qat-qat çox idi. Əhali getdikcə müflisləşirdi.

Toplanılan vergilər komendantlar tərəfindən acgözlüklə mənimsənilir, xəzinəyə cüzi miqdarda göndərilirdi. Bu cür hallar mərkəzi hakimiyyətin nəzərindən yayınmadı. 1829 – 1830-cu illərdə Cənubi Qafqazda yoxlamalar aparmaq üçün göndəril-

[1] **geosiyasət** – dövlət siyasətinin coğrafi amillərə əsasən müəyyənləşdirilməsi



LAYİHƏ

miş çar məmurları müsəlman əyalətlərinin maliyyə-vergi sistemində həddindən çox qanunsuzluq və özbaşınalıqlar üzə çıxardılar. Onlar çar I Nikolaya göndərdikləri raportda yazırdılar: “Müsəlman əyalətlərində rus dairə rəislərinin və komendantların azğınlığı nəticəsində əhalinin çəkdiyi əzab-əziyyət adamı dəhşətə gətirir. Burada insan ləyaqəti tapdalanmış, hər cür ədalət unudulmuş, qanun isə yalnız əsarət aləti olmuşdur. Bölgənin müsəlman əhalisinin səbr kasası dolmuş, lakin xoşbəxtlikdən daşmamışdır”. Daha sonra senatorlar Şimali Azərbaycanda üsyanların baş verəcəyindən ehtiyatlanaraq çara komendant idarə üsulunu dərhal ləğv etməyi təklif edirdilər.

**Çar Rusiyasının köçürmə siyasəti.** Rusiya imperiyası Şimali Azərbaycanda özünə xristian əhalidən dayaq yaratmağa çalışırdı. Bu məqsədlə işğaldan dərhal sonra Cənubi Qafqaza, o cümlədən Azərbaycana **alman, erməni, rus** və digər xristian xalqları köçürülməyə başlanıldı.

XIX əsrin əvvəlində I Napoleonun işğalçı müharibələri və feodal zülmü nəticəsində ağır vəziyyətə düşən Almaniya əhalisinin bir hissəsi öz vətənini tərk etdi. 1818-ci ildə Rusiya hökuməti Cənubi Qafqaza köçürdüyü alman ailələrinin bir hissəsini Yelizavetpol (Gəncə) dairəsində məskunlaşdırdı. ***Yelenendorf*** (indiki Göygöl) və ***Annenfeld*** (indiki Şəmkir) adlanan alman məskənləri salındı. Çar hökuməti hesab edirdi ki, alman kolonistləri bölgədə Avropa əkinçilik mədəniyyətinin yayılmasında mühüm rol oynayacaqlar. İlk vaxtlar bu koloniyalar Azərbaycandan yığılan gəlirlər hesabına saxlanılırdı.

Almanların məskunlaşdırılmasından sonra qərb bölgəsində yaşayan yerli azərbaycanlı əhali də almanlar kimi altı zirzəmili, üstü çardaqlı, damı kirəmitli evlər tikməyə başladı. Kənd təsərrüfatında işlədilən dördtəkərli, furqon tipli at arabalarının düzəldilməsi də almanların gəlişindən sonra baş verdi. Eyni zamanda almanlar da yerli əhalidən müəyyən kənd təsərrüfatı vərdişlərini mənimsədilər.

*Rusiyanın Şimali Azərbaycanda xristian əhalidən özünə dayaq yaratmaq siyasəti baş tutdumu? Münasibətinizi bildirin.*



**Aleksandr Qriboyedov**
*rus diplomatı və yazıçısı*

*A.Qriboyedov ermənilərin köçürülməsi ilə əlaqədar yazırdı: “Ermənilərin çox hissəsi müsəlman mülkədarların (arandakı – red.) torpaqlarında yerləşdirilmişdir. Yayda hələ buna yol vermək olardı. Çünki torpaq sahibi olan müsəlmanların əksəriyyəti yaylaqda idi və başqa dinə qulluq edən gəlmələrlə az görüşürdülər”.*

***A.Qriboyedov. Seçilmiş əsərləri. II c., Moskva, 1977, s. 399-444.***

M *Mənbə əsasında azərbaycanlıların məruz qaldığı ədalətsizliyi izah edin.*

Rusiya imperiyası Osmanlı və Qacarlar dövlətlərinə qarşı gələcək işğalçı niyyətini həyata keçirmək üçün Cənubi Qafqazda, xüsusən də tarixi Azərbaycan torpaqlarında erməniləri kütləvi məskunlaşdırmaq istəyirdi. Ona görə də Qacarlarla bağlanmış

LAYİHƏ

Türkmənçay (1828) və Osmanlı dövləti ilə bağlanmış Ədirnə (1829) müqavilələrinə əsasən, həmin dövlətlərin ərazisində yaşayan ermənilər kütləvi şəkildə Azərbaycan torpaqlarına köçürüldü. Rusiya ordusunda xidmət edən erməni zabitləri bu işə cəlb olundu. Bu siyasətin həyata keçirilməsinə rəhbərlik edən rus ordusunun erməni mənşəli polkovniki Lazarev (Lazaryan) Qacarlar dövləti ərazisindən Şimali Azərbaycana köçürülən ermənilərə müraciətlə deyirdi: "...Orada (yəni Şimali Azərbaycanda – *red.*) siz xristianların məskunlaşdırıldığı yeni Vətən əldə edəcəksiniz... Tələsin! Vaxt qiymətlidir... Azca itkiyə məruz qalsanız da, qısa zamanda hər şeyə nail olacaqsınız, özü də həmişəlik".

*Ermənilərin Rusiya tərəfindən Azərbaycana köçürülməsinə ilk dəfə nə zaman başlanmışdır?*

*Tanınmış rus tədqiqatçısı Nikolay Şavrov yazırdı: "Cənubi Qafqazın istilasınadək burada erməni xalqı yüksək mövqeyə malik deyildi. Ermənilər əsas etibarilə Osmanlı dövləti ərazisində və İranda yaşayırdılar. Ermənilərin Cənubi Qafqaza köçürülməsi İran (Qacarlar dövləti – red.) və Osmanlı ilə 1828 – 1829-cu illər müharibəsindən sonra başlanmışdır. 1828-ci ildən 1830-cu ilədək Cənubi Qafqaza İrandan 40 mindən, Osmanlı dövlətindən isə 84 mindən çox erməni köçürülmüşdür. Onlar Yelizavetpol, Qarabağ, İrəvan, Borçalı, Axalsıx və Axalkələk bölgələrinin ən yaxşı torpaqlarında yerləşdirilmişlər".*

*N.Şavrov ermənilərin Cənubi Qafqaza köçürülməsi prosesini və köçürülüb yerləşdirilmiş ermənilərin sayını araşdırdıqdan sonra – 1911-ci ildə yazırdı: "Hazırda Cənubi Qafqazda yaşayan 1 milyon 300 min erməninin 1 milyonundan çoxu bu diyarın yerli əhalisi deyil. Onları buraya biz köçürüb gətirmişik".*

***N.Şavrov. Cənubi Qafqazda rus işi üçün yeni təhlükə. S-Pb., 1911, səh. 59***

M *N.Şavrovun ermənilər haqqında söylədiyi faktları təhlil edin.*

Rusiya imperiyası erməniləri, əsasən, keçmiş ***İrəvan, Naxçıvan, Qarabağ*** xanlıqlarının ərazilərində və ***Borçalıda*** məskunlaşdırmaq siyasəti yeridirdi. Qısa müddət ərzində bu bölgələrə 130 minə qədər erməni köçürüldü. Sonrakı dövrdə bu proses davam etdirildi. İrəvan və Naxçıvan ərazisində "Erməni vilayəti" quruldu. Lakin Naxçıvanda yerli əhalinin ciddi müqaviməti nəticəsində bu bölgədə ermənilərin kütləvi məskunlaşdırılması baş tutmadı.

Ən böyük ədalətsizlik isə təsərrüfat yaratmaq üçün azərbaycanlılara məxsus yararlı, münbit torpaqların ermənilərə verilməsi idi. Çar hökuməti köçürüb gətirdiyi erməni əhalisini çox yüksək səviyyədə himayə edirdi. Onlar 6 il ərzində bütün vergi və mükəlləfiyyətlərdən azad edildilər. Hətta Qacarlar dövlətindən alınan təzminatın bir hissəsi əlavə vəsait kimi onlar üçün ayrıldı. Ermənilərin kütləvi surətdə köçürülüb gətirilməsinə baxmayaraq, çar hökuməti Şimali Azərbaycanda əhalinin etnik tərkibini uzun müddət dəyişdirə bilmədi. İrəvan xanlığını işğal etmiş rus generalı İ.Paskeviç ermənilərin köçürülüb yerləşdirilməsindən sonra belə, İrəvan bölgəsi əhalisinin dördə üç hissəsinin Azərbaycan türkləri olduğunu etiraf edirdi. Ermənilərin Azərbaycana köçürülməsi prosesi sonralar da davam etdirildi.

*Şimali Azərbaycanda erməni əhalisinin kütləvi yerləşdirilməsinin nəticəsi nə oldu?*



LAYİHƏ

Şimali Azərbaycana işğaldan sonrakı dövrdə Rusiyanın mərkəzi quberniyalarından rus kəndlilərinin köçürülməsinə də başlandı. İlk vaxtlar Rusiyanın mərkəzi quberniyalarında rəsmi pravoslav kilsəsinə qarşı çıxanlar ölkəmizə sürgün edildi. Çarın **20 oktyabr 1830-cu il tarixli** fərmanı ilə qısa müddət ərzində yüzlərlə təriqətçi və bidətçi rus ailəsi köçürülərək Azərbaycanın Şirvan, Lənkəran və Qarabağ bölgələrində yerləşdirildi. Otuza qədər rus kəndi salındı. Köçürülən rus əhalisi ilk vaxtlar yerli əhalinin hesabına ərzaq məhsulları ilə də təmin olundu.

Rusların, əsasən, yerli əhaliyə məxsus yaylaq və qışlaqlarda yerləşdirilməsi ənənəvi yarımköçəri maldarlıq təsərrüfatına böyük ziyan vurdu. Çar Rusiyasının Şimali Azərbaycanda yaratdığı müstəmləkə rejimi, zorakı köçürmə siyasəti və açıq qarət sistemi işğaldan bir qədər sonra müstəmləkə əsarətinə qarşı üsyanlara səbəb oldu.

### SUAL VƏ TAPŞIRIQLAR:

1. *Şimali Azərbaycanın idarəçilik sistemində baş vermiş dəyişikliyi təhlil edin.*
2. *Yerli əhalinin ayrı-seçkiliyə məruz qalmasının əsas səbəbi nə idi?*
3. *Senatorlar hansı səbəbdən komendant idarəsinin ləğv edilməsini istəyirdilər?*
4. *Çar Rusiyasının köçürmə siyasətinin ümumi məqsədlərini izah edin.*
5. *Köçürmələr nəticəsində yerli əhaliyə dəyən ziyanı təhlil edin.*
6. *Mövzuda verilmiş mühüm hadisələrə aid xronoloji cədvəl tərtib edin.*
7. *Azərbaycan torpaqlarına ermənilərin kütləvi köçürülməsi ilə müasir dövrdəki Qarabağ münaqişəsini əlaqələndirin.*

## 2. Təsərrüfat və əhalinin həyatı

Şimali Azərbaycan Rusiya imperiyası üçün “xammal mənbəyi və satış bazarı” idi. Bəs Rusiya kimi böyük bir imperiyanı şirnikləndirən nə idi? Müstəmləkə rejimində Şimali Azərbaycanın iqtisadiyyatında hansı dəyişikliklər baş verdi? Əhalinin yaşayışında nə kimi dəyişikliklər oldu?

Dövlət və sahibkar kəndliləri, ipəkçilik, Xanabad manufakturası, rəhdar, iltizam sistemi

**Şimali Azərbaycanın iqtisadi cəhətdən mənimsənilməsi yolları.** Şimali Azərbaycanın işğalını başa çatdırdıqdan sonra Rusiyanın qarşısında duran əsas məsələlərdən biri orada müstəmləkəçi iqtisadi siyasət tətbiq etmək idi. Çar hökuməti bu zəngin diyarı Rusiya sənayesi və ticarəti üçün “çox faydalı bir müstəmləkə” hesab edirdi. Ölkəmiz inkişaf etməkdə olan Rusiya fabrikləri üçün xammal bazasına və sənaye mallarının satış bazarına çevrilirdi. Rusiyanın Şimali Azərbaycanda iqtisadi siyasətinin əsas məqsədi ölkəmizdə xammal istehsalının artırılması və dağ-mədən sənayesinin yaradılması idi. Amma Rusiya hər hansı bir məhsulun tam istehsalının Azərbaycanda həyata keçirilməsini də istəmirdi. Çünki müstəmləkələrdən ucuz xammal alıb, onu mərkəzi quberniyalarda son məhsula çevirib yenidən müstəmləkələrdə baha qiymətə satmaq dövlətə, rus sahibkarlarına böyük qazanc gətirirdi.



LAYİHƏ

Müstəmləkəçi iqtisadi siyasətin əsas xüsusiyyətinə aid sxem:




*Müstəmləkəçi iqtisadi siyasəti ipək parça istehsalının nümunəsində izah edin.*

**Kənd həyatı.** XIX əsrin ortalarında Şimali Azərbaycanda əhalinin ümumi sayı bir milyon nəfərə çatırdı. Əhalinin böyük əksəriyyəti kəndlərdə yaşayırdı. Kəndlilər ***dövlət və sahibkar kəndlilərinə*** bölünürdülər. Dövlət torpaqlarında yaşayan kəndlilər xəzinəyə, bəy və ağa torpaqlarında yaşayanlar isə həm xəzinəyə, həm də torpaq sahibinə vergi ödəyirdilər.

Kənd əhalisinin əsas məşğuliyyəti, əvvəllər olduğu kimi, əkinçilik və maldarlıq idi. Əhali köhnə təsərrüfat ənənələri əsasında öz pay torpağını əkib-becərirdi. Təsərrüfatda heyvana qoşulmuş kotandan, xışdan istifadə edilirdi. Ağır zəhmətlə əldə olunan məhsulun çox hissəsi vergi kimi kəndlilərdən alınırdı. Əkinə yararlı torpaqların yerli əhalidən alınıb gəlmə xristianlara verilməsi vəziyyəti daha da ağırlaşdırırdı.

Əkinçilik təsərrüfatı hər bir bölgədə olsa da, müəyyən əyalətlər məhsuldarlığı ilə seçilirdi. Qarabağ və Şirvan əyalətləri buğda və arpa istehsalına görə öndə idi. Lakin ənənəvi suvarma sistemi olan kəhrizlərin müharibələr zamanı dağılması əhalini böyük çətinliklər qarşısında qoyurdu.

Yarımköçəri maldarlıqla məşğul olan kəndlilər də ciddi çətinliklərlə üz-üzə qalırdılar. Çünki Rusiya imperiyasının köçürmə siyasəti nəticəsində yaylaq və qışlaqların çox hissəsi gəlmələrin – ermənilərin və rusların əlinə keçmişdi. Yerli əhali mal-qaranı vaxtında yaylağa və qışlağa apara bilmədiyindən heyvanların bir hissəsi tələf olur, evlərindən və torpaqlarından məhrum olan əhali müflisləşirdi. Rusiya hökuməti yarımköçəri həyat tərzi sürən əhalini "vəhşi və mədəniyyətdən uzaq" hesab edir, onların zorla oturaq həyat sürmələrinə çalışırdı. Bu da həmin əhali üçün ağır fəsadlarla nəticələnirdi.

*Yarımköçəri maldarlıq təsərrüfatını təbii şəraitlə əlaqələndirin.*

Kənd təsərrüfatında əmtəə istehsalının artmasını nəzərə alan çar hökuməti natural vergini pul vergisi ilə əvəz etdi. Rus məmurlarının özbaşınalığı, ağır vergi siyasəti əhalinin bütün təbəqələrini müflis edir, iqtisadi-sosial vəziyyəti ağırlaşdırırdı.

Rusiya hökuməti işğaldan sonra Şimali Azərbaycanda öz iqtisadi siyasətini yeritməyə başladı. Qədim tarixə malik olan ***ipəkçilik*** Nuxa (Şəki), Şuşa, Şamaxı və Car-Balakən bölgələrində daha geniş yayılmışdı. Rusiya hökuməti bu yerlərdə barama tədarükünü genişləndirməyə çalışırdı. Rusiyanın toxuculuq sənayesinin xam ipəyə olan tələbini ödəmək üçün


LAYİHƏ

Şəkidə ***Xanabad manufakturası*** açıldı. **1836-cı ildə** Şəkidə yaradılan ***"Cənubi Qafqazda ipəkçiliyi və ticarət sənayesini yayan cəmiyyət"*** muzdlu əməkdən istifadə edən ən böyük ipəkçilik təsərrüfatına çevrildi. XIX əsrin ortalarında Rusiya ipək fabriklərinin baramaya olan tələbatının çox hissəsini artıq Şimali Azərbaycan ödəyirdi. Rusiyada toxuculuq sənayesinin inkişafı boyaq maddələrinə də ehtiyac yaratdı. Bu dövrdə Azərbaycanda becərilən çox qiymətli texniki bitkilərdən biri qızılboya (marena) idi. Ondan toxuculuqda təbii boyaq kimi istifadə olunurdu. Şimali Azərbaycandan Rusiyaya çoxlu miqdarda qızılboya daşınıb aparılırdı.

*Yadınıza salın. Azərbaycan ipəyi XIX əsrdən əvvəl hansı ölkələrə satılırdı?*

**Şəhər həyatı.** Azərbaycan şəhərlərində həyat yenidən canlanırdı. **Şamaxı, Şəki, Şuşa, İrəvan, Dərbənd** və **Gəncə** şəhərlərinin hər birində on min nəfərdən çox əhali yaşayırdı. Şəhər əhalisi, əsasən, sənətkar və tacirlərdən ibarət idi. Sənətkarlar ənənəvi sənət sahələrini davam etdirirdilər. Dəmirçilik, misgərlik, dulusçuluq, xalçaçılıq, toxuculuq, boyaqçılıq, oyma sənəti, papaqçılıq və digər sənətkarlıq sahələri, demək olar, Azərbaycanın bütün bölgələrində vardı. Sənətkar emalatxanaları, bir qayda olaraq, sifarişlər əsasında işləyirdi. Sənətkarların həyatı ağır idi. Onların üzərinə ağır vergilər qoyulmuşdu. Tacirlərin dükanları şəhər mərkəzlərində yerləşirdi. Kəndlilər də öz məhsullarını şəhərə gətirib bazarlarda satırdılar. Rusiya ticarəti inkişaf etdirmək məqsədilə **1821-ci ildə** Cənubi Qafqazda güzəştli ticarət tarifi (qaydaları) tətbiq etdi. Bu qaydalara görə, gətirilən əcnəbi malların yalnız 50%-dən gömrük haqqı alınırdı. Həmin tarifin qüvvədə olduğu müddətdə Şimali Azərbaycanda ticarət müəyyən dərə-



***İrəvanda Göy məscid. Rəssam F.Diubua de Monpere, 1843-cü il***

*XIX əsrin birinci yarısında İrəvan şəhəri öz gözəlliyini, Azərbaycan türklərinə məxsusluğunu saxlayırdı. Rus müəllifi V.Jelixovskaya yazırdı: "İrəvan görünüşünə görə bütünlüklə tatar (Azərbaycan) şəhəridir. Ağ evlər, qüllələr, qalanın xarabalıqları, rəngbərəng kaşılarla üzlənmiş məscid və təmtəraqlı minarələr bağların içərisində itir".*

***İrəvan xanlığı (Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi). Bakı, 2010. s.92***

M *Mənbə əsasında İrəvanın Azərbaycan şəhəri olduğunu sübut edin.*

LAYİHƏ

cədə canlandı. Lakin Qərbi Avropa toxuculuq məhsulları aşağı keyfiyyətli Rusiya məhsullarını Cənubi Qafqaz bazarlarında sıxışdırdığı üçün çar hökuməti güzəştli ticarət tarifini ləğv etdi.

**1831-ci ildən** tətbiq olunan yeni qaydalara görə, Qərbi Avropa malları artıq Cənubi Qafqaza gətirilə, buradan da üçüncü ölkəyə (Qacarlar dövlətinə, Mərkəzi Asiya ölkələrinə) aparıla bilməzdi.

*Sizcə, Rusiya hökuməti niyə Qərbi Avropa toxuculuq məhsullarının Cənubi Qafqaza gətirilməsinin qarşısını aldı? Fikrinizi əsaslandırın.*

**1836-cı ildə** daxili gömrük rüsumu – *rəhdar* da ləğv edildi. Bu tədbirlər təsərrüfatın, xüsusilə ticarətin inkişafına müsbət təsir göstərir, Azərbaycanda vahid daxili bazarın formalaşmasına xidmət edirdi.



*Balaxanıda neft çıxarılması*

Müxtəlif çəki, ölçü və pul sisteminin mövcud olması isə ticarətin inkişafına mənfi təsir göstərirdi. Bunu aradan qaldırmaq məqsədilə vahid pul, ölçü və çəki sistemi yaradıldı. Xanlıqlar dövründən qalmış pullar Rusiyanın gümüş rublu ilə əvəz edildi.

**Neft və digər istehsal sahələri.** XIX əsrin 30 – 50-ci illərində Bakıda neftli torpaqlar Rusiya hökuməti tərəfindən ***iltizama*** verilirdi. Neft quyularını iltizama götürən sahibkar rus xəzinəsinə müəyyən məbləğ ödəyəndən sonra neftin çıxarılmasını və satılmasını özü təşkil edirdi. Abşeronda neftçıxarma işi əl əməyinə əsaslanırdı. Bu dövrdə neftin çıxarılmasında kəndlilərin icbari (məcburi) əməyindən istifadə olunurdu.

*Neft çıxaran kəndlilərin vəziyyətini təhkimli kəndlilərin və Qərb ölkələrində olan muzdlu fəhlələrin vəziyyəti ilə müqayisə edin.*



*Neftlə dolu çəllək arabalarla daşınırdı*

Şimali Azərbaycanda digər mühüm istehsal sahələri balıqçılıq və duz istehsalı idi. İşğaldan sonrakı dövrdə balıqçılıq təsərrüfatı dövlətin ixtiyarına keçdi. Balıq vətəgələrinin əksəriyyəti birləşdirildi və ***"Salyan xəzinə qəyyumluğu"*** adlı şirkət yaradıldı. Balıqçılıqda muzdlu əmək geniş yayıldı. Əsas duz mədənləri isə Abşeronda və Naxçıvanda yerləşirdi. Bu sahədə köhnə iltizam qaydaları saxlanılmışdı.

XIX əsrin 30 – 50-ci illərində ölkəmizin bütün iqtisadi imkanları Rusiya sənayesinin xammala olan tələbinin ödənilməsinə yönəlmişdi. Bu da çarizmin Şimali Azərbaycanı müstəmləkəyə çevirməsinin nəticəsi idi.

LAYİHƏ

## *SUAL VƏ TAPŞIRIQLAR:*

1. *Müstəmləkəçi iqtisadi siyasətin xüsusiyyətlərini izah edin.*
2. *Şimali Azərbaycanda ticarət münasibətlərini nizama salan tədbirləri təhlil edin.*
3. *Şimali Azərbaycan əhalisinin sosial tərkibinə və onların iqtisadi vəziyyətinə aid cədvəl hazırlayın.*
4. *Rusiyanın müstəmləkəçi iqtisadi siyasəti kənd təsərrüfatında özünü necə göstərirdi?*
5. *Fikirləşin: Rusiya hökuməti nə üçün neft istehsalında iltizam sistemini tətbiq edirdi?*

# 3. Xalq hərəkatı

Rusiya imperiyasının Şimali Azərbaycanda apardığı siyasət artıq sizə məlumdur. Komendantların hər biri varlanmaq məqsədi güdür, xalqımızı ağır istismara məruz qoyurdu. Xristian xalqların köçürülməsi ilə yerli əhali ayrı-seçkiliyə məruz qalırdı. Bəs xalqımız bu haqsızlıqlara qarşı necə mübarizə aparırdı? Rusiya hökumətinin müstəmləkəçi siyasətinə qarşı mübarizənin nəticəsi oldumu?

Car-Balakən üsyanı, Lənkəran üsyanı, Quba üsyanı, Hərbi Şura, Şəki üsyanı, Şeyx Şamilin məktubu

**Üsyanların səbəbləri.** XIX əsrin əvvəllərində çar Rusiyası Şimali Azərbaycan torpaqlarının işğalını başa çatdırdıqdan sonra da xalqımız öz hüquq və azadlıqları uğrunda mübarizəni davam etdirirdi. Çar Rusiyasının müstəmləkəçilik siyasəti XIX əsrin 30-cu illərində üsyanların yeni dalğasına səbəb oldu. Üsyanlar siyasi, iqtisadi və sosial səbəblərlə bağlı idi.

| | |
|---|---|
| **Siyasi** | komendant idarə üsulu, çar məmurlarının özbaşınalığı |
| **İqtisadi** | vergi və mükəlləfiyyətlərin artırılması |
| **Sosial** | yerli hakim təbəqənin siyasi və torpaq hüquqlarının məhdudlaşdırılması, milli və dini zülm, köçürmə siyasəti |

**Car-Balakən üsyanı.** Rusiya imperiyasının işğal etdiyi Şimali Azərbaycanın digər bölgələrindən fərqli olaraq, Car-Balakən camaatları (indiki Balakən, Zaqatala, Qax rayonunun bir hissəsini əhatə edirdi) öz daxili müstəqilliyini saxlamışdı. Həm də camaatlar bac ödəmədiklərinə görə Rusiya xəzinəsinə xeyli borc yığılıb qalmışdı. Qafqazın baş hakimi bütün borcun ödənilməsi tələbinə müsbət cavab almadığına görə **1830-cu ilin fevralında** Cara qoşun yeritdi, Car-Balakən camaatlarının daxili müstəqilliyini ləğv etdi. Onların idarə olunması üçün 9 nəfərdən ibarət (3 nəfər rus məmuru və camaat tərəfindən seçilmiş 6 nəfər nümayəndə) "Müvəqqəti idarə" yaradıldı. Əslində isə Car-Balakən dairəsinin idarə edilməsi dairə rəisinə və iki rus məmuruna həvalə olundu. Camaatların göndərdiyi nümayəndələr yalnız məşvərətçi (məsləhətçi) səs hüququna malik idilər.

LAYİHƏ



*Car-Balakən üsyanının iştirakçıları*

*XIX əsrin 30-cu illərində Car-Balakən dairəsində əhalinin vəziyyəti haqqında məlumat toplayın.*

Çar hökumətinin bölgəyə qoşun yeritməsi, camaatları tam hüquqsuz vəziyyətə salması Car-Balakəndə üsyana səbəb oldu. **Şeyx Şaban** və **Həmzət bəyin** başçılığı altında üsyançılar Yeni Zaqatala yaxınlığında rus ordusunu darmadağın etdilər. Hökumət bölgəyə əlavə qüvvələr gətirdi və ağır toplardan istifadə etdi. Üsyan rəhbərləri arasında ixtilaf yaradaraq onların qüvvələrini parçaladı və qələbə çaldı. Üsyançılara qarşı sərt cəza tədbirləri həyata keçirildi. Bir çox kəndlər tamamilə dağıdıldı, üsyançıların ailə üzvləri Alazan çayı boyundakı boş torpaqlara sürgün edildi.

**Lənkəran üsyanı.** 1826-cı ildə xanlıq ləğv ediləndən sonra əyalət komendantı xana məxsus əmlakın çox hissəsini müsadirə etdi. Mirhəsən xan təhqir və təqiblərə dözməyərək Qacarlar dövlətinə sığındı.

*Lənkəran əyalətində çar hökumətinin özbaşınalığı, cinayətləri haqqında çar ordusundan tərxis olunmuş poruçik Dobrotvorskinin bir yazısı həyata keçirilən qəddar siyasəti sübut edir: "...Rusiya dövlətinə tabe olan Lənkəran xanlığındakı kimi azğınlığa heç yerdə rast gəlmədim... polkovnik Korniyenkonun ədalətsizliyi və onları sıxışdırması haqqında əhalinin şikayətlərini eşitmək ağır idi... Vergini kim vermirdisə, yarımcan olana qədər döyürdülər, təkcə kişiləri yox, qadınları da döyürdülər. Köməksiz uşaqlar isə ətrafa qaçır, fəryad qoparırdılar... Xalqın hər şeyini alırdılar, ya da talan edirdilər" (1831-ci il tarixli bir sənəd).*

Müstəmləkə əsarəti Lənkəran əhalisinə böyük sıxıntı, əzab-əziyyət və zülm gətirdi. Ali zümrənin nümayəndələri idarəçilik işlərindən uzaqlaşdırıldı, din xadimlərinin əhali içərisində nüfuzunu sarsıdan addımlar atıldı. Hökumətin vergi siyasəti Lənkəran əyalətində daha ağır idi. Kəndlilərdən yığılan vergilərin miqdarı iki-üç dəfə artırılmışdı. Lənkəran komendantı rüşvət alır, hər cür qanunsuzluq törətməkdən çəkinmirdi. Onun əmri ilə 20 nəfəri istintaqsız və məhkəməsiz dənizdə batırıb öldürmüşdülər. Əhalinin böyük əksəriyyətində müstəmləkə rejiminə qarşı nifrət artmışdı. Onlar Qacarlar dövlətinə məktub göndərərək Mirhəsən xanı ruslara qarşı hərəkata başçılıq etmək üçün Lənkərana çağırdılar. **1831-ci ildə Mirhəsən xanın** Lənkərana gəlməsi ilə əyalətin mahallarının çoxunu üsyan bürüdü. Kəndlilərlə birgə ali təbəqənin nümayəndələri də üsyançılar sırasında idilər.

Hökumət Azərbaycanın digər bölgələrində yerləşən rus qoşunlarını üsyançılara qarşı göndərdi. 1831-ci il aprelin əvvəlində üsyan yatırıldı. Xan yenidən Qacarlar dövlətinə getdi. Ağır cəza tədbirlərindən yaxa qurtarmaq üçün üsyançı ailələrinin bir qismi də Arazdan cənuba köç etməyə məcbur oldu.



LAYİHƏ



Şeyx Şamil

*Şimali Qafqazda dağlı xalqların azadlıq hərəkatının başçısı Şeyx Şamil Quba əhalisinə göndərdiyi məktubunda yazırdı: "Yadellilərin zülmündən qurtulmaq üçün bir çıxış yolu var, o da silahlı mübarizədir. Bizim etiqad və adətlərimizin yağılarına qarşı üsyan edin!*

*Ruslar ona görə məndən nə isə tələb etmək gücündə deyillər ki, mən gecə-gündüz vuruşaraq bizim gücümüzün üstünlüyünü sübuta yetirdim. Boş vədlərə, kağızlara inanmayın, susmaq sizin üçün ölüm deməkdir!"*

M *Mənbə əsasında Şimali Qafqazda dağlı xalqların azadlıq hərəkatının Quba üsyanı ilə əlaqəsini təhlil edin.*

**Quba üsyanı.** XIX əsrin 30-cu illərində Şimali Azərbaycanda çarizmin müstəmləkə əsarətinə qarşı baş vermiş üsyanlar içərisində ən güclüsü Quba əyalətində baş verən üsyan idi.

Quba əyalətinin komendantı vəzifəsindən sui-istifadə edərək əhali üzərinə ağır vergilər qoyur, sakinləri qanunsuz mükəlləfiyyətlərə cəlb edir, hətta məscid və mədrəsələrin saxlanması üçün yığılan zəkatı da mənimsəyirdi. 1837-ci ilin əvvəlində Varşavadakı müsəlman alayına Quba əyalətindən atlı toplanması haqqında yayılan xəbər üsyan üçün bəhanə oldu. Başqa əyalətlərdən fərqli olaraq, Quba əyalətində bir atlının təchizatı sakinlərə baha başa gəlirdi. Əhali hökumət nümayəndələrindən atlı yığılmasının dayandırılmasını, komendantın və onun əlaltılarının işdən azad edilməsini, vergi və mükəlləfiyyətlərin azaldılmasını tələb etdi. Hərbi dairə rəisi bəzi tələbləri yerinə yetirməyi vəd etsə də, buna əməl etmədi.

**1837-ci ildə** Qubada Rusiya imperiyasının müstəmləkə zülmünə qarşı silahlı üsyan başladı. Bu üsyan əhatə dairəsinə və iştirakçıların sayına görə digər üsyanlardan fərqlənirdi. Üsyançıların sayı 12 min nəfərə çatırdı. Üsyanın başlıca qüvvəsi kəndlilər olsa da, Quba bəylərinin böyük hissəsi də onlara qoşulmuşdu.

Üsyana **Hacı Məhəmməd** başçılıq edirdi. Üsyan gedişində ***Hərbi Şura*** yaradıldı. Hərbi Şuranın hazırladığı plana əsasən üsyançı dəstələr Quba şəhərini mühasirəyə aldılar. Bir dəstə üsyançı Qubaya daxil oldu. Lakin üsyançıların əsas qüvvələrinin Qubaya hücum etməkdə ləngiməsi şəhəri tamamilə ələ keçirməyə imkan vermədi. Üsyançılar mərdliklə vuruşsalar da, uğur qazana bilmədilər və şəhəri tərk etməyə məcbur oldular.

Qafqazın baş hakimi Qubaya əlavə qüvvələr göndərdi. Üsyan amansızlıqla yatırıldı. Hacı Məhəmməd Bakı Hərbi-səhra Məhkəməsinin hökmü ilə dar ağacından asıldı. Üsyanın digər fəal iştirakçıları Sibirə sürgün edildi.

**Şəki üsyanı.** Rusiya imperiyasının müstəmləkə rejiminə qarşı böyük xalq çıxışlarından biri də Şəki əyalətində baş verdi. Xanlıq dövründə vergidən azad olan maaflar[1] üzərinə yenidən vergi və mükəlləfiyyətlər qoyulmuşdu. Kəndli və sənətkarlardan ilbəil yeni vergi və rüsumlar yığılırdı. Hökumət məmurları özbaşınalıqlar edir, ali zümrəyə qarşı ayrı-seçkilik siyasəti yeridirdilər. Bu səbəblərdən Şəkidə üsyan başladı.

Şəkinin keçmiş hakimi Səlim xanın oğlu Hacı xan tərəfindən Qacarlar dövlətindən Şəkiyə göndərilən **Məşədi Məhəmməd** əhalini üsyana qaldırdı. Üsyançılara Dağıs-

[1] Maaf – Xanlıqlarda asayiş qoruyucusu idilər və qoşunun əsasını təşkil edirdilər. Bunun müqabilində xan maafları vergilərdən azad edirdi.



LAYİHƏ

tan əhalisi də qoşuldu. Məşədi Məhəmməd 5 minlik qoşun toplayaraq **1838-ci ildə** hökumətə qarşı fəal mübarizəyə başladı. Üsyançılar Şəki yaxınlığında rus hərbi qüvvələrini məğlubiyyətə uğratdılar. Şəki qalasından başqa, bütün ətraf ərazilər üsyançıların əlinə keçdi. Lakin Qafqazın baş hakimi başqa əyalətlərdən Şəkiyə əlavə qoşun yeridərək üsyanı yatıra bildi. Məşədi Məhəmməd yenidən Cənubi Azərbaycana qayıtmağa məcbur oldu.

XIX əsrin 30-cu illərində baş vermiş üsyanların məğlub olmasının əsas səbəbləri məhəlli xarakter daşıması, iştirakçıların silahla pis təchiz olunması, qüvvələr nisbətindəki fərq, hökumətin üsyançılara qarşı nizami qoşun hissələrindən istifadə etməsi idi. Bu üsyanlar məğlub olsa da, onların tarixi əhəmiyyəti böyükdür. Azadlıq mübarizəsi müstəmləkəçilərə sübut etdi ki, xalqımız öz hüquq və azadlıqlarını qorumaq əzmindədir. Çar hökuməti anladı ki, ölkəni talan etmək və xalqı itaətdə saxlamaq üçün yaradılmış komendant idarə üsulunu davam etdirmək daha mümkün deyil.

*Üsyanlarda əhalinin bütün təbəqələrinin birlikdə çıxış etmələrinin səbəbləri nə idi?*

**SUAL VƏ TAPŞIRIQLAR:**

1. *XIX əsrin 30-cu illərində Şimali Azərbaycanda üsyanların baş verməsinin əsas səbəblərini müəyyən edin.*
2. *Müstəmləkə əsarətinə qarşı baş vermiş üsyanlar içərisində Quba üsyanının fərqli cəhətləri nə idi?*
3. *Müstəmləkə əsarətinə qarşı baş vermiş üsyanların məğlub olması səbəblərini izah edin.*
4. *Mövzuda verilmiş mühüm hadisələrə aid zaman oxu tərtib edin.*

## 4. Müstəmləkə rejiminin möhkəmləndirilməsi

Şimali Azərbaycanda baş verən xalq üsyanları Rusiyanın mərkəzi hökumətini narahat etdi. Üsyanlar silah gücünə yatırılsa da, Rusiya hökuməti müsəlmanlar yaşayan əyalətlərin idarə sisteminin yarıtmaz olduğunu başa düşdü.

İnzibati idarəçilikdə hansı dəyişikliklər edildi?

İnzibati-məhkəmə islahatı, Xəzər vilayəti, Qafqaz canişinliyi, Şamaxı və Dərbənd quberniyaları, "Kəndli Əsasnamələri"

Xalqımızın əzmkar mübarizəsi Rusiya hökumətini məcbur etdi ki, idarəçilikdə islahatlar aparsın. Təbii ki, bu islahatlar Azərbaycan xalqının vəziyyətini yüngülləşdirmək məqsədi güdmürdü. Rus müstəmləkəçiləri iqtisadi-siyasi maraqlarının həyata keçirilməsi üçün daha səmərəli üsullar tətbiq etdilər.

**Yeni inzibati bölgü və idarəçilik sistemi.** Rusiya hökuməti bütövlükdə Cənubi Qafqazda inzibati-idarə sistemini dəyişdirməyi qərara aldı. Buradakı idarəçilik sistemini ümumimperiya inzibati sisteminə uyğunlaşdırmaq üçün islahatlar həyata keçirdi.



LAYİHƏ



Çar I Nikolay

*İslahatın keçirilməsindən öncə çar I Nikolay yazmışdı: "Zaqafqaziya (Cənubi Qafqaz) diyarının abadlaşdırılması üçün... daxili rus quberniyalarının ümumi idarəetmə prinsiplərinə əsaslanan möhkəm mülki idarə çatışmır".*

M *I Nikolayın bu fikrini müzakirə edin.*

Uzun müzakirələrdən sonra çar I Nikolay **1840-cı ildə** Cənubi Qafqazda ***inzibati-məhkəmə islahatı*** keçirilməsi haqqında qanun imzaladı. Cənubi Qafqazda Rusiyada olduğu kimi, ***quberniya-qəza-sahə (nahiyə) inzibati bölgüsü və məhkəmə sistemi*** tətbiq edildi.

Bu yeniliklər xalqımızın mənafeyinə uyğun gəlirdimi? Bunu müəyyən etmək üçün islahatın bəndlərinə baxaq. Bu qanuna görə, ***komendant idarə üsulu ləğv olundu*** və Cənubi Qafqaz inzibati cəhətdən iki yerə – ***Gürcü-İmereti quberniyası və Xəzər vilayətinə*** bölündü. Həmçinin qondarma "Erməni vilayəti" ləğv edildi, yerində İrəvan və Naxçıvan qəzaları yaradıldı.

**Əhalisinin əksəriyyəti azərbaycanlı olan qəzaların yeni inzibati bölgü üzrə paylanması**

| Xəzər vilayəti<br>mərkəzi Şamaxı şəhəri | Gürcü-İmereti quberniyası<br>mərkəzi Tiflis şəhəri |
|---|---|
| **Şamaxı, Qarabağ, Şəki, Bakı, Lənkəran, Quba, Dərbənd qəzaları** | **Yelizavetpol (Gəncə), Naxçıvan, İrəvan qəzaları, Car-Balakən dairəsi** |

*Sizcə, İrəvan və Naxçıvan qəzalarının yaradılması xalqımızın xeyrinə idimi? Fikrinizi əsaslandırın.*

Rusiya hakimiyyəti xalqın müstəmləkə rejiminə qarşı çıxışlarında fəal iştiraklarına görə bəy və ağalara artıq etibar etmirdi. Ona görə də onları bütün idarə işlərindən kənarlaşdırdı. Hökumət bütün pillələrdə onların yerinə rus, xristian məmurları təyin etdi. Üstəlik, bu məmurlar birbaşa Rusiyanın paytaxtındakı rəhbərliyə tabe olmalı idilər. Orada oturan məmurların isə Qafqazda yaşayan əhalinin, xüsusən də müsəlmanların həyat tərzi, məişəti haqqında təsəvvürləri belə yox idi.

Şimali Azərbaycanda ümum-Rusiya qanunları əsasında fəaliyyət göstərən məhkəmələr yaradıldı. Məhkəmələr rus dilində və imperiya qanunları əsasında aparılırdı. Şəriət məhkəmələri yalnız kəbin-talaq və vərəsəlik məsələlərinə baxırdı. Yerli dil və adətləri bilməyən rus hakimlərinin məhkəmə işlərinə baxması əhalinin böyük narazılığına səbəb olurdu.

Yerli əhali arasında böyük hörməti olan ali müsəlman təbəqəsini idarə işlərindən uzaqlaşdıran Rusiya hökuməti nəzərə almamışdı ki, onların yardımı olmazsa, əhalini itaətdə saxlamaq mümkün olmayacaq. Ona görə də 1840-cı il islahatı uğursuzluqla nəticələndi və hökumət az sonra Cənubi Qafqazda idarə sistemini yenidən dəyişməli oldu.

LAYİHƏ




*Şimali Azərbaycan 1840 – 1846-cı illərdə*

*Xəritəyə və cədvələ əsasən Şimali Azərbaycanın ərazi bütövlüyünün pozulduğunu təhlil edin.*

**1844-cü ildə** çar hökuməti ***Cənubi Qafqazda canişinlik*** idarəsi yaratdı. İlk Cənubi Qafqaz canişini Mixail Vorontsov oldu. Canişin çox böyük hərbi və mülki səlahiyyətlərə malik idi. Çar ümid edirdi ki, canişin Tiflisdə qalıb yerli şəraitə daha yaxşı bələd olar və idarə işlərində məhz bu xüsusiyyətləri nəzərə alar.

Cənubi Qafqazın inzibati-ərazi quruluşunda ciddi dəyişikliklər də elə M.Vorontsovun təşəbbüsü ilə oldu. **1846-cı ildə** çar yeni fərman verdi. Gürcü-İmereti quberniyası və Xəzər vilayəti ləğv edildi, əvəzində ***Tiflis, Kutais, Şamaxı*** və ***Dərbənd quberniyaları*** yaradıldı. Tarixi Azərbaycan torpaqlarında 1849-cu ildə İrəvan, 1868-ci ildə Yelizavetpol quberniyaları yaradıldı.

## CƏNUBİ QAFQAZ QUBERNİYALARI

| TİFLİS | KUTAİS | ŞAMAXI | DƏRBƏND | İRƏVAN | YELİZAVETPOL |
|---|---|---|---|---|---|
| *1846-cı ildə yaradıldı.* | *1846-cı ildə yaradıldı.* | *1846-cı ildə yaradıldı. 1859-cu ildən Bakı quberniyasına çevrildi.* | *1846-cı ildə yaradıldı. 1860-cı ildə ləğv edildi.* | *1849-cu ildə yaradıldı.* | *1868-ci ildə yaradıldı.* |



LAYİHƏ




*Şimali Azərbaycan 1846 – 1859-cu illərdə*

**Azərbaycanda sosial münasibətlərin tənzimlənməsi cəhdi.** Rusiya hökuməti ali müsəlman təbəqəsinin nümayəndələrini bütün idarə işlərindən kənarlaşdırdı. Lakin bununla kifayətlənmədi, **1841-ci ildə** əvvəlcə ***Qazax, Şəmşəddil*** və ***Borçalı***, sonra isə ***Xəzər vilayəti mülkədarlarının*** torpaqlarının müsadirəsinə başlandı. Bu zorakılıq aktları Şimali Azərbaycanın hər yerində böyük narazılıqla qarşılandı.

*Rusiya hökumətinin bu addımının xalqımız üçün nəticələrini müzakirə edin.*



*M.Vorontsov*

Hökumətə qarşı kütləvi xalq çıxışları baş verdi. Ali təbəqənin və kəndlilərin birgə çıxışları hökuməti bərk təşvişə saldı. Cənubi Qafqazda vəziyyəti öyrənmək üçün göndərilən çar Rusiyasının hərbi naziri hökumətin bu addımının səhv olduğunu etiraf etdi. Çarın 1843-cü ildə imzaladığı fərmanla ali müsəlman təbəqəsinin imtiyazlarının tanınmasına icazə verildi. Qafqaz canişini M.Vorontsova bu təbəqənin mülkiyyət hüquqlarını tənzimləyəcək qanun layihəsini hazırlamaq tapşırıldı.

Hazırlanmış qanun layihəsi **1846-cı ildə** çar tərəfindən reskript[1] şəklində imzalandı. Reskriptə əsasən, bəylərin ixtiyarında olan torpaqlar (mülk, tiyul və s.) üzərində irsi mülkiyyət hüququ təsdiq edildi. Bəy, ağa və digər torpaq sahibləri öz mülklərini nəsildən-nəslə ötürmək, satmaq, bağışla-

[1] **reskript** – qanun gücündə olan sənəd, buyruq



LAYİHƏ

maq hüququ aldılar. Reskriptə görə, əvvəllər rəiyyət, rəncbər, nökər, əkər adlanan sahibkar kəndlilərinə ümumi bir ad – mülkədar tabelisi adı verildi.

1846-cı il reskripti ilə Rusiya hökuməti ölkəmizdə özünə sosial dayaq yaratmaq sahəsində ilk ciddi addımını atdı.

*Sosial dayaq dedikdə siz nə başa düşürsünüz? Sosial dayaqla etnik dayaq arasında olan fərqi müəyyənləşdirin.*

Çar hökuməti Şimali Azərbaycanın sahibkar kəndlərində bəy-kəndli münasibətlərini tənzimləmək üçün **1847-ci ildə *"Kəndli Əsasnamələri"*** qəbul etdi. Bu sənədə görə, 15 yaşına çatmış kişi cinsindən olan hər bir kəndliyə 5 desyatin[1] yararlı torpaq verilməli idi. Bunun əvəzində isə kəndli taxıl məhsulunun onda birini, çəltik, meyvə-tərəvəz məhsulunun üçdə birini malcəhət vergisi şəklində sahibkara ödəməli idi. Əgər kəndli torpağını bəyin iş heyvanı, toxumu və alətləri ilə becərərdisə, malcəhət məhsulun beşdə birini təşkil edirdi. Otlaqlardan istifadə edən kəndlilər sahibkara çöpbaşı adlı vergi də ödəməli idilər. Bundan əlavə, sahibkarın təsərrüfatında biyara çıxmaq üçün hər kəndli ailəsindən bir nəfər ayrılmalı idi. Həmin kəndli ildə 18 gün heç bir ödənc almadan əkin-biçin işi aparmalı idi.

*Yadınıza salın. İşğaldan öncə bəy-kəndli münasibətləri necə idi? Hansı vergi və mükəlləfiyyətlər vardı?*

Bütün kəndlilər hamılıqla ildə iki gün bəy təsərrüfatında əvrəz (iməcilik) adlanan ümumi işi yerinə yetirməli idilər. Kəndlilərin yaşayış yerini dəyişib başqa kəndlərə köçmək hüququ saxlanıldı. Yeni qaydalara əsasən, bəylərə kəndlilər üzərində inzibati, polis və məhdud məhkəmə hüququ verilirdi.

*Azərbaycan kəndlisi üçün Rusiya qanunlarına əsaslanan rus məhkəməsi, yoxsa bəy məhkəməsi daha uyğun idi? Fikirləşin və müzakirə edin.*

Beləliklə, "Kəndli Əsasnamələri" ali müsəlman təbəqəsi ilə kəndlilər arasında asılılıq münasibətlərini rəsmiləşdirərək qanuni şəklə saldı.

## SUAL VƏ TAPŞIRIQLAR:

1. *Çar Rusiyasının yeni inzibati-ərazi bölgü siyasətinin əsas məqsədi nə idi?*
2. *1846-cı il reskriptini müzakirə edin. Çar hökuməti özünə sosial dayaq kimi nə üçün məhz bəy və ağaları seçdi?*
3. *Azərbaycanda "mülkədar tabelisi" adlanan sahibkar kəndlilərinin vəziyyətini Rusiyada yaşayan təhkimli kəndlilərin vəziyyəti ilə müqayisə edin.*
4. *Mətnə əsasən xronoloji cədvəl qurun.*
5. *"Dərbənd şəhəri XIX əsrin ortalarında" adlı təqdimat hazırlayın.*

[1] **desyatin** – sahə ölçü vahidi, 1,09 hektara bərabərdir.



LAYİHƏ

# 5. Burjua islahatları

Bildiyiniz kimi, Rusiya imperiyasının XIX əsrin 40-cı illərində Şimali Azərbaycanda həyata keçirdiyi tədbirlər hələ də feodal xarakteri daşıyırdı. Əsrin ikinci yarısında feodal qaydaları kapitalist münasibətlərinin inkişafına mane olmağa başladı. Rusiyanın müstəmləkə əsarətində saxladığı Şimali Azərbaycanda yeni islahatlar keçirməsi hansı zərurətdən irəli gəlirdi? Rusiyanın marağı nədən ibarət idi?

Mərz, bəy komissiyaları, kəndli islahatı, məhkəmə islahatı, şəhər islahatı, Bakı Şəhər Duması

**1870-ci il kəndli islahatı.** XIX əsrin 40-cı illərində həyata keçirilən islahatlar artıq sonrakı onilliklərdə özünü doğrultmadı. Çünki imperiya miqyasında kapitalist münasibətləri formalaşırdı. Cəmiyyətdə gedən prosesləri tənzimləmək üçün yeni qanunlar qəbul etmək lazım idi. Rusiya hökuməti müstəmləkəyə çevirdiyi Cənubi Qafqazda öz iqtisadi maraqlarını təmin etmək üçün yeni qaydalar tətbiq etməyə məcbur idi. Mərkəzi quberniyalarda yaranan yeni fabrik və zavodları ucqarlarda – müstəmləkə torpaqlarında olan xammal və yanacaqla müntəzəm və böyük həcmdə təmin etmək imperiyanın ali mənafeyinə xidmət göstərəcəkdi.

**1861-ci ildə** Mərkəzi Rusiyada kəndli islahatı keçirildi və təhkimçilik hüququ ləğv edildi. Rusiyadan fərqli olaraq, Azərbaycanda sahibkarlarla kəndlilər arasında yalnız torpağa görə asılılıq münasibətləri mövcud idi. Ona görə də Şimali Azərbaycanda torpaq sahibləri ilə kəndlilər arasında sosial ziddiyyətlər o qədər də kəskin deyildi. Bundan əlavə, hökumət kəndli islahatının həyata keçirilməsi üçün münasib şərait olmadığını bəhanə edir və öncə hazırlıq tədbirləri görülməsinin vacibliyini bildirirdi. Bütün bunlar hökumətə islahatı təxirə salmağa imkan verdi. Lakin hökumət gec də olsa, ucqarlarda, o cümlədən Azərbaycanda kəndli islahatını keçirməyə məcbur oldu. Kapitalist münasibətlərinin inkişaf etdiyi Rusiyanın mərkəzi quberniyaları ilə Cənubi Qafqazdakı müstəmləkələrin iqtisadi imkanları bir-birini tamamlamalı idi.

İslahat keçirmək üçün, ilk növbədə, dövlət, sahibkar və kəndlilərin pay torpaqlarının sərhədləri dəqiq müəyyən edilməli idi. Çar hökuməti bu məqsədlə XIX əsrin 60-cı illərinin əvvəlində ***Cənubi Qafqaz Mərz[1] Palatası*** yaratdı. İkinci mühüm addım ***bəy komissiyalarının*** yaradılması oldu. ***Bakı, Tiflis, İrəvan və Şuşada*** fəaliyyət göstərən bu komissiyalar ali müsəlman təbəqəsinin tərkibini dəqiq müəyyənləşdirməli idi.

Rusiya hökuməti **1870-ci ildə** Şimali Azərbaycanda sahibkar kəndlilərinə aid islahat keçirilməsini nəzərdə tutan Əsasnaməni təsdiq etdi. Əsasnamədə üç əsas məsələyə toxunulmuşdu:

- kəndlilərin feodal tabeliyindən azad edilməsi;
- pay torpağı;
- vergi və mükəlləfiyyət.

[1] **mərz** – tarla, bağ, bostan və s. sahəsini bir-birindən ayıran sərhəd



LAYİHƏ

*Bəy komissiyaları tərəfindən Şimali Azərbaycanda 1188 nəsil əsil-nəcabətli bəy nəsli kimi tanındı, təxminən bir o qədər, yəni 1048 nəslə bəy titulu verilməsindən imtina edildi. Bundan əlavə, Şirvan, Lənkəran və Bakı xanlarının nəsli hüquqları təsdiq edildi. Lakin Azərbaycanın ali müsəlman təbəqəsinə daxil olan bəylər rus zadəganları ilə bərabər hüquqlara malik deyildilər. Onların ali hakimiyyət orqanlarında təmsil olunmalarına imkan verilmirdi.*

M *Rusiya imperiyasının növbəti ayrı-seçkilik siyasətinin xarakterini təhlil edin.*

Əsasnaməyə görə, sahibkar kəndlilərinin feodaldan asılılığına son qoyuldu. Kəndlinin istifadəsində olan əkin sahələri, meyvə, tut, üzüm bağları onun pay torpağı hesab edildi və daimi olaraq istifadəsində saxlanıldı. Kəndli öz pay torpağını satın alıb xüsusi mülkiyyətinə çevirə bilərdi. Lakin satın alınacaq yararlı torpaqlar bir kəndli üçün 5 desyatindən çox ola bilməzdi. Bundan artıq olan torpaq sahəsi mülkədarın xeyrinə kəsilib götürülürdü. Həm də torpaq sahibinə icazə verilirdi ki, bütün yararlı torpağın $\frac{1}{3}$ hissəsini öz ixtiyarında saxlasın.



**Torpağın xışla şumlanması**

*Şəkil və mətn əsasında XIX əsrin ikinci yarısında Azərbaycan kəndlisinin əmək şəraitini təhlil edin.*

Satınalma zamanı kəndliyə dövlət tərəfindən heç bir yardım göstərilmədi. Bunun nəticəsi idi ki, 1870-ci il kəndli islahatı Şimali Azərbaycanda sahibkar kəndlisini torpaq mülkiyyətçisinə çevirmədi və uzun müddət ərzində o, “müvəqqəti mükəlləfiyyətli” vəziyyətində qaldı. Kəndli istifadə etdiyi torpağa görə malcəhət – məhsulun onda biri qədər vergi ödəməli idi. Məhsulun yerdə qalan hissəsindən isə sərbəst şəkildə istifadə edə bilərdi. Biyar ləğv edildi və hər desyatin pay torpağına görə pul ödənişi ilə əvəz olundu. Bu cəhətdən islahat burjua xarakteri daşıyırdı.

Torpağın alqı-satqı obyektinə çevrilməsi və kəndlilərin rəsmi olaraq asılılıqdan azad edilməsi ilə Şimali Azərbaycan kəndlərində kapitalist münasibətlərinin inkişafına yol açıldı. Lakin islahatın həyata keçirilməsi ləng gedirdi.

LAYİHƏ



*Rusiya hökuməti tərəfindən 1872 – 1876-cı illərdə 1 desyatin torpağın qiyməti, məhsuldarlığından asılı olaraq, Bakı quberniyasında 18 rubldan 30 rubla qədər, Yelizavetpol quberniyasında isə 25 rubldan 52 rubla qədər müəyyən edildi. Hətta rəsmi dairələr də həmin qiymətlərin mövcud vəziyyətə uyğun olmadığını etiraf edirdilər. Məhz bu səbəbdən də Qafqaz canişini həmin qiymətləri təsdiq etməkdən imtina etdi. Hesablamalara görə, Bakı quberniyasında 1 desyatin torpağın qiyməti Minsk quberniyasına nisbətən 25 dəfə, Həştərxan quberniyasına nisbətən 20 dəfə baha idi.*

M

*Rusiya hökumətinin Azərbaycandakı torpağın satınalma qiyməti ilə bağlı siyasətinə münasibətinizi bildirin. Bu siyasətin müstəmləkə xarakterini izah edin.*

**Məhkəmə islahatı.** Şimali Azərbaycanda guya əhalinin "ictimai şüur baxımından geri qalması" bəhanəsi ilə məhkəmə islahatı bir qədər gec həyata keçirildi. **1866-cı il** islahatına görə, silki məhkəmələr ləğv edildi. Əhalinin bütün təbəqələri üçün ümumi məhkəmələr yaradıldı. Məhkəmə iclasları açıq keçirilməli idi. Rusiyadan fərqli olaraq, Şimali Azərbaycanda məhkəmə hakimləri əhali tərəfindən seçilmir, Qafqaz canişini tərəfindən təyin edilirdi. Məhkəmə hakimi vəzifəsinə, bir qayda olaraq, rus və ya digər xristian xalqların nümayəndəsi təyin edilirdi. Məhkəmə işi yalnız rus dilində aparıldığından iclaslarda tərcüməçi iştirak edirdi. Bütün bu çatışmazlıqlarına baxmayaraq, məhkəmə islahatında olan yeniliklər mütərəqqi hadisə idi.

**Şəhər islahatı.** Rusiya imperiyasında şəhər islahatının keçirilməsinin əsas səbəbi şəhər əhalisi içərisində xüsusi çəkisi artmış sənayeçilərin, tacirlərin şəhərlərin ictimai-siyasi həyatında fəal iştirak etmək tələbləri ilə bağlı idi. **1870-ci ildə** Mərkəzi Rusiyada şəhər özünüidarə orqanlarının təşkili haqqında Əsasnamə qəbul edildi. Həmin Əsasnaməyə görə, Şəhər Dumasına seçkilərdə yalnız 25 yaşına çatmış, şəhərdə yaşayaraq rüsum ödəyən və müəyyən əmlaka malik olan kişilər iştirak edə bilərdilər.

Bu Əsasnamə ***Bakı şəhərində*** **1878-ci ildə** tətbiq edildi. Əsasnaməyə uyğun olaraq, Bakı Şəhər Duması və Dumanın icraedici orqanı olan Şəhər İdarəsi yaradıldı. Şəhər İdarəsinin başçısı yalnız rus olmalı idi. Başçını Şəhər Duması seçsə də, Daxili İşlər Nazirliyi təsdiq edirdi.

Şəhər Dumasının səlahiyyətlərinə şəhər təsərrüfatının idarə edilməsi, yerli ticarət və sənayenin himayə edilməsi, yanğınla mübarizə, səhiyyə, xalq təhsili kimi sahələr daxil idi. Bakı Şəhər Dumasında bütün işlər rus dilində aparılırdı.

Çar hökuməti **1892-ci ildə** yeni Şəhər Əsasnaməsi qəbul edərək qubernatorların şəhərlərin özünüidarə işlərinə müdaxilə etmək hüquqlarını genişləndirdi. Bu Əsasnaməyə uyğun olaraq, ***Yelizavetpolda*** (Gəncədə) tam həcmli şəhər özünüidarəsi, ***Lənkəran, Şəki, Şamaxı, Quba*** və digər şəhərlərdə isə səlahiyyətləri məhdud olan idarəçilik tətbiq edildi.

LAYİHƏ



*1878-ci ildə Bakı Şəhər Dumasına seçkilər keçirildi. İlk Dumaya 72 nəfər, sonralar 75 nəfər üzv seçilmişdi. Duma üzvünə o zaman "qlasnı" deyilirdi. Fərmana görə, azərbaycanlı nümayəndələrin sayı Duma üzvlərinin ümumi sayının yarısından çox ola bilməzdi. Şəhər başçısı isə xristian əhalidən olmalı idi.*

*Sizcə, nə üçün Rusiya hökuməti Dumada azərbaycanlıların sayını məhdudlaşdırırdı?*

**SUAL VƏ TAPŞIRIQLAR:**

1. *Çar Rusiyasının kəndli islahatları keçirməkdə məqsədi nə idi?*
2. *1870-ci il "Kəndli Əsasnaməsi"ni 1847-ci il "Kəndli Əsasnamələri" ilə müqayisə edin.*
3. *Məhkəmə islahatının müstəmləkə xarakteri daşımasını təhlil edin.*
4. *Şəhər Dumasının səlahiyyətlərini izah edin. Müasir dövrdə bu səlahiyyətlərin hansı dövlət orqanına aid olduğunu araşdırın.*
5. *Mövzuda verilmiş mühüm hadisələrə aid xronoloji cədvəl tərtib edin.*

# 6. Kənd təsərrüfatında yeniliklər

XIX əsrin ortalarında Şimali Azərbaycan Rusiya imperiyası üçün xammal və satış bazarı olaraq qalırdı. Əsrin ikinci yarısında Şimali Azərbaycanın kənd təsərrüfatında hansı yeniliklər baş verdi? İslahatlar, yeni qaydalar təsərrüfatın inkişafına necə təsir göstərdi?

Çəltikçilik, tərəkəmə, pambıqçılıq, üzümçülük, Qafqaz İpəkçilik Stansiyası, tütünçülük, təkmil alət və maşınlar

**Taxılçılıq və maldarlıq.** Bu dövrdə Şimali Azərbaycan iqtisadiyyatında kənd təsərrüfatı əsas yer tuturdu. Azərbaycanda becərilən torpaqların böyük hissəsində taxıl məhsulları (buğda, arpa, çəltik və s.) yetişdirilirdi. İstehsal edilən məhsul ölkə əhalisinin taxıla olan tələbatını tam şəkildə ödəyirdi. Rusiyanın regiondakı çoxsaylı qoşunları da



LAYİHƏ



***Azərbaycanlı qolçomaq. XIX əsrin II yarısı***

*Qolçomaq sözünün hərfi mənası "qolu çomaqlı" deməkdir. Onlar muzdlu əmək tətbiq edən kənd burjuaziyası idilər. Bəzi elmi ədəbiyyatda qolçomaq fermer də adlandırılır.*

taxılla Azərbaycanın hesabına təmin edilirdi. Taxılın bir hissəsi isə daxili bazarda satılırdı.

Azərbaycanın əsas taxıl anbarı Yelizavetpol (Gəncə) quberniyası idi. Lənkəran və Şəki qəzaları ***çəltikçilik*** üzrə ixtisaslaşmışdı. Taxılçılıq təsərrüfatlarında muzdlu əmək tətbiq olunurdu.

İslahatdan sonra bütün Rusiyada olduğu kimi, Şimali Azərbaycan kəndlərində də təbəqələşmə baş verirdi. Kəndlilərin bir qismi varlanaraq qolçomağa çevrilir, aztorpaqlı və torpaqsız kəndlilər isə muzdlu işçi kimi çalışırdılar. Torpaq satın almış və maddi vəziyyətini nizama salmış varlı kəndlilər artıq başqalarının da torpaqlarını icarəyə götürür, təsərrüfatlarında yoxsul kəndliləri işlədir, onlara məvacib ödəyirdilər.

Kənd təsərrüfatının digər mühüm sahəsi maldarlıq idi. Maldarlıq təsərrüfatında əsas yeri qoyunçuluq tuturdu. Rusiyanın daxili quberniyalarına və digər xarici bazarlara yun ixracı ildən-ilə artdığı üçün zərif yunlu qoyunların saxlanması geniş miqyas almışdı. Amma buna baxmayaraq, ölkə daxilində əmtəə maldarlığı çox ləng inkişaf edirdi.



*Azərbaycanda yarımköçəri həyat sürən əhalinin bir hissəsi **tərəkəmə** adlanırdı. Onlara qarapapaqlar da deyirdilər. Tərəkəmələr Azərbaycanda Kür-Araz ovalığında, Mil-Qarabağ, Muğan və Şirvan düzlərində yaşayır və icma halında yaylağa köç edirdilər. Onlar, əsasən, qoyunçuluqla məşğul olur, heyvandarlıq məhsulları (yağ, pendir, yun və s.) istehsal edir, bunları taxıla və sənətkarlıq məhsullarına dəyişirdilər.*

*Tərəkəmələr həm də əkinçiliklə məşğul olurdular. Onların aranda qalan hissəsi biçini qurtarıb, payız əkininə hazırlıq görürdü. Tərəkəmələrdə xalçaçılıq və toxuculuq inkişaf etmişdi. "Tərəkəmə" xalq rəqsi və musiqisi onlarla bağlıdır. Tərəkəmələr indiki Azərbaycan, Türkiyə, Gürcüstan, Ermənistan, Dağıstan və İran ərazilərində yaşayırdılar. Rusiya imperiyası dövründə tərəkəmələr yaylaqların və qışlaqların bir hissəsini itirdilər. Çar hökumətinin köçürmə siyasəti nəticəsində onların bir hissəsi hətta arandakı evlərindən, torpaqlarından məhrum oldular. Köçmə yaylaq maldarlığına ağır zərbə vurdu. Amma bütün çətinliklərə baxmayaraq, tərəkəmələr öz həyat tərzlərini və ənənəvi təsərrüfat vərdişlərini dəyişmədilər. Lakin sonralar Sovet hökuməti tərəkəmələrin çox hissəsini Mərkəzi Asiyaya sürgün etdi.*

M *Tərəkəmələrin həyat tərzinin dövlət tərəfindən dəyişdirilməsi cəhdinin siyasi və iqtisadi məqsədlərini təhlil edin.*



LAYİHƏ

**Texniki bitkilərin becərilməsi.** XIX əsrin 60-cı illərində Şimali Azərbaycanda qızılboya istehsalı sürətlə artırdı. Azərbaycan qızılboyası öz keyfiyyətinə görə nəinki Rusiyada, bütün dünyada yüksək qiymətləndirilirdi. Qızılboya istehsalının əsas mərkəzi Quba qəzası idi. Qızılboya becərilməsində muzdlu əmək tətbiq olunurdu. Kişilərlə yanaşı, qadınlar da muzdla çalışırdılar. Qızılboya plantasiyalarında Cənubi Azərbaycandan iş dalınca gələn soydaşlarımız da muzdlu işçi kimi çalışırdılar. Lakin 1869-cu ildə süni boyaq olan alizarin kəşf olunandan sonra qızılboya istehsalı sıradan çıxdı.

XIX əsrin 80 – 90-cı illərində ***pambıqçılıq*** kənd təsərrüfatının çox gəlirli sahələrindən birinə çevrilmişdi. Pambıqçılıq təsərrüfatlarının əksəriyyəti Bakı, İrəvan və Yelizavetpol quberniyalarında cəmləşmişdi. Çar hökuməti "müstəmləkə bitkisi" sayılan pambığın becərilməsinə xüsusi diqqət yetirirdi. Azərbaycan pambığının böyük bir hissəsi Mərkəzi Rusiya və Polşanın toxuculuq fabriklərinə göndərilir, az bir hissəsi isə ölkəmizdə emal olunurdu. Pambığın satışından əldə olunan yüksək gəlir imkan verirdi ki, muzdlu əməkdən geniş istifadə olunsun.

*Nəyə görə pambıq "müstəmləkə bitkisi" hesab edilirdi?*

XIX əsrin 80 – 90-cı illərində Şimali Azərbaycanda ***üzümçülük*** də sürətlə inkişaf edir, şərab zavodları çoxalırdı. Üzüm bağlarının böyük hissəsi Şamaxı, Göyçay, Şuşa və Yelizavetpol qəzalarında yerləşirdi. Yığılan məhsulun bir hissəsi Cənubi Qafqazın və Rusiyanın daxili quberniyalarındakı bazarlara çıxarılırdı.

Kənd təsərrüfatının çox mühüm və böyük qazanc gətirən sahələrindən biri də ***baramaçılıq*** idi. Baramaçılığın əsas mərkəzi olan Şəki bu dövrdə "Qafqaz Lionu" adlanırdı. Azərbaycanda yetişdirilən baramanın böyük hissəsi bu qəzanın payına düşürdü. Ölkəmizdə istehsal edilən xam ipəyin çox hissəsi Rusiyanın toxuculuq müəssisələrinə göndərilir, bir hissəsi də xarici ölkələrə ixrac olunurdu. Qafqaz Kənd Təsərrüfatı Cəmiyyəti Fransadan və digər ölkələrdən gətirdiyi yeni barama toxumlarını Azərbaycanın ipəkçilik təsərrüfatlarında yayırdı.

XIX əsrin ortalarında Şimali Azərbaycanın kənd təsərrüfatında yeni bir sahə – ***tütünçülük*** inkişaf etməyə başladı. Tütün əkinlərinin çox hissəsi Zaqatala dairəsi, Quba və Şəki qəzalarında yerləşirdi. Xaricdən gətirilən tütünün üzərinə yüksək gömrük haqqı qoyulması bu sahənin inkişafına təkan verdi. Plantasiyalardan yığılan tütün Bakı və digər şəhərlərdəki tütün fabriklərinə göndərilirdi.

XIX əsrin 80-ci illərində Şimali Azərbaycanda təbabət və yeyinti sənayesində çox qiymətli xammal kimi işlədilən biyan kökü toplanmasına başlandı. Yerli sakinlərin yığdığı biyan kökünü xarici şirkətlər çox ucuz qiymətə satın alırdılar. Sonra bu qiymətli xammal Qərbi Avropaya və Amerikaya göndərilirdi.

Bu dövrdə Şimali Azərbaycanda kənd təsərrüfatı istehsalı tamamilə Mərkəzi Rusiyanın iqtisadi maraqlarına tabe edilmişdi. İnkişaf etdirilən sahələr, ilk növbədə, rus sənayesinin xammala olan tələbatının ödənilməsinə yönəlmişdi. Eyni zamanda texniki bitkilər istehsalının sürətlə artması yerlərdə xammalın ilkin emalı müəssisələrinin yaranması və inkişafına imkan verdi.



LAYİHƏ

**Əsas yeniliklər.** 1870-ci il kəndli islahatından sonra Şimali Azərbaycan kəndlərində kapitalist münasibətləri inkişaf etməyə başladı. Sahibkarlara məxsus torpaqlar getdikcə daha çox alqı-satqı obyektinə çevrildi. Torpaq icarəsi və muzdlu əməyin tətbiqi genişləndi. Kənd təsərrüfatının bəzi sahələrində (qızılboya, taxılçılıq, pambıqçılıq, üzümçülük) istehsal ticarət əkinçiliyi səviyyəsinə yüksəlmişdi. İxtisaslaşma daha da dərinləşir, texniki bitkilərin əkinləri genişlənirdi. Xüsusilə pambıq əkinlərinin artması Şimali Azərbaycanda suvarma sisteminin yenidən qurulmasını tələb edirdi. Çar hökuməti torpaqların suvarılması işini qaydaya salmaq üçün **1890-cı ildə *Qafqaz Su Müfəttişliyini*** yaratdı.

*Şimali Azərbaycanda suvarma sisteminin yararsız halda olmasının səbəblərini izah edin.*



*XIX əsrin ikinci yarısında Azərbaycan kəndlisi*

Bu dövrdə kənd təsərrüfatında yeni təkmil alətlərin və maşınların tətbiqinə başlandı. Əhalini yeni texnika ilə tanış etmək üçün müxtəlif şəhərlərdə satış və sərgilər təşkil olunur, kənd təsərrüfatı maşınları sınaqdan keçirilirdi. 90-cı illərdə artıq çoxlu sayda təkmilləşdirilmiş kotanlardan istifadə olunurdu. Bakı quberniyasında xeyli sayda təkmilləşdirilmiş biçin maşını da var idi. Lakin kəndlilərin çoxu torpağı xış və kotanlarla əkib-becərməkdə davam edirdilər. Çünki yeni, təkmil alətlər və maşınlar çox baha idi.



*Təkmil kənd təsərrüfatı texnikası XIX əsrin sonlarında geniş tətbiq olunmağa başlandı. Əsasən, Amerika fermerlərinin tətbiq etdiyi bu texnikaya Avropa və Rusiyada, eləcə də Cənubi Qafqazda böyük maraq yaranmışdı. Yer şumlayan ağır kotanlar, taxılsəpən və biçən maşınlar, həmçinin digər kənd təsərrüfatı texnikası ilk vaxtlar qoşqu heyvanlarının köməyi ilə hərəkət edirdi. Lakin XIX əsrin sonlarından etibarən bu texnika buxarlı mühərrik vasitəsilə işləyirdi. Bu maşınlar çox baha qiymətə satılırdı. Ona görə də Şimali Azərbaycanda bu texnikanı yalnız rus sahibkarlar və varlı yerli burjua nümayəndələri alıb tətbiq edirdilər.*

M *Kənd təsərrüfatında texnikanın tətbiqini kapitalistcəsinə inkişaf adlandırmaq olarmı? Fikrinizi əsaslandırın.*

Şimali Azərbaycan kəndliləri vergiləri məhsul və pul şəklində ödəyirdilər. Sahibkar kəndində isə malcəhət və bəhrə vergiləri qalırdı. **1887-ci ildə** orduya çağırış yaşına çatmış gənclər üzərinə ***hərbi vergi*** qoyuldu. Çünki Rusiya hökuməti azərbaycanlılara etibar etmədiyindən gənclərimizi orduya çağırmırdı.



LAYİHƏ

*Rusiya imperiyası azərbaycanlılara etibar etməməkdə haqlı idimi? Sizcə, bunun səbəbi nə idi? Müzakirə aparın.*

Beləliklə, islahatdan sonrakı dövrdə Şimali Azərbaycan kəndində kapitalist münasibətləri inkişaf etməyə başladı.

***SUAL VƏ TAPŞIRIQLAR:***

1. *Hansı kənd təsərrüfatı sahələrində muzdlu əmək geniş tətbiq olunurdu?*
2. *Hansı bitkilər Rusiyaya və xaricə daşınırdı? Səbəblərini izah edin.*
3. *Kənd təsərrüfatında baş vermiş yeniliklərin kapitalist xarakteri daşıdığını təhlil edin.*
4. *XIX əsrin ikinci yarısında kənd təsərrüfatında inkişafın səbəb və nəticələrini müzakirə edin.*
5. *Çar Rusiyası azərbaycanlı gəncləri hansı səbəbdən orduya xidmətə cəlb etmirdi?*

## 7. Bakının dünyanın neft mərkəzinə çevrilməsi

Neft Vətənimizin strateji sərvətidir. Neft sənayesinin tarixi qədim olsa da, onun sürətli inkişafı XIX əsrin ikinci yarısında başlandı. Neft sənayesi necə inkişaf etdi? Vətənimiz hansı sahədə dünyada ilklərə imza atdı? Neft sənayesinin yaranması və inkişafının hansı nəticələri oldu? Bütün bunlar Bakı şəhərinin simasına necə təsir etdi?

Buruq üsulu, ağ neft zavodu, muzdlu əmək, H.Z.Tağıyev, Nobel, tanker, neft kəməri, inhisar

**Əsas yeniliklər.** XIX əsrin ortalarına kimi Şimali Azərbaycanda neft istehsalı hələ aşağı səviyyədə idi. Neftli torpaqlar iltizama verilirdi. Neft mədənlərində icbari kəndli əməyindən istifadə edilirdi.



*Bibiheybətdə neft quyusu*

**1848-ci ildə** dünyada ilk dəfə mexaniki qazma – ***buruq üsulu*** ilə Bibiheybətdə neft quyusu işə salındı. Lakin neft, başlıca olaraq, əl ilə qazılmış quyulardan hasil edilirdi. XIX əsrin ortalarında Rusiya imperiyasında neftə tələbatın getdikcə artması bu sahədə müəyyən irəliləyişlərə səbəb oldu.

XIX əsrin 50-ci illərində Abşeronda neft emal edən ilk sənaye müəssisəsi yarandı. Rus kapitalistləri Suraxanıda ilk ağ neft emalı zavodunu inşa etdilər. Azərbaycanlı sahibkar Cavad Məlikov da öz layihəsi əsasında Bakıda ağ neft zavodu yaratdı.

*Araşdırın: Soyuducu sistem vasitəsilə neftayırma prosesi necə baş verirdi?*

**1864-cü ildə** hökumətin qərarı ilə Balaxanı neft mədənlərində kəndlilərin icbari əməyi ləğv edildi. Bu addım ***neft istehsalında muzdlu əməyin tətbiqinə*** geniş yol açdı.

LAYİHƏ



Hacı Zeynalabdin Tağıyev

Neftçıxarmada iltizam sisteminin mövcudluğu yeni texniki vasitələrin tətbiqinə mane olur, irihəcmli kapital[1] qoyuluşuna imkan vermirdi. Digər tərəfdən, Mərkəzi Rusiyada sənaye müəssisələri çoxaldıqca onların duru yanacağa tələbinin artması da sistemin ləğvinə gətirib çıxardı. **17 fevral 1872-ci il** tarixli qanunla ***neft sənayesində iltizam sistemi ləğv edildi.*** Bundan sonra neft yataqları hərrac[2] yolu ilə xüsusi adamlara satılmağa başlanıldı. Çar hökuməti neftli torpaqların daha çox rus sahibkarlarının əlinə keçməsinə çalışırdı. İstefaya çıxan yüksək rütbəli hərbi və mülki rus məmurlarına neftli torpaq sahələri bəxşiş edilirdi. Lakin XIX əsrin 70 – 80-ci illərində hərraca çıxarılan neftli torpaqların bir hissəsi azərbaycanlı sahibkarların əlinə keçdi. Neft sənayesində milli kapitalı ***Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Şəmsi Əsədullayev və Murtuza Muxtarov*** təmsil edirdilər.



Nobel qardaşlarının "Zoroastr (Zərdüşt)" tankeri

**Xarici kapital axını.** Çar hökuməti üçün neft sənayesini yalnız rus və yerli kapitalistlər hesabına inkişaf etdirmək çətin idi. Ona görə də XIX əsrin 70-ci illərinin sonlarından neft sənayesinə xarici kapitalın axını üçün imkan yaradıldı.

| Azərbaycan neft sənayesinə xarici kapitalın daxil olması | |
|---|---|
| *1879-cu ildə* | • İsveç təbəələri tərəfindən "Nobel qardaşları şirkəti"nin əsası qoyuldu |
| *XIX əsrin 80-ci illərində* | • Fransız kapitalının nümayəndəsi ***Rotşild*** Bakı neft sənayesinə kapital qoydu. |
| *XIX əsrin 90-cı illərində* | • İngilis bankiri E.Qubbard Bakı neft sənayesinə böyük həcmdə kapital qoydu. |

Mərkəzi Rusiya XIX əsrin ortalarında neft məhsullarına, xüsusilə ağ neftə olan ehtiyacını ABŞ-ın hesabına ödəyirdi. Neft məhsullarının ABŞ-dan alınması isə baha başa gəlirdi. İltizam sistemi ləğv edildikdən sonra rus və azərbaycanlı sahibkarlar, həmçinin xarici şirkətlər tərəfindən neftin çıxarılması və emalına irihəcmli kapital qoyuldu. Bakıda və Abşeronda neft sənayesinin sürətli inkişafından ən çox faydalanan isə Rusiya oldu.

[1] **kapital** – Daha çox qazanc əldə etmək üçün xərclənən pul deməkdir.

[2] **hərrac** – Alıcıların müsabiqəsi əsasında malların, qiymətli kağızların müəyyən vaxtda və müəyyən edilmiş yerdə satışı deməkdir.



LAYİHƏ

**XIX ƏSRDƏ NEFT SƏNAYESİNDƏ ŞİMALİ AZƏRBAYCANDA ƏLDƏ OLUNMUŞ "İLK"LƏR**

*1848-ci ildə dünyada ilk dəfə Bakıda mexaniki qazma – buruq üsulu ilə neft quyusu istifadəyə verildi.*

*1863-cü ildə Cavad Məlikov Bakıda ağ neft zavodu tikdirdi və dünyada ilk dəfə neftayırma prosesində soyuducu sistemdən istifadə etdi.*

*1878-ci ildə Bakıdan neft və neft məhsullarının nəqli üçün dünyada ilk dəfə mayedaşıyan tankerdən istifadə olundu.*

*1878-ci ildə Balaxanı ilə Qaraşəhər arasında Avrasiyada ilk neft kəməri çəkildi.*

*1880-ci ildə dəmir yolu ilə neft daşınmasında ilk dəfə vaqon-sisternlər tətbiq edildi.*

Azərbaycan neftinin böyük hissəsi Mərkəzi Rusiyaya daşınırdı. Bu neftin hesabına Rusiya 80-ci illərdə ABŞ-dan neft və neft məhsullarının gətirilməsini tamamilə dayandırdı.

Neft hasilatına iri kapital qoyuluşu sənaye çevrilişinə səbəb oldu. 1870-ci illərdən neft quyularının buruq və zərbə üsulları ilə qazılması geniş miqyas aldı. Qazma işində əl əməyini buxar mühərrikləri əvəz etdi. Bu texniki yeniliklər nəticəsində neft çıxarılmasında fabrik-zavod mərhələsinə keçildi. **1878-ci ildə** Bakı neftinin və neft məhsullarının Rusiyaya böyük həcmdə daşınması üçün dünyada ilk dəfə ***tanker tipli gəmidən*** istifadə olunmağa başlandı. Nobel qardaşlarının sifarişi ilə İsveçdə inşa edilmiş neft tankeri Bakı ilə Həştərxan arasında müntəzəm hərəkətə başladı. Çıxarılan neft mədənlərdən zavodlara çəlləkçi və arabaçıların çox ağır zəhməti bahasına daşınırdı. **1878-ci ildə** mədənlərdən çıxarılan nefti Bakıya – şəhərdə cəmləşmiş neftayırma



*XIX əsrin sonunda Bakıdakı neft mədənlərində çalışan fəhlələr işəmuzd və vaxtamuzd formada əməkhaqqı alırdılar. Aylıq əməkhaqqı forması daha geniş yayılmışdı.*

*O dövrün əməkhaqqı sistemində fəhlənin milli mənsubiyyəti və peşəkarlığı da nəzərə alınırdı. Azixtisaslılar daha ağır fiziki əməyə cəlb edilərək nisbətən az maaş alırdılar. Ən az məvacib alanlar azixtisaslı fəhlələr, xüsusən Cənubi Azərbaycandan gələnlər idi.*

*Bu dövrdə Azərbaycanda əməkhaqqı Rusiya imperiyasının digər bölgələrinə nisbətdə daha aşağı idi.*

M *Cənubi Azərbaycandan gələn fəhlələr nəyə görə ən az məvacib alırdılar?*

LAYİHƏ



*Bakı. Qaraşəhər. XIX əsrin sonu*



*Bakı. Ağşəhərin planı. 2015-ci il*

*Qaraşəhərin XIX əsrin sonundakı görünüşünü və müasir vəziyyətini müqayisə edin.*

zavodlarına çatdırmaq üçün Rusiya imperiyası ərazisində ilk dəfə olaraq buxar nasosları ilə işləyən ***neft kəmərinin,*** **1880-ci ildə isə *dəmir yolunun*** çəkilməsi daşınma xərclərini kəskin şəkildə azaltdı.

**İnhisarlaşmanın başlanması.** XIX əsrin 60 – 90-cı illərində Şimali Azərbaycanda neft sənayesi sürətlə inkişaf edirdi. Neftin çıxarılması və emalı Abşeronda və Bakıda cəmləşmişdi. Bakı nəinki Rusiyanın, həmçinin bütün dünyanın ən böyük neft sənayesi mərkəzinə çevrilmişdi. Azərbaycanın neft sənayesi əsrin sonlarında ABŞ-ı ötüb-keçərək dünyada birinci yerə çıxmışdı. Bu dövrdə dünya üzrə hasil edilən neftin yarıdan çoxu, Rusiya imperiyasında çıxarılan neftin isə 90 faizindən çoxu Bakının payına düşürdü. Neft hasilatının artması çoxlu sayda yeni neft emalı müəssisələrinin açılmasına təkan verdi. Bakıda neftayırma zavodlarının cəmləşdiyi Qaraşəhər rayonu yarandı.

Bakıdakı iri neft şirkətləri öz iqtisadi maraqlarını birlikdə qorumaq və yüksək gəlir əldə etmək məqsədilə ***Neft Sənayeçiləri Qurultayı*** adlı xüsusi bir təşkilat yaratdılar. Bu təşkilata başçılıq edən Qurultay Şurasına ən iri neft şirkətlərinin nümayəndələri seçilirdi.

**1893-cü ildə** neft sənayeçilərinin Peterburq müşavirəsində hökumətin himayəsi ilə ***Bakı Ağ Neft Zavod Sahibləri İttifaqı*** adlı inhisar[1] birliyi yaradıldı. Bakıdakı ağ neft zavodları sahibkarlarının, demək olar ki, hamısı bu ittifaqa daxil idi və emal edilən neft məhsullarının əksər hissəsi həmin inhisar birliyinin payına düşürdü. İnhisar birliyində əsas rol oynayan "Nobel qardaşları şirkəti" ABŞ-ın neft maqnatı[2] Rokfellerin "Standart oyl" neft şirkəti ilə dünyada ağ neft satışı bazarlarının bölüşdürülməsi üzrə saziş bağladı.

XIX əsrin 70 – 90-cı illərində neft sənayesi ilə bağlı olan mexaniki istehsal, gəmi təmiri və gəmiçilik, kükürd turşusu istehsalı sahələri də sürətlə inkişaf edirdi. Bakıdakı mexaniki zavodlarda isə neft sənayesində istifadə olunan buxar qazanı, manca-

[1] **inhisar** – bir malı istehsal etmək və ya satmaq, yaxud ondan istifadə etmək hüququnun bir şəxsə, müəssisəyə, dövlətə məxsus olması

[2] **maqnat** – İri sənaye və maliyyə sahibi deməkdir.



LAYİHƏ

naq və qazma qurğuları hazırlanırdı. Kükürd turşusu zavodlarında Gədəbəy mis mədənlərindən çıxarılan kükürd kolçedanından neftayırma sənayesi üçün çox vacib olan kükürd turşusu istehsal olunurdu. Neft sənayesinin inkişafı nəticəsində əldə edilmiş böyük gəlirlərin bir hissəsi isə Şimali Azərbaycanın digər sənaye sahələrinə yatırılırdı.



***Dünya mətbuatında neft maqnatlarının təşkilatlanması haqqında geniş materiallar dərc edilirdi. H.Z.Tağıyev də nüfuzlu neft sənayeçiləri arasındadır.***

*Bakı Ağ Neft Zavod Sahibləri İttifaqı fəaliyyət göstərdiyi zaman Bakıda istehsal olunan neft məhsullarının 98%-ni verirdi. Daxili çəkişmələr üzündən bu inhisar birliyi 1897-ci ildə dağıldı. H.Z.Tağıyev 1897-ci ildə başqa sənaye sahələrinə kapital qoymaq üçün öz neft mədənlərini emal müəssisələri ilə birlikdə 5 milyon rubla ingilis kapitalistlərinə satdı. Bu müəssisələr əsasında formalaşan "Oleum" şirkətinin 1 milyon rublluq səhmini[1] isə öz əlində saxladı.*

## SUAL VƏ TAPŞIRIQLAR:

1. *Nəyə görə iltizam sistemi neft sənayesinin inkişafına mane olurdu? Fikirlərinizi əsaslandırın.*
2. *XIX əsrin 70 – 90-cı illərində neft sənayesinin sürətli inkişafının əsas səbəbi nə idi?*
3. *Mətndə neft sənayesi ilə bağlı sahələrin adlarını dəftərinizə yazıb izah edin.*
4. *Milli kapitalistlər haqqında məlumat toplayın.*
5. *"Neftimiz dünən və bu gün" mövzusunda təqdimat hazırlayın.*
6. *Mövzuda verilmiş mühüm hadisələrə aid xronoloji cədvəl tərtib edin.*

[1] **səhm** – Sahibinin hər hansı şirkətin kapitalının bir hissəsinə malik olduğunu təsdiq edən qiymətli kağız



LAYİHƏ

# 8. Sənayenin digər sahələri. Nəqliyyat, rabitə və ticarət

XIX əsrin 60 – 70-ci illərində keçirilən islahatlar Şimali Azərbaycanda kapitalizmin inkişafına geniş imkanlar açdı. Rusiya hökuməti Azərbaycanda formalaşan kapitalist münasibətlərini nəzərə almağa məcbur idi. Çünki sənaye inkişaf edir, kənd təsərrüfatında yeniliklər artırdı. Bəs nəqliyyat və rabitə sahəsində hansı yeniliklər baş verdi?

Gədəbəy misəritmə zavodu, Simens qardaşları, Şəki ipək fabriki, Bakı-Tiflis dəmir yolu, teleqraf, birja

Kapitalistcəsinə inkişaf, neft sənayesində olduğu kimi, sənayenin digər sahələrində də baş verdi. Şimali Azərbaycanda dağ-mədən sənayesi, yüngül və yeyinti sənaye sahələri, nəqliyyat, rabitə, bank sistemi inkişaf etdi. Bununla belə, XIX əsrin sonunda ölkəmiz Rusiya imperiyasının müstəmləkəçi iqtisadi siyasətinin təsiri altında idi.

**Dağ-mədən sənayesi.** XIX əsrin ortalarında kapitalist münasibətləri metallurgiya sahəsinə də daxil oldu. Yerli sahibkarlar Gədəbəydə kiçik bir misəritmə zavodu inşa etmişdilər. Bu zavodu alman kapitalını təmsil edən ***"Simens qardaşları"*** şirkəti satın aldı. Şirkət **1865-ci ildə** Gədəbəy misəritmə zavodunu Almaniyadan gətirilən texniki avadanlıqlarla təchiz edərək Rusiyanın ən böyük misəritmə zavoduna çevirdi. Həmin il Daşkəsəndəki kobalt mədənini də satın alan "Simens qardaşları" burada kobalt zavodu inşa etdi.

**1883-cü ildə** "Simens qardaşları"nın inşa etdiyi ***Qalakənd Misəritmə-missaflaşdırma zavodu*** daha böyük kapitalist müəssisəsi hesab edilirdi. Bu dövrdə Şimali Azərbaycanda əlvan metallurgiya sənayesinin inkişafı alman və rus kapitalına əsaslanırdı.

**Yüngül və yeyinti sənayesi sahələri.** Şimali Azərbaycanda yüngül və yeyinti sənayesi müəssisələri yerli xammal əsasında inkişaf edirdi. Yüngül sənayenin əsas sahələrindən biri ipək emalı idi. Şəki Cənubi Qafqazda ipək emalı sənayesinin mərkəzi kimi tanınırdı. Rusiyanın toxuculuq sənayesinin artan tələbini ödəmək üçün bu sahə sürətlə inkişaf etdirilirdi. **1861-ci ildə** Moskva kapitalistləri ***Şəkidə böyük ipək fabriki*** açdılar. Buxar mühərrikləri ilə təchiz edilmiş bu fabrik Avropada ən böyük ipəksarıma müəssisəsi idi. Fabrikdə daha çox qadınlar çalışırdılar. İpək emalı sənayesinin inkişafında azərbaycanlı sahibkarlar da mühüm rol oynayırdılar. Q.Babayevə məxsus fabrikin istehsal etdiyi əla növ ipək beynəlxalq sərgilərdə dəfələrlə qızıl medal almışdı.



*Şəki ipək fabriki*

Pambıqçılığın inkişafı pambıqtəmizləmə zavodlarının yaranmasına təkan verdi. İlk pambıqtəmizləmə zavodlarından biri Naxçıvanda fəaliyyətə başlamışdı. XIX əsrin

LAYİHƏ

sonunda pambıqtəmizləmə müəssisələrinin çoxu Bakı və Yelizavetpol quberniyalarında cəmləşmişdi.

Azərbaycanın iri sənayeçisi H.Z.Tağıyev neft sənayesindən əldə etdiyi kapitalın bir hissəsini balıqçılıq, gəmiçilik və toxuculuq sahələrinə yönəltdi. O, 1897-ci ildə "Lifli maddələrin emalı üzrə Qafqaz Səhmdar Cəmiyyəti"ni yaratdı. Rusiya hökuməti Azərbaycanda xammalı hazır məhsula çevirən müəssisənin açılmasına imkan vermək istəmir, ölkəmizin iqtisadiyyatının müstəmləkəçi mahiyyətini qoruyub saxlamağa çalışırdı. Milli sahibkar H.Z.Tağıyev isə iqtisadiyyatımızın gələcəyini düşünürdü. Hökumət nümayəndələri onun toxuculuq fabriki açmaq istəyinə mane olmağa çalışsalar da, H.Z.Tağıyev **1900-cü ildə Qafqazda *ilk toxuculuq fabrikinin*** açılmasına nail oldu. Bu fabrik Şimali Azərbaycanda hazır məhsul istehsal edən ilk böyük müəssisə idi. Fabriki işə salmaqla H.Z.Tağıyev Azərbaycan iqtisadiyyatının bir sahəsində Rusiyanın inhisarçı mövqeyini sarsıda bildi.



*H.Z.Tağıyevin toxuculuq fabriki*

XIX əsrin sonlarında Bakıda yeyinti sənayesinin unüyütmə və çəltiktəmizləmə sahələrində ilk kapitalist müəssisələri açılmışdı. Bakı və Yelizavetpol quberniyalarında tənbəki fabrikləri fəaliyyət göstərirdi. Cənubi Qafqazın bütün tütün fabrikləri, demək olar, Şimali Azərbaycanda yerləşirdi.

*Hacı Zeynalabdin Tağıyevin toxuculuq fabrikinin inşası Azərbaycanda təkcə qiymətli ixrac məhsulları və külli miqdarda gəlir gətirən yeni sənaye sahəsinin yaradılması deyil, həm də yüzlərlə işsizin işlə və pulsuz evlə təmin edilməsi demək idi. Fabrik Bakının Əhmədli kəndində işə salınmışdı. Onun nəzdində fəhlə və qulluqçular üçün pulsuz evlər, elektrik stansiyası, ambulatoriya tikilmiş, yaşlı fəhlələr üçün məktəb və kurslar açılmışdı. H.Z.Tağıyevin bu fabriki məşhur memar İ.Qoslavski tərəfindən əvvəlcədən vahid istehsal-yaşayış kompleksi kimi inşa olunmuşdu. Bu, Bakıda xüsusi planla tikilmiş ilk fəhlə qəsəbəsi idi.*

M *Hacı Zeynalabdin Tağıyevin sahibkarlıq fəaliyyəti haqqında əlavə məlumat toplayın.*

**Nəqliyyat və rabitə**. Şimali Azərbaycanda iqtisadiyyatın sürətli inkişafı yeni nəqliyyat vasitələrinin yaradılmasını tələb edirdi.



*1883-cü ildə vağzal binası tikildi və Bakıdan Tiflisə qatar işləməyə başladı. Marşrut üzrə sərnişin qatarı ilk vaxtlar üç-dörd gündə bir dəfə yola çıxırdı. Həmin qatarlarla həm də bağlamalar, məktublar, qəzet və jurnallar daşınırdı.*

M *Dəmir yolunun çəkilməsinin iqtisadiyyatın inkişafına təsiri barədə müzakirə aparın.*

LAYİHƏ

| XIX əsrin II yarısında Azərbaycanda dəmir yolları xətləri | | |
|---|---|---|
| ***Tarix*** | ***Hadisə*** | ***Nəticə*** |
| ***1883-cü ildə*** | • ***Bakı–Tiflis dəmir yolu*** inşa edildi. | Bakını Tiflis–Batum dəmir yolu ilə birlikdə Qara dəniz sahili ilə birləşdirdi. |
| ***1900-cü ildə*** | • ***Biləcəri–Dərbənd–Petrovsk (Mahaçqala) dəmir yolu*** xətti işə salındı. | Cənubi Qafqaz dəmir yolu Ümumrusiya dəmir yoluna birləşdirildi. |
| ***Ümumi nəticə*** | • Bu dəmir yolları daxili və xarici ticarətin genişlənməsinə güclü təkan verdi.<br>• Qatarların keçdiyi şəhərlər, dəmir yolu stansiyaları tezliklə kapitalist sənayesi və ticarət mərkəzlərinə çevrildi. | |

XIX əsrin son rübündə Azərbaycan neftinin mühüm bir hissəsi Xəzər dənizində tankerlər vasitəsilə daşınırdı. Dənizdə neft daşıyan gəmilərin əksəriyyəti buxarla işləyirdi. Rusiyanın dəniz donanmasının daşıdığı bütün yüklərin yarıya qədəri Xəzər dəniz donanmasının payına düşürdü.

Nəqliyyatla yanaşı, rabitə də inkişaf edirdi. XIX əsrin 60-cı illərində Tiflisi İrəvan, Naxçıvan, Gəncə və Bakı ilə birləşdirən teleqraf xətləri çəkildi. Daha sonra Xəzər dənizinin dibi ilə Bakı–Krasnovodsk teleqraf xəttinin çəkilişi başa çatdırıldı. 1886-cı ildə Bakı şəhərində ilk mərkəzləşdirilmiş telefon stansiyası işə salındı.

**Ticarət və şəhərlər.** XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda daxili ticarətin təşkilində yeni formalar yaranmışdı. Bu formalardan biri ***yarmarka*** idi. Bakıda ilk yarmarka 1887-ci ildə təşkil edilmişdi. Kapitalist ticarətinin təşkilinin daha ali forması isə ***birja***[1] hesab edilirdi. Cənubi Qafqazda ilk birja XIX əsrin sonunda Bakıda fəaliyyətə başladı. Ticarət kapitalının təmərküzləşməsi ilə bu sahədə ilk inhisarlar məhz Bakıda yarandı.

1897-ci ilin məlumatına görə, Şimali Azərbaycanda əhalisinin sayına görə ən böyük şəhər Bakı idi. Bir neçə onillik ərzində Bakı şəhərində əhalinin sayı on dəfəyə yaxın artmışdı. Gəncə isə əhalisinin sayına görə ikinci böyük şəhərdi.

## *SUAL VƏ TAPŞIRIQLAR:*

1. *H.Z.Tağıyev hansı yolla müstəmləkəçi iqtisadi siyasətə zərbə vurdu?*
2. *Şəhər həyatında hansı əsas yeniliklər baş verdi?*
3. *XIX əsrdə rabitənin inkişafının əhəmiyyətini izah edin.*
4. *Mətnə əsasən xronoloji cədvəl qurun.*

[1] **birja** – Əmtəələrin, xammalın, qiymətli kağızların alışı və satışı ilə məşğul olan, vaxtaşırı fəaliyyət göstərən ticarət və topdansatış bazarıdır.

LAYİHƏ

# 9. Millətin formalaşması

VII-IX əsrlərdə Azərbaycan xalqının formalaşması prosesi qəti başa çatdı. Azərbaycan xalqı tarixi sərhədlərimiz daxilində: şimalda Böyük Qafqaz dağlarından cənubda Qızılüzən çayına, şərqdə Xəzər dənizindən qərbdə Göyçə gölü də daxil olmaqla, Anadolunun şərqinə qədər ərazilərdə əsas etnik qüvvəyə çevrildi. Azərbaycan millətinin təşəkkülü prosesi də XIX əsrin ikinci yarısında bu tarixi torpaqlarımızda baş verdi.

İqtisadi həyat birliyi, milli burjuaziya, milli oyanış, Azərbaycan milləti, "Əkinçi" qəzeti, Həsən bəy Zərdabi

**Millətin formalaşması xüsusiyyətləri.** XIX əsrin ikinci yarısında Şimali Azərbaycanın sosial-iqtisadi həyatında kapitalist münasibətləri mühüm yer tuturdu. Bu dəyişikliklər Azərbaycan millətinin formalaşmasına şərait yaratdı.

Millət – ümumi tarixi ənənələri daşıyan, dil, ərazi, mədəniyyət və iqtisadi həyat birliyinə malik olan insanların birliyidir.

Kapitalizmin inkişafı Şimali Azərbaycanın ayrı-ayrı bölgələri arasında iqtisadi əlaqələri genişləndirdi. ***İqtisadi həyat birliyi*** üçün zəruri şərtlər yarandı. Bu da öz növbəsində qapalı həyat tərzinin aradan qalxmasına, Azərbaycan xalqının millətə çevrilməsinə təkan verdi. Azərbaycan millətinin formalaşması prosesi bəzi özünəməxsus xüsusiyyətlərə malik idi. Birincisi, Vətənimiz iki yerə bölünmüş və ərazi bütövlüyü pozulmuşdu. İkincisi, Şimali Azərbaycan Rusiyanın müstəmləkəsi idi. Üçüncüsü, Şimali Azərbaycan torpaqları da parçalanaraq müxtəlif quberniyalara daxil edilmişdi.

Şimali Azərbaycanda millətin təşəkkülü prosesi XIX əsrin ikinci yarısında baş verdi. Yeni ictimai qruplar – **burjuaziya** və **fəhlə təbəqələri** yarandı. Azərbaycan milli burjuaziyasını **H.Z.Tağıyev, Ş.Əsədullayev, M.Nağıyev, M.Muxtarov** və başqaları təmsil edirdilər.


Musa Nağıyev

*Musa Nağıyev Müsəlman Xeyriyyə Cəmiyyəti üçün Bakının mərkəzində əzəmətli "İsmailiyyə" binasını ucaltmışdı. Bu bina onun gənc yaşında vəfat etmiş oğlu İsmayılın xatirəsinə tikilmişdi. Burada ictimai tədbirlər, xeyriyyəçilik aksiyaları keçirilirdi. O, Bakıda 100-ə qədər əzəmətli bina, o cümlədən böyük xəstəxana (indiki Kliniki Tibbi Mərkəz) inşa etdirmiş, şəhərə çəkilən su kəməri üçün xeyli pul vermişdi.*


Şəmsi Əsədullayev

*Şəmsi Əsədullayev Bakı real məktəbi (indiki Dövlət İqtisad Universiteti) binasının tikintisini maliyyələşdirmişdi. O, Tiflis Müəllimlər İnstitutunu himayəyə götürmüş və burada təhsil alan azərbaycanlı tələbələr üçün təqaüd təsis etmişdi. Ş.Əsədullayevin vəsaiti hesabına Moskvada, Sankt-Peterburqda, Bağçasarayda, Volqaboyu şəhərlərdə bir sıra möhtəşəm binalar tikilmişdi.*

M Milli burjuaziyanın xalqımızın təhsilində və mədəniyyətində rolunu müzakirə edin.

LAYİHƏ

*Ərazi bütövlüyünün pozulmasının Azərbaycan-türk millətinin formalaşması prosesinə təsirini təhlil edin. Azərbaycanın işğal olunmasının bu prosesə necə təsiri oldu?*

Fəhlə ictimai qrupunun əsas hissəsini azərbaycanlı fəhlələr təşkil edirdilər. Cənubi Azərbaycandan iş dalınca gəlmiş soydaşlarımız da bu ictimai qrupun tərkibinə daxil idi.

Rusiya Şimali Azərbaycanda milli və dini ayrı-seçkilik siyasəti yeridirdi. Torpaqlarımız parçalandığından “Azərbaycan” adlı inzibati-ərazi anlayışı hər hansı rəsmi sənəddə işlədilmirdi. Hətta ali müsəlman zümrəsinin nümayəndələri də siyasi cəhətdən hüquqsuz idilər. Onlar yüksək dövlət vəzifələrində çalışmırdılar. Azərbaycanlı gənclərə dövlət silah etibar etmir, onları orduya çağırmırdı. Dövlət idarələrində bütün işlər rus dilində aparılırdı. Köçürmə və ruslaşdırma siyasəti yeridilirdi. Tarixən Azərbaycanda bir nəfər də rus yaşamamışdı. XIX əsrin sonunda Şimali Azərbaycan əhalisinin 10%-ni, Bakı şəhəri əhalisinin isə üçdə birini ruslar təşkil edirdi. Xanlıqlar dövründə Bakı şəhərində cəmi 3-5 gəlmə erməni ailəsi yaşayırdı. XIX əsrin sonunda Bakıda ermənilər say etibarilə azərbaycanlı və ruslardan sonra üçüncü yerdə idilər. Dinimiz və din xadimlərimiz çox sərt polis nəzarəti altına alınmışdı. Şirvanşahlar sarayı və Şəki Xan sarayı kimi nadir tarixi abidələrimiz at tövləsinə, anbara çevrilmişdi.

*Yadınıza salın: Xalqın formalaşmasında vahid dinin rolu nədən ibarətdir? Azərbaycan xalqının formalaşması neçənci əsrdə, hansı proseslə başa çatmışdır?*

*Rəsmi sənədlərdən birində yazılmışdı: “Burada təhsili elə qurmaq lazımdır ki, rusca bilik alan tatar (azərbaycanlı) tam bir heçliyə çevrilsin. Rus dilində yazanda çoxlu səhvlər buraxsın, nəinki qubernatordan, hətta sıravi dəftərxana məmurundan da qorxsun”.*

M *Mənbəyə əsasən müstəmləkəçi təhsil siyasətinin mahiyyətini izah edin.*

Bütün təbii sərvətlərimiz yadellilərin əlində idi. Azərbaycanın milli burjuaziyası nəinki ruslar, hətta xarici sahibkarlarla müqayisədə aşağı səviyyəli hesab olunurdu. Hacı Zeynalabdin Tağıyev, Şəmsi Əsədullayev kimi böyük sənayeçilərimiz bu cür milli ayrı-seçkilik siyasətinə qarşı çıxırdılar. Rusiyanın Azərbaycanda tətbiq etdiyi təhsil sistemi xalqımızı ruslaşdırmağa və çarizmə sədaqət ruhunda tərbiyə etməyə yönəlmişdi. Həmin dövrdə çar hakimiyyəti nümayəndələri azərbaycanlı gənclərə hətta rus dilində də keyfiyyətli təhsil vermək niyyətində deyildilər. Çar hökuməti Azərbaycan türklərini rəsmi sənədlərdə “müsəlman” və “tatar” adları ilə göstərirdi. Bu yolla hökumət bizə öz tarixi adımızı unutdurmağa çalışırdı. Xalqımızın öz milli kimliyini dərk etməsinə hər vasitə ilə mane olurdular. Belə siyasətin nəticəsi idi ki, bir azərbaycanlıdan “millətin nədir?” soruşanda çox zaman “müsəlmanam” cavabını verirdi.

*“Azərbaycan” adının yaranması və mənası haqqında məlumat toplayıb müzakirə edin.*



LAYİHƏ

**Milli şüurun oyanması**. XIX əsrin son rübündə Şimali Azərbaycanda rus müstəmləkə əsarətinə qarşı milli azadlıq hərəkatı başlandı.

Milli hərəkatın birinci mərhələsi **(1875 – 1904-cü illər)** ***milli oyanış dövrü*** hesab olunur. Bu dövrdə Azərbaycanın vətənpərvər maarifçi ziyalılarının fəaliyyətində üç mühüm istiqamət aparıcı yer tuturdu: xalqı maarifləndirmək, milli şüuru oyatmaq, milli dili inkişaf etdirmək.


*Əli bəy Hüseynzadə*

**Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Əlimərdan bəy Topçubaşov, Məhəmmədağa Şahtaxtinski** kimi vətənpərvər ziyalılarımız bu dövrdə Azərbaycan milləti ideyasını geniş şəkildə təbliğ etməyə başladılar. M.F.Axundzadə ilk dəfə "millət" anlayışını irəli sürdü, mətbuatda və ictimai fikirdə "Azərbaycan milləti" ifadəsi işlənməyə başlandı.


*Məhəmmədağa Şahtaxtinski*

*1891-ci il noyabrın 16-da "Kəşkül" qəzetində "Azərbaycanlı" imzası ilə çap olunmuş bir məqalədə "Siz nə millətdənsiniz?" sualı qoyulmuş və cavabında "Sizin millət Azərbaycandır" cavabı verilmiş, bununla da "Azərbaycan milləti" ifadəsi gündəmə gətirilmişdi. Bunun ardınca görkəmli publisist Məhəmmədağa Şahtaxtinski "Kaspi" qəzetində çıxmış bir məqaləsində Cənubi Qafqazın müsəlman-türk əhalisini azərbaycanlı, onun dilini isə Azərbaycan dili adlandırmaqla məsələyə aydınlıq gətirmişdi.*

*Millətin özünüdərk prosesində savadlı insanların, ziyalıların rolunu izah edin.*

M.F.Axundzadə və H.Zərdabi fəaliyyətlərində millətimizin ilk öncə türk, sonra isə müsəlman kimliyini dərk etməsinə çalışırdılar. M.F.Axundzadə Qərbi Avropanın ən mütərəqqi ideyalarını Vətənimizdə yaymağa çalışırdı. O, dilimizin və milli ədəbiyyatımızın inkişafı yolunda böyük xidmətlər göstərdi.

H.Zərdabi Rusiya imperiyasında türk dilində ilk qəzet olan "Əkinçi"ni nəşr etmiş və ilk səhnə əsərini tamaşaya qoymuşdu. H.Zərdabi deyirdi: "Avropa mədəniyyətini və maarif sistemini qəbul etməsək, qonşularımızın əsiri olaraq qalacaq və məhv olub gedəcəyik".

*Sizcə, H.Zərdabi Avropa mədəniyyəti deyəndə nəyi nəzərdə tuturdu?*

O, Avropa mədəniyyətinin və təhsil sisteminin ana dilində mənimsənilməsini irəli sürdü. Əsarət rejiminə qarşı çıxan bu böyük mütəfəkkir XIX əsr Azərbaycan ictimai fikrinə hürriyyət (azadlıq) ideyasını gətirdi. H.Zərdabi ağır müstəmləkə şəraitində bir xalq olaraq öz milli varlığımızı necə qoruyub saxlaya biləcəyimizin yollarını da göstərdi. Həsən bəy yazırdı ki, "milli tərəqqi etmək istəyən hər bir xalq gərək iki şeyi



LAYİHƏ

bərk saxlasın. Bunların biri millətin dirəkləri olan dil, o biri isə dindir. Elə ki bunlardan biri əldən getdi, xalqın "beli sınmış" olur. İkincisi də gedəndə xalq qeyri xalqlara qarışıb sürətlə yox olur".

Millətimiz ağır müstəmləkə şəraitində belə öz türk kimliyini, dilini və dinini bütün vasitələrlə qoruyub saxlamağa çalışırdı.

*XIX əsr Azərbaycan ictimai fikrinə hürriyyət (azadlıq) ideyasının təsirini izah edin.*



**Cəlil Məmmədquluzadə**

*Azərbaycançılıq ideyasının inkişafında mühüm rol oynayan yaradıcı ziyalılarımızdan biri Cəlil Məmmədquluzadə olmuşdur. Onun nəşr etdiyi "Molla Nəsrəddin" jurnalı azərbaycançılıq ideyalarının alovlu təbliğatçısı idi.*

*Cəlil Məmmədquluzadə "Azərbaycan" adlı məqaləsində "Dilim hansı dildi?", "Haradır Azərbaycan?" suallarına cavab verməklə Azərbaycan ifadəsini məkan anlayışından milli ideya səviyyəsinə qaldırmışdı.*

M *Azərbaycançılıq ideyasının milli azadlıq hərəkatında rolunu müzakirə edin.*



**Həsən bəy Zərdabi ailəsi ilə**

*Azərbaycanda ilk qadın xeyriyyə cəmiyyəti 1908-ci ildə yaranmışdır. Bu qadın təşkilatının yaradılmasının təşəbbüsçüsü Azərbaycanın görkəmli ictimai xadimi Həsən bəy Zərdabinin xanımı Hənifə Məlikova olmuşdur. Zadəgan ailəsində böyüyən, ömründə heç bir çətinliklə qarşılaşmayan Hənifə xanım xalqın maarifləndirilməsi yolunda olmazın əziyyətlərə qatlaşmış, öz mənzilində uşaqlara dərs demiş, rus nağıllarından tərcümələr edərək onlara danışmışdır. O, ev-ev gəzib qadınlara tikmək, yazıb-oxumaq öyrətmiş, onların hüquqları uğrunda mübarizə aparmışdır. Uşaqları peyvənd etdirmiş, Zərdab bölgəsində onlarla insanı ömürlük kor olmaqdan xilas etmişdir.*

M *Mənbə əsasında Şimali Azərbaycan əhalisinin üzləşdiyi problemləri və Hənifə xanım Məlikovanın xeyriyyəçi fəaliyyətini müzakirə edin.*

LAYİHƏ

## SUAL VƏ TAPŞIRIQLAR:

1. *Azərbaycan millətinin XIX əsrin ikinci yarısında formalaşması hansı səbəblərə bağlı idi?*
2. *Millətin təşəkkül tapması üçün hansı amillər vacibdir?*
3. *Çar Rusiyasının Anti-Azərbaycan siyasətini təhlil edin.*
4. *Milli şüur nədir? Onun formalaşmasında milli burjuaziyanın və ziyalıların rolunu izah edin.*
5. *“Millətimiz” mövzusunda referat hazırlayın.*

# 10. Xalq hərəkatı

Kəndli islahatı Şimali Azərbaycanda torpaq, kəndli problemlərini tam şəkildə həll etmədi. Hətta bəzi regionlarda islahat keçirilməsi ləngiyir, əhali arasında narazılıq yaradırdı. Car-Balakən camaatlarına qarşı aparılan zorakı siyasət əhalinin silahlı üsyana qalxmasına səbəb oldu. Müstəmləkə siyasətinə dözməyən xalqın etirazları hansı formalarda özünü büruzə verirdi?

Zaqatala üsyanı, xristianlaşdırma siyasəti, qaçaqçılıq, tətil hərəkatı




*Zaqatala-Balakən bölgəsində Azərbaycan türkləri, avarlar, ingiloylar, saxurlar, gürcülər, həmçinin digər xalqların və etnosların nümayəndələri qədim dövrlərdən bu günə qədər birgə yaşayırlar. Tarixin acı səhifələri zaman-zaman onları Vətən uğrunda birgə mübarizəyə qalxmağa sövq etmişdir. Car-Balakəndə və Zaqatalada baş verən üsyanların hər birində də onlar vahid bir qüvvə kimi mübarizə aparmışlar.*

*Mənbədə adıçəkilən xalqlar və etnoslar haqqında məlumat toplayın.*



LAYİHƏ

**Xristianlığın zorla yayılması.** Rusiya imperiyasının Şimali Azərbaycanda yeritdiyi müstəmləkəçi siyasət çoxşaxəli idi. Mərkəzi hökumət iqtisadi, siyasi ayrı-seçkiliklə yanaşı, xalqımızın dini ayinlərini icra etməsinə mane olur, xristianlaşdırma siyasəti yeridirdi. Hakimiyyət nümayəndələri xristian dininin pravoslav məzhəbini müstəmləkələrdə yayaraq imperiyanın maraqlarına xidmət edirdilər.



*Alban hökmdarı III Mömin Vaçaqanın göstərişi ilə inşa olunan Qum məbədinin qalıqları (Qax rayonu)*

1851-ci ildə Qafqaz canişini knyaz M.Vorontsov xristianlığı qəbul edən ingiloyların[1] dövlət xəzinəsinə ödədikləri bəzi vergilərdən azad edilməsi barədə xüsusi əmr verdi. Müstəmləkə zülmü nəticəsində son dərəcə ağır güzəran keçirən əhalinin iqtisadi ehtiyaclarına hesablanmış bu siyasət, dərhal olmasa da, tədricən öz “bəhrəsini” verməyə başladı. 50-ci illərin sonunda bütün Car-Balakən dairəsi üzrə mindən çox ingiloyu pravoslavlaşdırmaq mümkün oldu. Çarizmin müstəmləkəçilik siyasəti nəticəsində pravoslavlaşdırılan ilk ingiloy kəndləri vaxtilə İlisu sultanlığının ərazisinə daxil olan Qaxda yerləşirdi.



*Kürmük məbədi*

*Bəhs olunan dövrdə indiki Qax rayonu ərazisində Kürmük və Meşəbaş məbədləri tikildi.*

*İngiloyları pravoslavlığı qəbul etməyə şirnikləndirmək üçün Rusiya hakimiyyəti bütün metod və vasitələri işə salmışdı. Məsələn, Qafqaz canişini M.Vorontsov arvadı ilə birlikdə “vaxt tapıb” ingiloyların xaç suyuna salınma mərasimlərində iştirak etmək üçün Qaxa gəlmişdi. Onun özü şəxsən burada ingiloyları xaç suyuna salmış, pravoslavlığı qəbul edənlərə qızıl bağışlamış, imtiyazlar və güzəştlər vəd etmişdi.*

M *Azərbaycanda xristianlığın yayılması və müasir dövrdə alban xristian kilsəsinin fəaliyyəti haqqında məlumat toplayın.*

Lakin yerli əhalinin böyük əksəriyyəti verilən imtiyazlara, həyata keçirilən şirnikləndirmələrə aldanmır, özlərinin islam dinini qoruyub saxlayırdılar. Əhali öz əqidəsini – dini inamını saxlamaq üçün əcnəbi missionerlərə[2] ciddi müqavimət göstərirdi. Ona görə də çar müstəmləkəçiləri Car-Balakən ərazisində yaşayan ingiloyları zor gücünə xristianlaşdırmağa başladılar. Xristianlaşdırma xüsusi qəddarlıqla həyata keçirilirdi. Məsələn, müsəlman kəndlərindəki məscidlər əhalinin gözləri qarşısında

---

[1] **ingiloylar** – qədim albanların islamı qəbul etmiş nəsilləri

[2] **missioner** – Xristian olmayan əhali arasında xristianlığı yaymaq üçün kilsə tərəfindən göndərilən şəxsə deyilir.



LAYİHƏ

dağıdılırdı. Xristianlığı qəbul etməkdən boyun qaçıran əhalinin bir hissəsi doğma yurd-yuvalarını tərk etdi, bir hissəsi isə silahlı mübarizəyə başladı.



*Hacı Murtuz*

**Zaqatala üsyanı.** 1863-cü ildə Gürcüstanda kəndli islahatının keçirilməsinə hazırlıq xəbəri Zaqatala dairəsi[1] əhalisinin kəskin narazılığına səbəb oldu. Bu dairə Şimali Azərbaycanın sosial-iqtisadi və siyasi cəhətdən çox ziddiyyətli bölgəsi idi. Çarizmin ağır müstəmləkə siyasəti, məmurların özbaşınalığı və rüşvətxorluğu, zorakı xristianlaşdırma siyasəti bölgədə əhalinin vəziyyətini daha da ağırlaşdırdı. Həmin dövrdə Balakən kəndində kilsə tikilməsi əhalinin narazılığını artırdı.

Zaqatalaya gəlmiş hökumət komissiyasının təklif etdiyi islahat nəticəsində ingiloylar və muğallar[2] qazandıqları gəlirin on qatı həcmində birdəfəlik vəsait ödəyərək keşkəl[3] sahiblərinin asılılığından azad ediləcəkdilər. Katex, Car, Tala və digər kəndlərin torpaq sahibləri isə əsas gəlir mənbəyindən məhrum olacaqlarına görə islahatın keçirilməsini istəmirdilər.

Üsyan **1863-cü ildə** rus ordusunun keçmiş zabiti **Hacı Murtuzun** rəhbərliyi ilə Zaqatalada başladı. Hacı Murtuzun ən yaxın köməkçiləri balakənli Bürcəli və carlı Molla Zəngi idi. Üsyan geniş sosial təbəqələri əhatə edir, ümummilli xarakter daşıyırdı. Onun hərəkətverici qüvvəsini sadə xalq, keşkəl sahibləri və müsəlman ruhaniləri təşkil edirdi. Əhalinin dini hissinə təsir etmək və daha çox tərəfdar toplamaq məqsədilə Hacı Murtuz imam elan olundu. Üsyançılar Zaqatala qalası üzərinə hücum etdilər. Lakin onlar top atəşi altında geri çəkilməyə məcbur oldular. Rusiya hakim dairələri üsyanı yatırdılar. Üsyanın yatırılmasında İlisu məntəqə rəisinin süvari dəstəsi yaxından köməklik göstərdi. Dağıstandan buraya 3 minlik atlı rus qoşunu da yeridildi.

Üsyanın ən fəal üzvləri edam edildi. Hacı Murtuz da daxil olmaqla, mindən çox üsyançı Sibirə sürgün olundu. Vurulan ziyan üsyançıların hesabına ödənildi.

Üsyanın məğlubiyyətə uğramasının səbəbləri, demək olar ki, XIX əsrin 30-cu illərində baş vermiş üsyanların məğlubolma səbəbləri ilə eyni idi.

Lakin çar Rusiyasının hakim dairələri başa düşdülər ki, üsyanın yatırılmasından sonra zorakılıqlar davam edərsə, yerli əhali arasında yeni narazılıq dalğası başlaya bilər. Bunu nəzərə alaraq, zorla pravoslavlaşdırılmış ingiloylara yenidən islam dininə qayıtmağa icazə verildi. Nəticədə, ingiloylar kütləvi surətdə pravoslavlıqdan imtina etdilər.

---

[1] **Zaqatala dairəsi** – 1860-cı ildə Car-Balakən dairəsinin mərkəzi Zaqatala qalasına köçürüldüyü üçün dairə belə adlanırdı.

[2] **muğallar** – Zaqatala dairəsinin ən qədim türksoylu sakinləri idilər. Əsasən, Alazan çayı boyundakı düzənliklərdə yaşayır, başlıca olaraq əkinçiliklə məşğul olurdular.

[3] **keşkəl** – Burada iri torpaq sahibi mənasında işlənib.



LAYİHƏ

**Kəndli hərəkatı.** XIX əsrin 70 – 90-cı illərində Azərbaycan kəndində kapitalist münasibətləri yaranır, ictimai təbəqələşmə baş verirdi. Ölkəmizə rus kəndlilərinin köçürülməsi davam etdirilirdi. Nəticədə, yerli kəndlilərin bir hissəsi torpaqsızlaşır və aztorpaqlı kəndlilərin sayı artırdı. Ağır vergilər kəndlilərin vəziyyətini daha da dözülməz edirdi. XIX əsrin son rübündə çarizmin milli müstəmləkə zülmünə qarşı mübarizə gücləndi. Kəndlilər vergi verməkdən və mükəlləfiyyətlər daşımaqdan boyun qaçırır, sahibkarlara məxsus torpaqları ələ keçirir, hökumət məmurlarının, bəylərin evlərinə hücum edir, onları yandırır, hətta sahibkarları öldürürdülər. Bu dövrdə Qazax, Cavanşir, Yelizavetpol, Şuşa və Quba qəzalarında kəndlilərin fəal çıxışları oldu.


*Qaçaq Kərəm*

XIX əsrin son rübündə Azərbaycanda kəndli hərəkatının ən geniş yayılmış forması qaçaq hərəkatı idi. Azərbaycanda milli müstəmləkə zülmünə qarşı mübarizədə qaçaq hərəkatının böyük əhəmiyyəti olmuşdu. Zəngəzur qəzasında **Qaçaq Nəbi**, Qazax qəzasında **Qaçaq Kərəm** kimi xalq intiqamçıları mübarizə aparırdılar.


*Qaçaq Nəbi*

*Qaçaq Nəbi ilə açıqdan-açığa mübarizədə aciz qalmış çar hökumətinin məmurları onun qüvvəsini zəiflətmək üsulundan istifadə etdilər. Bu üsul Nəbi ilə silahdaşlarına sui-qəsd təşkil etmək idi. Peterburqdan Tiflisə qəti təlimat üzrə gələn Arzumanyan başda olmaqla, bütün qüvvələr birləşdi. Xəyanət öz işini gördü, əvvəlcə Nəbinin ən yaxın, sadiq silahdaşları bir-bir aradan götürüldü. 15 ildən çox mübarizə aparan xalq qəhrəmanı Qaçaq Nəbi çar hökumətinin muzdlu qatili tərəfindən 1896-cı ildə qətlə yetirildi.*

M *Qaçaq Nəbinin xalq arasında sevilməsinin səbəblərini müzakirə edin.*

**Fəhlə tətilləri.** Bakıda neft sənayesi inkişafa başlayanda burada çalışan fəhlələrin əksəriyyətini Abşeron kəndliləri təşkil edirdi. Lakin sonrakı dövrlərdə neft sənayesinin inkişafı ilə əlaqədar Şimali Azərbaycan qəzalarından, Rusiya imperiyasının daxili quberniyalarından, Qafqazın müxtəlif bölgələrindən, Cənubi Azərbaycandan iş dalınca gələnlərin hesabına onların sayı artırdı. Fəhlələr çox az əməkhaqqı ilə hər gün 12-14 saat işləməyə məcbur idilər. Yaşayış üçün zəruri olan malların bahalığı, ev kirayəsinin yüksək olması fəhlələrin vəziyyətini daha da dözülməz edirdi.

Texniki təhlükəsizlik aşağı olduğu üçün müəssisələrdə tez-tez qəzalar baş verirdi. Qadın və uşaq əməyindən geniş istifadə olunurdu. XIX əsrin 70-ci illərində Gədəbəy, Bakı və Şəkidə ilk tətillər[1] baş verdi. Fəhlələr maaşlarının artırılması, ailəli fəhlələrə mənzil verilməsi və digər bu kimi iqtisadi tələblər irəli sürürdülər. XIX əsrin sonunda Bakıda sənaye fəhlələri özlərini mütəşəkkil qüvvə kimi göstərməyə başladılar.

[1] **tətil** – fəhlələrin işi kütləvi və mütəşəkkil qaydada dayandırıb tələblər irəli sürmələri



LAYİHƏ

## *SUAL VƏ TAPŞIRIQLAR:*

1. *Zaqatala üsyanının əsas səbəbləri nə idi?*
2. *XIX əsrin 30-cu illərində Şimali Azərbaycanda baş vermiş üsyanları Zaqatala üsyanı ilə müqayisə edin.*

| ***XIX əsrin 30-cu illərində Şimali Azərbaycanda baş vermiş üsyanlar*** | | ***1863-cü il Zaqatala üsyanı*** |
|---|---|---|
| fərqli cəhətlər | oxşar cəhətlər | fərqli cəhətlər |
| | | |

3. *Kəndlilərin torpaqsızlaşmasının hansı səbəbləri var idi?*
4. *Şimali Azərbaycanda qaçaq hərəkatına aid təqdimat hazırlayın.*
5. *XIX əsrin sonunda fəhlələrin mübarizə forması hansı xüsusiyyətə malik idi?*

# 11. Cənubi Azərbaycan Qacarlar dövlətinin tərkibində

Türkmənçay müqaviləsinin imzalanmasından sonra Azərbaycanın Araz çayından cənubdakı torpaqları Qacarlar dövlətinin tabeliyində qaldı. Bu dövrdə Cənubi Azərbaycan dövlətin ən mühüm hissəsi hesab edilir və bilavasitə vəliəhd tərəfindən idarə olunurdu. Cənubi Azərbaycanda Qacarların hakimiyyəti dövründə sosial-iqtisadi sahədə hansı dəyişikliklər baş verdi? Qacarlar dövlətində azərbaycanlı əhalinin həyat şəraitinin ağırlaşmasının əsas səbəbləri nə idi?

Qacarlar sülaləsi, komprador burjuaziya, kəsbkarlıq, Babilər hərəkatı, "Tənbəki üsyanı", Zeynəb paşa



***Təbriz. Rəssam Ejen Flanden, 1840-cı il***

*Təbriz Qacarlar dövlətində ikinci paytaxt rolu oynayırdı, xarici diplomatik nümayəndələrin iqamətgahı burada yerləşirdi. Əyalətin idarə olunması rəsmən vəliəhdin ixtiyarında idi. Adətən, şahzadələr içərisindən təyin olunan valinin sərəncamında olan böyük idarəçilik aparatına Təbriz şəhəri bəylərbəyi, əyalətdə yerləşən nizami qoşun hissələrinin başçısı – əmir-nizam, əyalətin maliyyə işlərinin baş nəzarətçisi və digər dövlət məmurları daxil idilər. Şahzadə və onun ətrafındakı məmurlar öz vəzifələrindən sui-istifadə edərək xalqı soyurdular.*

M *Cənubi Azərbaycandakı məmur özbaşınalığını Şimali Azərbaycandakı komendant idarə üsulu ilə müqayisə edin.*

**Sosial-iqtisadi vəziyyət.** XIX əsrin əvvəlində Cənubi Azərbaycan Qacarlar dövlətinin dörd əyalətindən birinə çevrildi. Buradakı xanlıqlar tədricən ləğv edildi və yerində vilayətlər yaradıldı.

LAYİHƏ

Qacarlar sülaləsinin nümayəndələri daxili və xarici siyasətlərində Cənubi Azərbaycana xüsusi yer verirdilər. Fətəli şahın zamanında Cənubi Azərbaycan “vəliəhdneşin” (vəliəhd əyləşən yer) hesab edilmiş, Təbriz isə “darüssəltənə” – vəliəhdin rəsmi iqamətgahı, dövlətin ikinci paytaxtı olmuşdu.

XIX əsrin 30 – 50-ci illərində Cənubi Azərbaycanda feodal münasibətləri hökm sürməkdə idi. Ölkə əhalisinin əsas hissəsini kəndlilər təşkil edirdi. Kənd əhalisi yardarlardan və xırdamalik sahiblərindən ibarət idi. Yardar – torpağı olmadığı üçün onu icarəyə götürən, xırdamalik isə kiçik torpaq mülkiyyəti olan kəndlilərə deyilirdi.

| XIX əsrdə Cənubi Azərbaycanda torpaq mülkiyyət formaları | |
|---|---|
| ***Xalisə*** | • Dövlət torpaqları idi;<br>• Torpaqların əsas hissəsini təşkil edirdi;<br>• 1886-cı ildə şah xalisə torpaqlarının satılması haqqında fərman vermişdi. |
| ***Tiyul*** | • Hərbi xidmət müqabilində ayrı-ayrı şəxslərə verilirdi. |
| ***Mülk*** | • Feodallara məxsus irsi torpaqlar idi. |
| ***Vəqf*** | • Dini idarələrə məxsus torpaqlar idi. |
| ***İlati (elat)*** | • Dövlət qarşısında hərbi xidmətə görə yarımköçəri həyat sürən tayfalara verildi |

**XIX əsrdə Cənubi Azərbaycanda vergilər**

- “Baş pulu” – yarımköçəri həyat sürən maldarlardan heyvanlarının sayına görə alınırdı.
- Torpaq vergisi – torpaqdan istifadəyə görə alınırdı.
- “Qapı pulu” – otlaqlardan istifadəyə görə alınırdı.

Şəhərlərin sosial-iqtisadi həyatında sənətkarlıq və ticarət mühüm rol oynayırdı. Ölkəyə Avropadan hazır sənaye mallarının gətirilməsi toxuculuğa ağır zərbə vursa da, xalçaçılıq, keçəçilik kimi istehsal sahələri inkişaf etməkdə idi. İri şəhərlərdə manufaktura tipli müəssisələr yarandı. XIX əsrin birinci yarısında Təbrizdən kənara göndərilən sənətkarlıq məhsullarının yarıya qədəri Rusiyaya ixrac edilmişdi. Xarici malların ölkəyə axını komprador burjuaziyanın[1] inkişafı üçün şərait yaradırdı.

XIX əsrin ikinci yarısında Cənubi Azərbaycan iqtisadiyyatına xarici kapital, xüsusilə də rus və ingilis kapitalı nüfuz edirdi. Cənubi Azərbaycan tədricən Rusiya sənayesi üçün ucuz xammal mənbəyinə və satış bazarına çevrildi.

Cənubi Azərbaycanda kəndlilərin xaricə iş dalınca kəsbkarlığa getməsi kütləvi şəkil almışdı. Kəsbkarların əksəriyyəti Osmanlı imperiyasına, Cənubi Qafqaza (başlıca olaraq Şimali Azərbaycana), Volqaboyuna, Mərkəzi Asiyaya və s. gedirdilər. Onlar getdikləri yerlərdə “qara fəhlə” kimi çalışır və yerli fəhlələrdən xeyli az maaş alırdılar.

**Xalq çıxışları.** XIX əsrin ortalarında feodal zülmünün güclənməsi, Qərbi Avropadan toxuculuq məhsullarının geniş miqyasda idxalı nəticəsində sənətkar və tacirlərin

[1] **komprador burjuaziya** – Daxili bazarla xarici şirkətlər arasında vasitəçilik edən sahibkar təbəqəsinə deyilir.

LAYİHƏ

müflisləşməsi narazılığı çoxaltdı. **1848-ci ildə** Cənubi Azərbaycanın bir çox şəhərlərində üsyanlar başlandı. Tarixə **Babilər hərəkatı** kimi daxil olmuş bu etiraz çıxışlarının ən güclüsü Zəncanda baş verdi. Bu çıxışlarda ilk dəfə qadınlarla kişilərin hüquq bərabərliyi tələbi irəli sürüldü. Mövcud rejimə qarşı etiraz çıxışlarında əhalinin müxtəlif təbəqələri, o cümlədən qadınlar çox fəal iştirak edirdilər. **Qəzvinli Zərrintac** öz ağıllı tədbirləri, natiqlik bacarığı ilə üsyançıların sevimlisinə çevrilmiş, xalq arasında böyük hörmət qazanmışdı. 1852-ci ildə Babilər hərəkatı amansızlıqla yatırıldı.

XIX əsrin sonunda Cənubi Azərbaycanda sosial ziddiyyətlərin kəskinləşməsi yeni xalq çıxışlarına səbəb oldu. **1872-ci ildə *Təbriz*** *valisinə qarşı xalq çıxışları* başlandı və 1881-ci ildə onun Cənubi Azərbaycandan qovulması ilə nəticələndi.

**1891-ci ildə** ölkənin bir çox yerlərində, o cümlədən Təbrizdə ***"Tənbəki üsyanı"*** adlı xalq çıxışları başlandı. Etiraz çıxışlarının əsas səbəbi şahın fərmanı ilə İranda tütün və tənbəki istehsalı və ticarətinin ingilis kapitalisti Talbotun rəhbərlik etdiyi şirkətə verilməsi oldu. "Tənbəki üsyanı"nın əsas mərkəzlərindən biri Təbriz şəhəri idi. Xalq hərəkatının geniş miqyas alması şah hökumətini geriyə addım atmağa vadar etdi. Bir il sonra şah tütün və tənbəki inhisarını Talbota vermək haqqında müqaviləni ləğv etdi. Beləliklə, ingilis şirkəti Cənubi Azərbaycanda fəaliyyətini dayandırmaq məcburiyyətində qaldı.

**1898-ci ildə Zeynəb paşa** adlı qadının rəhbərliyi ilə Təbrizdə üsyan baş verdi. Üsyan taxıl möhtəkirliyinə[1] qarşı yönəlmişdi. Zeynəb paşa Təbrizin yoxsul qadınlarını ətrafına toplayaraq taxıl möhtəkirlərinin anbarlarına hücum etdi. Taxıl anbarlarını açdırıb, taxılı aclıq çəkən ailələrə pulsuz payladı.



*Zeynəb paşa*

### *SUAL VƏ TAPŞIRIQLAR:*

1. *Cənubi Azərbaycanın "vəliəhdneşin" adlanmasının səbəbi nə idi?*
2. *Cənubi Azərbaycan əhalisinin sosial tərkibini sxem halında göstərin.*
3. *XIX əsrin ikinci yarısında Şimali və Cənubi Azərbaycanın iqtisadi vəziyyətini müqayisə edin.*

| Şimali Azərbaycan | | Cənubi Azərbaycan |
|---|---|---|
| fərqli cəhətlər | oxşar cəhətlər | fərqli cəhətlər |
| | | |

4. *Cənubi Azərbaycanda xalq çıxışlarına aid xronoloji cədvəl qurun.*
5. *"Tənbəki üsyanı" və Zeynəb paşanın başçılığı ilə baş vermiş üsyanın hansı oxşar cəhətləri var idi?*

[1] **möhtəkirlik** – zəruri məhsulların süni şəkildə qıtlığını yaratmaq, sonra isə onları baha qiymətə satmaq



LAYİHƏ

# 12. XIX əsrdə təhsil və elm

Rusiya hökuməti müstəmləkə əsarəti altına saldığı xalqların təhsilli, elmli, müstəqil fikirli olmasını istəməsə də, Azərbaycanda yüksək intellektli, maarifpərvər, millətini sevən ziyalılar yetişirdi. Yeni məktəblər, mədəni-maarif ocaqları açılırdı. Təhsil sahəsində əsas yeniliklər nədən ibarət idi? Bu yeniliklərin əsas səbəbləri nə idi?

Gimnaziya, Qori seminariyası, rus-azərbaycanlı məktəbi, S.M.Qənizadə, qiraətxana, "Gülüstani-İrəm", M.Kazım bəy

XIX əsrin birinci yarısında Rusiya müstəmləkəçiliyi şəraitində Şimali Azərbaycanın mədəni həyatının bir çox sahələrində müəyyən yeniliklər olsa da, əsrin ikinci yarısında mədəniyyətimizin bütün sahələrində inkişaf meyilləri güclənmiş və bir çox önəmli nailiyyətlər qazanılmışdı. Yeni tipli məktəblər və mədəni-maarif müəssisələri açılmış, Rusiya və Qərbi Avropa universitetlərində ali təhsil almış ilk azərbaycanlı ziyalı kadrlar yetişmişdi. Milli teatrın və milli mətbuatın əsası qoyulmuşdu. Demokratik ruhlu ziyalılar Vətənimizin taleyi ilə bağlı məsələlərin önə çəkilməsi və xalqımızın milli şüurunun oyadılması sahəsində məqsədyönlü şəkildə fəaliyyət göstərməyə başlamışdılar.

**Təhsil.** Şimali Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra çar hökumətinin mədəniyyət və maarif sahəsində siyasətinin başlıca məqsədi ölkəmizdə imperiya maraqlarına uyğun gələn təhsil sistemi formalaşdırmaq idi. Hökumət əhalini ruslaşdırmaq və imperiyaya sədaqətli məmurlar hazırlamaq istəyirdi. Çar məmurları bölgədə rus siyasətini elə həyata keçirməyə çalışırdılar ki, nəticədə yerli əhali nəinki rus dilində danışsın, həm də bu dildə düşünməyi də bacarsın. Çar hökumətinin Azərbaycana gətirdiyi maarif sistemi silki xarakter daşıyırdı. Bununla yanaşı, Azərbaycanda xanlıqlar vaxtından qalmış mollaxanalar (ibtidai məktəblər) və mədrəsələr hələ də vəqf əmlakından gələn gəlir hesabına fəaliyyət göstərirdi.



***Şuşada tatar (azərbaycanlı – red.) məktəbi. Rəssam Klerjenin***

*1842-ci ilin məlumatına görə, Şimali Azərbaycanda məscidlərin nəzdindəki 502 ibtidai məktəbdə 5 mindən çox şagird oxuyurdu. Bakıda, İçərişəhərdə də iki ibtidai qız məktəbi fəaliyyət göstərirdi. Bu məktəblərdə 25 şagird təhsil alırdı.*

Çar hökuməti Şimali Azərbaycanın sərvətlərini soyub talayaraq əldə etdiyi gəlirlərdən milli məktəblərimizin fəaliyyətinə sərf etmək istəmirdi. Onu daha çox bölgələrdə rus məktəbləri açılması maraqlandırırdı. 1829-cu ildə qəbul edilmiş Əsasnamə ilə Şimali Azərbaycanda ibtidai dövlət məktəblərinin açılması qərara alındı. Belə məktəblərdə bölgədəki rus qoşunlarında qulluq edən zabitlərin və idarə orqanlarında çalışan məmurların uşaqlarına rus dilində ibtidai təhsil verilməli, gələcəkdə diyarın idarə olunması üçün kadrlar hazırlanmalı idi. Çünki mərkəzi quberniyalardan kadr dəvət etmək böyük çətinlik törədirdi. Əsasnaməyə əsasən ***ilk qəza məktəbi*** **1830-cu ildə**

LAYİHƏ

Şuşada açıldı, Şuşa qəza məktəbinin açılması ilə Azərbaycanda Avropa tipli dünyəvi təhsilin əsası qoyuldu. Sonralar Bakı, Şəki, Gəncə, İrəvan, Dərbənd, Naxçıvan və Şamaxı şəhərlərində də qəza məktəbləri açıldı. Bu məktəblərdə təhsil rus dilində olsa da, bir fənn kimi Azərbaycan dili də tədris olunurdu. Hətta Azərbaycan dilində bir neçə dərslik hazırlanmışdı. 1857-ci ildə qəza məktəblərində azərbaycanlı şagirdlərin sayı 148-ə çatmışdı.

1872-ci il Əsasnaməsi ilə Şimali Azərbaycanın bütün qəza məktəbləri altıillik təhsil verən pullu *şəhər məktəblərinə çevrildi*. 1874-cü ildə *ibtidai kənd məktəbləri* yaradılması haqqında yeni Əsasnamə qəbul edildi.

1874-cü il Əsasnaməsi

İBTİDAİ KƏND MƏKTƏBLƏRİ AÇILDI

**Bu məktəblərdə kəndli uşaqları oxuyurdu.**

**Bu məktəblərin saxlanılması xərclərini kənd cəmiyyətləri ödəyirdi.**

**Təhsil yalnız rus dilində aparılırdı.**

Rusiya hökuməti tərəfindən Şimali Azərbaycanda ilk rusdilli orta təhsil müəssisəsi – ***gimnaziya*** **1865-ci ildə** Bakıda açıldı. Sonralar Gəncədə də belə bir gimnaziya fəaliyyətə başladı. Bakıda ***ilk qız gimnaziyası*** **isə 1874-cü ildə** yaradıldı. Orta məktəblərdə təhsil ödənişli idi.



*Aleksey Çernyayevski*

Yeni açılan məktəblərdə dərs demək üçün müəllim kadrları hazırlanmasında **1876-cı ildə** Qoridə açılmış ***Cənubi Qafqaz Müəllimlər Seminariyası*** mühüm rol oynadı. M.F.Axundzadənin və Aleksey Çernyayevskinin gərgin səyləri nəticəsində **1879-cu ildən** *seminariyanın* ***Azərbaycan şöbəsi*** fəaliyyətə başladı.

Təhsil sahəsində mühüm yeniliklərdən biri də Azərbaycan ziyalılarının təşəbbüsü və səyləri ilə *rus-azərbaycanlı məktəblərinin* açılması idi. Bu məktəblər, əsasən, azərbaycanlı şagirdləri orta məktəbə hazırlayırdı. Bakıda ilk belə məktəb **1887-ci ildə** gənc pedaqoqlar **Həbib bəy Mahmudbəyov** və **Sultan Məcid Qənizadə** tərəfindən yaradılmışdı. Digər rus məktəblərindən fərqli olaraq, bu məktəblərdə birinci tədris ilində Azərbaycan dili məcburi fənn kimi keçilirdi.



LAYİHƏ



Qori Müəllimlər Seminariyası

*"...Azərbaycanlılardan görkəmli maarif və mədəniyyət xadimləri daha çox yetişəcək. Onlar ana dilində dərsliklər yazacaq, bu xalqın zəngin ədəbiyyatından, tarixindən cild-cild əsərlər hazırlayacaqlar. Bu gün mənim elədiklərim o zaman çox cüzi görünəcək. Mən bunu seminariyanın azərbaycanlı tələbələrinin hər birinin simasında görürəm. İftixar edirəm ki, "Vətən dili" kitabını müsəlman (azərbaycanlı) balaları üçün mən tərtib etmişəm".*

**A.Çernyayevski**

*Qori Müəllimlər Seminariyası və onun azərbaycanlı məzunları haqqında məlumat toplayın.*

XIX əsrin 60 – 90-cı illərində Şimali Azərbaycanda "Üsuli-cədid"[1] məktəblərinin yaradılmasına başlanıldı. İlk belə məktəbi Seyid Əzim Şirvani Şamaxıda açmışdı. Sonrakı illərdə Şuşada Mir Möhsün Nəvvab, Naxçıvanda Məmməd Tağı Sidqi, İrəvanda və Təbrizdə Mirzə Həsən Rüşdiyyə "Üsuli-cədid" məktəbi yaratdılar. Bu məktəblərdə tədris yeni üsulla aparılırdı. Əzbərləmə əvəzinə şüurlu mənimsəmə üsulu tətbiq edilir, bədən cəzası verilmir, parta, yazı lövhəsi, qlobus və digər tədris avadanlıqlarından istifadə olunurdu.

**Mədəni-maarif ocaqları**. XIX əsrin ikinci yarısında kitabxana və qiraətxanaların yaradılması xalqın maariflənməsində önəmli rol oynadı. Bakıda və Gəncədə ümumi istifadə üçün kitabxanalar açıldı. **1894-cü ildə** isə ***Nəriman Nərimanov Bakıda ilk qiraətxana təşkil etdi***. Burada yerli sakinlər gündəlik qəzet və jurnallarla tanış olmaq, ən son xəbərləri oxumaq imkanı qazandılar.

**Elm.** XIX əsrin böyük mütəfəkkiri ***Abbasqulu ağa Bakıxanov*** (1794 – 1847) Şərq dilləri və ədəbiyyatının böyük bilicisi idi. O, Azərbaycan tarixini ilkin mənbələr əsasında araşdıran ilk görkəmli tədqiqatçıdır. Onun *"Gülüstani-İrəm"* əsərində Vətənimizin qədim zamanlardan 1813-cü il Gülüstan sülhünə qədərki tarixi ardıcıl şəkildə əks olunmuşdur.

XIX əsrdə ayrı-ayrı xanlıqların tarixinə həsr edilmiş əsərlər içərisində *Mirzə Adıgözəl bəyin* "Qarabağnamə", *Mirzə Camal Cavanşirin* "Qarabağ tarixi", *Kərim Ağa Fatehin* "Şəki xanlarının müxtəsər tarixi", *İsgəndər bəy Hacınskinin* "Qubalı Fətəli xanın həyatı" əsərləri böyük əhəmiyyətə malik idi.

Bu dövrdə Azərbaycanda coğrafiya elminin inkişafında məşhur coğrafiyaşünas səyyah ***Hacı Zeynalabdin Şirvani*** və ***A.Bakıxanovun*** əvəzsiz xidmətləri olmuşdur. Rusiyada şərqşünaslıq elminin yaradılması və inkişafında Azərbaycan alimləri **Mirzə Cəfər Topçubaşov** (1790 – 1869) və **Mirzə Kazım bəy** (1802 – 1870) böyük rol oynamışlar.

---

[1] **"üsuli-cədid"** – yeni üsul, tədrisdə yeniliklərin tətbiqi



LAYİHƏ

M.C.Topçubaşov uzun müddət Peterburq Universitetində fars dilindən dərs demiş, kafedra müdiri olmuş, Rusiya Arxeologiya Cəmiyyətinin Şərq numizmatikası[1] şöbəsinə başçılıq etmiş, Böyük Britaniya Kral Asiya Cəmiyyətinin həqiqi üzvü seçilmişdi.



*Mirzə Kazım bəy*

Dünya şöhrətli şərqşünas alim Mirzə Kazım bəy əvvəlcə Kazan Universitetində kafedra müdiri və dekan vəzifələrində çalışmış, sonra isə Peterburq Universitetində elmi-pedaqoji fəaliyyətini davam etdirmişdi. 1853-cü ildə Peterburq Universitetində Şərq dilləri fakültəsinin açılmasına nail olmuş və onun ilk dekanı seçilmişdi. Mirzə Kazım bəy Şərq xalqlarının dili və tarixi haqqında onlarla əsər yazmış, “Türk-tatar dilinin qrammatikası”, “Dərbəndnamə” əsərlərinə görə Demidov mükafatı[2] almışdı. Bu əsərlər alman, ingilis və fransız dillərinə tərcümə edilərək dəfələrlə çap olunmuşdu.

O, şərqşünaslıq elminə verdiyi böyük töhfələrə görə Rusiya Elmlər Akademiyasının müxbir üzvü, Böyük Britaniya Kral Asiya Cəmiyyətinin həqiqi üzvü seçilmişdi. Müasirləri Mirzə Kazım bəyi “Rusiya şərqşünaslıq elminin atası” adlandırırdılar. Onun əsərləri Almaniya, Fransa və İngiltərənin nüfuzlu jurnallarında dərc edilmişdi.



*Mirzə Cəfər Topçubaşov*

*A.S.Puşkinlə tanışlığı olan Mirzə Cəfər Peterburq aristokratiyasının rəğbətini qazanmışdı. O, A.S.Qriboyedov və polyak şairi Adam Mitskeviçlə yaxın dost idi. Onlar Mirzə Cəfərdən Şərq dillərini öyrənmişdilər. Paytaxt mətbuatı 1869-cu ildə onun ölümü münasibətilə belə yazmışdı: “Peterburq Universitetinin nə qədər ömrü varsa, Mirzə Cəfərin adı həmişə böyük minnətdarlıqla çəkiləcəkdir”.*

*Onun atası Əlimərdan bəy Ələkbər bəy oğlu Topçubaşı Gəncənin son hakimi Cavad xanın şəxsi katibi idi. O, ərəb və fars dilləri ilə yanaşı, rus dilini də mükəmməl bilirdi. Bu, Rusiya işğalından əvvəlki dövrdə nadir hal idi. Cavad xanın general Sisianova yenilməzlik və cəsarət dolu məktublarını da Ə.Topçubaşı tərtib etmişdi.*

M *“Azərbaycan alimlərinin Rusiya elminə verdikləri töhfələr əvəzsizdir” fikrini nümunələrlə əsaslandırın.*

Kimyaçı alim **Mövsüm bəy Xanlarov** (1857 – 1921) Almaniyada Strasburq Universitetində ali təhsil almış, orada elmi araşdırmalar aparmış və kimya doktoru alimlik dərəcəsi almışdı. O, ölkəmizdə neft kimyası üzrə ilk elmi laboratoriya yaratmış və tədqiqatlar aparmışdı.

XIX əsrin ikinci yarısında Azərbaycanda biologiya, kənd təsərrüfatı və təbiət elmlərinin inkişafında Həsən bəy Zərdabinin (1837 – 1907) xidmətləri böyükdür. O, Moskva Universitetinin təbiət elmləri şöbəsini bitirmişdi. Vətənə qayıtdıqdan sonra H.Zərdabi pedaqoji və ictimai fəaliyyətlə yanaşı, elmi araşdırmalar da aparırdı.

[1] **Numizmatika –** qədim pulları öyrənən elm sahəsi

[2] **Demidov mükafatı** – Rusiya Xalq Maarifi Nazirliyi tərəfindən ən yaxşı dərsliyin müəllifinə verilirdi.

LAYİHƏ

## SUAL VƏ TAPŞIRIQLAR:

1. *Çar Rusiyasının Şimali Azərbaycanda maariflə bağlı siyasətinin əsas məqsədləri nədən ibarət idi?*
2. *Maariflə bağlı verilmiş Əsasnamələrə dair cədvəl qurun.*
3. *XIX əsrin 80-ci illərində açılan məktəblərin rus-azərbaycanlı məktəbləri adlanmasının səbəblərini izah edin.*
4. *Gimnaziyalar haqqında məlumat toplayın.*
5. *XIX əsrin azərbaycanlı elm xadimlərinə aid təqdimat hazırlayın.*

# 13. Milli mətbuatın, teatrın yaranması. Ədəbiyyat və incəsənət

XIX əsrin ikinci yarısında Azərbaycan əhalisinin həyatı dəyişirdi. Bu özünü mədəniyyətin yeni sahələri ilə tanışlıqda da göstərirdi. Ali təhsil alan azərbaycanlılar Vətənə döndükdən sonra qəzet nəşr etmək və teatr tamaşaları göstərməklə sadə xalqın gözünü açmağa, milli şüuru oyatmağa çalışırdılar. Xalqımızın maariflənməsi üçün daha hansı işlər görülürdü?

H.Zərdabi, “Əkinçi” qəzeti, “Kəşkül”, M.F.Axundzadə, “Tağıyev teatrı”, Molla Cuma, Aşıq Ələsgər, M.Ş.Vazeh




*“Əkinçi” qəzeti*

**Milli mətbuat.** XIX əsrin 30 – 40-cı illərində Tiflisdə rus dilində çıxan qəzetlərə Azərbaycan türkcəsində “Tatar xəbərləri”, “Qafqazın bu tərəfinin əxbarı[1]” adlı əlavələr çap edilirdi. Lakin bu qəzetlərdə yalnız rəsmi sənədlər, hökumət qərarlarının Azərbaycan dilində tərcüməsi verilir, xalqın həyatı, mədəniyyəti haqqında heç bir məlumat dərc olunmurdu. Ona görə də bu qəzetlər milli mətbuat nümunəsi sayılmırdı. **Həsən bəy Zərdabi** milli mətbuatımızı yaratmaq üçün üç il ərzində məqsədyönlü şəkildə fəaliyyət göstərmiş, İstanbuldan ərəbcə mətbəə hərfləri (şriftləri), Tiflisdən və başqa şəhərlərdən mətbəə avadanlıqları alıb gətirmiş, uzun yazışmalardan sonra **1875-ci il iyulun 22-də Bakıda *“Əkinçi”*** qəzetinin birinci nömrəsini çap etmişdi. 1875 – 1877-ci illər ərzində “Əkinçi” qəzetinin 56 nömrəsi çapdan çıxdı. Ana dilində çap olunan “Əkinçi” qəzeti hətta Qərb ölkələrində də tanınırdı.

Həsən bəy Zərdabi o dövrün görkəmli ziyalılarını qəzetin ətrafında birləşdirmişdi. Mirzə Fətəli Axundzadə qəzetin çıxmasını alqışlamış və dərc olunmaq üçün öz məqalələrini göndərmişdi. *Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov və Əsgər ağa Gorani* qəzetlə fəal əməkdaşlıq edirdilər.

Rusiya hökuməti “Əkinçi” qəzetinin Osmanlı dövlətinə rəğbətlə yanaşmasından narahat olub, qəzetin səhifələrində siyasi məsələlərə toxunulmasını qadağan etdi.

[1] **əxbar** – xəbərlər deməkdir.



LAYİHƏ

*Milli dramaturgiyamızın əsasını qoyan Mirzə Fətəli Axundzadə "Əkinçi"nin nəşrini ilk alqışlayan, ona xeyir-dua verən və məsləhətini bildirənlərdən idi. Bu qəzetin çapı, nəşri, yayılması ilə bağlı M.F.Axundzadə ilə H.Zərdabi arasında məktublaşmalar olmuşdu. "Əkinçi"nin düzgün istiqamət götürməsinə çalışan M.F.Axundzadə məktubunda naşirin qarşısında mühüm peşə qaydalarına əməl olunmasının vacibliyini irəli sürürdü. Onun fikrincə, geniş oxucu auditoriyası üçün nəzərdə tutulan mətbu orqanın şriftləri gözəl, dili rəvan, üslub və orfoqrafiyası düzgün olmalı idi.*



***Mirzə Fətəli Axundzadə***

M *H.Zərdabi və M.F.Axundzadənin əqidə və düşüncələrindəki ümumi cəhətləri izah edin.*

1877-ci ilin sentyabrında isə qəzetin bağlanması haqqında göstəriş verildi. Bu, yeni Rusiya – Osmanlı müharibəsinin başlanması ilə bağlı idi. "Əkinçi" qəzetinin əsasını qoyduğu milli mətbuat ənənələri sonralar digər ziyalılarımız tərəfindən davam etdirildi.

**1879-cu ildə** Tiflisdə Səid Əfəndi Ünsizadənin redaktorluğu ilə ***"Ziya"*** adlı həftəlik qəzetin çapına başlanıldı. Səid Ünsizadənin qardaşı Cəlal Ünsizadə isə Tiflisdə ***1883-cü ildən etibarən "Kəşkül"***[1] jurnalını (sonradan qəzet) nəşr etdirdi. "Kəşkül" "Əkinçi"nin yolunun davamçısı idi. Qəzet demokratik və maarifçi ideyaları yaymaqla yanaşı, milli və mədəni inkişafımızın yollarını da göstərməyə çalışırdı. Təsadüfi deyil ki, "Azərbaycan milləti" ifadəsi ilk dəfə bu qəzetdə işlənmişdi. Bu ifadənin çox böyük əhəmiyyəti var idi. Çünki ruslar bütün azərbaycanlıları "müsəlman" və ya "tatar" adlandırırdılar. Bu isə əhaliyə öz milli mənsubiyyətini anlamaqda çətinlik yaradırdı.



*Hacı Zeynalabdin Tağıyev teatr binasını (hazırda Azərbaycan Dövlət Akademik Musiqili Teatrın yerləşdiyi bina) 1883-cü ildə özünün taxıl anbarının özülü üzərində inşa etdirmişdi. Tikintiyə mühəndis-memar Lemkul başçılıq etmişdi. Bu teatr qəzetlərdə, afişa elanlarında "Şəhər teatrı" kimi yazılır, el arasında isə "Tağıyev teatrı" ifadəsi işlənirdi.*

**Milli teatr. 1873-cü ilin martında** Bakı real məktəbinin müəllimi Həsən bəy Zərdabi və Nəcəf bəy Vəzirov tərəfindən Mirzə Fətəli Axundzadənin **"Sərgüzəşti-vəziri-xani-Lənkəran"** komediyası tamaşaya qoyuldu. Bu tamaşa Azərbaycanın mənəvi həyatında çox böyük hadisə oldu.

[1] **kəşkül** – Ərəbcə "çanta", yeni həyatın hər sahəsindən məlumatları bir yerə toplayan deməkdir.



LAYİHƏ

Beləliklə, milli teatrımızın əsası qoyuldu. Sonrakı illərdə Bakı teatr həvəskarları qrupu peşəkar aktyorlar truppasına çevrildi. Görkəmli xeyriyyəçi və sahibkar, xalqımızın tərəqqisi yolunda böyük xidmətlər göstərdiyinə görə “millət atası” adını qazanmış Hacı Zeynalabdin Tağıyev isə elə bu səbəbdən **1883-cü ildə** Bakıda ***ilk teatr binası*** tikdirdi.

XIX əsrin 80 – 90-cı illərində Bakı ilə yanaşı, Şuşa, Quba, Şəki, Gəncə, Naxçıvan və İrəvanda da teatr tamaşaları göstərilirdi. 1895-ci ildə **Bakı Artistlər Cəmiyyəti** təşkil edildi.

**Musiqi, rəssamlıq və memarlıq.** XIX əsrdə Azərbaycanda aşıq musiqisi və muğam sənəti inkişaf etməkdə idi. Aşıqlardan ***Molla Cuma və Aşıq Ələsgər*** aşıq musiqisinin inkişafına böyük töhfələr verdilər. Azərbaycan muğam sənətinin **Xarrat Qulu, Hacı Hüsü, Məşədi İsi, Cabbar Qaryağdıoğlu, Sadıqcan** kimi nümayəndələrini nəinki Qafqazda, onun hüdudlarından kənarda da yaxşı tanıyırdılar.



*Molla Cuma*

XIX əsrdə Azərbaycan rəssamlığında portret janrı inkişaf etmişdi. Rəssam **Mirzə Qədim İrəvani** İrəvan Xan sarayındakı Güzgülü salonun divarlarına “Abbas Mirzə”, “Fətəli şah” portretlərini, həmçinin “Cavan oğlan”, “Oturan qadın” rəsmlərini çəkmişdi. Dövrün digər rəssamı **Mir Möhsün Nəvvab** çoxlu miniatür və illüstrasiyalarla yanaşı, Əmir Teymurun portretini də yaratmışdı. Ustad rəssam **Qənbər Qarabağlı** XIX əsrin ortalarında şagirdləri ilə birlikdə Şəki Xan sarayının divar rəsmlərini bərpa etmişdi.

XIX əsrdə şəhərsalma işində məşhur memar **Qasım bəy Hacıbababəyov** böyük rol oynamışdı. O, Bakı şəhərinin mərkəzi meydanının tikintisini (indiki Fəvvarələr meydanı) həyata keçirmişdi. Onun yaratdığı ən böyük memarlıq abidələrindən biri Böyük karvansara hesab olunur.

Dövrün digər görkəmli memarı **İosif Qoslavskinin** layihəsi əsasında XIX əsrin sonunda H.Z.Tağıyevin qız məktəbi inşa edilməyə başlanmışdır.

Yüzilliyin sonunda Bakı milyonçuları arasında gözəl bina tikdirmək “yarışı” gedirdi. Onlar bir-birinin bəhsinə gözəl və dəbdəbəli binalar inşa etdirirdilər. Hər biri memarlıq incisi hesab edilən yeni tikililərdə milli və Avropa üslubları ustalıqla uzlaşdırılırdı.

**Ədəbiyyat.** XIX əsrdə Azərbaycan ədəbiyyatı özünün yeni inkişaf mərhələsinə daxil oldu. Ədəbiyyatımız öz Şərq köklərini və milli ənənələrini saxlamaqla yanaşı, Avropa ədəbiyyatının yeniliklərindən də bəhrələnməyə başladı. Dramaturgiya, ədəbi tənqid, publisistika və ictimai məzmunlu satiranın milli ədəbiyyata gəlməsi bu dövrdə ədəbi inkişafın mühüm yenilikləri idi. Ədəbiyyatda xalq, vətən, millət anlayışları ön plana çıxmağa başladı.

Bu dövrdə Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biri **Qasım bəy Zakir** idi. Rusiya hakim dairələrinin xalqımızın milli hissini təhqir etməsi, tarixi torpaqlarımıza, xüsusən Qarabağa erməniləri yerləşdirməsi, idarələrdə rüşvətxorluğun hökm sürməsi Q.Zakirin satirik şeirlərinin əsas tənqid hədəfləri idi.

LAYİHƏ



*Qasım bəy Zakir*



*Mirzə Şəfi Vazeh*



*Seyid Əzim Şirvani*



*Nəcəf bəy Vəzirov*

*Rəsmləri verilmiş Azərbaycan ziyalılarının ideyalarında və fəaliyyətlərində olan ümumi cəhətləri təhlil edin.*

Bu dövr Azərbaycan poeziyasının digər görkəmli nümayəndəsi **Mirzə Şəfi Vazeh** idi. XIX əsrin 40-cı illərinin sonunda ondan Şərq dillərini və şeir sənətini öyrənən alman şairi Fridrix Bodenştedt müəlliminin şeirlərini alman dilinə çevirərək “Mirzə Şəfi nəğmələri” adlı kitab nəşr etdirdi. Almaniyada dəfələrlə nəşr edilən bu kitab tez bir zamanda, demək olar ki, bütün Avropa dillərində çap olundu. Bu şeirlərin böyük şöhrət qazanmasını görən alman şairi sonrakı illərdə həmin şeirlərin əsl müəllifinin özü olduğunu bəyan etdi.

XIX əsr Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri də **Mirzə Fətəli Axundzadə** idi. O təkcə Azərbaycanda deyil, bütövlükdə müsəlman-türk dünyasında dramaturgiyanın banisi olmuş, altı komediya yazmışdı. Məhz bu əsərlər Azərbaycanın mədəni həyatında yeni hadisə olan Avropa tipli teatrın yaranmasına təkan vermişdi. Böyük ədibimizin “Aldanmış kəvakib” povesti Azərbaycan ədəbiyyatında realist nəsrin ilk gözəl nümunəsi idi. M.F.Axundzadə bütün əsərlərində tərəqqiyə, inkişafa mane olan cəhətləri tənqid etməklə milli şüurun oyanmasına əvəzsiz xidmət göstərmişdir.

XIX əsr Azərbaycan poeziyasının digər görkəmli nümayəndəsi **Seyid Əzim Şirvani** idi. Onun şeirlərində də rus müstəmləkə rejiminin Azərbaycan cəmiyyətinə gətirdiyi qüsurlar kəskin tənqid olunur, xalqı cəhalətdən xilas etməyin əsas yolu kimi maarifçilik ön plana çəkilirdi.

XIX əsrin sonlarında milli dramaturgiyanın inkişafında **Nəcəf bəy Vəzirov**, **Əbdürrəhim bəy Haqverdiyev** və **Nəriman Nərimanovun** əsərləri böyük əhəmiyyətə malik idi. Bu dövrdə görkəmli ədibimiz **Cəlil Məmmədquluzadə** bədii nəsrin gözəl nümunəsi olan “Danabaş kəndinin əhvalatları” povestini yazmışdı.

Azərbaycan ədəbiyyatının həmin dövrdə yaşayan görkəmli nümayəndələri ana dilinə, onun zənginləşməsinə ciddi diqqət yetirirdilər. Onların əsərlərinin dili canlı xalq danışığına yaxın olub, sadə insanların qəlbinə asanlıqla yol tapırdı. Bu da, öz növbəsində, milli ədəbi dilin sağlam təməl üzərində inkişafına kömək edirdi.

*Görkəmli rus şairi M.Lermontov Azərbaycan türkcəsini “Asiyanın fransızcası” adlandırmışdı. Sizcə, bunun səbəbi nə ola bilərdi? Fikrinizi əsaslandırın.*

LAYİHƏ

**SUAL VƏ TAPŞIRIQLAR:**

1. *XIX əsrdə milli mətbuatın yaranmasının əhəmiyyəti nədən ibarət idi?*
2. *Çar Rusiyasının müstəmləkə siyasətinin mədəniyyətin yeni sahələrinə təsirini müəyyən edin.*
3. *XIX əsrin ikinci yarısında Bakıda inşa edilmiş memarlıq abidələrinə aid referat hazırlayın.*
4. *XIX əsrin görkəmli ziyalıları haqqında təqdimat hazırlayın.*
5. *Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin Avropa ədəbi cərəyanlarına müraciət etmələrinin səbəbi nə ola bilərdi? Fikirlərinizi əsaslandırın.*

# *III fəsil.* Azərbaycan XX əsrin əvvəllərində

## 14. Sənayenin vəziyyəti

Azərbaycanın neft sənayesinin tarixi haqqında artıq müəyyən biliklər əldə etmisiniz. Bakının neft fontanları kapitalistlərə sərvət qazandırırdı. Lakin dünya iqtisadiyyatında böhran baş verməsi neft və neft məhsullarının satışını azaltdı. Bu səbəbdən də həmin məhsulların istehsalı azaldı. Böhran sənayenin digər sahələrinə necə təsir etdi? Böhrandan sonra Şimali Azərbaycanda sənayenin vəziyyəti necə oldu?

"Nobel qardaşları şirkəti", "Mis" sindikatı, Şəki ipək fabriki, balıq sənayesi, Şollar su kəməri

**Neft sənayesi.** XX əsrin başlanğıcında Şimali Azərbaycanın neft sənayesi öz inkişafının zirvəsinə çatmışdı. Dünyada istehsal olunan neftin yarıdan çoxu Bakının payına düşürdü. Şimali Azərbaycanın neft sənayesi Rusiya iqtisadiyyatının duru yanacağa olan tələbini tam şəkildə ödəyirdi.

1900 – 1903-cü illərdə baş vermiş **dünya iqtisadi böhranı**[1] Azərbaycanın neft sənayesinə və neftlə bağlı olan digər istehsal sahələrinə mənfi təsir göstərdi. Çoxlu sayda xırda və orta müəssisələr iflasa uğradı. Nəticədə, neft sənayesində istehsalın təmərküzləşməsi prosesi gücləndi. İri neft şirkətlərinin – inhisarların neft çıxarılması və emalında payı artdı. Birinci Dünya müharibəsi ərəfəsində Bakıda çıxarılan neftin yarıdan çoxu 3 nəhəng neft şirkətinin payına düşürdü.

Böhrana baxmayaraq, Şimali Azərbaycan Rusiya və Avropa ölkələrinə əsas neft ixrac edən ölkə olaraq qalırdı. ***"Nobel qardaşları şirkəti"*** və 1912-ci ildə yaradılmış ***"Oyl" şirkəti*** neft ixracından böyük qazanc götürürdü.

XX əsrin əvvəllərində Abşeronla yanaşı, *Quba, Şamaxı və Cavad qəzalarında* da neft çıxarılmasına başlanıldı. Neftin satışından böyük gəlir götürən iri neft şirkətləri geoloji-kəşfiyyat işlərinə, yeni neft quyuları qazılmasına, mədənlərdə yeni texnika və texnologiyaların tətbiqinə az diqqət yetirir, öz inhisarçı mövqelərindən istifadə edərək süni neft qıtlığı yaradırdılar. Nəticədə, XX əsrin əvvəllərində neftin qiyməti səkkiz dəfə bahalaşdı. Bu dövrdə digər ölkələrin neft sənayesində yeni, daha güclü nasoslar, elekt-

[1] **iqtisadi böhran** – həddən artıq əmtəə istehsalı ilə bağlı tələblə təklif arasında uyğunsuzluq yaranması və istehsalın ixtisar edilməsi



LAYİHƏ



*Qaraşəhərdə "Nobel qardaşları" şirkətinə məxsus neft emalı zavodu*

rik motorları və müasir texnika geniş tətbiq olunurdu. Bakıda isə Birinci Dünya müharibəsi ərəfəsində neftin beşdə dörd hissəsi hələ də köhnə mühərriklərlə çıxarılırdı. Bunun nəticəsi idi ki, Azərbaycan dünya neft istehsalında ikinci yerə sıxışdırıldı və birincilik ABŞ-a keçdi.

Şimali Azərbaycanın neft sənayesində xarici və rus kapitalistləri ağalıq etsələr də, milli sahibkarlardan **Musa Nağıyev və Şəmsi Əsədullayevin şirkətləri** 20 ən iri neft şirkətinin sırasına daxil idi.

**Sənayenin başqa sahələri.** Şimali Azərbaycanda əlvan metallurgiya sənayesi XX əsrin əvvəllərində inkişafın yüksək mərhələsində idi. Lakin böhran bu sahəyə də müəyyən təsir göstərdi. "Simens qardaşları" şirkətinə məxsus Gədəbəy misəritmə və Qalakənd missaflaşdırma zavodları Rusiya və Almaniyanı çox keyfiyyətli mislə təmin edirdi. Gədəbəy mis mədənlərində almazla qazma üsulu tətbiq edilmişdi. Mis çıxarılmasında ağır əl əməyini elektriklə hərəkətə gətirilən qurğular əvəzləmişdi. Bu məqsədlə Qalakənddə su elektrik stansiyası tikilmişdi. **1907-ci ildə** Rusiyada 7 ən iri mis zavodu sahibləri ***"Mis" sindikatı***[1] yaratdılar. Gədəbəy misəritmə zavodu da bu inhisarın tərkibinə daxil idi. Bu, əlvan metallurgiyada inhisarlaşma prosesini göstərirdi.

XX əsrin əvvəllərində yüngül və yeyinti sənayesi sahələri sürətlə inkişaf edirdi. Cənubi Qafqazda ipək sənayesinin mərkəzi yenə də Şəki şəhəri idi. Ölkəmiz Rusiya, Fransa və İtaliyanın ipək parça fabriklərini yüksək keyfiyyətli xam ipəklə təmin edirdi.

Qafqazın başlıca pambıqtəmizləmə sənayesi müəssisələri də ölkəmizdə yerləşirdi. 1914-cü ilin məlumatına görə, Cənubi Qafqazda istehsal edilən mahlıcın dörddə üç hissəsindən çoxu Şimali Azərbaycanın payına düşürdü. Pambıqtəmizləmə sənayesinə qoyulan kapitalın böyük hissəsi H.Z.Tağıyev, Mahmudbəyov qardaşları və başqa azərbaycanlı sahibkarlara məxsus idi. Bu sahədə diqqətəlayiq cəhət emal olunan mahlıcın bir hissəsinin ölkəmizdə parça toxunmasında istifadə edilməsi idi. Cənubi Qafqazda pambıq parça toxuyan beş fabrikdən dördü milli kapital nümayəndələrinə – azərbaycanlı sahibkarlara məxsus idi.

Şimali Azərbaycanın ***balıq sənayesinin*** 70%-i azərbaycanlı sahibkarların əlində cəmləşmişdi. Onlardan H.Z.Tağıyev, M.Muxtarov və M.Nağıyev xüsusilə seçilirdi.

---

[1] **sindikat** – bir neçə müəssisənin məhsulun qiyməti, xammalın alınması, satış bazarı məsələləri üzrə razılığa gəldiyi birlik



LAYİHƏ

Azərbaycanın çox qiymətli balıq və kürü məhsulları Rusiya ilə yanaşı, ABŞ, Almaniya, Fransa, Polşa və başqa ölkələrə ixrac edilirdi. Balıq sənayesi istehsal həcminə və fəhlələrin sayına görə neft sənayesindən sonra ikinci yeri tuturdu.

Rusiya hökuməti əhalisinin böyük əksəriyyəti müsəlmanlardan ibarət olan Şimali Azərbaycanda hər vasitə ilə şərab, konyak və spirt istehsalını artırmağa çalışırdı. 1914-cü ilin məlumatına görə, Cənubi Qafqazda istehsal olunan bu içkilərin çoxu Şimali Azərbaycandakı zavodlarda emal edilirdi.

1913-cü ildə Şimali Azərbaycanda 2,5 milyon nəfər, Bakıda 300 mindən çox əhali yaşayırdı. Bakı şəhərində sürətlə artan əhalinin ərzaq məhsulları, xüsusilə içməli suya olan tələbatını ödəmək çox çətinləşmişdi. Şəhər əhalisi içməli su üçün ətraf kəndlərdəki quyuların və Həştərxandan gəmilərlə gətirilən suyun ümidinə qalmışdı.



Murtuza Muxtarov

*Murtuza Muxtarov Bakı gimnaziyasının, Temir-xan-şura şəhərindəki qız məktəbinin qəyyumu idi. Səxavətli və mehriban insan olan M.Muxtarovdan xatirə olaraq əzəmətli binalar qalmışdır. Onlardan Vladiqafqaz şəhərindəki məscidi, Kislovodskdakı möhtəşəm binaları göstərmək olar. M.Muxtarovun Mərdəkandakı bağ evi sovet dövründə Dendroparka[1] çevrilmişdir.*

M *Milli burjuaziyanın xalqımızın təhsilində və mədəniyyətində rolunu müzakirə edin.*

H.Z.Tağıyevin ciddi səyi ilə **Şollar su kəmərinin** çəkilişi 1917-ci ildə başa çatdırıldı. Su kəmərinin açılışı şəhərdə böyük bayrama çevrildi.



Şollar su kəmərinin çəkilməsi

*Dumanın iclaslarının birində suyun Kürdən və ya Samurdan çəkilməsi tələbi qoyuldu. Şollar bulağı haqqında eşitmək belə istəmirdilər. Şəhər başçısı Duma üzvlərinə müraciət edərək bildirdi ki, Şollar suyu Almaniyada analiz olunubdur, keyfiyyəti yaxşıdır. Əsas əleyhdarlar – o dövrdə Bakıya Kürdən və Volqa çayından gəmi ilə su gətirən erməni işbazlar bu haqda heç nə eşitmək istəmir, narazılıq edirdilər. Dumada ciddi gərginlik yaranmışdı. Yalnız H.Z.Tağıyevin səyi nəticəsində Duma Şollar su kəmərinin çəkilməsi haqqında qərar qəbul etdi.*

M *H.Z.Tağıyev əhalinin rifahının yaxşılaşdırılması istiqamətində daha hansı tədbirlər görmüşdür?*

XX əsrin əvvəllərində Bakı limanı yük dövriyyəsinə görə Rusiya imperiyasında birinci yerə çıxdı. 1912-ci ildə Bakı ilə Tiflis arasında birbaşa telefon xətti çəkildi.

---

[1] **dendropark** – müxtəlif coğrafi zonalara məxsus ağac və kolların becərildiyi yer

LAYİHƏ

## SUAL VƏ TAPŞIRIQLAR:

1. *Mətnə əsasən, iqtisadi böhranın təsir etmədiyi sahələri müəyyən edin.*
2. *XX əsrin əvvəllərində inhisarlaşmanın səbəbləri nə idi? İzah edin.*
3. *Əlavə məlumatlar əsasında ölkəmizin müasir dövrdə neft sənayesində əldə etdiyi uğurları təhlil edin.*
4. *Yüngül və yeyinti sənayesi sahələrinin böhrandan az zərər görməsinin səbəbi nə idi?*
5. *H.Z.Tağıyevin Bakıya içməli su çəkdirməsini dəyərləndirin.*

# 15. Kənd təsərrüfatı. Yeni aqrar qanunlar

XX əsrin əvvəllərində Şimali Azərbaycanda torpaq münasibətləri hələ də tam şəkildə nizamlanmamışdı. Kəndlərdə təbəqələşmə daha da dərinləşsə də torpaq məsələsinin tam həll olunmaması Azərbaycan kəndində kapitalist münasibətlərinin inkişafını ləngidirdi. Bəs çar hökuməti aqrar məsələnin həll olunmasında maraqlı idimi?

Muğanda rus kəndləri, aqrar qanunlar, qolçomaq, torpaq pulu, sosial təbəqələşmə

**Kənd təsərrüfatı.** XX əsrin əvvəllərində Şimali Azərbaycanda kənd təsərrüfatının əsas sahələri əkinçilik və maldarlıq olaraq qalırdı. Ölkəmizdə əkinə yararlı torpaqların yarıdan çoxunda taxıl əkilirdi. Lakin daha yüksək gəlir gətirən texniki bitkilərin becərilməsi sürətlə artmaqda idi. Cənubi Qafqazda istehsal olunan çəltik məhsulunun əksər hissəsini Şimali Azərbaycan verirdi. Çəltik istehsalının əsas mərkəzi yenə də Lənkəran qəzası idi.

Maldarlıq bütün bölgələrdə mühüm yer tutur, qoyunçuluq xüsusilə inkişaf edirdi. Toxuculuğun artan tələbinə uyğun olaraq zərifyunlu qoyun cinslərinin yetişdirilməsinə xüsusi diqqət yetirilirdi.

Rusiyanın və yerli sahibkarların pambıq parça fabriklərinin ildən-ilə istehsalı genişləndirməsi ilə əlaqədar *pambıq əkinləri* sürətlə artırdı. 1900 – 1913-cü illər ərzində



*Hacı Zeynalabdin Tağıyev*

*H.Z.Tağıyev pambıq parça fabriklərini xammalla təmin etmək məqsədilə Yevlax yaxınlığında böyük torpaq mülkü satın almış, Cavad qəzasında nəhəng pambıqtəmizləmə zavodu tikdirmişdi. O, un dəyirmanı inşa etdirmiş, Quba qəzasında üzüm bağları saldırmışdı. Balıq sənayesinə böyük sərmayə qoymuş, ən iri vətəgələrdən olan "Bankə" vətəgəsinin sahibi olmuşdu. Balıq məhsullarını saxlamaq üçün Petrovsk (Mahaçqala) şəhərində soyuducu anbar, buz və çəlləkistehsal edən zavodlar tikdirmişdi.*

*H.Z.Tağıyevin iqtisadi addımlarını müstəmləkəçi iqtisadi siyasətə zərbə hesab etmək olarmı? Fikrinizi əsaslandırın.*



LAYİHƏ

pambıq istehsalı 5 dəfə çoxalmışdı. Pambıqçılıqda maşın və traktorlardan istifadə edilir və cərgəli əkin üsulu tətbiq olunurdu.

XX əsrin əvvəllərində ***üzüm və tut bağlarının salınması, tütün əkilməsi*** də sürətlə genişlənməkdə idi. Birinci Dünya müharibəsi ərəfəsində Cənubi Qafqazda istehsal edilən xam ipəyin üçdə iki hissəsini ölkəmiz verirdi. Xam ipəyin bir hissəsi yerli fabriklərdə emal edilir, böyük bir hissəsi isə Rusiyaya və xarici ölkələrə ixrac olunurdu. Azərbaycan kəndlərində yeni kənd təsərrüfatı texnikası və traktorlardan istifadə tədricən artmaqda idi. Kənd təsərrüfatı texnikası, əsasən, mülkədar və qolçomaq təsərrüfatlarında işlədilirdi.

**Köçürmə siyasəti.** Azərbaycanlı kəndlilər yararlı torpaq azlığından əziyyət çəkdikləri bir şəraitdə çar hökuməti köçürmə siyasətini geniş miqyasda davam etdirirdi. XX əsrin əvvəllərində təkcə ***Cavad qəzasına – Muğana*** köçürülən rus kəndliləri üçün xeyli yararlı torpaq sahəsi ayrılmışdı. Bununla bağlı Muğanda 2 mindən çox azərbaycanlı ailəsi öz ata-baba yurdundan qovulmuş, torpaqları isə yeni köçürülmüş rus kəndlilərinə verilmişdi. Çox qısa müddət ərzində Muğanda ***49 rus kəndi*** salınmışdı. Rus hökumətinin köçürmə siyasəti etnik münaqişəyə zəmin yaratmaqla yanaşı, bu torpağın əsl sahibi olan Azərbaycan xalqında hakimiyyətə qarşı dərin nifrət hissi doğurmuşdu. Ona görə də dövlət rus kəndlilərinə yerli əhalidən qorunmaq üçün odlu silah paylamışdı.



*Muğana köçürülmüş rus ailəsi.*
*Foto: Sergey Prokudin-Qorskiy*

*Rusiya imperiyasının köçürmə siyasətinin, etnik münaqişə toxumu səpməsinin “parçala, hökmranlıq et” siyasətinin bir hissəsi olduğunu əsaslandırın.*

**Yeni aqrar qanunlar.** XX əsrin əvvəllərində ölkəmizdə bütün torpaqların 70 faizə qədəri dövlətin mülkiyyətində idi. Kəndlilərin üçdə iki hissəsi həmin torpaqlarda yaşayırdı. XIX əsrin sonuna kimi dövlət kəndlilərinin torpaq münasibətləri tənzimlənməmiş şəkildə qaldığından kənd təsərrüfatının kapitalistcəsinə inkişafına mənfi təsir göstərirdi.

Çar hökuməti **1900-cü il mayın 1-də** ***“Cənubi Qafqazda dövlət kəndlilərinin torpaq quruluşu haqqında”*** verdiyi qanunla bu sahədə ilk addım atdı. Dövlət kəndlilərinə icma torpaqlarından nəsli istifadə hüququ verildi. Bu qanuna uyğun olaraq, 1903-cü ildə yeni Əsasnamə qəbul edildi. Əsasnamədə kəndlilərin nəsli istifadəsinə keçən torpaqların sərhədlərinin müəyyən edilməsi qaydası aydınlaşdırıldı. Kəndlilərə əlavə pay torpaqlarının verilməsi, çəmən, otlaq və meşələrdən onlara pay ayrılması qaydası müəyyən edildi. Bundan istifadə edən ***qolçomaqlar*** yararlı torpaqların çox hissəsini ələ keçirərək dövlət kəndində təbəqələşmənin dərinləşməsinə səbəb oldular.

Şimali Azərbaycanın sahibkar kəndlərində 1870-ci ildə keçirilən islahat yarımçıq qalmışdı. Kəndlilərin çoxu pay torpaqlarını satın ala bilməmişdilər. Ona görə də sahibkar kəndliləri mülkədarlara vergi və mükəlləfiyyətlər ödəməkdə davam edirdilər.

*Dövlət kəndlilərinə nəsli istifadə üçün pay torpaqları verilməsinin nəticələrini müəyyən edin.*



LAYİHƏ

Bu kəndlilər “müvəqqəti mükəlləfiyyətli” sayılırdılar. XX əsrin əvvəllərində sahibkar kəndində torpaq məsələsini tam həll etmək üçün hökumət önəmli addım atdı. **1912-ci il dekabrın 20-də** çar tərəfindən ***“Cənubi Qafqaz quberniyalarında torpaqların məcburi surətdə satın alınması haqqında” qanun*** imzalandı. **1913-cü ildə** imzalanmış başqa bir qanuna görə, **Zaqatala dairəsi** və **Dağıstanın,** o cümlədən **Dərbənd bölgəsinin** sahibkar kəndliləri feodal asılılığından azad edildilər. Kəndlilər pay torpağını məcburi surətdə satın almalı idilər. Dövlətin bəylərə və keşkəl (torpaq) sahiblərinə birdəfəlik ödədiyi torpaq pulunu onlar 20 il müddətində dövlət xəzinəsinə qaytarmağa məcburdular.

1912 – 1913-cü illərdə qəbul edilmiş aqrar qanunları Şimali Azərbaycan kəndlərində qolçomaq və fermer təsərrüfatlarının inkişafı üçün daha əlverişli şərait yaratdı. Nəticədə, kəndlərdə sosial təbəqələşmənin dərinləşməsi və kapitalizmin inkişafı sürətləndi.




### *SUAL VƏ TAPŞIRIQLAR:*

1. *XX əsrin əvvəllərində çar hökuməti köçürmə siyasətini davam etdirməklə hansı məqsədləri güdürdü?*
2. *1870-ci və 1912-ci illər aqrar qanunlarının hansı fərqli cəhətləri var idi?*
3. *Sxemə əsasən, “Cənubi Qafqaz quberniyalarında torpaqların məcburi satın alınması haqqında” qanunu izah edin.*
4. *“Cənubi Qafqaz quberniyalarında torpaqların məcburi satın alınması haqqında” qanunun müstəmləkəçi xarakterini müəyyən edin.*
5. *Mətnə əsasən xronoloji cədvəl qurun.*



LAYİHƏ

# 16. Azadlıq hərəkatının yeni mərhələsi

Kapitalist münasibətlərinin inkişafı və milli şüurun oyanması çarizmin müstəmləkəçilik siyasətinə qarşı azadlıq mübarizəsini alovlandırdı. Əhali Rusiya hökumətindən narazı idi. XX əsrin əvvəllərində hansı mübarizə formaları geniş yayılmışdı? Azərbaycanın şimalı və cənubunda yaşayan əhalinin mübarizəsində oxşar və fərqli cəhətləri müəyyən edin.

Milli ayrı-seçkilik, siyasi nümayiş, ümumi tətil, “Mazut konstitusiyası”, Dəli Alı, Məşrutə hərəkatı, Səttarxan, fədai dəstələri

**Şimali Azərbaycanda milli azadlıq mübarizəsi.** XX əsrin əvvəllərində çar hakimiyyətinin milli zülmündən və ayrı-seçkilik siyasətindən bütün xalq – ziyalılar, milli burjuaziya, fəhlələr və kəndlilər narazı idilər. Cənubi Qafqazın xristian xalqları sərbəst şəkildə kilsə və məktəb açır, qəzet və jurnal buraxırdılar. Azərbaycanlıların isə ana dilində məktəblərinin olmasına, qəzet nəşr etmələrinə imkan verilmirdi. Ziyalılarımızın ana dilində qəzet çıxarmaq üçün icazə xahişlərindən birinə Peterburqdan belə cavab göndərilmişdi: “Yaxşı olar ki, ziyalılar qəzeti rus dilində oxusunlar, qalanları isə gedib qoyunlarını otarsınlar”.

*Rusiya imperiyasının xristian və müsəlman xalqlara münasibətdə ayrı-seçkilik siyasətinin milli azadlıq hərəkatına səbəb olmasını əsaslandırın.*

Rusiya və Qərbi Avropa şirkətləri milli sərvətlərimizi daşıyıb apararaq böyük qazanc əldə edirdilər. Zəngin sərvətlərimizdən faydalanmayan təkcə onun əsl sahibi olan Azərbaycan xalqı idi. Bir yazıda ürəkağrısı ilə obrazlı şəkildə qeyd edilmişdi: “Nefti ilə bütün dünyanı işığa boyayan, özü isə qaranlıqda qalan Bakı şəhərim mənim”.

Şimali Azərbaycanın və onun əsas sənaye mərkəzi olan Bakının fabrik və zavodlarında, neft mədənlərində fəhlələr ağır şəraitdə çalışır, gündə 12-14 saat işləyir, əvəzində isə çox az əməkhaqqı alırdılar. Onların iş və mənzil şəraiti dözülməz idi. Mədənlərdə texniki təhlükəsizlik tələblərinə əməl edilmədiyi üçün hər yeni neft quyusunun qazılması bir neçə fəhlənin ölümü və ya şikəst olması ilə nəticələnirdi. Tibbi və sosial sığortadan isə danışmağa dəyməzdi.



*Fəhlə! Mənə bir söylə, nədən hörmətin olsun?*
*Axır nə səbəb söz deməyə qüdrətin olsun?*
*Əl çək, bala, dövlətlilərə xidmətin olsun,*
*Az-çox sənə verdiklərinə minnətin olsun!..*
*Bu çərxi-fələk tərsinə dövran edir imdi,*
*Fəhlə də özün daxili-insan edir imdi.*

***M.Ə.Sabir***

*M.Ə.Sabirin yazdığı şeirə əsasən, həmin dövrdə fəhlə həyatının ağır olması barədə fikrinizi bildirin.*



LAYİHƏ

XX əsrin əvvəllərində Şimali Azərbaycanda, xüsusilə də Bakıda fəhlələr çıxış yolunu hökumət və sahibkarlara qarşı nümayiş və tətillərdə görürdülər. **1902-ci ildə** Bakıda baş vermiş ***ilk siyasi nümayişdə*** “Rədd olsun mütləqiyyət!”, “Yaşasın azadlıq!” şüarları səslənmişdi. **1903-cü ilin yayında** Bakı şəhərində keçirilən ***ilk böyük ümumi tətildə*** 8 saatlıq iş günü, əməkhaqqının artırılması tələbləri irəli sürülmüş, sahibkarlarla danışıq aparmaq üçün Tətil komitəsi yaradılmışdı. Lakin hökumət bu tətili ordunun gücü ilə amansızlıqla yatırdı.



*1905 – 1906-cı illərdə azərbaycanlılara qarşı soyqırımı törədən ermənilərə divan tutan Dəli Alı*

**1904-cü ilin dekabrında** Bakıda fəhlələrin yeni, daha böyük ümumi tətili baş verdi. Bu tətildə *50 mindən çox fəhlə* iştirak edirdi. Tətil komitəsinin səyi ilə **1904-cü il dekabrın 30-da** neft sənayeçiləri ilə fəhlə nümayəndələri arasında müştərək müqavilə bağlandı. ***“Mazut konstitusiyası”*** adlandırılan bu sənədə görə, iş günü 9 saata endirildi, əməkhaqqı 20-25% artırıldı. Fəhlələr həftədə bir gün istirahət etmək, ildə bir dəfə məzuniyyətə çıxmaq hüququ qazandılar. Cənubi Azərbaycandan kəsbkarlığa gələn işçilərlə yerli fəhlələr arasında əməkhaqqı ödənilərkən qeyri-bərabərlik aradan qaldırıldı. Mexaniki istehsal sahələrində çalışan fəhlələrsə tətili davam etdirərək 1905-ci ilin yanvar ayında sahibkarları müştərək müqavilə bağlamağa məcbur etdilər.

Beləliklə, 1904-cü ilin dekabr ümumi tətili fəhlələrin çar hökuməti və sahibkarlar üzərində ilk böyük qələbəsi oldu. Bu tətil həm də 1905 – 1907-ci illər inqilabının müjdəçisi hesab edilir. İnqilabın başlanması isə Şimali Azərbaycanda çarizmin müstəmləkəçi və milli zülmünə qarşı xalqımızın azadlıq mübarizəsinə güclü təkan verdi. Azadlıq hərəkatı yeni mərhələyə qədəm qoydu. Bu mərhələnin səciyyəvi cəhəti milli siyasi təşkilatların formalaşması və muxtariyyət tələbinin irəli sürülməsi idi. Bakıda və digər sənaye mərkəzlərində fəhlə tətilləri və nümayişləri kütləvi xarakter aldı, qəzaların çoxunu kəndli çıxışları, qaçaq hərəkatı bürüdü. Qaçaq hərəkatının ən geniş yayıldığı bölgə Yelizavetpol quberniyası idi. Bu hərəkatın nümayəndələrindən olan **Qaçaq Yusif, Qaçaq Süleyman, Qandal Nağı, Dəli Alı** və başqaları xalq içərisində sevilən çox məşhur qəhrəmanlara çevrilmişdilər.

Xalqımızın azadlıq mübarizəsindən qorxuya düşən çar hökuməti təcili tədbirlərə əl atdı. 1905-ci il fevralın 15-də Bakı general-qubernatoru vəzifəsi yaradıldı və general-qubernatora böyük səlahiyyətlər verildi. Bakı quberniyasında hərbi vəziyyət elan olundu.

Hakimiyyət nümayəndələri bəzi güzəştlərə getməyə də məcbur oldular. Azərbaycan dilində qəzet və jurnallar buraxılmasına, xeyriyyə cəmiyyətləri, məktəb və digər mədəni-maarif ocaqları yaradılmasına icazə verildi.

**Cənubi Azərbaycanda azadlıq hərəkatı. Səttarxan.** XX əsrin əvvəllərində Qacar şahlarının yarıtmaz siyasəti nəticəsində Cənubi Azərbaycan əhalisinin çox hissəsi yoxsul şəraitdə yaşayırdı. Ölkənin bütün sərvətləri bir qrup şəxsin əlində cəmləşmişdi. Hər il yüz minlərlə soydaşımız iş dalınca qonşu ölkələrə kəsbkarlığa gedirdi. Onların çoxu isə vətənimizin digər hissəsinə – Şimali Azərbaycana pənah gətirmişdi.

*Şimali və Cənubi Azərbaycanda yaşayan əhalinin yoxsul təbəqələrinin sosial vəziyyətini müqayisə edin.*

LAYİHƏ

Həmin dövrdə Rusiya və İngiltərə ölkəni yarımmüstəmləkəyə çevirmişdi. Yaranmış vəziyyətdən narazı qalan xalq mövcud rejimə və yadelli ağalığına qarşı mübarizəyə qalxdı. **1905-ci ilin sonunda** başlayan ***xalq inqilabında – Məşrutə hərəkatında*** əhalinin bütün təbəqələri iştirak edirdilər. Xalqın əsas tələbləri aşağıdakılar idi:

| | | |
|---|---|---|
| Konstitusiya (Məşrutə) qəbul edilməsi | Parlament (Məclis) çağırılması | Xarici məmurların ölkədən çıxarılması |

Bu tələblər qarşısında Müzəffərəddin şah Qacar güzəştə getdi, **1906-cı il avqustun 5-də *Konstitusiya*** qəbul edilməsi, ardınca da Məclisə seçkilər keçirilməsi haqqında fərmanlar imzaladı. Fərman veriləndən sonra Cənubi Azərbaycan şəhərlərinin çoxunda nümayəndəli seçkili orqan – əncümənlər (şuralar) yaradıldı. Təbrizdə fəaliyyətə başlayan Azərbaycan Əyalət Əncüməni inqilabi hərəkatda aparıcı rol oynadı. 1907-ci ilin yanvarında taxta çıxan Məhəmmədəli şah Qacarın konstitusiyanın fəaliyyətini dayandırması Təbriz əhalisini ayağa qaldırdı. **1907-ci il fevralın 8-də** Təbriz şəhərindən şah nümayəndələri qovuldu. Hakimiyyət Əyalət Əncüməninin əlinə keçdi.

1907-ci ildə Azərbaycan nümayəndələrinin Tehranda açılmış Məclisə qatılması inqilabın yüksəlişinə səbəb oldu. Nəticədə, şah məcbur olub demokratik məzmunlu Konstitusiyanı əlavələri ilə birlikdə imzaladı. Eyni zamanda inqilabı boğmaq üçün qəti hərəkətə keçdi. 1908-ci ildə şahın göstərişi ilə Tehranda Məclis dağıdıldı. Əks-inqilabi çevrilişin həyata keçirilməsi ilə demokratik qüvvələrə divan tutulmasına başlandı. Təbriz şəhərinin əhalisi ilə birlikdə bütün Cənubi Azərbaycan əhalisi inqilabın müdafiəsinə qalxdı. Təbriz inqilabın mərkəzinə çevrildi. Şəhərin müdafiəsinə istedadlı xalq sərkərdəsi **Səttarxan** başçılıq edirdi. O, ümumi sayı 20 minə çatan ***fədai*[1] *dəstələri*** təşkil etdi və Hərbi Şura yaratdı. Səttarxanın fədai dəstələri şahın göndərdiyi qüvvələrin üzərində parlaq qələbə qazandılar. Onlar Təbriz şəhərini və Cənubi Azərbaycanın çox hissəsini əks-inqilabçılardan təmizlədilər.



*Səttarxan*

Cənubi Azərbaycandakı inqilabi hərəkata Şimali Azərbaycandan böyük həcmdə maddi yardım, o cümlədən pul vəsaiti və silah-sursat göndərilirdi. Bu işdə böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev xüsusilə fərqlənirdi.

1909-cu ildə şah hökuməti İngiltərə və Rusiya ilə iş birliyinə girdi. Həmin dövlətlərin xalqımızı məhv etmək üçün hərbi hazırlıqlara başlaması Səttarxanı 1910-cu ildə Tehran hökuməti ilə danışıqlar aparmağa vadar etdi. O dövrün mətbuatında Səttarxanın Tehrana gəlişi haqqında belə yazılmışdı: “Bu vaxtadək heç bir siyasi xadim, heç bir xarici qonaq, hətta şah da Tehranda belə təntənə ilə qarşılanmamışdı”.

[1] **fədai** – özünü azadlıq uğrunda qurban verməyə, fəda etməyə hazır olan şəxs



LAYİHƏ

Şah hökuməti tərəfindən Səttarxanın üzərinə daşnak Yeprem Davidyansın quldur dəstəsinin hücumu təşkil edildi. Səttarxan yaralanaraq Tehranda ev dustağına çevrildi. Şah hökuməti rus qoşunlarının köməyi ilə **1911-ci ilin dekabr ayında** Cənubi Azərbaycan azadlıq hərəkatını qan içində boğdu. Bütün şəhərlərdə əncümənlər dağıdıldı və inqilab rəhbərlərinə divan tutuldu.



***Səttarxanın başçılıq etdiyi fədai dəstəsi***



*İştə Səttarxan, baxız, İranı ihya eylədi,*
*Türklük, iranlılıq təklifin ifa eylədi,*
*Bir rəşadət, bir hünər göstərdi, dəva eylədi,*
*Dövlətin bir əynini dünyada risva eylədi,*
*Qaçmayıb pərvanətək oddan, dəmə pərvanədir,*
*Afərinin himməti-valayi-Səttarxanədir.*

***M.Ə.Sabir***

M *Verilmiş şeir parçasına əsasən, ayrı-ayrı imperiyalar tərəfindən parçalanmış xalqımızın mənəvi birliyə, vahid əqidəyə malik olduğunu əsaslandırın.*

## SUAL VƏ TAPŞIRIQLAR:

1. *Şimali Azərbaycanda fəhlə hərəkatını azadlıq mübarizəsinin tərkib hissəsi hesab etmək olarmı? Fikrinizi əsaslandırın.*
2. *“Mazut konstitusiyası”nın bu cür adlandırılmasının səbəbini izah edin.*
3. *Fəhlələr arasında ayrı-seçkilik özünü nədə göstərirdi? Bunun səbəbləri nə idi?*
4. *Cənubi Azərbaycanın İran inqilabının mərkəzinə çevrilməsinin səbəbləri nə idi?*
5. *Cənubi Azərbaycanda azadlıq hərəkatının yatırılmasında ermənilər nəyə görə maraqlı idilər? Əvvəlki mövzulardan aldığınız biliklərə görə fikrinizi əsaslandırın.*
6. *Mövzuda verilmiş mühüm hadisələrə aid xronoloji cədvəl tərtib edin.*



LAYİHƏ

# 17. Azərbaycanlı əhaliyə qarşı ermənilərin törətdikləri kütləvi qırğınlar. Milli-demokratik hərəkat

Şimali Azərbaycanda baş verən tətil və nümayişlər Rusiya hökumətini narahat edirdi. Xalq hərəkatının qarşısını almaq üçün yollar axtarılırdı. Şimali Azərbaycan kimi zəngin sərvətlərə malik müstəmləkəni əldə saxlamaq üçün Rusiya imperiyası hansı siyasətə əl atdı? Azərbaycan üçün hansı planlar quruldu? Bu işdə Rusiya hökumətinə sədaqətlə xidmət edən kimlər idi?

Erməni millətçi-terrorçu təşkilatları, milli qırğınlar, Şuşanın müdafiəsi, Sultan bəy, Ə.Topçubaşov, Rusiya Müsəlman İttifaqı

Rusiya imperiyasının "parçala, hökmranlıq et" prinsipi ilə xalqları müstəmləkə əsarətində saxlaması artıq sizə məlumdur. Vətənimizə köçürülən, ən münbit torpaqlarda məskunlaşdırılan ermənilər gec-tez Rusiya hökumətinə "təşəkkür"lərini nümayiş etdirməli idilər.

**Milli qırğınların hazırlanması. Bakıda törədilən qətl və qarətlər.** XX əsrin əvvəllərində xalqımızın milli oyanışı Rusiya hökumətini bərk qorxuya saldı. 1905-ci ildə Azərbaycan xalqının kütləvi şəkildə inqilabi hərəkata qoşulması hökuməti çıxış yolu axtarmağa vadar etdi. Hakimiyyət ermənilərin əli ilə türk-müsəlman əhaliyə qarşı milli qırğın törətməyə qərar verdi. Çar hökuməti öz mənfur siyasətində ermənilərdən bir alət kimi istifadə etdi. Ermənilər türk-müsəlman xalqlarına qarşı mübarizədə çar Rusiyasına həmişə sədaqətlə xidmət göstərmişdilər. Əsas məqsədi türk və müsəlmanları məhv etmək olan terrorçu Daşnaksutyun (ittifaq) partiyası Cənubi Qafqazın müxtəlif bölgələrindən və Osmanlı dövlətindən könüllü erməni dəstələri gətirərək azərbaycanlılara qarşı silahlandırdı.

Çar hökuməti erməni dəstələrinin əli ilə ***ilk milli qırğını*** **Bakı şəhərində** törətdi. **1905-ci il fevralın 6-dan 9-na qədər** davam edən milli qırğın zamanı azərbaycanlıları qətlə yetirən ermənilər çoxlu ev dağıtdılar və əhalinin malını, mülkünü qarət etdilər. Bakı hərbi qubernatorunun ixtiyarında kifayət qədər əsgər və polis qüvvələri olsa da, törədilən qırğına müdaxilə etmədi. Yalnız sadə insanlar, ziyalılar və din xadimləri ermənilər tərəfindən törədilən qətl və qarətlərə qarşı qətiyyətli mübarizə apardılar. Çoxlu itkilər verən ermənilər qırğını dayandırmağa məcbur oldular.

**Milli qırğının miqyasının genişlənməsi.** Bakıda uğur qazana bilməyən ermənilər Şimali Azərbaycanın müxtəlif qəzalarında xalqımıza qarşı qırğınlar törətməyə başladılar. Ermənilər **Naxçıvan şəhərində və Cəhridə** rus hərbçilərinin yardımı ilə dinc əhaliyə qarşı qətl və qarətlər törətdilər. Lakin yerli əhalinin ciddi müqaviməti ilə üzləşdikləri üçün qırğını dayandırmalı oldular.

Ermənilər 1905-ci ilin may ayında **İrəvan şəhərində** dinc azərbaycanlı əhalini qırmağa başladılar. Onlarla azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Öz qan qardaşlarını müdafiə etmək üçün **qonşu qəzalardan**, **Cənubi Azərbaycandan və Osmanlı dövlətindən xeyli könüllü İrəvana köməyə gəldi.** Onlar qəhrəmanlıqla vuruşaraq düşmənə böyük zərbə endirdilər. 1905-ci ildə daşnak zabitinin başçılıq etdiyi böyük erməni quldur



LAYİHƏ




***Şimali Azərbaycanda türk-müsəlman əhaliyə qarşı ermənilərin törətdikləri qırğınlar (1905-1906)***

dəstəsi Cəbrayıl qəzasının Qacar kəndinə hücum etdi. Qacarlılar köməyə gəlmiş könüllülərlə birlikdə ermənilərlə qeyri-bərabər döyüşə girməkdən çəkinmədilər. 400 erməni quldunu məhv edildi. Düşmən məğlub olub biabırcasına qaçdı.

Ermənilər **Şuşa şəhərində** türk-müsəlman əhalini kütləvi məhv etmək üçün böyük hərbi qüvvə topladılar. 1905-ci ilin avqustunda ermənilərin Şuşada törətdikləri qırğınların qarşısını almaq üçün Azərbaycan əhalisi qəhrəmanlıqla döyüşə atıldı. Şuşalılara ölkəmizin hər yerindən yardımlar edilirdi. Cəlil Məmmədquluzadənin xanımı Həmidə xanım Cavanşir, Hacı Zeynalabdin Tağıyev, Murtuza Muxtarov da döyüş bölgələrinə çoxlu ərzaq və pul göndərmişdilər.

1905-ci il avqust məğlubiyyətindən dərs almayan ermənilər 1906-cı ilin iyulunda Şuşa və onun ətrafına böyük quldur dəstəsi topladılar. Onlar Şuşadakı rus qoşununun başçısı general V.Qoloşapova rüşvət verdilər ki, rus hərbçiləri azərbaycanlı əhali yaşayan yerlərə basqınlarda iştirak etsinlər. Müsəlmanlara qarşı qırğının davam etdiyi beş gün ərzində V.Qoloşapovun əmrinə əsasən, çoxlu azərbaycanlı evi top atəşi ilə dağıdıldı və ya yandırıldı. Birləşmiş erməni-rus hərbi qüvvələrindən qat-qat az olan və pis silahlanmış azərbaycanlı könüllülər düşməni rüsvayçılıqla qaçmağa məcbur etsələr də, lakin hər yerdə erməni vəhşiliklərinin qarşısını almaq mümkün olmurdu.

Ermənilər öz xislətlərinə uyğun olaraq azərbaycanlıların etibarından və mərhəmətli olmasından məharətlə istifadə edirdilər. Onlar danışıqlara girərək bir kəndin sakinləri ilə sülh bağlayır, digər kənddə isə qırğın törədirdilər. Qarabağın Xankəndi və

LAYİHƏ



Sultan bəy Sultanov

*Sultan bəyin xalq qəhrəmanına çevrilməsi 1905-ci il erməni-müsəlman davası ilə bağlıdır. Müsəlman dəstələrindən birinə Əli-paşa bəy başçılıq edirdi. Onun ən yaxın yardımçısı isə böyük oğlu Sultan bəy idi. Zəngəzur mahalında xalq arasında belə bir məsəl vardı: "Paşa bəyin ədaləti, Sultan bəyin cəsarəti".*

M *Sultan bəy Sultanov haqqında əlavə məlumat toplayıb referat hazırlayın.*

Malıbəyli kəndlərində çar hökumətinin asayişi qorumalı olan qoşunlarının gözü qarşısında bütün azərbaycanlı qadın və uşaqlar qətlə yetirilmişdi. O dövrdə ABŞ-da dərc edilən erməni icmasının nəşrlərində İrəvanda milli qırğından əsas zərərçəkənlərin azərbaycanlılar olduğu etiraf edilmişdi. Ermənilərin azərbaycanlı əhaliyə qarşı qətl və qarətləri çox geniş əraziləri əhatə etmiş, milli qırğınlardan hər iki tərəf ciddi ziyan çəkmişdi. 1905 – 1906-cı illərdə milli qırğınlar zamanı ermənilər tərəfindən ***158 Azərbaycan kəndi*** yandırılaraq məhv edilmişdi. Xalqımızın qeyrətli oğulları erməni qətl və qarətlərinə layiqincə cavab verir, hər dəfə qırğına başlayan ermənilər daha böyük itkilərə məruz qalırdılar.

**Milli-demokratik hərəkat.** Azərbaycanın milli-demokratik qüvvələri çarizmin milli qırğın siyasətinin əsl məqsədini aydın şəkildə başa düşür, bu siyasətin gətirdiyi bəlalardan xalqımızı xilas etmək üçün bütün imkanlarını səfərbər etməyə çalışırdılar. Görkəmli ziyalılarımız **Əhməd bəy Ağayev, Əlimərdan bəy Topçubaşov, Üzeyir Hacıbəyli, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir** və başqaları hər iki xalqı bu amansız ədavətə son qoymağa çağırır, çar hökumətinin qəsdən milli qırğın yaratmasını ifşa edirdilər.



*Əlimərdan bəy Topçubaşov*

Çar hökumətinin milli qırğın siyasəti xalqımızın azadlıq mübarizəsinin qarşısını ala bilmədi. Milli-demokratik hərəkatın rəhbərləri çox çətin şəraitdə mübarizə aparırdılar. Onlar Rusiyada yaşayan bütün müsəlman və türk xalqlarının milli və siyasi hüquqlar qazanmasına çalışırdılar.

Azərbaycanın milli burjuaziyası və demokratik ziyalıları imperiyaya qarşı mübarizədə öz borclarını vicdanla yerinə yetirməyə çalışırdılar. **Milli burjuaziyanın lideri H.Z.Tağıyev, milli ziyalılarımızın başçısı isə Ə.Topçubaşov idi.** Görkəmli ictimai xadim Ə.Topçubaşov Rusiya hökumətinin türk-müsəlman geniş demokratik azadlıqlar verməsi tələbi ilə çıxış edir, Rusiyanın konstitusiyalı monarxiyaya çevrilməsini arzulayırdı. Onun fəal iştirakı ilə Cənubi Qafqazın müsəlman əhalisinin xeyrinə islahatlar keçirilməsi haqqında 1905-ci ilin yayında *ərz-hal – xahişnamə* hazırlanıb mərkəzi hökumətə göndərildi. Bu sənəddə imperiyada yaradılacaq bütün qanunverici və seçkili orqanlarda müsəlmanların təmsil olunması, onlara heç bir məhdudiyyət qoyulmadan dövlət vəzifələri tutmaq imkanı verilməsi, mülkiy-



LAYİHƏ

yətlərinin toxunulmazlığı, söz, mətbuat, vicdan azadlıqlarının təmin edilməsi, ana dilində ümumi, icbari və pulsuz ibtidai təhsil hüquqlarının olması və s. tələblər irəli sürülmüşdü.

*Sizcə, ərz-hallara daha hansı tələbləri əlavə etmək olardı? Təkliflərinizi əsaslandırın.*



*Rusiya müsəlmanlarının ikinci qurultayının nümayəndələri*

Bu ərz-hal Azərbaycan xalqının adından çara ünvanlanmış ilk proqram sənədi idi. Milli burjuaziya nümayəndələri, demokratik ziyalılar və ictimai xadimlər bir araya gələrək xalqımızın ən mühüm problemlərini ali hakimiyyətə çatdırmışdılar.

Azərbaycanın milli demokratları bütün Rusiya müsəlmanlarını hökumətə qarşı bir cəbhədə birləşdirməyə çalışırdılar. ***Azərbaycan, Krım və Kazan türklərinin ziyalılarının birgə təşəbbüsü ilə* 1905-ci ilin avqustunda** Rusiya müsəlmanlarının ***birinci qurultayı*** keçirildi. Qurultayda ***Rusiya Müsəlman İttifaqı*** yaradıldığı rəsmən elan edildi. **1906-cı ilin yanvar ayında** keçirilən ***ikinci qurultayda*** təşkilatın nizamnaməsi və müvəqqəti proqramı qəbul olundu.

**1906-cı ilin avqustunda** keçirilən ***üçüncü qurultayda*** isə Rusiya Müsəlman İttifaqının Ə.Topçubaşov tərəfindən hazırlanmış proqramı qəbul edildi. Proqramda Rusiya Müsəlman İttifaqının əsas tələbləri belə müəyyən edilmişdi:

1. Konstitusiyalı dövlət quruluşu formalaşdırılsın;
2. Müsəlman xalqlarına milli-mədəni muxtariyyət verilsin;
3. Yeni tipli məktəblər açılsın və icbari ibtidai təhsilə keçilsin.

Həmçinin qurultayda Rusiya Müsəlman İttifaqının rəhbər orqanı olan ***Mərkəzi Komitə*** yaradılması qərara alındı. Bu qurumun daimi yeri Bakı şəhəri müəyyən edildi. Beləliklə, Şimali Azərbaycan Rusiyanın müsəlman xalqlarının azadlıq hərəkatının mərkəzinə, Ə.Topçubaşov isə onun liderinə çevrildi. Üçüncü qurultayda Bakı, Kazan və Bağçasarayda müəllimlər institutları yaradılması tələbi də irəli sürüldü.

## SUAL VƏ TAPŞIRIQLAR:

1. *Rusiya hökumətinin erməni-azərbaycanlı qırğınlarını törətməkdə məqsədi nə idi?*
2. *Mətn və xəritə əsasında kütləvi qırğınların baş verdiyi əraziləri müəyyən edin.*
3. *Nəyə görə Azərbaycanın milli burjuaziyası islahatlar keçirilməsi haqqında hökumətə müraciət göndərdi? Fikrinizi izah edin.*
4. *Milli hərəkatın liderləri haqqında təqdimat hazırlayın.*
5. *Azərbaycan ziyalılarının Ümumrusiya müsəlmanları qurultayının çağırılmasında, Rusiya Müsəlman İttifaqının proqramının hazırlanmasında rolu haqqında əlavə məlumat toplayın.*



LAYİHƏ

# 18. Milli partiya və təşkilatların yaranması

Bildiyiniz kimi, XIX əsrin sonu – XX əsrin başlanğıcında Şimali Azərbaycanda milli şüurun oyanması prosesi güclənmişdi. Mütərəqqi fikirli milli burjuaziya nümayəndələri, demokratik ziyalılar Azərbaycanın gələcək rifahı haqqında düşünürdülər. Bu düşüncələrdə fərq vardımı? Şimali Azərbaycanda hansı təşkilatlar yarandı? Onların hər birinin məqsədi nə idi? Xalqımızın hansı təbəqələri siyasi cəhətdən daha fəal idi?

M.Ə.Rəsulzadə, Hümmət təşkilatı, Ə.Ağayev, Difai partiyası, Müdafiə və İttifaq təşkilatları, Müsavat partiyası, "Açıq söz" qəzeti

XX əsrin əvvəllərində Şimali Azərbaycanda törədilən qırğın və talanlar xalqımızın qabaqcıl nümayəndələrini milli hərəkata istiqamət vermək və başçılıq etmək üçün qəti hərəkətə keçməyə vadar etdi. Xaricdə təhsil alıb Vətənə dönən gənclər xalqımızı ağır sosial həyata, Rusiyanın müstəmləkəçi siyasətinə və ayrı-seçkiliyə son qoymaq üçün mübarizəyə qaldırmağın yollarını axtarırdılar. Ona görə də Azərbaycanın savadlı gəncləri, ziyalıları, mütərəqqi fikirli insanları təşkilatlanır, müxtəlif partiyalarda və cəmiyyətlərdə birləşirdilər.



*Məhəmməd Əmin Rəsulzadə*

**İlk siyasi təşkilatlar.** XX əsrin başlanğıcında milli azadlıq mübarizəsinin siyasi cəhətdən təşkil edilməsi olduqca vacib idi. İlk siyasi təşkilat **1903-cü ildə Məhəmməd Əmin Rəsulzadə** tərəfindən yaradılan ***Müsəlman Gənclik Təşkilatı*** oldu. Onun əsas məqsədi müstəmləkə əsarətinə qarşı mübarizə aparmaq idi.

**1904-cü ildə *Hümmət*** adlı yeni bir siyasi təşkilat meydana çıxdı. Təşkilat Məhəmməd Əmin Rəsulzadə başda olmaqla, bir qrup Azərbaycan ziyalısı tərəfindən yaradılmışdı. O zamana qədər Bakıda fəaliyyət göstərən sosial-demokrat – bolşevik[1] təşkilatının əsas sosial bazasını qeyri-azərbaycanlı fəhlələr təşkil edirdilər. Bakı fəhlələrinin yarıdan çoxu azərbaycanlılardan ibarət idi. Hümmət təşkilatı qarşısına məqsəd qoymuşdu ki, azərbaycanlı fəhlələr içərisində siyasi iş aparsın.

*Azərbaycanlı fəhlələr içərisində siyasi iş aparmağın məqsədi nə ola bilərdi? Fikirlərinizi əsaslandırın.*

Lakin sonrakı dövrdə Hümmət təşkilatı tamamilə bolşeviklərin təsiri altına düşdü. Rusiya imperiyasını olduğu kimi saxlamaq fikrində olan bolşeviklər bütün fəhlələrin sosial-iqtisadi hüquqları uğrunda mübarizəni əsas məqsədləri elan etdilər. Bu səbəbdən M.Ə.Rəsulzadə və onun ideya dostları təşkilatdan uzaqlaşdılar. Çünki onları, ilk növbədə, Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsi və müstəqillik qazanması düşündürürdü.

*M.Ə.Rəsulzadə və onun ideya dostlarının bolşeviklərlə ziddiyyət yaradan fikirlərini müəyyən edin.*

---

[1] **bolşeviklər** (çoxluqda olanlar) – 1903-cü ildə fikir ayrılığı nəticəsində Rusiya Sosial Demokrat Fəhlə Partiyasının mərkəzi komitəsində çoxluq qazanan qrup. Azlıqda qalan qrupa isə menşevik deyilirdi.



LAYİHƏ

**Milli partiyaların yaradılması.** Şimali Azərbaycanda ilk milli partiya Gəncədə yaradılmışdı. **1905-ci ilin yayında Ələkbər bəy Rəfibəyov** öz məsləkdaşları ilə birlikdə Gəncədə ***Qeyrət partiyasını*** təsis etdilər. Bu partiya Rusiyanın federativ dövlət kimi qurulmasını və Azərbaycana muxtariyyət verilməsi tələbini irəli sürən ilk siyasi təşkilat idi. Partiyanın Şuşa və Bakıda yerli özəkləri fəaliyyət göstərirdi.

1905 – 1906-cı illərdə Azərbaycanın demokratik qüvvələrini düşündürən ən vacib məsələ xalqımızı ermənilərin törətdikləri qırğınlardan qorumaq idi.



*Əhməd bəy Ağayev*

Vətənpərvər ziyalımız ***Əhməd bəy Ağayev* isə 1906-cı ildə *Difai*[1] *partiyasını*** yaratdı. Mərkəzi Komitəsi Bakıda yerləşən, partiyanın bütün qəza mərkəzlərində şöbələri fəaliyyət göstərirdi. Möhüründə iki çarpaz qılınc, aypara və ulduz təsviri olan partiyanın əsas məqsədi xalqımızı erməni terrorundan müdafiə etmək idi. Partiya erməni terrorçularından və onun havadarlarından amansız intiqam alırdı. Difainin yaradıcısı Daşnaksutyunun rəhbərlərinə açıq şəkildə bildirmişdi: “Əgər daşnaklar köhnə qaydada fəaliyyətlərini davam etdirib müsəlmanlara xaincəsinə hücum edərlərsə, onlar amansız cavab zərbəsinə məruz qalacaqlar... Çünki Difai partiyası bizim millətin yerlə yeksan edilmiş, yandırılıb xaraba qoyulmuş yurdunda ermənilərin özlərinə rifah yaratmasına qətiyyən yol verməyəcəkdir”.



*Difai partiyasının emblemi*

***Difai partiyası yerlərdə xüsusi silahlı döyüşçü dəstələri yaratmışdı.*** Partiyanın Qarabağ şöbəsinin 400 nəfərlik hərbi dəstəsi vardı. Şuşada erməni quldurlarına yardım göstərmiş general Qoloşapov, Naxçıvanda ermənilərin törətdiyi qırğınlarda fəal iştirak etmiş qəza rəisi Enkel Difai rəhbərliyinin göstərişi ilə öldürüldü. General Qoloşapovun öldürülməsinə görə Difai partiyasının yaydığı bəyanatda bildirilirdi: “Bu, Qafqaz müsəlmanlarının şərəf və ləyaqətinin müdafiəsi yolunda partiyanın ilk qisas aktıdır. İndi minlərlə dərdli ana və bacılarımızın göz yaşı quruyacaqdır. İndi Zəngəzur, Şuşa, Cəbrayıl və Cavanşir qəzalarının müflisləşmiş, evsiz-eşiksiz, sərgərdan dolaşan minlərlə sakini, az da olsa, rahat nəfəs alacaqdır”.

Difai partiyasının xalqımızın düşmənlərinə qarşı qətiyyətli mübarizəsi Rusiya hökumətini bərk narahat etdi. Hökumət bu təşkilatı “müsəlmanların döyüşkən partiyası” hesab edirdi. Sərt cəza tədbirləri və kütləvi həbslər nəticəsində partiya 1909-cu ildə fəaliyyətini müvəqqəti dayandırmağa məcbur oldu.

**1907-ci ildə** Gəncədə ***Müdafiə təşkilatı*** yaradıldı. Bu təşkilatın yaradılmasında rus ordusunun zabiti **İbrahim ağa Vəkilov** böyük rol oynadı. Təşkilatın fəxri sədri **İsmayıl xan Ziyadxanlı** idi. Əsas siyasi qüvvəsi mütərəqqi fikirli bəylər və ziyalılar olan təşkilatın fəaliyyəti Yelizavetpol quberniyasının qərb hissəsini və Borçalını əhatə edirdi. Bu təşkilat Difai partiyasının yolunu davam etdirirdi. Təşkilat geniş maarifləndir-

[1] **Difai** – müdafiə



LAYİHƏ

dirmə işi aparır və azərbaycanlıların hüquqlarını qoruyurdu. Hələ 1905-ci ildə Bakıda yaradılmış ***İttifaq*** adlı təşkilat da azərbaycanlı əhalini rusların və ermənilərin törətdikləri qırğınlardan qorumağa çalışırdı.

Müstəmləkəçi rejimə qarşı xalqımızın azadlıq mübarizəsi sonrakı illərdə də davam edərək yeni mərhələyə qədəm qoydu. **1911-ci ilin oktyabrında Məmmədəli Rəsulzadə**, **Abbasqulu Kazımzadə** və **Tağı Nağıyev** ***Müsavat (Bərabərlik) partiyasını*** yaratdılar. **Məhəmməd Əmin Rəsulzadə** 1913-cü ildə mühacirətdən qayıtdıqdan sonra Müsavat partiyasının liderinə çevrildi. O yazırdı: "Milli istiqlala malik olmayan bir xalq öz mövcudluğunu saxlaya bilməz". Müsavat partiyasının rəhbərliyi altında milli azadlıq hərəkatı daha məqsədyönlü və ardıcıl xarakter aldı. Partiyanın mətbuat orqanı **1915-ci ildən** nəşr edilən ***"Açıq söz"*** qəzeti idi. M.Ə.Rəsulzadənin baş redaktoru olduğu bu qəzet xalqımızda millətçilik və türkçülük düşüncəsinin formalaşmasında misilsiz rol oynadı.

Böyük mütəfəkkir Əli bəy Hüseynzadənin irəli sürdüyü ***"Türk qanlı, İslam inamlı və Avropa qiyafəli[1]"*** tezisi milli hərəkatın əsas devizinə çevrildi. M.Ə.Rəsulzadə yazırdı: "Biz türk və müsəlman qalaraq müstəqil yaşamaq istəyiriksə, hökmən müasirləşib zəmanə adamı olmalıyıq". Müasirləşmək dedikdə, Avropada möcüzələr yaradan elm və texnikanın nailiyyətlərinə yiyələnmək nəzərdə tutulurdu.

*Siz müasirləşməyi necə başa düşürsünüz? Müasirləşmək fikrini daha necə izah etmək olar? Müzakirə edin.*

**Azərbaycanlı deputatların Rusiya Dövlət Dumalarında fəaliyyəti.** ABŞ-da və Qərbi Avropanın qabaqcıl ölkələrində respublika quruluşu və ya parlamentli, yaxud konstitusiyalı monarxiya mövcud idi. Rusiyada isə mütləq monarxiya hökm sürürdü. İnqilabi yüksəlişin təsiri ilə 1905-ci ilin payızında Rusiyada da qanunverici səlahiyyətli orqan olan ***Dövlət Duması*** yaradılması qərara alındı. Dövlət Duması Qərbi Avropa parlamentlərindən hüquqlarının son dərəcə məhdud olması ilə fərqlənirdi.

Şimali Azərbaycanda Birinci Dumaya seçkilər **1906-cı ilin may ayında** keçirildi. Milli hərəkatın **Əlimərdan bəy Topçubaşov, İsmayıl xan Ziyadxanlı** kimi görkəmli xadimləri deputat seçildilər. Azərbaycanlı deputatlar Rusiyanın digər müsəlman bölgələrindən olan deputatlarla birlikdə çıxış edirdilər. Dumada olan *Müsəlman fraksiyasına*[2] Ə.Topçubaşov başçılıq edirdi. Azərbaycanlı deputatlar Dumada xalqımızın ağır həyatı ilə bağlı çox ciddi məsələlər qaldırdılar. Rus çarı itaətkar olmayan Birinci Dumanı tezliklə qovdu. İkinci Dumaya seçkilər **1907-ci ildə** keçirildi. Azərbaycanı Dumada 6 deputat təmsil edirdi. Deputatlardan **Fətəli xan Xoyski** və **Xəlil bəy Xasməmmədov** türk-müsəlman əhalinin hüquqlarının müdafiəsi ilə bağlı Dumada kəskin çıxışlar etdilər. İkinci Duma da müzakirəyə çıxardığı heç bir məsələni həll etmədən çar tərəfindən qovuldu. **1907-ci ilin payızında** yeni, daha irticaçı seçki qanunu əsasında Üçüncü Dumaya seçkilər keçirildi. Bakı, Gəncə və İrəvan quberniyalarının müsəlman əhalisindən yalnız bir deputat – **Xəlil bəy Xasməmmədov** nümayəndə seçildi. O, tanınmış hüquqşünas kimi Dumada türk-müsəlman əhaliyə azadlıq və siyasi hüquqlar verilməsi, təhsil və məhkəmə işlərinin ana dilində aparılması kimi mühüm tələblər irəli sürdü.

---

[1] **qiyafə** – geyim, görünüş deməkdir.

[2] **fraksiya** – parlament daxilində oxşar siyasi görüşlərə görə nümayəndələrin yaratdığı qruplaşma



LAYİHƏ

1912-ci ildə işə başlayan Dördüncü Dumaya Şimali Azərbaycandan hüquqşünas **Məmməd Yusif Cəfərov** deputat seçildi. M.Y.Cəfərov Dumadakı çıxışlarında Rusiya hökumətinin müsəlman və türk xalqlarına qarşı tətbiq etdiyi bütün milli, dini və hüquqi məhdudiyyətlərin ləğvini tələb edirdi.



*İsmayıl xan Ziyadxanlı*

*İsmayıl xan Ziyadxanlı Dumada çıxış edərək Rusiyanın müstəmləkəçi siyasətini, ermənilərin vandalizmini ifşa etmişdi: "Zaqafqaziya (Cənubi Qafqaz) bir əsr bundan əvvəl ruslar tərəfindən işğal edilmişdir. Bu əsr ərzində biz müsəlmanlar əsir kimi həyat sürmüşük, təqiblərə məruz qalmışıq, bizə heç bir haqq və hüquq verilməmiş, kölə halına salınmışıq... Biz ... uşaqların xəncərə keçirildiklərini görmüşük. Qoy... anaların, uşaqların fəryadından, iniltisindən həzz alanlar rədd olsunlar".*

M *Azərbaycanlı deputatların Rusiya Dövlət Dumalarında fəaliyyəti haqqında təqdimat hazırlayın.*

### *SUAL VƏ TAPŞIRIQLAR:*

1. *Şimali Azərbaycanda siyasi fəallığın artması səbəblərini müəyyən edin.*
2. *Mətnə əsasən xronoloji cədvəl qurun.*
3. *Yaradılmış partiya və təşkilatların fəaliyyətindəki ümumi cəhətləri müəyyən edin.*
4. *Mətndə adı çəkilən siyasi xadimlər haqqında təqdimat hazırlayın.*
5. *Mütləq, parlamentli, konstitusiyalı monarxiya tipli dövlətlərin quruluşundakı fərqləri izah edin.*
6. *Rusiya Dövlət Dumalarında milli hüquqlar uğrunda mübarizə aparan azərbaycanlı deputatların fəaliyyətini təhlil edin.*

# 19. Azərbaycan Birinci Dünya müharibəsi illərində

Dünyanın yenidən bölüşdürülməsi uğrunda böyük müharibə başlamışdı. Müharibənin tərəflərindən biri olan Antanta bloku tərkibində Rusiya imperiyası da müharibə aparırdı. Bəs bu müharibədə Azərbaycan hansı dövlətlərin işğalçı planlarına daxil idi? Azərbaycanlıların Birinci Dünya müharibəsində rus ordusunun tərkibində iştirakının səbəbi nə idi?

Azərbaycanlı generallar, "rus artilleriyasının Allahı", S.Mehmandarov, ilk azərbaycanlı hərbi təyyarəçi, "Tatar süvari alayı", "Urmu balası"

**Azərbaycan böyük dövlətlərin planlarında.** 1914-cü il avqustun 1-də Almaniyanın Rusiyaya müharibə elan etməsi ilə Azərbaycan Antanta və Üçlər İttifaqı adlı iki hərbi qruplaşma arasında gedən Birinci Dünya müharibəsinə qoşuldu. Müharibə səbəbkarlarının əsas məqsədi dünyanın mühüm strateji bölgələrini və zəngin

LAYİHƏ

müstəmləkələrini ələ keçirmək idi. Hər iki bloka daxil olan dövlətlərin planlarında Şimali və Cənubi Azərbaycan xüsusi yer tuturdu. Böyük dövlətləri ölkəmizin strateji mövqeyi, zəngin sərvətləri, ilk növbədə, Bakı nefti çox maraqlandırırdı. Osmanlı dövləti Birinci Dünya müharibəsi dövründə Almaniyanın müttəfiqi idi. Almaniya Qafqazda, o cümlədən Azərbaycanda möhkəmlənmək planlarını Osmanlı dövləti vasitəsilə həyata keçirmək istəyirdi. Rus müstəmləkə zülmü altında əzilən müsəlman və türk xalqları bütün ümidlərini Osmanlı dövlətinə bağlamışdılar.

Dünya müharibəsi başlayanda aydın oldu ki, Rusiyanın Azərbaycan xalqı içərisində heç bir dayağı yoxdur. Əhali içərisində Anti-Rusiya əhvali-ruhiyyəsi getdikcə güclənirdi. Difai partiyasının üzvləri 1915-ci ilin fevral ayında ***Aslan xan Xoyskini*** Osmanlı dövlətinə göndərdilər. O, Osmanlı dövlətinin hərbi naziri ***Ənvər paşa*** ilə görüşdü və ona *"Müstəqil Azərbaycan Respublikasının qurulması"* layihəsini təqdim etdi. Ənvər paşa bu layihəni bəyəndi.



*Ənvər paşa*

*Amerika tarixçisi T.Svetoxovski göstərir ki, Fətəli xan Xoyskinin qardaşı oğlu, difaiçilərin səlahiyyətli nümayəndəsi Aslan xan Xoyski Qafqaz cəbhəsində döyüş əməliyyatları zamanı sərhədi keçmiş və 1915-ci ilin fevral ayında Ərzuruma – Ənvər paşanın qərargahına gəlmişdi. Onun səfərinin məqsədi müstəqil respublika yaradılması üçün Osmanlı dövlətindən və Almaniyadan təminat almaq idi. Bu respublikaya Bakı, Yelizavetpol və İrəvan quberniyalarının, habelə Dağıstan və Terek vilayətlərinin daxil olması nəzərdə tutulmuşdu.*

M *Azərbaycanlıların Rusiya imperiyasına qarşı məhz Osmanlı dövlətindən yardım istəməsinin səbəblərini izah edin. Soykökü amili rol oynayırdımı?*

Qafqaz cəbhəsində Osmanlı dövləti ilə üz-üzə dayanan Rusiyanın əsas məqsədi İstanbulu və boğazları, Şərqi Anadolunu ələ keçirmək idi. Rusiya və onun müttəfiqləri Osmanlı imperiyasını bölüşdürmək istəyirdilər. Osmanlı dövlətində yaşayan ermənilərə isə "ərazi muxtariyyəti" verilməsi nəzərdə tutulurdu.

**Azərbaycanlıların müharibədə iştirakı.** Rusiya hökuməti bir əsrə yaxın idi ki, azərbaycanlıları hərbi qulluğa çağırmır, əvəzində kişi əhalidən hərbi vergi alırdı. Hökumət bu yolla azərbaycanlıları hərb sənətindən uzaqlaşdırmağa, döyüş təcrübəsindən məhrum etməyə çalışırdı. Hakimiyyət nümayəndələri yaxşı bilirdilər ki, Azərbaycan əhalisi Osmanlı dövlətinə böyük rəğbət, Rusiya hökumətinə isə dərin nifrət bəsləyir. Ona görə də Rusiya Qafqaz cəbhəsində türklərə qarşı vuruşmaq üçün yalnız erməni və gürcülərdən ibarət hərbi dəstələr yaratmışdı. Daşnaklar da Osmanlı dövlətinə qarşı döyüşmək üçün könüllü hərbi dəstələr göndərilməsində xüsusi fəallıq göstərirdilər.

**1914-cü ilin dekabrı – 1915-ci ilin yanvarında** Rusiya və Osmanlı qoşunları arasında baş vermiş ***Sarıqamış döyüşündə*** ruslar qələbə qazandılar. Məğlubiyyətin əsas səbəbi rusların canlı qüvvə və hərbi texnika cəhətdən böyük üstünlüyü, daha



LAYİHƏ

bir səbəbi isə havanın şaxtalı olması idi. Çoxlu sayda türk əsgər və zabiti donaraq öldü. Sarıqamış döyüşündən sonra Qafqaz cəbhəsində üstünlük rusların əlinə keçdi.



***Ermənilər tərəfindən qətlə yetirilən türklərin xatirəsinə ucaldılmış abidə və muzey. Türkiyə, İğdır***

*1915-ci ilin yazında Şərqi Anadoluda ruslara qarşı ağır döyüşlər baş verərkən ermənilər xəyanət edərək qiyam qaldırıb açıq şəkildə Osmanlı ordusuna arxadan zərbə vurdular. Rus ordusu irəlilədikcə ermənilərin türk-müsəlman və kürd əhaliyə qarşı qətl və qarətləri kütləvi hal aldı. Aprelin 15-də Vanda ermənilər türklərə qarşı yeni qətllər törətdilər. Qətllər İğdırda, Ərzurumda, Qarsda və bir çox bölgələrdə də həyata keçirildi.*

*Müharibə davam edərkən ermənilərin dinc əhaliyə qarşı qətliamlarına göz yumula bilməzdi. Aprelin 24-də İstanbulda əhalini Osmanlı dövləti əleyhinə çıxışlara təhrik edən erməni nümayəndələri həbs olundu. Mayın 27-də çıxarılan qanuna görə, ermənilərin Osmanlı imperiyasının şərq bölgələrindən daha içəriyə – İraq, Suriya və Livan bölgələrinə köçürülməsi qərara alındı.*

*Şərqi Anadoluda ermənilər tərəfindən türk-müsəlman əhaliyə qarşı həyata keçirilən soyqırımını müzakirə edin.*

| **I Dünya müharibəsində qəhrəmanlıq göstərən bəzi azərbaycanlılar** | |
|---|---|
| ***Əliağa Şıxlinski*** | • Rusiya ordusunda general-leytenant rütbəsinə qədər yüksələrək "rus artilleriyasının Allahı" adlandırılırdı.<br>• Birinci Dünya müharibəsi dövründə rus çarı dövlətin paytaxtı Petroqradın toplarla müdafiəsini şəxsən ona tapşırmışdı.<br>• Müharibənin sonunda ordu komandanı kimi çox yüksək vəzifəyə təyin olunmuşdu. |
| ***Səməd bəy Mehmandarov*** | • General **Səməd bəy Mehmandarov** müharibə başlayanda diviziya komandanı idi.<br>• Onun komandan olduğu diviziya 1914-cü ildə "Lodz əməliyyatı" zamanı alman qoşunlarına sarsıdıcı zərbə endirdiyinə görə, iki rus ordusu mühasirəyə düşmək rüsvayçılığından xilas oldu. |
| ***Hüseyn xan Naxçıvanski*** | • General-leytenant **Hüseyn xan Naxçıvanski** cənub-qərb cəbhəsində süvari diviziyasına komandanlıq edirdi. |
| ***İbrahim ağa Vəkilov*** | • Ordu qərargahında döyüş xəritələri hazırlamaq məqsədilə çox məsuliyyətli işə cəlb olunmuşdu. |
| ***Fərrux ağa Qayıbov*** | • ***İlk azərbaycanlı hərbi təyyarəçi*** *olan* **Fərrux ağa Qayıbov** Vilnüs səmasında döyüşdə almanların üç təyyarəsini vurmuş, özü isə həlak olmuşdu.<br>• Bu qəhrəmanlığına görə ona ölümündən sonra yüksək "Müqəddəs Georgi" ordeni verilmişdi. |

*Rusiya imperiyasının ordusunda xidmət edən daha hansı azərbaycanlı hərbçiləri tanıyırsız? Məlumat toplayın.*



LAYİHƏ



*Hüseyn xan Naxçıvanski*



*Fərrux ağa Qayıbov*

Rusiya hökuməti azərbaycanlı əhalidən hərbi xidmətə yalnız ali zümrənin nümayəndələrini cəlb edirdi. Onlar hərbi məktəbləri bitirdikdən sonra ordu sıralarında zabit kimi xidmətə başlayırdılar. Müharibə illərində rus ordusunda bəy və ağa nəslindən olan ***200 nəfərdən*** çox azərbaycanlı zabit qulluq edirdi.

Müharibə başlayandan sonra çarın göstərişi ilə Qafqaz müsəlmanlarının ali zümrəsindən atlı diviziya təşkil edildi. Bu diviziyada azərbaycanlı gənclərdən təşkil edilmiş ***"Tatar süvari alayı"*** döyüşkənliyi ilə çar generallarını heyrətə salmışdı.

**Müharibənin ölkənin iqtisadi vəziyyətinə təsiri.** Müharibə ölkəmizin iqtisadiyyatına mənfi təsir göstərdi. Qara dəniz boğazlarının bağlanması, hərbi yüklərin yalnız dəmir yolları ilə daşınması xaricə və Mərkəzi Rusiyaya məhsul göndərən müəssisələri çox ağır vəziyyətə saldı. Neft sənayesində durğunluq böhranla əvəz olundu. Qazma işləri, neft hasilatı və emalı azaldı. Bütün bunlara baxmayaraq, müharibə dövründə Rusiyada çıxarılan neftin 80 faizdən çoxu Şimali Azərbaycanın payına düşürdü.

Müharibə dövründə Gədəbəy misəritmə zavodu hərbi sifariş yerinə yetirən müəssisələr siyahısına salındı. Ona görə də zavodun qeyri-müsəlman işçilərinə möhlət verildi.

Dövlət Azərbaycanın yüngül və yeyinti sənayesini tamamilə nəzarət altına almışdı. H.Z.Tağıyevin toxuculuq fabriki dövlət sifarişləri əsasında işləyirdi. Azərbaycanın bütün xam ipəyi Rusiya fabriklərinə göndərilirdi. Tütün və duz istehsal edən bütün müəssisələr dövlət inhisarına alındı və məhsulları cəbhənin ehtiyacları üçün göndərildi. 1915-ci ildə verilmiş çar fərmanına görə, 18–23 yaş arasında ***50 minə yaxın azərbaycanlı gənc*** cəbhə arxasında yardımçı işlərə səfərbər edildi. Gənclərin cəbhəarxası işlərə cəlb olunması, iş heyvanlarının, xüsusilə atların müsadirə edilməsi kənd təsərrüfatına mənfi təsir göstərdi.

*Müharibənin Şimali Azərbaycanın müxtəlif iqtisadiyyat sahələrinə fərqli təsirinin səbəblərini müəyyən edin.*

Müharibə əhalinin güzəranına çox ağır təsir göstərdi. Zəruri ərzaq məhsullarının qiyməti üç-beş dəfədən çox bahalaşdı. Bakı şəhərinə dəmir yolu ilə taxıl gətirilməsi yarıbayarı azaldı. Üstəlik, şəhərdə iri qoşun hissələrinin yerləşdirilməsi, cəbhə bölgələrindən Bakıya çoxlu qaçqın gəlməsi ilə bağlı əhalinin sayı artdı. Nəticədə, şəhərdə ərzaq böhranı daha da dərinləşdi.

**Cənubi Azərbaycanın hərbi əməliyyatlar meydanına çevrilməsi.** Müharibə Qacarlar dövlətinin tərkibində olan Cənubi Azərbaycana da böyük fəlakətlər gətirdi. Sarıqamış döyüşündə qalib gələn ruslar **1915-ci il yanvarın 15-də *Təbriz şəhərini*** ələ keçirdilər. Rus ordusu Osmanlı hərbi qüvvələrini Cənubi Azərbaycandan tamamilə sıxışdırıb çıxardı. 1917-ci il Fevral inqilabından sonra ruslar bölgəni tərk edən kimi ingilis qoşunları hərəkətə keçdi və qısa müddət ərzində Cənubi Azərbaycanı işğal etdilər. Qacar hökumətinin tam gücsüzlüyü üzə çıxdı. Belə vəziyyətdən istifadə edən

LAYİHƏ

erməni və aysorlar[1] silahlı dəstələr yaradaraq azərbaycanlılara qarşı soyqırımları törətdilər. **1918-ci ilin yaz aylarında** onlar ***Urmiya, Xoy, Salmas*** və ***Təbriz*** şəhərlərində çoxlu sayda dinc əhalini qətlə yetirdilər. 1918-ci il martın 21-də Urmiyada törədilən soyqırımının miqyası daha böyük idi. On min nəfərə yaxın günahsız Azərbaycan türkü məhv edildi. Bu qanlı hadisə tarixə ***"Urmu bəlası"*** kimi düşdü. Cənubi Azərbaycanda demokratik qüvvələrə başçılıq edən **Şeyx Məhəmməd Xiyabani** dərhal könüllü fədai dəstələri yaradaraq erməni-aysor qüvvələrinin üzərinə göndərdi. Qardaş Osmanlı dövləti də bölgəyə qoşun yeritdi. Nəticədə, kütləvi qırğınların qarşısı alındı.

***SUAL VƏ TAPŞIRIQLAR:***

1. *Nəyə görə Azərbaycan böyük dövlətlərin planlarına daxil edilmişdi? Bakı neftinin müharibədə rolu nədən ibarət idi?*
2. *Azərbaycanlıların müharibəyə kütləvi cəlb olunmamasının nəticələrini təhlil edin.*
3. *Müharibə dövründə azərbaycanlı nümayəndələrin Osmanlı dövlət xadimləri ilə əlaqələrini təhlil edin.*
4. *Azərbaycanlı generalların Birinci Dünya müharibəsində iştirakına aid təqdimat hazırlayın.*
5. *Birinci Dünya müharibəsində türk-müsəlman əhaliyə qarşı erməni vəhşilikləri haqqında məlumat toplayın və müasir dövrlə əlaqələndirin.*

# 20. Azərbaycan 1917-ci il Fevral inqilabından sonrakı dövrdə

Siz artıq inqilabın nə olduğunu bilirsiniz. Avropa ölkələrində burjua inqilabları feodal qaydalarına ağır zərbə vurdu. Belə bir inqilab Rusiyada da baş verdi. Bu inqilab Şimali Azərbaycana necə təsir etdi? Azərbaycan ictimaiyyətinin – ziyalıların, milli burjuaziya nümayəndələrinin, fəhlələrin və kəndlilərin bu hadisəyə münasibətləri necə oldu?

Fevral inqilabı, Xüsusi Cənubi Qafqaz Komitəsi, M.Y.Cəfərov, Müsəlman Milli Şurası, N.Yusifbəyli, Oktyabr çevrilişi, Bakı Soveti, Ərzincan barışığı, Cənubi Qafqaz Komissarlığı və Seymi

**Yeni hakimiyyət orqanlarının yaradılması.** **1917-ci ilin Fevral inqilabı** Rusiyada mütləq monarxiyaya, Romanovlar sülaləsinin hakimiyyətinə son qoydu. Çar II Nikolay taxtdan salındı. Bu hadisə Rusiyanın bütün müstəmləkələrində, o cümlədən Şimali Azərbaycanda böyük sevinclə qarşılandı. "Molla Nəsrəddin" jurnalı mütləqiyyətin devrilməsini xalqımız üçün xoşbəxtlik hesab edirdi.

İnqilab nəticəsində Rusiyanı idarə etmək üçün Müvəqqəti hökumət yaradıldı. Müvəqqəti hökumət Qafqaz canişinliyini ləğv etdi. Onun yerində ***Xüsusi Cənubi Qafqaz Komitəsi*** yaradıldı. Komitənin tərkibinə Dördüncü Dövlət Dumasına Cənubi Qafqazdan seçilmiş yerli nümayəndələr daxil idi.

[1] **aysorlar** – qədim assuriyalıların xristianlığı qəbul etmiş müasir nümayəndələri



LAYİHƏ

Xüsüsi Cənubi Qafqaz Komitəsində azərbaycanlı əhalini **Məmməd Yusif Cəfərov** təmsil edirdi.

**1917-ci ilin martında** Müvəqqəti hökumətin Bakıda yerli hakimiyyət orqanı – ***İctimai Təşkilatların İcraiyyə Komitəsi*** yaradıldı. Şimali Azərbaycanın qəza və şəhərlərində icraiyyə komitələri təşkil olundu.



*Məmməd Yusif Cəfərov*

**Milli azadlıq hərəkatının yüksəlişi.** İnqilabdan sonra milli qüvvələr fəallaşdılar. Milli azadlıq hərəkatı keyfiyyətcə yeni mərhələyə daxil oldu. Demokratik ziyalıların rəhbərlik etdikləri hərəkata əhalinin daha geniş təbəqələri qoşuldu. Gizli fəaliyyət göstərən milli qüvvələr, o cümlədən Müsavat partiyası açıq fəaliyyətə başladı. Gəncədə yeni bir milli təşkilat – ***Türk Ədəmi-Mərkəziyyət (federalistlər) partiyası*** yaradıldı. Partiyanın sədri **Nəsib bəy Yusifbəyli** idi. Bu partiya Rusiyada yaşayan bütün türk xalqlarının vahid qüvvə kimi birləşməsi və öz hüquqları uğrunda birlikdə mübarizə aparmaları vəzifəsini irəli sürürdü. Federalistlərlə Müsavat partiyası nümayəndələri əsas prinsipial məsələlərdə eyni mövqedən çıxış etdiklərinə görə, 1917-ci ilin iyun ayında bir partiyada birləşdilər. Şimali Azərbaycanın hər yerində Müsəlman Milli Şuraları fəaliyyətə başladı. Bu təşkilatlar birləşərək ***Müsəlman Milli Şurasının İcraiyyə Komitəsini*** yaratdılar. Milli qüvvələr Rusiyada demokratik federativ respublika qurulmasını istəyirdilər. **1917-ci ilin mayında** Moskvada keçirilən ***Ümumrusiya müsəlmanları qurultayında*** onlar Rusiyanın federativ respublika olması, onun tərkibində türk və müsəlman xalqlarına milli ərazi muxtariyyəti verilməsi tələbini irəli sürdülər.



*Nəsib bəy Yusifbəyli*

**Fevral inqilabından sonra milli azadlıq hərəkatının əsas vəzifələri**

- Müvəqqəti hökumətin Azərbaycan xalqına münasibətdə yeritdiyi milli ayrı-seçkilik siyasətinin qarşısını almaq
- Rəhbər heyəti rus və ermənilərdən ibarət olan Bakı Sovetinin xalqımızın milli mənafeyinə zidd olan fəaliyyətinə qarşı mübarizə aparmaq
- Azərbaycanlı əhaliyə qarşı ermənilər tərəfindən törədilən soyqırımlarının qarşısını almaq

LAYİHƏ

Fevral inqilabının yaratdığı imkanlardan Bakıdakı digər siyasi qüvvələr də istifadə etməyə başladılar. Belə qüvvələrdən biri Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının yerli təşkilatını təmsil edən bolşeviklər idi. Bolşeviklər azərbaycanlılara qarşı “vahid və bölünməz Rusiya” ideyasını təbliğ edən eser və menşeviklərlə, həmçinin daşnaklarla bir cəbhədə çıxış edirdilər. Bu antimilli qüvvələr xalqımızın azadlıq mübarizəsinə hər vasitə ilə mane olmağa çalışırdılar. Onlar **1917-ci ilin martında Bakıda** yenidən ***Fəhlə Deputatları Soveti*** (**Bakı Soveti**) yaratdılar. Bu qurumun rəhbərliyində bir nəfər də azərbaycanlı yox idi.

Bakı Sovetinə xalqımızın qəddar düşməni Stepan Şaumyan rəhbərlik edirdi. O, Müsavat partiyasının azərbaycanlı əhali içərisində çox böyük nüfuza malik olmasından bərk narahat idi. Çünki bu partiya 1917-ci ilin payızında Bakı Sovetinə seçkilərdə bolşeviklərdən dəfələrlə çox səs toplamışdı. Lakin Müsavat partiyasının rəhbərliyi Bakı Sovetində xalqımızın düşmənləri ilə işləməkdən imtina etdi və Bakı Soveti bolşevik-daşnak qüvvələrinin nəzarətində qaldı. **1917-ci ilin oktyabrında *Müsavat partiyasının birinci qurultayında*** ilk məqsədin Rusiya tərkibində ərazi muxtariyyətinə nail olmaq, son məqsədin isə müstəqil Azərbaycan dövləti yaratmaq olduğu bildirildi. Xalqımızın qabaqcıl nümayəndələri 1917-ci ildə bu çətin vəzifələrin öhdəsindən gəlmək üçün bütün qüvvələri birlikdə hərəkət etməyə çağırırdılar.

**1917-ci ilin oktyabrında *Rusiyada bolşevik çevrilişi baş verdi*.** Müvəqqəti hökumət devrildi. V.İ.Lenin başda olmaqla Sovet hökuməti – Rusiya Xalq Komissarları Soveti quruldu. Bolşeviklər Rusiyanın tərkibində olan xalqların öz müstəqil dövlətlərini yaratmaq hüququnu qəbul etsələr də, onları Sovet Rusiyasının tərkibində saxlamağın yeni yollarını axtarırdılar. Sovet Rusiyası Şimali Azərbaycanda fəaliyyət göstərən bütün antimilli qüvvələrdən, ilk növbədə, daşnaklardan və erməni Milli Şurasından bu işdə istifadə etməyə çalışırdı. Rusiyada bolşevik Sovet hökuməti yaranmasından ruhlanan Bakı Sovetinin bolşevik rəhbərliyi noyabrın 2-də Bakıda Sovet hakimiyyəti qurulduğunu elan etdi. Lakin şəhərin azərbaycanlı əhalisi yeni hakimiyyəti qəbul etmədi. F.Xoyskinin başçılıq etdiyi Bakı Şəhər Duması fəaliyyətini davam etdirdi.

**Azərbaycanlı nümayəndələrin Cənubi Qafqaz Komissarlığında fəaliyyəti.** Oktyabr çevrilişi nəticəsində Xüsusi Cənubi Qafqaz Komitəsi fəaliyyətini dayandırdı. Cənubi Qafqazın siyasi qüvvələri azərbaycanlı, gürcü və erməni siyasi xadimlərin təmsil olunduqları ***Cənubi Qafqaz Komissarlığı*** adlanan yeni bir hökumət yaratdılar. Cənubi Qafqaz Komissarlığının xarici siyasət sahəsində ilk müstəqil addımı **1917-ci il dekabrın 5-də** Osmanlı dövləti ilə ***Ərzincan barışığı*** imzalaması oldu. Barışığa görə, Qafqaz cəbhəsində hərbi əməliyyatlar dayandırıldı. Şərqi Anadolunu işğal etmiş rus qoşunları bölgədən tamamilə çəkildi. Həmin qoşunların tərkibində çoxlu sayda erməni və gürcü hərbi dəstələri də var idi. Rus qoşunları cəbhəni tərk edərək silah-sursatın çox hissəsini onlara verdi. Rusların silah verdiyi dəstələrdən birinə türk-müsəlman əhalisinə qarşı vəhşiliklər törətməsi ilə məşhur olan Andranik başçılıq edirdi. Tiflis–Bakı dəmir yolu ilə cəbhədən qayıdan rus hərbi hissələri yolboyu Azərbaycan kəndlərinə ciddi ziyan vurdular. 200 türk-müsəlman kəndini tamamilə dağıtdılar, əhalisini soyub taladılar. Cəbhədən dönən rus hərbi dəstələri yalnız xristian yaşayış məntəqələrinə toxunmurdular. Çoxlu sayda rus əsgər və zabiti Mərkəzi Rusiyaya qayıtmayıb Bakı Sovetində hərbi qulluğa girdi. Cənubi Qafqazda silahsız qalan yalnız azərbaycanlı əhali idi.



LAYİHƏ

Azərbaycanlı siyasi xadimlərin tələbi ilə Cənubi Qafqaz Komissarlığı cəbhədən qayıdan rus hərbi dəstələrindən birinin Şəmkir stansiyasında tərk-silah edilməsi və bütün silahlarının azərbaycanlılara təhvil verilməsi haqqında qərar qəbul etdi. Şəmkirdə silahları təhvil vermək istəməyən rus hərbçiləri ilə azərbaycanlılar arasında 1918-ci ilin yanvar ayında silahlı toqquşma oldu. Rus əsgərləri zor gücünə tərk-silah edildilər.

**Milli hərbi qüvvələrin yaradılması.** Azərbaycan xalqına düşmən olan bütün qüvvələr, xüsusilə bolşeviklər və daşnaklar çoxlu hərbi dəstələr yaratdılar. Bakı Sovetinə bağlı olan dəstələr Rusiyanın Qafqaz cəbhəsinin və İranı tərk edən rus ordu hissələrinin hesabına sürətlə silahlanırdılar. S.Şaumyanın başçılıq etdiyi Bakı Soveti azərbaycanlılara qarşı milli qırğın hazırlayırdı. Xalqımızın başı üzərindəki bu təhlükənin qarşısını almaq üçün təcili olaraq milli hərbi qüvvələr yaradılmalı idi. Ona görə də Azərbaycanın vətənpərvər qüvvələrini birləşdirən Müsəlman Milli Şuraları milli hərbi dəstələrin yaradılmasına başladı. Oktyabr çevrilişindən sonra Vətənə qayıtmış “Tatar süvari alayı” Müsəlman Milli Korpusunun özəyini təşkil etdi.



***Tatar süvari alayının döyüşçüləri***

*Tatar süvari alayı Şimali Qafqazın müsəlman əhalisindən toplanmış alaylarla birlikdə Qafqaz Müsəlman atlı diviziyası adı ilə 1914-cü ilin payızında Cənub-qərb cəbhəsinə göndərilmişdi. Bu cəbhədə Rusiya Avstriya-Macarıstanla döyüşürdü. Jurnalist İlya Tolstoy (Lev Tolstoyun oğlu) bu diviziyaya həsr olunmuş oçerkində yazırdı: “Qafqaz yerli diviziyası ilə ilk tanışlığım Lvovda, komandirin ona baxış keçirdiyi gün oldu. Hamısı bir-birindən əzəmətli süvari alayları nizami qaydada gəlib-keçdilər. Bütün şəhər camaatı bir saat ərzində indiyə qədər görmədikləri bu gözəl mənzərəni böyük heyranlıqla izlədilər... Milli döyüş mahnıları ifa edilən zurna sədaları altında, qırmızı papaqlı, gümüş və qızıl işləməli silahlarla silahlanmış, qarayanız üzlərindən milli qürur, cəsurluq yağan qıvraq döyüşçülər oynaq atlarının belində qarşımızdan keçdilər. Onların daxil olduğu Qafqaz Müsəlman atlı diviziyası “vəhşi diviziya” ləqəbi almışdı. Bu, qafqazlı döyüşçülərin qorxmazlığından, şücaətindən, cəsurluğundan xəbər verirdi”.*

M

*Qafqaz Müsəlman atlı diviziyasının döyüş yolu haqqında məlumat toplayın.*
*İ.Tolstoyun təsvirində xalqımızın hansı xüsusiyyətləri öz əksini tapmışdır?*



LAYİHƏ

Eyni zamanda Bakıda, Gəncədə və Lənkəranda müsəlman hərbi hissələrinin təşkil edilməsinə, azərbaycanlı gənclərdən zabit kadrların hazırlanılmasına başlanıldı. Hərbi qüvvələrin yaradılmasında əsas çətinlik silah çatışmazlığı idi. Gəncə Milli Şurası şəhərdə yerləşən rus alayını və Qafqaz cəbhəsindən qayıdan bir neçə hərbi qatarı tərk-silah etdi. Nəticədə, müəyyən qədər silah və sürsat ələ keçirildi.

*Müsəlman hərbi hissələri yaradılmasının əhəmiyyətini izah edin.*

**Azərbaycan nümayəndələrinin Cənubi Qafqaz Seymində fəaliyyəti. 1918-ci ilin fevralında *Cənubi Qafqaz Seymi*** fəaliyyətə başlayandan sonra Cənubi Qafqaz Komissarlığı öz işini dayandırdı. Azərbaycanın siyasi qüvvələri Cənubi Qafqazın ali qanunverici hakimiyyət orqanı olan Seymdə ***44 deputatla*** təmsil olunmuş və ayrıca fraksiya yaratmışdılar. 1918-ci il martın 3-də Sovet Rusiyası ilə Almaniya və müttəfiqləri arasında ***Brest-Litovsk sülh müqaviləsi*** bağlanması Cənubi Qafqazda mövcud siyasi vəziyyətə ciddi təsir göstərdi. Müqavilənin şərtinə görə, Rusiya 40 il öncə Osmanlı dövlətindən qopardığı Qars, Ərdəhan və Batum vilayətlərini geri qaytarmalı idi. Bu şərt Seymdəki gürcü və erməni nümayəndələrini bərk təşvişə saldı. Onlar bu qədim türk torpaqlarını quracaqları dövlətlərin tərkibində görmək arzusunda idilər. Tezliklə Seymin azərbaycanlı, gürcü və erməni nümayəndələrindən ibarət heyəti Trabzonda Osmanlı dövlətinin təmsilçiləri ilə sülh danışıqlarına başladı. Osmanlı dövləti Seym qarşısında iki əsas tələb qoydu:



*Brest-Litovsk sülh müqaviləsinin imzalanması. 3 mart 1918-ci il*



LAYİHƏ

1. Seym Cənubi Qafqazın müstəqilliyini elan etsin;
2. Qars, Ərdəhan və Batum vilayətlərini dərhal boşaltsın.

*Cənubi Qafqaz Seymində bir-birinə zidd mövqelərin olması bu qurumun aqibəti haqqında fikir söyləməyə imkan verirmi? Fikrinizi əsaslandırın.*

Lakin Seymin gürcü-erməni çoxluğu bu tələbləri qəbul etmədi. Cənubi Qafqaz nümayəndə heyəti Trabzon sülh konfransını yarımçıq tərk etdi. Erməni və gürcü fraksiyalarının tələbi ilə Seym Osmanlı dövlətinə qarşı müharibəyə başladı. Bu qərara qəti etiraz edən Azərbaycan fraksiyasının mövqeyi isə nəzərə alınmadı.

Osmanlı hərbi qüvvələri ilə bir neçə gün döyüşən erməni-gürcü hərbi qüvvələri ağır məğlubiyyətə uğradı. Nəticədə, Seym Osmanlı dövlətinin hər iki tələbini qəbul etdi. Seymin **1918-ci il aprelin 22-də** keçirilən iclasında müstəqil ***Cənubi Qafqaz Federativ Demokratik Respublikası*** yaradıldığı elan edildi. Osmanlı dövləti ilə yenidən danışıqlar aparılması üçün Batumda sülh konfransı çağırılması təklifi qəbul olundu.

***SUAL VƏ TAPŞIRIQLAR:***

1. *Fevral inqilabının Şimali Azərbaycan üçün nəticələrini müəyyən edin.*
2. *Milli azadlıq hərəkatının yüksəlişinin səbəbi nə idi?*
3. *Ümumrusiya müsəlmanlarının Moskva qurultayı ilə Müsavat partiyasının birinci qurultayında müzakirə olunan məsələləri müqayisə edin.*
4. *Cənubi Qafqaz Komissarlığı və Cənubi Qafqaz Seyminin fəaliyyətini cədvəl əsasında izah edin.*
5. *Bakı Sovetinin Anti-Azərbaycan siyasəti yeritməsini əsaslandırın.*

## 21. Mədəniyyət

XX əsrin əvvəllərində Şimali Azərbaycanda ictimai-siyasi vəziyyət çox ağır olaraq qalırdı. Bununla bərabər, istər təhsil və elm, istərsə də ədəbiyyat və incəsənət sahələrində ciddi inkişaf baş vermişdi. Təhsildə hansı yeniliklər baş verdi? Elmin hansı sahələri inkişaf etdi? Mətbuatda hansı məsələlər işıqlandırıldı? Qadınların ictimai-mədəni həyatda iştirakı hansı səviyyədə idi?

H.Z.Tağıyevin qız məktəbi, F.Köçərli, “Vətən dili” dərsliyi, “Həyat” qəzeti, “Molla Nəsrəddin” jurnalı, “Leyli və Məcnun” operası, “İsmailiyyə” binası

**Təhsil və elm.** XX əsrin əvvəllərində Şimali Azərbaycanda təhsilin inkişafında ciddi maneələr qalmaqda idi. Hökumət təhsilə çox az vəsait ayırırdı. Dövlətin açdığı məktəblərdə təhsil rus dilində – ruslaşdırma siyasətinə xidmət edilərək aparılırdı. Vətənpərvər maarifçilərimiz belə ağır şəraitdə milli-mənəvi dəyərlərimizi qoruyub saxlamaq üçün bütün mümkün vasitələrdən istifadə edirdilər. Onlar ana dilində təhsil verən məktəblər açır, milli ruhda dərslik və proqramlar yazırdılar. Yeni dərsliklərin



LAYİHƏ

hazırlanmasında **Abdulla Şaiq** və **Həbib bəy Mahmudbəyovun** böyük xidmətləri olmuşdur. ***Azərbaycan müəllimlərinin birinci qurultayında*** icbari ibtidai təhsilə keçilməsi, təhsilin ana dilində aparılması tələbləri irəli sürülmüşdü.

Çar hökumətinin qəbul etdiyi 1912-ci il Əsasnaməsinə görə, şəhər məktəbləri ibtidai və yuxarı sinifli məktəblərə çevrildi. XX əsrin əvvəllərində Şimali Azərbaycanda tam orta təhsil verən məktəblərin sayı artdı.

Bu dövrdə dini mövhumat üzündən qızları dünyəvi məktəblərə cəlb etmək olduqca çətin idi. Maraqlıdır ki, dövrün ali ruhani başçıları olan şeyxülislam A.Ə.Axundzadə və M.M.Pişnamazzadə islam ehkamları əsasında hər bir müsəlmanın, o cümlədən qızların da təhsil almaq hüququnu müdafiə edirdilər. Vətənpərvər xeyriyyəçi H.Z.Tağıyevin **1901-ci ildə *azərbaycanlı qızlar üçün ilk dünyəvi məktəb açması*** böyük hadisə oldu. Belə bir məktəb bir il sonra Gəncədə də açıldı.



*Firidun bəy Köçərli*

Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi və İrəvan Müəllimlər Seminariyası XX əsrin əvvəllərində azərbaycanlı müəllimlərə olan böyük ehtiyacı ödəmək gücündə deyildi. **Firidun bəy Köçərli** və digər ziyalılarımızın böyük səyləri nəticəsində Gəncədə və Bakıda Müəllimlər Seminariyaları fəaliyyətə başladı.

XX əsrin əvvəllərində Cənubi Azərbaycanda təhsil məktəb və mədrəsələrdə həyata keçirilirdi. Ana dilli məktəblərin çoxu Təbriz şəhərində idi. Ana dili fənni böyük maarifçi ***Mirzə Həsən Rüşdiyyənin*** "Vətən dili" dərsliyi əsasında tədris olunurdu.

Bu dövrdə Şimali Azərbaycanda elmin müxtəlif sahələri inkişaf edirdi. Elmi ictimaiyyət içərisində Həsən bəy Zərdabi, Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə böyük şöhrət qazanmışdılar. Fransanın Sorbonna Universitetini bitirmiş Əhməd bəy Ağayev şərqşünas alim kimi Avropa ölkələrində yaxşı tanınırdı. Ə.Hüseynzadənin əsərləri Şərq və Qərb ölkələ-



***H.Z.Tağıyevin qız məktəbinin müəllim və tələbələri***

*Böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin sərmayəsi ilə qız məktəbinin binasının tikilib başa çatması Həsən bəy Zərdabinin illərlə ürəyində gəzdirdiyi arzusunu reallaşdırmağa imkan verdi. Ancaq bu məktəbdə müdir kimi işləməyə savadlı müsəlman qadın müəllim tapılmırdı. İçərişəhərdə Axund Abuturab ağa iki qızını bu məktəbə yazdırdığına görə onu namaz üstə öldürmüşdülər. Belə bir şəraitdə Hənifə xanım Zərdabi heç nədən çəkinmədən qız məktəbində müdir işləməyə razı olmuş, burada oxuyan qızların mənəvi anasına çevrilmişdi.*

*H.Z.Tağıyevin qız məktəbi, sözün əsl mənasında, istedadlı qadınların ocağı idi.*

M *XX əsrin əvvəllərində qadınların problemlərini müəyyən edin.*



LAYİHƏ

rində geniş yayılmışdı. Məhəmməd ağa Şahtaxtinskinin əsərləri fransız alimləri tərəfindən çox yüksək qiymətləndirilirdi.

**İbrahim ağa Vəkilov, Qafur Rəşad Mirzəzadə** coğrafiya elminin inkişafı üçün böyük xidmətlər göstərmişdilər. Görkəmli alim Firidun bəy Köçərli Azərbaycan ədəbiyyatı tarixinin elmi əsaslarla öyrənilməsinin başlanğıcını qoymuşdu. **Rəşid bəy İsmayılov** və **Şeyx Həsən Mollazadə** Qafqaz və Azərbaycan tarixi üzrə əsərlər yaratmışdılar.

**Mətbuat.** 1903-cü ildə Tiflisdə Azərbaycan dilində ***"Şərqi-rus"*** qəzeti çıxmağa başladı. Qəzetin redaktoru M.Şahtaxtinski idi.

1905 – 1907-ci illər inqilabı dövründə Azərbaycan milli burjuaziyasının (H.Z.Tağıyev, M.Muxtarov) və böyük ziyalıların (Ə.Ağayev, Ə.Hüseynzadə və b.) səyləri ilə ***"Həyat", "İrşad", "Füyuzat", "İşıq"*** və digər qəzet və jurnallar nəşr olundu. Həmin mətbuat nümunələri xalqımızın milli şüurunun oyanması və milli dövlətçilik ideyalarının yayılmasında böyük rol oynadı. M.Ə.Rəsulzadənin redaktoru olduğu ***"Açıq söz"*** qəzeti dövrün vacib ictimai-siyasi problemlərini həmişə diqqət mərkəzində saxlayırdı.

Böyük mütəfəkkirimiz Cəlil Məmmədquluzadə tərəfindən **1906-cı ildən** Tiflisdə nəşr olunan ***"Molla Nəsrəddin" jurnalı*** milli mətbuatımızda xüsusi bir mərhələ oldu. Bu jurnalın nəşri ilə Yaxın Şərqdə satirik mətbuatın əsası qoyuldu. Azərbaycanla yanaşı, Rusiya və Şərq ölkələrində geniş yayılan "Molla Nəsrəddin" jurnalının Avropada, hətta Amerikada abunəçiləri var idi. "Molla Nəsrəddin" ədəbi məktəbi Azərbaycanda milli azadlıq hərəkatının əsas məqsədinə sədaqətlə xidmət edərək böyük bir ziyalı nəslinin yetişməsində əvəzsiz rol oynadı.

---

*Həmidə xanım Cavanşir-Məmmədquluzadə (Mirzə Cəlilin həyat yoldaşı) Şuşa qəzasının Kəhrizli kəndində zəmanəsinin görkəmli maarifçi ziyalısı, tarixçi Əhməd bəy Cavanşir ocağında dünyaya gəlmişdi. Həmidə xanım böyük xeyriyyəçi və qayğıkeş insan kimi tanınırdı. Qarabağın hər yerindən ona kömək üçün pənah gətirən insanların əlindən tutan, qayğılarını çəkən bu xanım həm də o dövrdə yardıma ehtiyacı olan ziyalıların problemlərini də həll edir. O, "Molla Nəsrəddin" jurnalının nəşrinə böyük maddi yardım göstərmişdi. Ciddi xəstəliyi olan Mirzə Ələkbər Sabir məhz Həmidə xanımın məsləhəti ilə Mirzə Cəlil tərəfindən Tiflisə müalicə üçün dəvət edilmişdi.*



***Həmidə xanım Cavanşir-Məmmədquluzadə***

---

İnqilab dövrü Cənubi Azərbaycanda da ana dilində bir çox qəzet və jurnallar nəşr olunmağa başlandı. 1906 – 1907-ci illərdə Təbrizdə Azərbaycan türkcəsində 20 qəzet və jurnal nəşr edilmişdi. ***"Azərbaycan"*** satirik jurnalı, ***"Ədalət"*** və "***Ana dili"*** qəzetləri Cənubi Azərbaycan türklərinin milli şüurunun oyanışı sahəsində əvəzsiz xidmətlər göstərmişdi.

**Ədəbiyyat.** Böyük ədibimiz Cəlil Məmmədquluzadənin bu dövrdə yazdığı əsərlər realist nəsrin gözəl nümunələri idi. Bu əsərlərdə yazıçı çar hökumətinin müstəmləkə siyasətini kəskin şəkildə tənqid edir və özbaşınalıqlara, xalqımızın hüquqsuz vəziyyətə salınmasına qarşı çıxırdı.



LAYİHƏ

XX əsrin əvvəllərində **Mirzə Ələkbər Sabir** Azərbaycan ədəbiyyatında satirik şeirin çox gözəl nümunələrini yaratmışdı. Sabirin əsərlərində xalqımızın istək və arzuları, azadlıq ideyaları tərənnüm olunurdu. Azadlıq hərəkatını alqışlayan şair mütləqiyyət quruluşunu, Şərq ölkələrində mövcud olan sultan və şah rejimlərini kəskin satira atəşinə tuturdu. Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev və digər yazıçıların əsərlərində də dövrün ağrılı problemləri əksini tapırdı.

Cənubi Azərbaycanda da ədəbiyyat özünəməxsus ənənələrini qoruyub saxlayırdı. Təbrizli ***Mirzə Əbdürrəhim Talıbov*** əsərlərində şah rejimini kəskin tənqid edirdi.

**İncəsənət.** XX əsrin əvvəllərində Azərbaycan incəsənəti yeni bir inkişaf mərhələsinə daxil oldu. İncəsənətin ən çox inkişaf etmiş sahələrindən biri milli teatr idi. **Cahangir Zeynalov, Mirzəağa Əliyev, Sidqi Ruhulla, Hüseynqulu Sarabski** milli teatrımızın çox istedadlı aktyorları idilər. **Hüseyn Ərəblinski** milli səhnəmizin ilk peşəkar aktyoru kimi tanınırdı. O, C.Məmmədquluzadənin "Ölülər" pyesini tamaşaya qoymuş, ***"Neft və milyonlar səltənətində"*** adlı ilk Azərbaycan bədii filminin çəkilişində iştirak etmişdi.

İlk azərbaycanlı qadın opera aktrisası **Şövkət Məmmədova** həmin dövrdə təqib və hədə-qorxulara baxmayaraq, seçdiyi yoldan dönməmişdi. Ş.Məmmədovaya qədər səhnəmizdə qadın rollarını da kişilər oynayırdılar.

**1909-cu ildə** Şimali Azərbaycandan gedən aktyorların köməyi ilə Cənubi Azərbaycanda – ***Təbrizdə ilk teatr tamaşası*** göstərilmiş, **1916-cı ildə** isə *ilk teatr binası* tikilmişdi.

Musiqi sənəti də öz inkişafında yeni bir mərhələyə qədəm qoymuşdu. Milli musiqimizin inkişafında bəstəkar **Üzeyir bəy Hacıbəylinin** böyük rolu vardı. Onun yaratdığı ilk milli operamız ***"Leyli və Məcnun"un*** **1908-ci ildə** Bakıda səhnəyə qoyulması təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində böyük mədəni hadisə oldu. "O olmasın, bu olsun" və "Arşın mal alan" musiqili komediyaları Üzeyir bəyə dünya şöhrəti qazandırdı. Digər bəstəkarımız **Müslüm Maqomayevin** Bakıda tamaşaya qoyulan ***"Şah İsmayıl"*** operası da musiqi sənətimizin qızıl fonduna daxil edildi. Xanəndələr **Cabbar Qaryağdıoğlu, İslam Abdullayev, Seyid Mirbabayev və tarzən Qurban Pirimov** muğam sənətimizin inkişafında əvəzsiz xidmətlər göstərdilər.





*Əzim Əzimzadənin çəkdiyi bu rəsmlər əsasında iki azərbaycanlı ailəsinin yaşam fərqini müqayisə edin.*



LAYİHƏ



***"İsmailiyyə" binası***

Böyük xanəndə Cabbar Qaryağdıoğlunu "müasir muğam sənətinin babası" adlandırırdılar.

Cənubi Azərbaycanda isə Əbülhəsən xan Azər bütün Qafqazda çox tanınmış ustad xanəndələrdən biri idi.

XX əsrin əvvəllərində tanınmış peşəkar rəssamlardan biri **Bəhruz Kəngərli** idi. Tiflis Rəssamlıq Məktəbini bitirən B.Kəngərlinin 300-dən çox rəsm əsəri vardı. **Əzim Əzimzadə** isə Azərbaycanda satirik qrafikanın görkəmli nümayəndəsi kimi tanınırdı. "Molla Nəsrəddin" jurnalına çəkdiyi karikaturalar və Mirzə Ələkbər Sabirin "Hophopnamə"sinə çəkdiyi şəkillər ona böyük şöhrət qazandırmışdı.

XX əsrin əvvəllərində Bakıda çoxlu sayda memarlıq abidələri də yaradılmışdı. Onların sırasında milyonçu Musa Nağıyevin inşa etdirdiyi "İsmailiyyə" binası öz möhtəşəmliyi ilə seçilirdi.

*XIX əsrin sonu – XX əsrin başlanğıcında Bakıda tikilmiş möhtəşəm binalara aid təqdimat hazırlayın.*

## SUAL VƏ TAPŞIRIQLAR:

1. *Şimali və Cənubi Azərbaycanda təhsil və elmin inkişafında əsas fərq nədən ibarət idi? Bunun səbəblərini müəyyən edin.*
2. *XX əsrin əvvəllərində mətbuat ictimai həyatda hansı rolu oynayırdı?*
3. *Nəyə görə M.Ə.Sabirin şeirləri realist poeziyanın zirvəsi hesab olunur?*
4. *XX əsrin əvvəllərində Azərbaycanda teatr və operanın inkişafına aid təqdimat hazırlayın.*
5. *"İsmailiyyə", Tağıyevin teatr binası və Qız məktəbi binasının memarları haqqında məlumat toplayın.*

LAYİHƏ

# *II bölmə.* Azərbaycan müasir dövrdə
## *IV fəsil.* Azərbaycan Xalq Cümhuriyyəti

## 22. Şimali Azərbaycanda türk-müsəlman əhaliyə qarşı soyqırımları

Hər il martın 31-də Azərbaycanlıların Soyqırımı Gününü hüznlə qeyd edirik. 1918-ci ilin soyqırımı qurbanlarını yad etmək uşaqdan böyüyə hər kəsin vətəndaşlıq borcudur. Xalqımıza qarşı törədilən soyqırımlarının dəhşətli mənzərəsi hələ də xatirələrdə yaşayır. Quba soyqırımından qalan kütləvi məzarlıq türk-müsəlman əhaliyə qarşı törədilmiş vəhşiliklərin bariz nümunəsidir. Bəs 1918-ci ildə baş verən kütləvi qırğınların arxasında kimlər dururdu? Bu qırğınlar necə hazırlanmışdı?

Mart soyqırımı, Bakı XKS, bolşevik-daşnak qüvvələrinin azərbaycanlı əhaliyə qarşı soyqırımları

**Daşnak-bolşevik qüvvələri tərəfindən törədilən Mart soyqırımı.** 1918-ci ilin ilk aylarında Cənubi Qafqaz Komissarlığı və Seyminin hakimiyyətinə tabe olmayan yeganə şəhər Bakı idi. Bakı Fəhlə Deputatları Sovetinin bolşevik rəhbərliyi 1917-ci il noyabrın 2-də Bakı şəhərində Sovet hakimiyyəti qurulduğunu elan etmişdi. Stepan Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin əsas dayağı V.İ.Leninin başçılıq etdiyi Sovet Rusiyası idi. V.İ.Lenin Cənubi Qafqaz xalqlarının milli azadlıq mübarizəsini diqqətlə izləyirdi. O, yaxşı başa düşürdü ki, Cənubi Qafqazda baş verən proseslər gec-tez müstəqil Azərbaycan dövlətinin yaradılması ilə nəticələnəcək. Bunun qarşısını almaq üçün Qafqazın Fövqəladə Komissarı təyin etdiyi S.Şaumyana neftlə zəngin olan Bakıda hakimiyyəti tam şəkildə ələ keçirməyi tapşırmışdı. Sonrakı mərhələdə isə bütün Azərbaycan işğal edilməli idi.

Bakı Soveti rəhbərliyi bu planın həyata keçirilməsinə 1918-ci ilin yanvarında başladı. Əvvəlcə şəhər əhalisinin ərzaqla təchizi, maliyyə və poçt-teleqraf üzərində nəzarət ələ keçirildi. Daha sonra Bakı Sovetinə tabe olan silahlı qüvvələrin yaradılmasına başlandı. Qafqaz cəbhəsindən geri dönən rus əsgər və zabitləri Bakı Soveti tərəfindən hərbi xidmətə cəlb olundu. Sovet Rusiyasından S.Şaumyanın sərəncamına pul, çoxlu sayda silah-sursat, top, hətta hərbi təyyarə göndərildi. Qafqaz cəbhəsindən və İrandan qayıdan minlərlə silahlı erməni hərbçisi də Bakıda yerləşdirildi.

Mart soyqırımı ərəfəsində Bakı Sovetinin ixtiyarında ***20 min nəfərə yaxın hərbi qüvvə*** var idi. 1918-ci il martın 15-də Bakı Soveti rəhbərliyi Daşnaksütyun partiyasının Bakı Komitəsi və digər erməni təşkilatları ilə birgə fəaliyyət haqqında gizli saziş bağladı. Beləliklə, xalqımıza düşmən olan qüvvələr milli qırğın törətmək üçün vahid cəbhədə birləşdilər. Bolşevik-daşnak qüvvələri Bakıda azərbaycanlıları kütləvi məhv etmək üçün hazırladıqları planı həyata keçirməyə başladılar.

Bakı Soveti rəhbərliyi şəhərin əsl sahibi olan türk-müsəlman əhalinin müdafiəçilərini tərk-silah etmək üçün hərəkətə keçdi. Martın 27-də Lənkərana yola düşməyə hazırlaşan ***“Evelina”*** gəmisindəki azərbaycanlı hərbçilər tərk-silah edildi.



LAYİHƏ

Bakı Soveti rəhbərliyinin müsəlman-türk əhaliyə qarşı soyqırımı törətməkdə məqsədləri

- **Sovet Rusiyasının Bakını işğal etmək, neft sərvətlərinə yiyələnmək planını həyata keçirmək**
- **Bolşeviklərin əsas rəqibi olan Müsavat partiyasının sosial bazasını məhv etmək**
- **Türk-müsəlman əhalini qırmaq, Bakını rus-erməni şəhərinə çevirmək**
- **Milli siyasi qüvvələrə divan tutmaq, xalqımızın azadlıq mübarizəsini başsız qoymaq**

**Martın 30-da Bakı Sovetinin rəhbərliyi altında daşnak-bolşevik hərbi qüvvələri şəhərdə türk-müsəlman əhaliyə qarşı soyqırımına başladı.** Üç gün davam edən qırğın nəticəsində on iki min nəfərədək dinc əhali ən amansız üsullarla qətlə yetirildi. Düşmən qocaya, qadına, hətta körpə uşaqlara belə vəhşicəsinə divan tutdu. Bakının nadir memarlıq abidəsi olan ***“İsmailiyyə” binası, Tağıyev teatrı, “Açıq söz” və “Kaspi” qəzetlərinin redaksiyaları*** yandırıldı, ***Təzəpir məscidi*** dağıdıldı. Mart soyqırımının əsas təşkilatçısı S.Şaumyan Bakıdakı qırğınlarla bağlı V.İ.Leninə rəsmi hesabatında yazmışdı: “Biz buna düşünülmüş şəkildə yol verdik... Biz döyüşlərdə parlaq qələbə qazanmışıq. Düşmən tamamilə darmadağın edilmişdir. Daşnaksütyun partiyasının köməyi ilə müsəlman “əks-inqilabı” ləğv edilmişdir. Əgər müsəlman “əks-inqilabı” qalib gəlsəydi, Bakını Azərbaycanın paytaxtı edərdi və Zaqafqaziya (Cənubi Qafqaz) Rusiya üçün itirilmiş olardı”. S.Şaumyan müsəlman “əks-inqilabı” dedikdə Bakı şəhərinin qətlə yetirilmiş dinc sakinlərini nəzərdə tuturdu.



***“İsmailiyyə” binası yanğından sonra***

*“İsmailiyyə” binasının sonrakı taleyi haqqında məlumat toplayın.*

Daşnak-bolşevik hərbi qüvvələri 1918-ci il aprelin əvvəlində milli qırğının miqyasını genişləndirməyə başladılar. Bu qüvvələr tərəfindən ***Şamaxı qəzasında 72 kənd dağıdıldı. 7 mindən çox türk-müsəlman əhali öldürüldü.*** Bu erməni vəhşiliyinin qurbanlarının əksər hissəsi qoca, qadın və uşaqlar idi. Şaumyanın köməkçisi S.Lalayanın əmri ilə Şamaxıda qoca, qadın və uşaqların sığındığı məscidlərə od vurularaq yandırıldı. Şaumyanın digər nümayəndəsi Hamazaspın silahlı dəstəsi Quba



LAYİHƏ

qəzasında 167 kəndi və Quba şəhərini yandırdı. ***Quba*** qəzasında ***6 mindən çox türk-müsəlman və yəhudi əhali*** qətlə yetirildi. ***Lənkəran qəzasında*** isə 3 min dinc sakin ermənilər tərəfindən öldürüldü.

Bakı quberniyasında türk-müsəlman əhaliyə qarşı soyqırımları 1918-ci il sentyabrın 15-dək, yəni Bakı şəhəri mənfur düşməndən azad olunana qədər davam etdi. Azərbaycan əhalisinə qarşı törədilən bu qırğınlarda erməni kilsəsinin və ziyalılarının nümayəndələri yaxından iştirak etmişdilər. Ümumiyyətlə, 1918-ci ilin mart–aprel ayları ərzində Bakı quberniyasında ***50 mindən çox türk-müsəlman əhali*** məhv edilmişdi.

Erməni quldurları tərəfindən Azərbaycanın ***Zəngəzur qəzasında*** 115 müsəlman kəndi talan edilərək yer üzündən silindi. Nəticədə, 10 mindən çox Azərbaycan türkü öldürüldü və ya şikəst edildi. ***Göyçə bölgəsində də*** bir çox Azərbaycan kəndi yandırıldı, insanlar qətlə yetirildi. Bu dəhşətli soyqırımı hadisəsini araşdırmaq üçün 1918-ci il iyulun 15-də Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ***Fövqəladə Təhqiqat Komissiyası*** yaradıldı. Komissiyanın topladığı sənədlərin birində yazılmışdı: "*Bakıda müsəlmanların evinə soxulan ermənilər onları xəncərlərlə və süngülərlə öldürür, uşaqları yanan alovların içərisinə atır, hətta 3-4 günlük körpələri süngüyə keçirir, heç kimə rəhm etmədən hamını öldürürdülər*". Düşmənin əsas məqsədlərindən biri də Azərbaycan əhalisinin var-dövlətini ələ keçirməkdən ibarət idi. Mart soyqırımı zamanı Bakının müsəlman əhalisi qətllə yanaşı qarətə də məruz qalmışdı. Azərbaycan könüllü dəstələri erməni hərbi birləşmələrini, yaxşı təşkil olunmasına və silahlanmasına baxmayaraq, Qarabağda, Göyçədə və Naxçıvanda darmadağın etdilər.

*Bakının "Kərpicxana" məhəlləsindəki dördüncü evdə ermənilərin törətdiyi cinayəti çəkməyə gələn fotoqraf V.Sokolov gördüyü mənzərədən dəhşətə gəlmişdi: "...Otağın döşəməsi üstündə 22-23 yaşında bir qadının, iki qoca qarının, 9 yaşlı qızın, 8 yaşlı oğlanın və bir südəmər körpənin cəsədi qalmışdı".*

*Mart hadisələrinin digər canlı şahidi Məhəmməd Muradzadə ürəkağrısı ilə yazmışdı ki, atasının cəsədini taparaq müsəlman qaydasında dəfn etdiyinə görə Bakı şəhər sakinlərinin çoxu ona qibtə edirdi. Çünki bir çox şəhidin cəsədi tapılmamışdı.*



**1918-ci ilin mart ayında Bakı soyqırımının qurbanları**

**Bakı XKS-nin antiazərbaycan siyasəti.** Mart soyqırımından sonra bolşeviklər və daşnaklar işğal etdikləri Bakıda tamamilə möhkəmlənmək üçün tədbirlər həyata keçirməyə başladı. Bolşevik və erməni mətbuatından başqa bütün qəzet və jurnallar bağlandı. Erməni Milli Şurasından başqa bütün Milli Şuraların fəaliyyəti qadağan edildi. Bakı Şəhər Duması buraxıldı. **Aprelin 25-də *Bakı Xalq Komissarları Soveti (XKS)*** yaradıldı. S.Şaumyanın sədrlik etdiyi bu qurum birbaşa Sovet Rusiyasının göstərişləri əsasında idarə olunurdu. Komissarlıqda bütün əsas vəzifələr ermənilərə tapşırılmışdı. Ona görə də bu işğalçı hökumət "erməni Sovet hökuməti" adlanırdı. Bankların milliləşdirilməsi[1] adı altında şəhər banklarında saxlanılan bütün pul və zinət

[1] **milliləşdirmək** – müəssisələri sahibkarların əlindən alıb, hökumətin ixtiyarına vermək



LAYİHƏ

əşyaları müsadirə olundu. Bu işə A.Mikoyan rəhbərlik edirdi. XKS-nin tərkibində iki nəfər azərbaycanlı bolşevik də var idi. Onlardan biri Məşədi Əzizbəyov şəhərin soyqırımı nəticəsində boş qalmış müsəlman hissəsinə komissar təyin edilmişdi.

Bakı XKS-nin **1918-ci ilin 2 iyun** tarixli dekreti ilə ***Azərbaycan neft sənayesi, 5 iyun tarixli dekreti ilə Xəzər dəniz ticarət donanması milliləşdirildi.*** 1918-ci ilin aprel–iyul ayları ərzində Bakı XKS-nin tədbirləri nəticəsində 1,3 milyon tona yaxın neft və neft məhsulları əvəzi ödənilmədən Sovet Rusiyasına daşınıb aparıldı.

Bakı XKS tamamilə qondarma və Azərbaycana yad olan bir qurum idi. Anti-Azərbaycan siyasəti yeridən bu qurumun sosial bazası çox zəifdi. Bakı XKS-nin yeganə dayağı olan milli qırğında simasını itirmiş hərbi dəstələrdə qulluq edən əsgərlərin yarıdan çoxu (13 min nəfər), zabitlərin isə hamısı erməni idilər. Hərbi qüvvələrə ümumi rəhbərliyi Azərbaycan əhalisinə qarşı soyqırımında xüsusi amansızlığı ilə fərqlənən Z.Avetisov, N.Kazaryan və Hamazasp həyata keçirirdi. Düşmən tapdağı altında olan Bakı şəhəri və soyqırımından güc-bəla ilə canını qurtara bilən şəhərin türk-müsəlman əhalisi xilas olacağı günü səbirsizliklə gözləyirdi.

**SUAL VƏ TAPŞIRIQLAR:**

1. *Mart soyqırımını törətmək fikri necə yarandı? Ermənilərin əsas məqsədi nə idi?*
2. *Mətnə əsasən bölgələrdə məhv edilmiş insanların və dağıdılmış yaşayış məskənlərinin sayını göstərən cədvəl qurun.*
3. *Bakı Xalq Komissarları Sovetinin idarəolunma fəaliyyətini izah edin.*
4. *Azərbaycan neft sənayesini və Xəzər ticarət donanmasını milliləşdirməkdə məqsəd nə idi? Fikirlərinizi əsaslandırın.*
5. *XKS-nin tərkibində olan azərbaycanlı bolşeviklər haqqında nə bilirsiniz?*
6. *Mart soyqırımına aid referat hazırlayın.*

# 23. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması

1918-ci ilin yazında dərinləşən siyasi böhrandan sonra Cənubi Qafqaz Seyminin dağılması reallaşdı. İlk vaxtlar muxtariyyət arzusunda olan milli ziyalılar və ictimai xadimlər bu reallığı daha tez dəyərləndirib müstəqillik uğrunda mübarizəyə səsləyən çıxışlar etməyə başladılar. Çünki Şimali Azərbaycandakı mürəkkəb siyasi vəziyyət, Bakı XKS-nin milli qırğın siyasəti və Seymin bu qırğınların qarşısını almaq üçün kəsərli tədbirlər görməməsi müstəqillik uğrunda mübarizəni labüd etmişdi. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması müstəqil dövlət kimi tanınmağımız üçün çox böyük tarixi əhəmiyyətə malik idi. Bəs Şimali Azərbaycan tam müstəqil ola bildimi? Xalqımızın mənfur düşmənləri cəzalandırıldımı?

AXC, Milli Şura, M.Ə.Rəsulzadə, F.Xoyski, Batum müqaviləsi, Qafqaz İslam Ordusu, Nuru paşa

LAYİHƏ

**“İstiqlaliyyət Bəyannaməsi”.** Cənubi Qafqaz Seyminin rəhbərliyi Qafqazın şərqində türk-müsəlman əhalinin məruz qaldığı soyqırımının qarşısını almaq üçün hər hansı təsirli tədbir görmək istəmirdi. Seymin erməni-gürcü çoxluğu Osmanlı dövlətinə qarşı müharibə aparmağı daha vacib sayırdı. Azərbaycan xalqı isə Osmanlı dövlətini bölgədə özünün yeganə dayağı, ümid yeri hesab edirdi. Belə vəziyyət Cənubi Qafqaz Seymi tərəfindən 1918-ci il aprelin 22-də elan olunmuş Cənubi Qafqaz Demokratik Federativ Respublikasında dərin siyasi böhran yaratdı. Nəticədə, Seymdə təmsil olunan xalqların ayrılaraq müstəqil dövlət yaratması zərurətə çevrildi. İlk olaraq Gürcüstan Seymdən çıxdı və dövlət müstəqilliyini elan etdi. Seymin Azərbaycan fraksiyası **mayın 27-də** keçirilən iclasında özünü ***Azərbaycan Milli Şurası*** elan etdi və ölkəmizin idarə olunması vəzifəsini öz üzərinə götürdü. *Milli Şuranın sədri vəzifəsinə Məhəmməd Əmin Rəsulzadə seçildi.*

***Milli Şura*** **1918-ci il mayın 28-də** ***“İstiqlaliyyət Bəyannaməsi”*** adlanan çox mühüm sənəd qəbul etdi. Bəyannamədə bildirilirdi:

1. Azərbaycan tamhüquqlu müstəqil dövlətdir. Cənubi Qafqazın cənub və şərq hissələrindən ibarətdir. Ali hakimiyyət Azərbaycan xalqına məxsusdur.
2. Azərbaycanın siyasi quruluş forması Xalq Cümhuriyyətidir.
3. Azərbaycan Xalq Cümhuriyyəti beynəlxalq birliyin bütün üzvləri ilə, xüsusən həmsərhəd xalqlar və dövlətlərlə qonşuluq əlaqələri yaradacaqdır.
4. Azərbaycan Xalq Cümhuriyyəti öz sərhədləri daxilində milliyyətindən, dinindən, cinsindən, ictimai vəziyyətindən asılı olmayaraq, bütün vətəndaşlarına tam vətəndaşlıq və siyasi hüquqlar verir.
5. Azərbaycan Xalq Cümhuriyyəti onun ərazisində yaşayan bütün xalqların sərbəst inkişafına şərait yaradacaqdır.
6. Müəssislər Məclisi çağırılana qədər Azərbaycanda ali hakimiyyət xalqın səsvermə yolu ilə seçdiyi Milli Şura və Milli Şuranın qarşısında cavabdeh olan Müvəqqəti Hökumət sayılır.

*“İstiqlaliyyət Bəyannaməsi”nin bəndləri əsasında Azərbaycan Xalq Cümhuriyyətinin demokratik, dünyəvi dövlət olduğunu əsaslandırın.*

Beləliklə, Azərbaycan xalqı müstəmləkə əsarətindən qurtularaq müstəqilliyə qovuşdu. Bundan sonra müstəqil dövlət quruculuğu başlandı. **1918-ci il mayın 28-də** Tiflisdə keçirilən Milli Şuranın iclasında ***Cümhuriyyətin ilk hökuməti*** təşkil olundu. Hökumət başçısı görkəmli siyasi xadim **Fətəli xan Xoyski** təyin edildi. Azərbaycan Xalq Cümhuriyyəti bütün türk və müsəlman dünyasında dünyəvi təməl üzərində qurulan ilk respublika oldu.



*Fətəli xan Xoyski*

**Batum müqaviləsinin bağlanması.** Birinci hökumət xalqımız üçün taleyüklü çox mühüm addım atdı. **1918-ci il iyunun 4-də** ***Batumda Osmanlı dövləti ilə sülh və dostluq müqaviləsi imzalandı.*** Müqavilədən sonra Osmanlı imperiyası Azərbaycan Xalq Cümhuriyyətini tanıyan ilk dövlət oldu. Müqavilənin dördüncü maddəsi dövlətimiz üçün həyati əhəmiyyət daşıyırdı. Həmin maddəyə əsasən, Osmanlı imperiyası Azərbaycana hərbi qüvvə ilə yardım göstərməyi öhdəsinə götürmüşdü və azsaylı milli silahlı dəstələr ölkəmizin təhlükəsizliyini qorumaq gücündə olmadığından Azərbaycanın hərbi yardım istəyinə dərhal müsbət cavab vermişdi. Bu məqsədlə iyun ayında **Nuru paşanın** başçılığı ilə Gəncəyə gələn Osmanlı hərbi qüvvələrinin nizami hərbi birlikləri və azərbaycanlı gənclərdən ibarət silahlı dəstələr əsasında ***Qafqaz İslam Ordusu*** təşkil edildi.

LAYİHƏ

Azərbaycan milli hökumətinin Osmanlı dövlətindən hərbi yardım alması Gürcüstan rəhbərliyi tərəfindən narazılıqla qarşılandı. Gürcüstan hökumətinin tələbinə əsasən, Azərbaycan Milli Şurası və hökuməti Tiflis şəhərini tərk etmək məc- buriyyətində qaldı və **iyun ayının 16-da *Gəncəyə*** köçdü. Bir gün sonra Azərbaycan Milli Şurası öz işini dayandırdı və bütün səlahiyyətlərini F.Xoyskinin başçılıq etdiyi ***ikinci hökumətə*** verdi. Bundan sonra qanunverici və icraedici orqan kimi fəaliyyət göstərməli olan hökumət Bakı şəhərini Azərbaycan xalqının düşmənlərindən azad etmək, öz hakimiyyətini ölkənin bütün ərazisində yaymaq üçün altı aydan gec olmayaraq Müəssislər Məclisini çağırmalı idi. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin tarixində “Gəncə dövrü” başlandı.




*Qafqaz İslam Ordusunun Azərbaycanda hərəkət planı*

**Bakının düşmənlərdən azad edilməsi.** Bakı XKS-nin silahlı dəstələri **iyunun 10-da** Gəncə istiqamətində hərbi əməliyyatlara başladı. Məqsəd Gəncə şəhərini və bütün Azərbaycanı ələ keçirmək idi. **1918-ci il iyunun 27-dən iyulun 1-dək *Göyçay yaxınlığında həlledici döyüş*** baş verdi. Azərbaycan-türk hərbi qüvvələrindən ibarət Qafqaz İslam Ordusu parlaq qələbə qazandı. Bakı XKS-nin qoşunları darmadağın edildi. Bu məğlubiyyət Bakı Sovetini bərk qorxuya saldı. İngilis hərbi qüvvələrini köməyə çağırmaq məsələsi gündəliyə çıxarıldı. Sovet Rusiyasından yetərincə hərbi yardım ala bilməyən S. Şaumyanın başçılıq etdiyi Bakı XKS – bolşevik-daşnak birliyi **1918-ci il iyulun 31-də** istefa verməyə məcbur oldu. Bir gün sonra eser-menşevik-daşnak ittifaqından yaranan ***“Sentrokaspi diktaturası”[1]nın*** da Bakı şəhərində heç bir dayağı yox idi. Bu diktaturanın atdığı yeganə doğru addım S.Şaumyan və onun silahdaşlarının Həştərxana qaçarkən həbs edilməsi oldu. Cinayətkarlar Azərbaycan xalqından qarət etdikləri çoxlu zinət əşyalarını, silah-sursatı özləri ilə



*Qafqaz İslam Ordusu Bakıda*

[1] **diktatura** – bütün dövlət hakimiyyətinin bir qrup adamın əlində cəmləşdirilməsi



LAYİHƏ

aparırdılar. Bakı komissarlarının ikinci dəfə Sovet Rusiyasına qaçmaq cəhdi də baş tutmadı. Mindikləri gəmi ingilislər tərəfindən Türkmənistana aparıldı. Orada Bakı XKS-nin rəhbərləri və digər cinayətkarlar eserlər tərəfindən güllələndilər. Mənfur düşmən öz layiqli cəzasını aldı. 1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusu Bakını düşmənlərdən azad etdi. Sentyabrın 17-də Azərbaycan hökuməti Gəncədən Bakıya köçdü. Bakı şəhəri Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtına çevrildi. Bakıya köçən Milli hökumət şəhərdə əmin-amanlıq yaratdı, milli, dini və siyasi mənsubiyyətindən asılı olmayaraq bütün əhalinin təhlükəsizliyini təmin etdi. Cümhuriyyət yarananda elan etdiyi prinsiplərə sadiq qaldığını bütün dünyaya nümayiş etdirdi. Bu, tarixdə bənzəri olmayan, yalnız bizim xalqa məxsus yüksək insanpərvərlik nümunəsi idi.




*Azərbaycan Xalq Cümhuriyyəti. 1918 – 1920-ci illər*

*Xəritəyə əsasən Azərbaycan Xalq Cümhuriyyətinin ərazisini müasir Azərbaycan Respublikasının ərazisi ilə müqayisə edin.*

## SUAL VƏ TAPŞIRIQLAR:

1. *Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı tarixi şəraiti təsvir edin.*
2. *“İstiqlaliyyət Bəyannaməsi”nin demokratik cəhətlərini müəyyən edin.*
3. *Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Tiflis və Gəncə dövründəki fəaliyyətinə dair cədvəl qurun.*
4. *Milli Şura yeni yaradılmış ikinci hökumətin qarşısına hansı vəzifələr qoymuşdu?*
5. *S.Şaumyanın bolşevik-daşnak hökuməti nə üçün istefa verdi?*
6. *Göyçay döyüşü haqqında təqdimat hazırlayın.*



LAYİHƏ

# 24. Dövlət quruculuğu sahəsində tədbirlər

Yeni dövlətin yarandığını elan etmək müstəqil dövlət qurmağın birinci mərhələsidir. Dövlətin strukturunu və milli ordusunu yaratmaq, daxili və xarici siyasət xəttini müəyyən etmək dövlət quruculuğunun ən çətin vəzifələridir. Şimali Azərbaycan da mürəkkəb siyasi proseslərin içərisində idi. Bu proseslərin inkişafetdirici və maneəyaradıcı tərəfləri vardı. Bəs Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruculuğu tədbirləri nədən ibarət idi?

Azərbaycan Parlamenti, Ə.Topçubaşov, N.Yusifbəyli, Dövlət bayrağı, Azərbaycan Korpusu, general S.Mehmandarov

**Parlamentli respublikanın qurulması**. Azərbaycan Xalq Cümhuriyyəti yarandığı gündən tarixi ərazilərimizə və milli dəyərlərimizə sahib çıxmağa başladı. Cümhuriyyət dövründə Şimali Azərbaycanın dəqiq müəyyən olunmuş ərazisi **97,3 min kvadrat kilometr** idi. Gürcüstan və Ermənistan Respublikası mübahisəli sayılan torpaqlara iddia qaldırmışdı. Həmin torpaqlarla birgə ümumi ərazimiz 114 min kvadrat kilometrə çatırdı. Respublikada **3,3 milyon** nəfərə yaxın əhali yaşayırdı.



*Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin iclası*

AXC parlamentli respublika idi. Qərbi Avropanın demokratik dövlətlərində və ABŞ-da olduğu kimi, hakimiyyət bölünürdü. Qanunverici hakimiyyət orqanı kimi parlament yaradılmışdı. İcraedici hakimiyyət hökumətə məxsus idi. Hökumət parlament qarşısında məsuliyyət daşıyırdı. Azərbaycan Parlamenti 1918-ci il dekabrın 7-də işə başladı. Milli Parlament təkpalatalı olub, 120 deputatdan ibarət idi. Azərbaycanda yaşayan bütün xalqlar və siyasi partiyalar parlamentdə təmsil olunurdu. Cümhuriyyətin yaradıcısı olan M.Ə.Rəsulzadə ilk iclasda bütün deputatlara müraciət edərək bildirdi ki, "Vətən qayğısını və millət duyğusunu" hər şeydən yüksək tutmaq lazımdır. Görkəmli dövlət xadimi **Ə.Topçubaşov** ***parlamentin sədri*** seçildi. Parlament mövcud olduğu müddətdə ölkə həyatının bütün sahələrinə aid yüzlərlə qanun qəbul etdi. **1918-ci il dekabrın 26-da *F.Xoyskinin*** başçılığı ilə ***üçüncü hökumət*** kabineti yaradıldı. ***Dördüncü və beşinci hökumət kabinetlərinə isə Nəsib bəy Yusifbəyli*** rəhbərlik etdi. Hökumət kabinetləri parlamentin nəzarəti altında fəaliyyət göstərirdi.

**Milli dövlət quruculuğu sahəsində tədbirlər.** Milli dövlət quruculuğu sahəsində çox mühüm addımlardan biri türk dilinin Azərbaycanın rəsmi dövlət dili elan edilməsi

LAYİHƏ



*Azərbaycan Xalq Cümhuriyyətinin ilk bayrağı*



*Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı*

oldu. Parlamentdə və hökumət idarələrində Azərbaycan-türk dili işlənir və rəsmi sənədlərin hamısı bu dildə yazılırdı. Dövlət himninin və Dövlət bayrağının qəbul edilməsi önəmli tarixi hadisə idi. Böyük bəstəkarımız Üzeyir Hacıbəylinin vətənpərvər şair Əhməd Cavadın sözlərinə yazdığı milli marş Dövlət himni kimi qəbul olundu. 1918-ci ilin iyununda hökumətin qərarı ilə üzərində ağ aypara və ağ səkkizguşəli ulduz təsviri olan qırmızı parçadan hazırlanmış bayraq Cümhuriyyətin Dövlət bayrağı kimi təsdiq edildi. Lakin **1918-ci il noyabrın 9-da** həmin bayraq ***mavi, qırmızı və yaşıl rəngli zolaqlardan ibarət,*** üzərində ağ aypara və ağ səkkizguşəli ulduz əks olunan ***yeni Dövlət bayrağı*** ilə əvəzləndi. Müstəqil dövlətimizin başı üzərində dalğalanan bayrağımızın bu üç rəngi türk milli mədəniyyətini, müasir Avropa demokratiyasını və İslam sivilizasiyasını təcəssüm etdirirdi.

Cümhuriyyət elan etdiyi təməl prinsiplərinə sadiq qalaraq **1919-cu ilin avqustunda "*Azərbaycan vətəndaşlığı haqqında" qanun*** qəbul etdi. Bu qanuna görə, milliyyətindən və dini mənsubiyyətindən asılı olmayaraq, özləri və ya valideynləri Azərbaycan ərazisində doğulmuş keçmiş Rusiya imperiyası təbəələri Azərbaycan vətəndaşları hesab edilirdilər. Cümhuriyyət türk-müsəlman dünyasında ilk dəfə kişilərlə qadınların hüquq bərabərliyini təmin etdi. Qadınlara seçib-seçilmək hüququ verildi. Maraqlıdır ki, həmin dövrdə Avropa ölkələrinin çoxunda qadınların kişilərlə hüquq bərabərliyi hələ rəsmiləşməmişdi. Milli hökumət tarixi yer adlarının bərpa edilməsi üçün mühüm addımlar atdı. *Yelizavetpol yenidən Gəncə, Qaryagin* qəzası *isə Cəbrayıl* qəzası adlandırıldı.

*AXC-nin həyata keçirdiyi tədbirlərin və verdiyi qərarların əhəmiyyətini təhlil edin.*

**Ordu quruculuğu**. Güclü ordu və donanma yaratmadan dövlət müstəqilliyini təmin etmək mümkün deyildi. Ona görə də hökumət milli ordu quruculuğuna xüsusi diqqət yetirirdi. Cümhuriyyət yarananda cəmi 600 nəfərdən ibarət kiçik hərbi qüvvəsi var idi. Daxili və xarici düşmənlərin çoxluğu şəraitində bu qüvvə ilə istiqlalımızı və ərazi bütövlüyümüzü qorumaq mümkün deyildi. Hökumət Osmanlı dövlətindən hərbi yardım almaqla yanaşı, ləngimədən milli ordunu da yaratmağa başladı. Birinci addım kimi, hökumət **1918-ci il iyunun 26-da** "Müsəlman korpusu"nu ***"Azərbaycan korpusu"*** adlandırdı. Ölkədə 19-22 yaşında olan müsəlman gəncləri səfərbərliyə alındı. **1918-ci ilin noyabrında *Hərbi Nazirlik*** təşkil olundu. Sonrakı il dövlət büdcəsinin dörddə bir hissəsi milli ordu qurulmasına ayrıldı.



LAYİHƏ

*AXC ordusunun Həbib bəy Səlimov, İbrahim ağa Usubov, Həmid bəy Qaytabaşı, Məmməd bəy Sulkeviç, Cavad bəy Şıxlinski kimi istedadlı generalları var idi.*

*Rəsmi mənbələrə görə, 1920-ci ilin bolşevik-daşnak terroru nəticəsində Azərbaycan Milli Ordusunda xidmət edən 12 general, 27 polkovnik, 46 kapitan, 148 praporşik və 266 digər rütbəli hərbi qulluqçu qətlə yetirilmişdir. Bu hərbçilər həbs olunan zaman Əliağa Şıxlinski və Səməd bəy Mehmandarov Nəriman Nərimanova müraciət etmişdilər. Göndərdikləri məktub ünvanına çatmış və onlar xilas olmuşdular. Orduya soxulan terrorçu-daşnaklardan ehtiyat edən N.Nərimanov Ə.Şıxlinski və S.Mehmandarovu Moskvaya göndərmişdi.*

M *Siyasi baxışları fərqli olduğu halda generallarımızı xilas edən N.Nərimanovun bu addımını müzakirə edin.*



***Səməd bəy Mehmandarov***



***Əliağa Şıxlinski***

Hərbi nazir ***Səməd bəy Mehmandarovun*** və müavini ***Əliağa Şıxlinskinin*** rəhbərliyi ilə milli ordu quruculuğu uğurla aparılırdı. 1920-ci ildə Azərbaycan ordusunda *40 min əsgər və zabit* xidmət edirdi. Onların 30 mini piyada, 10 mini atlı qoşun idi. General S.Mehmandarov orduda əmrlərin Azərbaycan dilində verilməsi və hərbi təlimin bu dildə aparılması haqqında sərəncam vermişdi. Milli ordunun silah-sursatla təmin olunması, hərbi təyyarə, tank, zirehli maşın və hərbi geyim alınması üçün hökumət İtaliya ilə müqavilə bağlamışdı. Milli ordunu zabit kadrları ilə təmin etməyə görə Bakıda Hərbi məktəb yaradılmışdı.

Yeni yaranmış milli ordu hissələri düşmənlərə qarşı mübarizədə qəhrəmanlıqlar göstərirdi. Ordu birlikləri **1919-cu ildə** *Lənkəran bölgəsini* Azərbaycandan ayırmağa çalışan işğalçı-separatçı qüvvələrə sarsıdıcı zərbə vurdu. General ***Həbib bəy Səlimovun*** başçılıq etdiyi qoşun rus hərbi dəstələrini darmadağın edərək ölkədən qovdu. Bu qələbə münasibətilə Hərbi nazir S.Mehmandarovun əmrində məmnunluqla belə qeyd edilirdi: “Lənkəran qəzası və Muğan doğma Azərbaycana qaytarıldı”.

**1920-ci ilin mart–aprel aylarında** milli ordu hissələri ***Dağlıq Qarabağda*** düşmənə qarşı uğurlu hərbi əməliyyat apardı. ***Əsgəran döyüşündə*** erməni qiyamçıları və Ermənistanın nizami ordu hissələri darmadağın edildi. ***Şuşa qalası*** düşməndən tamamilə azad olundu. Qarabağ savaşında qazanılan böyük qələbə münasibətilə Səməd bəy Mehmandarov əsgərlərimizə belə müraciət etmişdi: “Mən Almaniya cəbhəsində bir çox savaşlarda olmuşam, lakin sizin kimi qəhrəman əsgərlərə nadir hallarda təsadüf etmişəm... Siz qanınızla gənc Azərbaycan ordusunun namusunu qorudunuz!”

**1919-cu ilin yayında** hökumətin böyük səyləri nəticəsində ***Xəzər Hərbi Donanması*** yaradıldı. Xaricdən alınan hərbi kater və sualtı qayıqlarla təmin edilən bu donanma Cümhuriyyətin dəniz sərhədlərini qoruyurdu.

LAYİHƏ



*Azərbaycan Xalq Cümhuriyyətinin əsgər və zabitləri*

**SUAL VƏ TAPŞIRIQLAR:**

1. *AXC-nin dövlət quruluşunu təhlil edin.*
2. *Milli dövlət quruculuğu sahəsində hansı tədbirlər həyata keçirildi?*
3. *Qadınlara kişilərlə bərabər hüquqların verilməsini nailiyyət hesab etmək olarmı? Fikrinizi əsaslandırın.*
4. *AXC-nin ordu quruculuğu tədbirlərini izah edin.*
5. *“Ordumuzun dünəni və bu günü” adlı təqdimat hazırlayın.*
6. *M.Ə.Rəsulzadə, F.Xoyski və Ə.Topçubaşov haqqında əlavə məlumat toplayın və referat hazırlayın..*

# 25. Erməni işğalçılarına qarşı mübarizə

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qarşısında duran çox mühüm vəzifələrdən biri respublikanın ərazi bütövlüyünün qorunması və türk-müsəlman əhaliyə qarşı ermənilərin həyata keçirdikləri soyqırımlarının qarşısının alınması idi. O zaman cərəyan edən mürəkkəb siyasi proseslər hökuməti hansı addımlar atmağa vadar etdi? Cənubi Qafqazda dövləti olmayan ermənilər necə oldu ki, dövlət qurdular? Onlar daha hansı torpaqlara iddia edirdilər?

İrəvan, Zəngəzur, Naxçıvan, Araz-Türk Respublikası, Qarabağ general-qubernatorluğu, Xosrov bəy Sultanov, Bəhram xan Naxçıvanski

**Azərbaycan torpaqlarında Ermənistan Respublikası yaradılması.** Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk gündən erməni siyasi xadimlərinin əsassız ərazi iddiaları ilə üzləşdi. Gənc Azərbaycan dövlətinin həll etməli olduğu saysız-hesabsız problemlər içərisində “erməni məsələsi” xüsusi yer tuturdu. Yaşadıqları torpaqlarla kifayətlənməyən ermənilərin ərazi iddiaları gündən-günə artır, kəndlərimizin dağıdıl-



LAYİHƏ

ması, türk-müsəlman əhalinin məhv edilməsi dözülməz həddə çatırdı. Azərbaycan hökuməti bütün bunların qarşısını almaq üçün vacib addımlar atmalı, sözün əsl mənasında səfərbər olunmalı idi.

Azərbaycan və Gürcüstan respublikalarının sərhədlərinin müəyyən edilməsində yaranmış problem tez bir zamanda həll olundu. Gürcülərin Zaqatala dairəsinə iddiası dinc yolla nizama salındı. *Əhali arasında keçirilən rəy sorğusuna görə, Zaqatala dairəsi Azərbaycanın tərkibində saxlanıldı*.

Seymin dağıdılmasından sonra erməni nümayəndələri olduqca çətin vəziyyətə düşmüşdülər. Azərbaycan və gürcü xalqlarından fərqli olaraq, ermənilərin Cənubi Qafqazda torpaqları yox idi. Tarixi Azərbaycan torpaqlarında Rusiya onlara yeni bir "vətən" yaratmışdı. Ermənilər belə bir vaxtda dövlət yaratmaq üçün siyasi mərkəz axtarırdılar. Əvvəlcə Gümrünü paytaxt etmək istədilər, lakin şəhər Osmanlı qoşunu tərəfindən tutulduğundan bu niyyətləri boşa çıxdı. Erməni nümayəndələri Azərbaycan Milli Şurasına müraciət edərək İrəvanın siyasi mərkəz kimi onlara verilməsini istədilər. Böyük dövlətlərin təzyiqi və Osmanlı hakim dairələrinin təklifi ilə ermənilərin müraciətinə 1918-ci il mayın 29-da müsbət cavab verildi. Qədim Azərbaycan şəhəri ***İrəvan ermənilərə güzəşt edildi.*** Əvəzində ermənilər Dağlıq Qarabağa və digər bölgələrə iddialarından birdəfəlik əl çəkməyi vəd etdilər.

*İrəvanın güzəşt edildiyi tarixi şəraiti təhlil edin.*

Batum sülh konfransında bu məsələ bir daha gündəliyə çıxarıldı. Çünki yeni yaranan Cənubi Qafqaz respublikalarının ərazisi və sərhədləri həm də Osmanlı dövləti ilə razılaşma əsasında müəyyənləşdirilməli idi. Beləliklə, Osmanlı dövlətinin razılığı əsasında, İrəvan şəhəri paytaxt olmaqla, tarixi Azərbaycan torpağında Ermənistan Respublikası yaradıldı. Bu respublika Osmanlı dövləti tərəfindən də **4 iyun 1918-ci ildə** Batum sülh konfransında tanındı. Ermənistan Respublikasının ərazisi ***10 min kv. km*** müəyyənləşdirildi. Qafqazda Ermənistan Respublikasının yaradılması ilə Osmanlı dövləti "erməni məsələsi"nin birdəfəlik həll ediləcəyinə ümid bəsləyirdi. Ermənilərin bundan sonra "sakitləşəcəyinə" inanan Osmanlı dövlət xadimləri bölgədə daimi sülhə bu yolla nail olmaq niyyətində idilər. Batumda sülh və dostluq müqaviləsini imzalayan erməni daşnak hökuməti isə respublika ərazisində yaşayan türk-müsəlman əhalinin təhlükəsizliyini təmin etməyi, onların ana dilində təhsil almalarına və dini ibadətlərini sərbəst şəkildə yerinə yetirmələrinə şərait yaratmağı öhdəsinə götürmüşdü.

Ermənilər bir əsrə yaxın idi ki, Rusiya hakim dairələrinin onlara dövlət yaradacağına ümid bəsləyirdilər. Lakin Rusiyanın ali hakimiyyət nümayəndələri bu ümidlərini bilərəkdən doğrultmurdular. Osmanlı və Azərbaycan türklərinin ictimai xadimləri isə onlara heç zaman ermənilərə məxsus olmayan Azərbaycan torpaqlarında dövlət yaratmağa imkan verdilər. Ermənilər əvəzində əbədi minnətdar olmaqdansa, türk-müsəlman əhali ilə bağlı götürdükləri öhdəliklərin heç birinə əməl etmədilər, yeni iddialar qaldırdılar.

*Osmanlı dövlətinin ermənilərlə bağlı məsələnin həlli ilə əlaqədar tədbirlərinin nə kimi nəticəsi oldu?*

**Tarixi torpaqlarımızın erməni basqınlarından müdafiəsi tədbirləri.** Azərbaycan torpaqlarında yaranmış Ermənistan Respublikası Cənubi Qafqazda türk-müsəlman əhalinin yaşadığı bir çox bölgələrə ərazi iddiaları qaldırdı. Əsas hücum hədəfi kimi



LAYİHƏ

Azərbaycanın Zəngəzur, Göyçə, Naxçıvan və Qarabağ bölgələri seçilmişdi. 1918-ci ilin yayında və payızında Ermənistan hökumətinin göstərişi ilə Andranikin quldur dəstələri dövlət sərhədlərini pozdu. Zəngəzur, Naxçıvan və Qarabağ bölgələrində dinc əhaliyə qarşı kütləvi soyqırımı törətdi, iki yüzə yaxın Azərbaycan kəndini məhv etdi. Yüz mindən çox türk-müsəlman əhali öz doğma yurdlarından didərgin salındı. Azərbaycan Cümhuriyyəti çox ağır qaçqın problemi ilə üz-üzə qaldı. Bununla bağlı bir-birinin ardınca təxirəsalınmaz tədbirlər həyata keçirən milli hökumət digər vacib məsələlərə lazımi diqqət yetirə bilmədi.




*1918 – 1920-ci illərdə ermənilərin Azərbaycanda törətdikləri soyqırımı*

*Azərbaycan hökumətinin qarşısında duran ən mühüm hərbi və siyasi vəzifələri müəyyənləşdirin.*

AXC hökuməti Qarabağı erməni işğallarından qorumaq üçün qətiyyətli addımlar atdı. **1919-cu ilin yanvarında *Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarından*** ibarət ***Qarabağ general-qubernatorluğu*** yaradıldı. **Xosrov bəy Sultanov** general-qubernator təyin edildi. Xosrov bəyin qətiyyətli tədbirləri nəticəsində Andranikin və digər erməni qüvvələrinin Qarabağa quldur basqınlarına son qoyuldu. Separatçı qüvvələrin bir hissəsi bölgədən qovuldu. Bölgənin dinc erməni əhalisi Azərbaycan hakimiyyətinə tabe oldu. Beləliklə, Qarabağın dağlıq hissəsində Azərbaycan dövlətinin suveren hüquqları təmin edildi.



***Xosrov bəy Sultanov***

*Xosrov bəy Zəngəzurun və Dağlıq Qarabağın ermənilərdən müdafiə edilməsində qardaşı Sultan bəy kimi böyük rol oynamışdı. O, 1919-cu ilin martında Əsgəran döyüşündə daşnak generalı Dronun dəstəsini məğlub edib qovmuşdu.*

*Xosrov bəy dövlət müstəqilliyimizə, xalqımıza sədaqətli olan hər kəsin dəyərini düzgün qiymətləndirməyi bacaran dövlət xadimi idi. O, Əhməd Cavad şəxsiyyətinə və yaradıcılığına hörmət əlaməti olaraq şairin şeirlər kitabını çap etdirmişdi.*

*Azərbaycan bəylərinin Vətənin müdafiəsində xidmətlərini izah edin.*



LAYİHƏ

1918-ci ilin payızında Osmanlı dövləti Birinci Dünya müharibəsində məğlub oldu, qoşunlarını Azərbaycandan və onun ayrılmaz hissəsi olan Naxçıvandan da çıxardı. Naxçıvan əhalisi birbaşa erməni təcavüzü ilə üz-üzə qaldı. Bölgənin milli vətənpərvər qüvvələri **1918-ci ilin noyabr ayında *Araz-Türk Respublikasını*** yaratdılar. Bu qurum Naxçıvanın erməni hücumlarından qorunmasında həlledici rol oynadı. AXC hökuməti **1919-cu ilin fevralında *Naxçıvan general-qubernatorluğunun*** yaradılması haqqında qərar qəbul etdi. **Bəhram xan Naxçıvanski** general-qubernator təyin edildi. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti Naxçıvanda öz suveren hüquqlarını qəti şəkildə bərqərar etdi.

AXC və Ermənistan Respublikası bir-birini rəsmi olaraq tanıyır, Cümhuriyyətin İrəvanda fəaliyyət göstərən diplomatik nümayəndəliyi bölgədə türk-müsəlman əhalinin hüquqlarını müdafiə etməyə çalışırdı. Lakin Ermənistan Respublikası normal qonşuluq münasibətləri yaradılmasına heç də səmimi yanaşmırdı.

**1919-cu ildə *Zəngəzur bölgəsində*** Azərbaycan və işğalçı Ermənistan ordu qüvvələri arasında silahlı qarşıdurma baş verdi. Amma tezliklə Tiflisdə danışıqlar aparıldı və saziş bağlandı. Tərəflər bütün mübahisəli məsələləri silah işlətmədən, danışıqlar yolu ilə həll etməyi öhdələrinə götürdülər. AXC hökuməti üzərinə düşən öhdəliyə sadiq qaldı və silahlı qüvvələrini Zəngəzurdan çıxardı. Bu fürsətdən yararlanan işğalçı Ermənistan hökuməti isə bölgəyə dərhal əlavə nizami qoşun yeritdi. Nəticədə, Zəngəzurda daha 40 Azərbaycan kəndi yerlə yeksan edildi, əhalisi isə amansızlıqla qətlə yetirildi.

**1920-ci ilin martında** Ermənistan hökuməti AXC-ni devirmək üçün Sovet Rusiyası ilə gizli razılığa gəldi. Ermənilər Qarabağda qiyam təşkil etdilər, Azərbaycanın sərhədboyu bölgələrinə qoşun yeritdilər. Cümhuriyyət hökuməti silahlı qüvvələrinin böyük hissəsini düşmənlə savaşmaq üçün həmin bölgələrə göndərdi. Azərbaycanın milli ordusu hər yerdə erməni hərbi qüvvələrini darmadağın etdi. Lakin şimal sərhədlərimiz müdafiəsiz qaldı. Bundan yararlanan Sovet Rusiyası Azərbaycana hərbi müdaxilə etdi.

### *SUAL VƏ TAPŞIRIQLAR:*

1. *Ermənistan Respublikasının yaradılması prosesini təhlil edin.*
2. *Osmanlı dövlətinin erməniləri "sakitləşdirmək" siyasəti nəticə verdimi? Fikrinizi əsaslandırın.*
3. *Batum konfransında Ermənistan Respublikasının götürdüyü öhdəliklərə münasibətinizi bildirin.*
4. *Qarabağ general-qubernatorluğunun yaradılması hansı nəticələri verdi?*
5. *Araz-Türk Respublikasının yaradılmasının hansı əhəmiyyəti var idi?*
6. *Xosrov bəy və Sultan bəy Sultanovlar – erməni işğalçıları ilə mübarizədə böyük fədakarlıqla vuruşan qardaşlar haqqında əlavə məlumat toplayın.*



LAYİHƏ

# 26. İqtisadi, sosial və mədəni tədbirlər

Mürəkkəb problemlərlə üzləşən AXC hökumətinin qarşısında duran mühüm vəzifələrdən biri də xalqın sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq, milli mədəniyyəti inkişaf etdirmək üçün tədbirlər görmək idi. Bu tədbirlər nədən ibarət idi? Hökuməti daha hansı sahələrin inkişafı narahat edirdi?

Azad ticarət, milliləşdirmənin ləğvi, Bakı bonu, Bakı Universiteti, Qazax Müəllimlər Seminariyası, "Azərbaycan" qəzeti

**Milli hökumətin iqtisadi və sosial sahədə tədbirləri.** Cümhuriyyət hökuməti bolşevik-daşnak talanları nəticəsində dağılmış iqtisadiyyatı bərpa etməyə başladı. Hökumətin iqtisadi siyasəti dövlətimizin inkişafına və xalqın rifahını yüksəltməyə yönəlmişdi. Əhalinin ərzaqla fasiləsiz təmin edilməsi, bahalığın qarşısının alınması üçün **1918-ci il iyunun sonunda** hökumət ***taxıl, mal-qara və digər ərzaq məhsullarının ölkədən kənara çıxarılmasını qadağan edən*** qərar qəbul etdi. Başqa bir qərarla respublika ərazisində ***azad ticarətə*** icazə verildi.

*AXC hökumətinin iqtisadi qadağalarını strateji addım hesab etmək olarmı? Bu qadağaların əhalinin müxtəlif təbəqələrinin vəziyyətinə təsirini təhlil edin.*

Hökumət iqtisadiyyatın əsas sahəsi olan neft sənayesini dirçəltməyə xüsusi diqqət yetirirdi. **5 oktyabr 1918-ci il** tarixli fərmanla Bakı XKS-nin milliləşdirilmə haqqında dekretləri ləğv edildi. ***Bütün neft mədənləri, fabrik-zavodlar, ticarət gəmiləri əvvəlki sahiblərinə qaytarıldı.***

Xarici şirkətlərlə neftin satışına dair sazişlər bağlandı. Rusiya bazarı itirildiyindən Azərbaycan neftinin qonşu ölkələrə və Batum limanı vasitəsilə Qərbi Avropaya ixracı qaydaya salındı.

*Araşdırın: Azərbaycan neftinin Qərbi Avropaya ixracının hansı əhəmiyyəti var idi?*

**1918-ci ilin sentyabrında *Bakı bonu*** adlı milli pul vahidi dövriyyəyə buraxıldı. Bir il sonra Dövlət bankı yaradıldı. Milli sahibkarlar müstəqil dövlətin yaranmasını böyük sevinclə qarşıladılar. Hacı Zeynalabdin Tağıyev AXC-ni ***"doğma Vətənimizin üzərində parlayan müstəqillik günəşi"*** adlandırmış, özünün bütün iqtisadi və maliyyə imkanlarını Cümhuriyyətin inkişafına yönəltmişdi. O, hökuməti azad sahibkarlığı və sərbəst iqtisadiyyatı qorumağa, inkişaf etdirməyə çağırdı: "Azad sahibkarlar dövlətin... dostu və dayağıdır".



*1918-ci il iyulun 18-də Azərbaycan hökumətinin sədri F.Xoyski İstanbuldakı Azərbaycan nümayəndə heyətinə orada Azərbaycan manatı hazırlanmasını sifariş etməyi tapşırdı. Bakı azad edildikdən sonra – 1918-ci il sentyabrın 22-də hökumət Bakı bonlarını dövriyyəyə buraxmağı qərara aldı. Tezliklə 30 milyon bon – manat kəsildi.*



LAYİHƏ

Azərbaycan əhalisinin böyük əksəriyyətini kəndlilər təşkil etdiyi üçün *torpaq məsələsinin* həlli olduqca vacib idi. 1920-ci ilin martında bu məsələ ilə bağlı parlamentdə qanun layihəsi müzakirəyə çıxarıldı. Layihədə torpaqların kəndlilərə pulsuz paylanması nəzərdə tutulurdu. Lakin hökumətin bu həyati əhəmiyyətli məsələni həll etməyə vaxtı çatmadı. Aprel istilası milli hökumətin gördüyü bütün mütərəqqi tədbirlərin üstündən qara xətt çəkdi.

Milli hökumət öz sosial siyasətini xüsusi proqram əsasında həyata keçirirdi. Əsas diqqət müəssisələrdə 8 saatlıq iş gününün tətbiqinə və gecə növbəsinin ləğvinə yönəlmişdi. Qadınların sağlamlığa ziyan vuran işlərdə çalışması qadağan edilmişdi. Qadınlar işləyən müəssisələrdə hökmən körpələr evinin açılması tələb edilirdi. Sahibkarlar Əmək Nazirliyinin razılığı olmadan işçiləri kütləvi şəkildə işdən çıxara bilməzdilər. 1919-cu ilin əvvəlindən çoxuşaqlı fəhlələrə maaşdan əlavə vəsait verilməsinə başlanmışdı.

**Milli-mədəni quruculuq.** Hökumət milli təhsil sisteminin yaradılmasına böyük diqqət yetirirdi. Milli kadrlar hazırlamaq, dövlətçiliyə sədaqətli olan yeni gənc nəsil yetişdirmək hava və su kimi lazım idi. Cümhuriyyət ilk addım kimi ***təhsil müəssisələrini milliləşdirdi.*** Hökumətin qərarı ilə ***ibtidai məktəblərdə şagirdlər ana dilində təhsil almalı,*** rus məktəblərində isə Azərbaycan dili fənni hökmən tədris olunmalı idi. Yeni tədris proqramlarına “Rusiya tarixi” əvəzinə, “Türk xalqları tarixi” fənni daxil edilmişdi.

*AXC hökumətinin təhsil siyasətini Rusiyanın Azərbaycanda yeritdiyi təhsil siyasəti ilə müqayisə edin.*

Məktəblərdə ana dilində təhsil verən savadlı müəllimlərə böyük ehtiyac yaranmışdı. Ona görə də Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi Firidun bəy Köçərlinin təşəbbüsü ilə **1918-ci ilin payızında** Qazaxa köçürüldü və onun əsasında ***Qazax Müəllimlər Seminariyasi*** təşkil edildi. Gəncə və Bakı Müəllimlər Seminariyalarında milli pedaqoji kadrlar hazırlanmasına başlanıldı, pedaqoji kurslar açıldı.



*Bakı Dövlət Universitetinin ilk binası*

Təhsildə ən ciddi problemlərdən biri ali təhsilli milli kadrların hazırlanması idi. Bu məqsədlə ***parlament 1919-cu il sentyabrın 1-də Bakı Dövlət Universitetinin açılması haqqında qanun qəbul etdi.*** Universitetə qəbul zamanı Azərbaycan vətəndaşlarına üstünlük verilirdi. Universitetdə əvvəlcə iki: tarix-filologiya və tibb fakültələri fəaliyyətə başladı. Bundan əlavə, ***100 azərbaycanlı gənc xarici ölkələrin qabaqcıl ali məktəblərində təhsil almağa göndərildi.*** Bu məqsədlə yeddi milyon manat vəsait ayrıldı. H.Z.Tağıyev həmin gənclərdən iyirmisinin təhsil xərcini öz boynuna götürdü. Bu gənclər Avropanın nüfuzlu universitetlərində iqtisadçı, mühəndis, həmçinin gəmiqayırma və təyyarə düzəldilməsi kimi nadir ixtisaslara yiyələnmək üçün göndərilmişdilər.

*Hazırda azərbaycanlı gənclər xarici ölkələrdə hansı ixtisaslara yiyələnməyə üstünlük verirlər? Araşdırın.*



LAYİHƏ

Yeni mədəni-maarif müəssisələri yaradılmasına da diqqət yetirilirdi. **1919-cu ildə** ilk ***milli kitabxana*** fəaliyyətə başladı. Həmin il *"İstiqlal" muzeyinin* açılması da böyük mədəni hadisə oldu.

Milli hökumət respublikamızda tam demokratik mühit yaratmağa çalışırdı. *Söz, mətbuat və vicdan azadlıqları* təmin olunmuşdu. Mətbuat üzərindən senzura[1] tamam götürülmüşdü. Rəsmi mətbuat orqanı olan ***"Azərbaycan"*** qəzeti Azərbaycan və rus dillərində hər gün çıxırdı. Demokratik şəraitdən çox təəssüf ki, milli dövlətimizin düşmənləri də yararlanırdılar. Xalqımızın böyük mütəfəkkiri Əli bəy Hüseynzadənin "qırmızı qaranlıq" adlandırdığı bolşevik mətbuatı xüsusilə seçilir, Cümhuriyyətin bütün tədbirlərini gözdən salmağa çalışırdı. Bu səbəbdən də hökumət xalqımızı və dünyanı düzgün məlumatlandırmaq üçün **1920-ci ildə** ***Azərbaycan Teleqraf Agentliyini*** (AZƏRTAC) yaratdı.

Ədəbiyyat və incəsənət də milli zəmin üzərində inkişaf edirdi. Hüseyn Cavid, Əhməd Cavad, Üzeyir Hacıbəyli, Cəfər Cabbarlı və başqalarının əsərlərində müstəqillik ideyalarının tərənnümü əsas yer tuturdu. Şair və yazıçılarımız gənclərə müstəqil dövlətimizə sevgi, milli qürur və vətənpərvərlik hissləri aşılayan mövzulara daha çox müraciət edirdilər.



*Bəstəkar Üzeyir Hacıbəyli və şair Əhməd Cavada məxsus "Azərbaycan marşı"nın sözləri ilk dəfə 1919-cu ildə "Vətən marşı" adı ilə "Milli nəğmələr" kitabında çap olunmuş, musiqisi isə ondan sonra bəstələnmişdir.*

*Cümhuriyyət illərində Üzeyir Hacıbəyli iki marş yazmışdı. Onların hər ikisi 1966-cı ildə Ankarada nəşr edilmiş "Türk marşları" kitabına salınmışdı.*

## SUAL VƏ TAPŞIRIQLAR:

1. *Cümhuriyyət hökumətinin sahibkarlara olan münasibətini təhlil edin.*
2. *Bakı XKS-nin və AXC hökumətinin neft sənayesi ilə bağlı gördüyü işləri, onların məqsədlərini müqayisə edin.*
3. *Dövlətin özünəməxsus pul vahidinin olmasının əhəmiyyəti nədir? Fikirlərinizi bildirin.*
4. *Cümhuriyyət hökuməti kəndli və fəhlələrin sosial problemlərini həll etmək üçün hansı tədbirləri həyata keçirdi?*
5. *Mövzuda verilmiş mühüm hadisələrə aid xronoloji cədvəl tərtib edin.*
6. *AXC hökumətinin mədəni quruculuq sahəsində həyata keçirdiyi tədbirlərə aid təqdimat hazırlayın.*

[1] **senzura** – dövlətin mətbuatın məzmunu və yayılması üzərində nəzarəti



LAYİHƏ

# 27. Xarici siyasət

AXC-nin yaranması birmənalı şəkildə qarşılanmadı. Şərqdə ilk demokratik respublikanın təşəkkülü və onun türk-müsəlman əhaliyə mənsub olması bir çox dövlətlər üçün arzuolunmaz hadisə idi. Cümhuriyyət xarici siyasətini necə qurmuşdu? Qonşu dövlətlərlə münasibətlər necə nizamlanırdı? AXC-ni böyük dövlətlər tanıdımı?

Batum müqaviləsi, Mudros barışığı, Gürcüstanla müqavilələr, Dağlı Respublikasına yardımlar, Paris (Versal) sülh konfransı

**Qonşu dövlətlərlə münasibətlər.** Cümhuriyyət hökuməti yarandığı gündən çevik xarici siyasət xətti yeritməyə başladı. Dövlət müstəqilliyinin qorunması üçün təhlükəsiz beynəlxalq şərait yaradılması, Cümhuriyyətin dünya birliyi tərəfindən tanınması olduqca vacib idi. Qonşu dövlətlərlə normal münasibətlər qurmaq da böyük əhəmiyyət daşıyırdı. ***Osmanlı dövləti ilə 1918-ci il iyunun 4-də Batum müqaviləsinin imzalanması xarici siyasətdə ilk uğurlu addım idi.*** Osmanlı imperiyası müstəqilliyimizi tanıyan ilk dövlət oldu.

*Osmanlı dövləti hansı sahələrdə AXC-yə kömək etdi? Sadalayın.*

1918-ci ilin avqustunda Berlində Sovet Rusiyası ilə Almaniya arasında gizli saziş imzalanması Bakının gələcək taleyi üçün böyük təhlükə yaratdı. Yalnız Azərbaycan və Osmanlı dövlətlərinin birgə addımları bu sazişin reallaşmasına imkan vermədi.

Birinci Dünya müharibəsində Osmanlı dövlətinin məğlub olması Cümhuriyyətin beynəlxalq vəziyyətinə mənfi təsir göstərdi. Mudros müqaviləsinə görə, Osmanlı qoşunları qısa müddətdə Bakını və Azərbaycanı tərk etməli, Azərbaycan Antanta qoşunları tərəfindən işğal olunmalı idi. **1918-ci ilin noyabrında** general Tomsonun başçılığı ilə ingilis qoşunu Bakıya daxil oldu.

General Tomson əvvəlcə Cümhuriyyəti tanımayacağını bildirmişdi. Lakin parlamentin və üçüncü hökumətin demokratik prinsiplər əsasında təşkilini gördükdən sonra mövqeyini dəyişdi. Nəticədə, ingilis komandanlığı Cümhuriyyət hökumətini Azərbaycanda yeganə səlahiyyətli hakimiyyət kimi qəbul etdi. 1919-cu ilin yayında ingilis qoşunları Azərbaycanı tərk etdikdə Xəzər hərbi donanmasının bir neçə gəmisini milli hökumətə verdi.

*1918-ci ilin sonunda Cümhuriyyətin xarici siyasətlə bağlı istiqaməti dəyişməsini necə qiymətləndirirsiniz? Müzakirə edin.*

Cümhuriyyət Gürcüstan Respublikası ilə normal qonşuluq münasibətləri yaradılmasına çalışır, eləcə də əhalisi azərbaycanlılardan ibarət olan Borçalı qəzası ilə bağlı ərazi mübahisəsini tənzimləməyə səy göstərirdi. Lakin ağqvardiyaçı general Denikinin ordusunun Cənubi Qafqaza doğru irəliləməsi Gürcüstanla hərbi-siyasi əməkdaşlığı həyati əhəmiyyətli məsələyə çevirdi. **1919-cu il iyunun 16-da** ***Azərbaycan və Gürcüstan arasında hərbi-müdafiə sazişi bağlandı.*** Sazişə görə tərəflər hərbi müdaxilə baş verdiyi təqdirdə bir-birinə hərbi yardım göstərməli idilər. Denikinlə gizli

LAYİHƏ

əlaqədə olan Ermənistanı bu ittifaqa cəlb etmək mümkün olmadı. Sazişin yerinə yetirilməsi üçün ***Hərbi Şura*** yaradıldı. Müqavilədən sonra Gürcüstan Azərbaycana çoxlu sayda hərbi texnika və silah-sursat, Azərbaycan isə Gürcüstana neft və neft məhsulları göndərdi.

Milli hökumət Şimali Qafqazda yaranmış ***Dağlı Respublikası*** ilə sıx münasibətlər qurmuş və bir neçə müqavilə bağlamışdı. Bu respublikaya böyük həcmdə maliyyə vəsaiti, yanacaq, tibbi ləvazimat və s. göndərilmişdi.

AXC-nin mövcud olduğu dövrdə ***Sovet Rusiyası*** ilə normal münasibətlər yaratmaq mümkün olmadı. Çünki Sovet Rusiyası Azərbaycanın müstəqilliyini tanımaqdan qəti şəkildə imtina edir, keçmiş Rusiya imperiyasını bərpa etməyə çalışırdı. Rusiya 1920-ci ilin yanvar ayında Cümhuriyyətə iki nota[1] göndərdi. Azərbaycandan Denikinə qarşı Sovet Rusiyası ilə birgə mübarizə aparmaq tələb olunurdu. Rusiyanın əsas məqsədi Azərbaycanı bu yolla – Denikinlə toqquşdurub məhv etmək idi. AXC rəhbərliyi bu tələbi rədd edərək Sovet Rusiyası ilə normal münasibətlər qurmağa, iqtisadi əməkdaşlıq etməyə hazır olduğunu bildirdi. Rusiya isə əvəzində həmişəkitək Azərbaycana qarşı təcavüzkar siyasəti daha da gücləndirdi.

Qonşu ***Qacarlar dövləti*** ilə də münasibətlər ilk vaxtlar çox gərgin idi, amma sonrakı dövrdə normal əlaqələr quruldu. **1920-ci ilin martında** AXC ilə Qacarlar dövləti arasında ***Dostluq müqaviləsi*** bağlandı. Qacar hökuməti Azərbaycanın müstəqilliyini de-yure[2] tanıdı, Tehranda Azərbaycan səfirliyi, Təbrizdə isə Baş konsulluğu fəaliyyətə başladı.



***Məmməd bəy Sulkeviç***

*Hərbi Şuraya hər respublikadan yüksək rütbəli iki nümayəndə daxil idi. Şurada Azərbaycanı Ə.Şıxlinski və M.Sulkeviç təmsil edirdilər. M.Sulkeviç mənşəcə Polşa-Litva tatarlarından idi. AXC ordusunun Baş qərargah rəisi olan general-leytenant M.Sulkeviç, aprel istilasından sonra bolşeviklər tərəfindən güllələndi. Onun son sözləri bu olmuşdu: "Xoşbəxtəm ki, müsəlman ordusunun zabiti kimi ölürəm".*

**AXC-nin böyük dövlətlər tərəfindən tanınması.** Cümhuriyyət hökuməti 1919-cu ildə işə başlayan *Paris sülh konfransına nümayəndə* heyəti göndərdi. Nümayəndə heyətinə **Ə.Topçubaşov** başçılıq edirdi. Əsas məqsəd böyük dövlətlər (ABŞ, İngiltərə, Fransa və İtaliya) tərəfindən Azərbaycanın müstəqilliyinin tanınmasına nail olmaq idi.

Parisdə ermənilər Azərbaycan və Osmanlı dövlətləri əleyhinə geniş təbliğat kampaniyası aparırdılar. ABŞ prezidenti V.Vilsona çoxlu sayda yalan məlumat çatdırmışdılar. Ermənistan hökuməti Azərbaycana qarşı ərazi iddialarına bu dəfə ABŞ vasitəsilə nail olmaq istəyirdi. 1919-cu ildə Naxçıvanda ABŞ general-qubernatorluğu yaratmaq planı məhz buna xidmət edirdi. Lakin AXC hökumətinin qətiyyətli mövqeyi və Naxçıvan əhalisinin ciddi müqaviməti bu planın gerçəkləşməsinə imkan vermədi.

[1] **nota** – bir hökumətin başqa hökumətə rəsmi yazılı diplomatik müraciəti
[2] **de-yure** – hüquqi olaraq



LAYİHƏ




*AXC Xarici İşlər Nazirliyinin 1919-cu il Paris sülh konfransına təqdim etdiyi xəritə*

*Xəritəyə əsasən Azərbaycanın qərb sərhədlərini təyin edin. İndi həmin ərazilər hansı dövlətin tərkibindədir?*

Paris sülh konfransı zamanı ABŞ və digər böyük dövlətlər Azərbaycanın tanınması məsələsinə əvvəlcə müsbət yanaşmırdılar. Onlar “vahid və bölünməz” Rusiyanın bərpa edilməsini istəyirdilər. Amma Ə.Topçubaşovun başçılığı ilə Azərbaycan diplomatları konfransda ardıcıl və məqsədyönlü iş apardılar. Cənubi Qafqaz üçün Rusiya təhlükəsi gündən-günə artdığından bunu nəzərə alan İngiltərə konfransda Rusiya imperiyasının ərazisində yaranmış yeni dövlətlərin tanınması təklifi ilə çıxış etdi.

Beləliklə, **1920-ci il yanvarın 11-də** Paris sülh konfransı iştirakçıları tərəfindən ***Azərbaycanın və Gürcüstanın müstəqilliyi de-fakto[1] tanındı***. Yalnız ABŞ rəsmi surətdə bundan imtina etdi.

Böyük dövlətlər tərəfindən Azərbaycanın bir dövlət kimi tanınması böyük diplomatik uğur idi. Bu münasibətlə Bakıda bayram şənlikləri və hərbi parad keçirildi.

Ümumiyyətlə, Cümhuriyyətin xarici siyasəti uğurla həyata keçirilirdi. 1920-ci ilin yazında Bakıda dünyanın iyirmidən çox dövlətinin diplomatik nümayəndəliyi fəaliyyət göstərirdi. Tanınandan sonra Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq miqyasda əməkdaşlığının daha da genişlənməsi müstəqil respublikanın inkişafı üçün böyük əhəmiyyət kəsb edirdi.

---

[1] **de-fakto** – faktiki olaraq



LAYİHƏ

**SUAL VƏ TAPŞIRIQLAR:**

1. *AXC-nin qarşısında duran əsas xarici siyasət vəzifələrini müəyyən edin.*
2. *İngiltərə hərbi komandanlığının Cümhuriyyət hökuməti ilə rəsmi əlaqələr yaratması səbəblərini izah edin.*
3. *Gürcüstanla hərbi əməkdaşlıq hansı zərurətdən yaranmışdı?*
4. *Sovet Rusiyasının AXC-yə münasibətinin kəskin olması özünü nədə göstərirdi?*
5. *Nəyə görə böyük dövlətlərin AXC-ni tanıması vacib idi?*
6. *Azərbaycanın müstəqilliyinin de-fakto tanınmasının əsl səbəbini izah edin.*

# 28. Cənubi Azərbaycanda milli azadlıq mübarizəsi

XX əsrin əvvəllərində Cənubi Azərbaycan əhalisinin ağır sosial-iqtisadi vəziyyəti ilə artıq tanışsınız. Məşəqqətli həyat yaşayan azərbaycanlıların azadlıq mübarizəsi necə başlandı? Onlar necə bir dövlət yaratmaq istəyirdilər? Azadlıq mübarizəsi nə ilə nəticələndi?

Azərbaycan Demokrat Partiyası, Şeyx Məhəmməd Xiyabani, Təbriz üsyanı, Azadistan, Milli hökumətin tədbirləri



**Şeyx Məhəmməd Xiyabani**

*Şeyx Məhəmməd Xiyabani deyirdi: "Qorxu millətin, azadlığın və başəriyyətin əsaslarını pozursa, əksinə, igidlik həmin əsasları sarsılmaz edir, qoruyur və möhkəmləndirir. Xalqın hüququnu qəsb etmiş adamlara rəhm etmək kütləyə xəyanətdir. Biz Azərbaycan xalqının səadətini, İranın səfalət və fəlakətdən xilas olmasını istəyirik".*

1917-ci ildə Təbrizdə baş verən xalq çıxışları Cənubi Azərbaycanda yenidən milli azadlıq hərəkatı başlanmasına təkan verdi. Hərəkat şah rejiminə və xarici işğalçılara qarşı yönəlmişdi. Etiraz çıxışları ***Azərbaycan Demokrat Partiyası (ADP)*** tərəfindən yönləndirilirdi. Partiyaya mübarizədə Səttarxanla birgə mətinləşmiş **Şeyx Məhəmməd Xiyabani** başçılıq edirdi. Hərəkatda fəhlə, kəndli və ziyalılar, milli burjuaziya nümayəndələri iştirak edirdilər.

1919-cu ildə İngiltərə Qacarlar dövləti ilə saziş bağlamaqla ölkəni özündən tam asılı vəziyyətə saldı. Bu, xalq içərisində böyük narazılıqla qarşılandı. **1920-ci ilin aprelində** Təbrizdə Ş.M.Xiyabaninin başçılığı ilə üsyan başlandı. Üsyançılar bütün dövlət idarələrini ələ keçirdilər. İşğalçı ingilis qoşunları Təbrizdən çıxarıldı. Qalibiyyətli ***Təbriz üsyanı*** AXC-də və Türkiyədə böyük əks-səda doğurdu. Sovet Rusiyası hərəkatın lideri Ş.M.Xiyabaniyə silah-sursat və maliyyə yardımı təklif etdi. Məqsəd Xiyabaninin əli ilə ingilisləri ölkədən qovmaq idi. Sovet Rusiyasını "çar hökumətinin astar üzü" adlandıran Xiyabani yardım təklifini qətiyyətlə rədd etdi.

LAYİHƏ

*Ş.M.Xiyabaninin Sovet Rusiyasının yardım təklifindən imtina etməsini doğru addım hesab edirsinizmi? Müzakirə edin.*

Xiyabaninin başçılıq etdiyi hərəkat tamamilə milli azadlıq və demokratiya uğrunda mübarizə səciyyəsi daşıyırdı. Tehran hökumətindən ***ölkənin respublika elan edilməsi və Cənubi Azərbaycana muxtariyyət verilməsi tələb olunurdu***.

**1920-ci il iyunun 23-də *Milli hökumət*** yaradıldı. Xiyabaninin başçılıq etdiyi Milli hökumət tam bir muxtar qurum kimi fəaliyyət göstərməyə başladı.

Milli hökumət Cənubi Azərbaycanda bir sıra mühüm islahatlar həyata keçirdi.

| Cənubi Azərbaycanda Milli hökumətin tədbirləri | |
|---|---|
| ***Sosial-iqtisadi*** | • Dövlətə məxsus torpaqların kəndlilər arasında bölünməsinə qərar verildi.<br>• Təbrizdə xalça fabriki tikmək qərara alındı. |
| ***Mədəniyyət*** | • Təbrizdə aztəminatlı ailələrin uşaqları məktəblərə cəlb olundu.<br>• Bir neçə məktəbdə qızlar üçün siniflər açıldı.<br>• Məktəblərdə dərslərin doğma türk dilində aparılmasına başlanıldı. |
| ***Dövlət və hərbi quruculuq*** | • Xiyabani qurduğu yeni dövləti ***"Azadistan"*** (Azad ölkə) adlandırırdı.<br>• Təbriz şəhərinin əhalisindən yeni jandarm və polis dəstələri təşkil edildi.<br>• Milli qvardiya yaradıldı. |

Maraqlıdır ki, Təbrizdə Xiyabani ilə görüşən Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalında milli hökuməti "Azərbaycan Cümhuriyyəti" adlandırmışdı.

Şimali Azərbaycanda 1920-ci ilin yayında sovet rejiminə qarşı baş vermiş üsyanlar qan içərisində boğuldu. Bu, Xiyabaninin Şimali Azərbaycanın işğaldan qurtulacağına olan ümidlərini qırdı. O, bolşevik zülmündən Cənuba üz tutan azərbaycanlılara dərhal sığınacaq verdi. Onların içərisində Gəncə və Qarabağ üsyanlarında iştirak etmiş çoxlu sayda hərbçimiz də var idi.

Qacarlar hökuməti bu hərəkat vasitəsilə ölkəni demokratikləşdirmək üçün gözəl imkan qazandı. Lakin İngiltərədən tam asılı olan hökumət bu imkandan yararlanmadı. Qacarlar hökuməti bütün əks-inqilabi qüvvələri səfərbər etdi. İngiltərə nümayəndələri ilə birlikdə hücum əməliyyatı hazırlandı. Komandanı rus olan şah kazak dəstəsi Təbrizə yeridildi. Milli hökumətin müdafiəçiləri qəhrəmanlıqla vuruşurdular. **1920-ci il sentyabrın 14-də** azadlıq hərəkatı yatırıldı. Milli hökumət süqut etdi. Şeyx Məhəmməd Xiyabani sona qədər igidliklə vuruşdu və Vətəni uğrunda şəhid oldu. Qacarlar hökumətinin – "*təslim olarsa, onu bağışlayacağıq*" təklifinə bu qəhrəman türk belə cavab vermişdi: "*Mən ölməyi üstün tuturam və düşmənlərimin qarşısında diz çökmərəm. Mən məşrutə dövrünün övladıyam və ərəblərə baş əyməyən Babək Xürrəminin nəslindənəm*". Beləliklə, milli azadlıq hərəkatı məğlubiyyətə uğradı. Cənubi Azərbaycan türkləri bu hərəkat zamanı ilk dəfə idi ki, muxtariyyət əldə etmək uğrunda mübarizə aparmışdılar.

LAYİHƏ

**SUAL VƏ TAPŞIRIQLAR:**

1. *Hərəkatda əhalinin bütün təbəqələrinin iştirak etməsi səbəblərini təhlil edin.*
2. *Sovet Rusiyasının Ş.M.Xiyabaniyə kömək təklifinin səbəbləri nə idi?*
3. *Şimali və Cənubi Azərbaycanda azadlıq hərəkatını Venn diaqramında müqayisə edin.*
4. *Ş.M.Xiyabaninin inqilabi fəaliyyəti Səttarxanın fəaliyyətindən hansı xüsusiyyətlərinə görə fərqlənirdi.*
5. *Mövzuda verilmiş mühüm hadisələrə aid zaman oxu tərtib edin.*

# *V fəsil.* Azərbaycan 1920 – 30-cu illərdə

## 29. Sovet rejiminin qurulması

Azərbaycanda müstəqil respublikanın varlığı Sovet Rusiyasını ciddi narahat edirdi. RSFSR hökumətinin Azərbaycan Xalq Cümhuriyyətini tanımaması, hədələyici notalar göndərməsi onun düşmən mövqeyini açıq-aydın göstərirdi. Bəs 1920-ci ilin yazında nə baş verdi? Rusiya Azərbaycandakı erməni separatçılarının köməyindən necə istifadə etdi? Azərbaycan xalqının aqibəti necə oldu?

AK(b)P, Aprel işğalı, XI Qırmızı ordu, Azərbaycan SSR, Xalq Komissarları Soveti, Nəriman Nərimanov, Fövqəladə Komissiya, Azneft

**Sovet Rusiyasının hərbi müdaxiləsi.** Sovet Rusiyası 1920-ci ilin ilk aylarında Cümhuriyyətə qarşı hərbi müdaxilə planları hazırlayırdı. İlk növbədə, Azərbaycanın daxilindəki Rusiya meyilli və xəyanətkar qüvvələr bir mərkəzdə birləşdirildi. Moskvanın birbaşa göstərişi ilə ***Azərbaycan Kommunist (bolşeviklər) Partiyası (AK(b)P)*** yaradıldı və ölkəmizin daxilində çevriliş hazırlanmağa başlanıldı. Sovet Rusiyasının əsas məqsədi təkcə Bakı neftini ələ keçirmək deyildi. O bütün Azərbaycanı, ardınca da Gürcüstan və Ermənistanı işğal etmək istəyirdi. 1920-ci ilin aprel ayında Azərbaycanın şimalına ***130 minə yaxın canlı qüvvə, çoxlu döyüş texnikası*** cəmləşdirildi. Aviasiya, zirehli qatarlar və Xəzər dənizindəki hərbi gəmilər də döyüşə hazır vəziyyətə gətirildi. Həmin vaxt Azərbaycan Milli Ordusunun Qarabağda erməni qiyamçılarına və ölkəmizə soxulmuş erməni hərbi qüvvələrinə qarşı mübarizəyə cəlb edilməsi şimal sərhədlərimizi müdafiəsiz qoymuşdu. Rusiya dərhal bundan istifadə etdi. XI Qırmızı Ordu **aprelin 26-da** Azərbaycanın sərhədlərini keçdi. Burada 350 nəfərlik Azərbaycan əsgəri işğalçı Qırmızı Orduya qarşı qəhrəmancasına müqavimət göstərdi. Bir gün sonra rus ordusu Bakının yaxınlığına – Biləcəri stansiyasına gəlib çatdı. İşğalçı orduya arxalanan AK(b)P rəhbərliyi Cümhuriyyətin parlamentinə ultimatum göndərdi. Ultimatumda hakimiyyətin dərhal “Azərbaycan fəhlə-kəndli hökumətinə” təhvil verilməsi tələb olunurdu. Rus ordusunun təzyiqləri altında parlament aprel ayının 27-də hakimiyyətin müəyyən şərtlərlə Azərbaycan kommunistlərinə təhvil verilməsi haqqında qərar qəbul etdi. Bu şərtlərə görə, Azərbaycanın müstəqilliyi qorunub saxlanılmalı, Azərbaycan kommunistlərinin yaradacağı hökumət müvəqqəti orqan olmalı,

LAYİHƏ



Həbib bəy Səlimov



Əsgəran qalası

*Rusiyanın Azərbaycanı işğal etmək işini asanlaşdırmaq üçün ermənilərin Dağlıq Qarabağda qiyamı təşkil edildi. Ermənilər Novruz bayramı günlərində qəflətən Xankəndi qarnizonuna hücum etdilər. Ardınca Əsgəran qalasını ələ keçirdilər. Hərbi Nazirliyin gördüyü təcili tədbirlər nəticəsində erməni hərbi hissələri Xankəndindən qovuldu. Azərbaycan hökuməti Qarabağda erməni qiyamını yatırmaq üçün ordunun böyük bir hissəsini general Həbib bəy Səlimovun başçılığı ilə oraya göndərdi. Əsgəran qalası tezliklə azad edildi və Qarabağ qiyamı yatırıldı. Rusiya Qarabağ hadisələrini təşkil etməklə Azərbaycan hökumətinin diqqətini şimal sərhədindəki təhlükədən yayındırmaq istəyirdi. Belə də oldu. Azərbaycan hökuməti Bakıda və şimal istiqamətində olan qoşunlarını Qarabağa göndərməklə Azərbaycana şimaldan giriş yolunu müdafiəsiz qoydu.*

M *Sovet Rusiyası və çar Rusiyasının Cənubi Qafqazdakı milli siyasətinin oxşarlığını müəyyən edin.*

XI Qırmızı Ordu Bakıya daxil olmamalı idi. Amma bu şərtlərdən heç birinə əməl olunmadı. Rus hərbçiləri şəhəri işğal etdi. Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradı. Bir neçə gün ərzində bütün Şimali Azərbaycanın işğalı başa çatdırıldı.

**Azərbaycan SSR-in yaradılması.** **1920-ci il aprelin 28-də *Azərbaycan Sovet Sosialist Respublikası (Azərbaycan SSR)*** yaradıldığı elan edildi. Ali siyasi hakimiyyət orqanı kimi ***Azərbaycan Müvəqqəti İnqilab Komitəsi*** yaradıldı. Həmin komitənin



*XI Qırmızı Ordu Bakıda*

*XI Qırmızı Ordunun Azərbaycanın bölgələrində zorakılıq aktları haqqında məlumat toplayın.*



LAYİHƏ




*Azərbaycan SSR 1920-ci illərdə*

formalaşdırdığı yeni hökumət **Azərbaycan SSR Xalq Komissarları Soveti (XKS)** adlandırıldı, **Nəriman Nərimanov** sədr təyin edildi. Yeni hökumətin tərkibi azərbaycanlılardan ibarət idi. Lakin Sovet Azərbaycanında real hakimiyyət həmin hökumətin deyil, AK(b)P Mərkəzi Komitəsinin əlində idi. Bu partiyanın rəhbərliyi isə ***rus***, ***erməni***, ***yəhudi*** *və* ***gürcülərdən*** ibarət idi. Partiyanın yerli təşkilatı olan Bakı Komitəsinə xüsusilə böyük səlahiyyətlər verilmişdi. Komitəyə əvvəl daşnak olub, sonradan kommunistə çevrilən A.Mikoyan başçılıq edirdi. Bakı Komitəsi hətta N.Nərimanovun verdiyi qərarları belə ləğv edirdi. N.Nərimanov çox qısa müddətdə Azərbaycan SSR-in müstəqilliyinin tamamilə formal olduğunu başa düşdü.

XI Qırmızı Ordunun Xüsusi Şöbəsi və yeni yaradılmış ***Fövqəladə Komissiya,*** həmçinin ***Ali İnqilabi Tribunal*** əsl terror təşkilatı kimi xalqımıza divan tuturdu. XKS-nin başçısı Nəriman Nərimanovun qanunsuz həbslərin qarşısını almaq cəhdləri heç də həmişə uğurlu olmurdu. Aprel çevrilişindən sonra Azərbaycanda rəhbər vəzifədə işləyən N.Solovyov V.İ.Leninə yazırdı: "Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi müsəlmanların düşmənlərinin təntənəsi və ümummilli fəlakət idi".

**İlk sosialist dəyişiklikləri.** Azərbaycan İnqilab Komitəsi və XKS Sovet Rusiyasının göstərişləri əsasında işləyirdi. Rusiyanın təkidi ilə Azərbaycanda da "sosialist" tədbirlərinin həyata keçirilməsinə başlanıldı. İnqilab Komitəsinin **1920-ci ilin mayında** verdiyi dekretlə ***bütün mülkədar və vəqf torpaqları müsadirə edildi.*** Həmin torpaqların kəndlilərin istifadəsinə verilməsi nəzərdə tutulurdu. Digər bir dekretlə Azərbaycan SSR-in ***Qırmızı Ordu və Donanmasının*** yaradılmasına başlanıldı. Əslində bu



LAYİHƏ

Azərbaycan Milli ordusunun ləğvi məqsədini daşıyırdı. Cümhuriyyətin Milli Ordusunu ləğv etmək üçün sərt tədbirlər görüldü. Bu orduya məxsus silah və geyim qəsb edildi. Zabitlər və generallar vəzifələrindən uzaqlaşdırıldı. Onların çoxu həbs edilərək güllələndi.



*N.Nərimanov XI Qırmızı Ordunun vəhşiliklərinin qarşısını qismən ala bildi. Bir çox ləyaqətli azərbaycanlını xilas etdi. H.Z.Tağıyevin adını güllələnməyə məhkum edilənlərin siyahısından çıxardı. O bütün əmlakı milliləşdirilmiş və müsadirə olunmuş H.Z.Tağıyevə təqaüd kəsdirdi, Mərdəkandakı bağ evini ona qaytardı.*

*Onların son görüşü 1924-cü ilin may ayında oldu. Moskvadan Bakıya qonaq gəlmiş N.Nərimanov Mərdəkana gedib Hacıya baş çəkmişdi. H.Z.Tağıyev həmin il vəfat etdi.*

*Müxtəlif əqidəli iki azərbaycanlını yaxınlaşdıran nə idi? Müzakirə edin.*

Bütün yeraltı və yerüstü sərvətlərimiz milliləşdirmə adı ilə onun əsl sahiblərinin əlindən alındı. ***Xəzər ticarət donanması, banklar, zavod və fabriklər dövlətin mülkiyyətinə çevrildi.*** Azərbaycanlı sahibkarlar “fəhlə sinfinin düşməni” elan edildilər. Burjuaziya nümayəndələri – milyonçular, tacirlər, torpaq sahibləri yeni hökumətin təqib və talanlarına məruz qaldılar. Onların mülkləri, fabrik və zavodları, gəmiləri, torpaqları, ev avadanlıqları, zinət əşyaları və digər şəxsi malları müsadirə olundu. “Xalq düşmənləri” elan edilmiş əhalinin varlı təbəqəsi tamamilə müflisləşdi, bir çoxları isə fiziki məhv edildi.

**1920-ci ilin mayında başqa bir dekretlə *bütün zümrələr*** və ***milli rütbələr*** ləğv edildi. Bütün əhali Azərbaycan SSR vətəndaşı adlandı. Lakin “qırmızı terror” şəraitində vətəndaş hüquqlarından və bu hüquqların qorunmasından danışmağa dəyməzdi.

Sovet Rusiyasının xüsusi marağında olan ***neft sənayesi*** **1920-ci il mayın 24-də** milliləşdirildi. Neft və neft məhsullarının satışı dövlət inhisarına alındı. Bu sahəyə rəhbərlik etmək üçün ***Azərbaycan Neft Komitəsi (Azneft)*** yaradıldı. Komitə Azərbaycan hökumətinə deyil, birbaşa Moskvaya tabe idi. Bakıda bir il ərzində hasil olan neftin 90 faizi Rusiyaya daşınmışdı. Azərbaycanın ehtiyacları üçün kiçik həcmdə neft ayrılması normasını da yalnız Sovet Rusiyası müəyyənləşdirirdi.

Azərbaycan Sovet hökuməti dinin dövlətdən ayrılması adı altında bütün dini mərasimlərin icrasını qadağan etmişdi. Bununla da, Azərbaycan vətəndaşlarının etiqad azadlığı kobud şəkildə pozulmuşdu. **1921-ci ildə *Azərbaycan SSR-in ilk Konstitusiyası*** qəbul edildi və nəticədə, ölkəmizdə bolşeviklərin, əslində, Rusiyanın əlində oyuncaq olan hakimiyyət orqanlarının fəaliyyəti “qanuniləşdirildi”.



LAYİHƏ

## SUAL VƏ TAPŞIRIQLAR:

1. *Sovet Rusiyasının Cənubi Qafqazla bağlı planlarını izah edin.*
2. *Xalq Komissarları Sovetindən üstün səlahiyyətə malik Azərbaycan Neft Komitəsinin yaradılma səbəbi nə idi?*
3. *Azərbaycanda Sovet hakimiyyəti qurulduğu zaman N.Nərimanovun fəaliyyətini qiymətləndirin.*
4. *Özünü "fəhlə və kəndli hökuməti" adlandıran Sovet hakimiyyəti hansı zümrə və təbəqələrə düşməncəsinə yanaşırdı?*
5. *Azərbaycan SSR-də əhalinin vicdan azadlığına münasibət bildirin.*
6. *Azərbaycan SSR-də milliləşdirmə siyasətinin soyğunçu xarakter daşıdığını əsaslandırın.*
7. *Hazırda Azərbaycan Respublikasının Konstitusiyasında vicdan azadlığı necə ifadə edilmişdir? Araşdırın.*

# 30. Sovet rejiminə qarşı xalq hərəkatı

Azərbaycan SSR-in yaradılması əhalinin bütün təbəqələrinin həyatını dəyişdi. Yeni quruluş fəhlə və kəndlilərə "səadət" vəd edirdi. Bəs digər təbəqələri nə gözləyirdi? Cümhuriyyət liderlərinin, ziyalıların, milli kadrların aqibəti necə oldu? Xalqımız ədalətsizliklərə, qırmızı terrora qarşı necə mübarizə aparırdı?

Ermənilərin terror aktları, Gəncə üsyanı, Cavad bəy Şıxlinski, Qarabağ üsyanı, Zaqatala üsyanı, Göynük üsyanı

**Hərəkatın səbəbləri.** Aprel istilasından sonra bolşeviklər Azərbaycan SSR-də tam bir işğal rejimi qurdular. Onlar siyasi rəqibləri ilə yanaşı, hərbçilərə, ziyalılara və din xadimlərinə də amansızlıqla divan tuturdular. **1920-ci ilin aprelindən 1921-ci ilin avqustuna qədər *sovet cəza orqanları 48 min nəfəri məhv etdi.*** Onların əksəriyyətini ziyalılar və hərbi kadrlar təşkil edirdi. Milli hökumətin baş naziri Nəsib bəy Yusifbəyli Kürdəmirdə qətlə yetirildi. Milli hökumətin ilk baş naziri Fətəli xan Xoyski və Cümhuriyyət Parlamentinin sədr müavini Həsən bəy Ağayev erməni terrorçuları tərəfindən Tiflisdə öldürüldülər.

*Nə qədər ki F.Xoyski və silahdaşları sağ idi, nə qədər ki Cümhuriyyətin siması sayılan Fətəli xan yaşayırdı, Azərbaycanın müstəqilliyini itirdiyini düşünənlərin sayı çox az idi...*
*Daşnaksütyun partiyasının IX qurultayında qəbul edilən "Nemezis" adlı türk və azərbaycanlı diplomat və siyasi xadimlərin məhv edilməsi əməliyyatı 1920-ci il iyunun 19-da ilk atəşini açdı. F.Xoyski, ardınca da əqidə yoldaşı Həsən bəy Ağayev Tiflisdə erməni terrorçuları tərəfindən qətlə yetirildilər.*

M

*M.Ə.Rəsulzadə, Ə.Topçubaşov və Cümhuriyyətin digər liderlərinin sonrakı taleləri haqqında məlumat toplayın.*



LAYİHƏ



*Şuşa erməni talanından sonra. 1920-ci il*

XI Qırmızı Ordunun əsgər və zabitləri azərbaycanlı əhalinin evlərinə soxulur, istədikləri şəxsi həbs edir, hətta güllələyirdilər. Zinət əşyaları, xalçalar, qiymətli qablar, mebellər qatarlara və gəmilərə yüklənib Sovet Rusiyasına göndərilirdi. Bolşeviklərin Bakıda, həmçinin bütün Azərbaycanda törətdikləri qırğın və talanlar 1918-ci ilin mart hadisələrini xatırladırdı. Bakıda baş verən terror və soyğunçuluq əməlləri qəzalarda daha ağır formada təkrar olunurdu. 1920-ci il mayın 29-da bolşeviklərlə əlbir olan ermənilər Şuşa qəzasında 30 Azərbaycan kəndini yandırdılar. Bu zaman çoxlu qadın və uşaq öldürüldü. Azərbaycanlı əhali içərisində Sovet hakimiyyətinin nüfuzdan düşməsi haqqında N.Nərimanovun Moskvaya göndərdiyi həyəcan dolu məktublara məhəl qoyan yox idi. Çünki mərkəz Azərbaycanda nələr törədildiyini yaxşı bilirdi. Bütün bunlar çox qısa müddətdə sovet rejiminə qarşı üsyanlara səbəb oldu.

*Bolşevik-daşnak qüvvələrinin azərbaycanlı ictimai-siyasi xadimlərə qarşı terror aktları haqqında daha nə bilirsiniz?*

**Sovet rejiminə qarşı üsyanlar.** Sovet işğal rejiminə qarşı ilk və ən böyük üsyan **Gəncədə** baş verdi. Bolşeviklər Gəncədəki Milli Ordu hissələrini ləğv etmək istəyirdilər. Əsgərlərimizin tərk-silah edilməsi haqqında qərar Gəncədə böyük narazılıqla qarşılandı. **1920-ci il mayın 25-də** üsyan başlandı. Üsyanda Milli Ordu hissələri ilə yanaşı, Gəncə şəhərinin on min nəfərdən çox sakini də iştirak edirdi. Üsyana rəhbərlik etmək üçün ***Hərbi Şura*** yaradıldı. Hərbi Şuraya Milli Ordunun generalları **Cavad bəy Şıxlinski, Məhəmməd Mirzə Qacar** və başqaları daxil idi. Üsyançılar ilk hücumla dəmir yolu stansiyasını ələ keçirdilər. Gəncə şəhərinin böyük bir hissəsi bir həftə üsyançıların nəzarəti altında qaldı. XI Qırmızı Ordu rəhbərliyi üsyanı yatırmaq üçün digər bölgələrdəki qoşun birləşmələrini Gəncə ətrafına topladı. Ağır toplardan və zirehli qatarlardan da istifadə edilməklə **mayın 31-də** düşmən Gəncə şəhəri üzərinə hücuma başladı. Şəhərin qəhrəman müdafiəçiləri rus ordusuna çox güclü




*Gəncə üsyanının planı*

*XI Qırmızı Ordu Gəncə döyüşlərində 900 nəfərdən artıq əsgərini itirdi, 6 mindən artıq əsgər isə yaralandı.*

LAYİHƏ

müqavimət göstərdilər. Düşmən yüzlərlə canlı qüvvə itirdi. Üsyan yatırılandan sonra Milli Ordunun çoxlu sayda yüksək rütbəli zabiti, o cümlədən 12 generalı həbs edildi. Onlar Bakıya aparılaraq Nargin adasında güllələndilər. Gəncə şəhəri rus əsgərləri və onlarla əlbir olan ermənilər tərəfindən üç gün qarət edildi. On üç min nəfərdən çox dinc sakin qətlə yetirildi. Gəncə üsyanı Sovet Rusiyasını bərk qorxuya saldı. Azərbaycana əlavə hərbi qüvvələr göndərildi.

Sovet rejiminə qarşı ikinci böyük üsyan **1920-ci il mayın 29-da *Qarabağda*** başlandı. XI Qırmızı Ordunun müdaxiləsi zamanı Milli Ordunun piyada və atlı alayları bu bölgəni nəzarətdə saxlamaqda davam edirdi. Sovet hökuməti Milli Ordu hissələrini tərk-silah etmək üçün Qarabağa iki diviziya göndərdi. Azərbaycan əsgərləri iyunun 5-də *Tərtər, Ağdam və Şuşada* savaşa girərək düşməni böyük tələfata uğratdılar. Üsyana **Nuru paşa** başçılıq edirdi.

Qarabağda Sovet hakimiyyəti devrildi, Nuru paşa Qarabağın hakimi elan edildi. Lakin əlavə qüvvələr hesabına XI Qırmızı Ordu iyunun 13-də üsyanı yatıra bildi. Ermənilərin köməyi ilə Azərbaycan əhalisinə divan tutuldu. Milli Ordunun salamat qalan hissələri Cənubi Azərbaycana və Türkiyəyə keçdi. Onlar Türkiyədə İstiqlal hərəkatında iştirak etdilər.

**1920-ci il iyunun 6-da *Zaqatalada*** üsyan başladı. Üsyançıların əsas hissəsini kəndlilər təşkil edirdi. Milli Ordunun süvari alayı da Qırmızı Orduya qarşı savaşa qoşuldu. Üsyana peşəkar hərbçi **Əhmədiyev** və bölgənin nüfuzlu şəxslərindən olan **Hafiz Əfəndi** başçılıq edirdilər. Üsyançılar Zaqatala və Qaxı düşməndən azad etdilər. Lakin Sovet hökuməti əlavə qüvvə yeritməklə üsyanı yatıra bildi. Salamat qalmış üsyançılar Gürcüstana sığındılar. Bu bölgəmizdə də əhaliyə qanlı divan tutuldu.

*1863-cü və 1920-ci illərdə baş vermiş Zaqatala üsyanlarını müqayisə edin.*

**1920-ci ilin may ayında *Nuxa qəzasında Göynük mahalının əhalisi*** rus işğalçılarına qarşı istiqlal savaşına qalxdı. Silahlı üsyanın mərkəzi Baş Göynük kəndi idi. Bir aydan artıq davam edən üsyan iyunun 15-də səhərdən axşama qədər davam edən qızğın döyüşlərdən sonra Baş Göynük kəndinin bolşevik hərbi qüvvələrinin əlinə keçməsi ilə sona çatdı. Bolşeviklər kənddəki kişilərin çoxunu məhv etdilər. Bu zaman erməni fitvası ilə görkəmli el sənətkarı, aşıq Molla Cuma da qətlə yetirildi.

**1920-ci ilin yayında *Şəmkir qəzasında*** sovet rejiminə qarşı üsyan baş verdi. Kişilərlə birlikdə qadın və uşaqlar da ruslara qarşı qəhrəmanlıqla vuruşurdular. İlk vaxtlar hökumət qüvvələri üsyançılar qarşısında aciz vəziyyətə düşdü. Bolşevik hökuməti XI Qırmızı Ordunun dörd diviziyasını bölgəyə yeritməyə məcbur oldu. Düşmən Şəmkir üsyanını çox böyük çətinliklə yatıra bildi.

**1920-ci ilin payızında *Lənkəranda*** işğalçı rejimə qarşı üsyan başlandı. Rus ordusu 1921-ci ilin əvvəlində üsyanı çox çətinliklə qan içində boğdu.

Azərbaycanın əksər bölgələrində müqavimət hərəkatının genişlənməsi işğalçı rejimi çox qorxuya saldı. XI Qırmızı Ordunun komandanlığı, heç olmasa, Abşeron və neft Bakısını nəzarətdə saxlamaq haqqında düşünməyə məcbur oldu. Bakı və onun ətrafında müdafiə istehkam xəttinin yaradılmasına başlanıldı. Sovet Rusiyası "müstəqil" Sovet Azərbaycanına təcili olaraq əlavə yeddi diviziya yeritdi.



LAYİHƏ

## SUAL VƏ TAPŞIRIQLAR:

1. *Sovet rejiminə qarşı üsyanların səbəblərini müəyyən edin.*
2. *Bolşeviklərlə daşnakların əlbir olması səbəbi nə idi? Fikirlərinizi bildirin.*
3. *Azərbaycanda antisovet üsyanlara aid Venn diaqramı tərtib edin.*
4. *Sovet rejiminə qarşı baş vermiş üsyanların məğlub olması səbəblərini təhlil edin.*
5. *Mövzuda verilmiş mühüm hadisələrə aid zaman oxu tərtib edin.*

# 31. Formal müstəqilliyin ləğvi

Sovet mənbələrində Azərbaycan SSR-in yaradılması burada sosialist inqilabının nəticəsi kimi qiymətləndirilmişdir. Kənar qüvvələrin zorakılığı ilə yaradılmış bir dövlət müstəqil ola bilərdimi? Bu müstəqillik nə qədər davam etdi?

Moskva müqaviləsi, formal müstəqilliyə zərbələr, Cənubi Qafqaz sovet respublikalarının federasiyası, SSRİ-nin yaranması

**Azərbaycan SSR-in formal olaraq müstəqil fəaliyyət göstərməsi.** Azərbaycan Sovet Sosialist Respublikası yarandığı gündən sözdə müstəqil olsa da, faktiki Sovet Rusiyasının əlində oyuncaq qurum idi. Çünki Azərbaycan SSR-in qurucusu Azərbaycan xalqı deyildi. Bu qurumu ərazilərimizi işğal etmiş Sovet Rusiyası yaratmışdı.

Azərbaycan SSR-in siyasi rəhbərliyi rus və gürcü bolşeviklərinin, bolşevik cildinə girmiş daşnakların və onlara qoşulmuş bir qrup Azərbaycan kommunistinin əlində idi. Ölkəmiz Rusiyanın göndərdiyi xüsusi və fövqəladə səlahiyyətli nümayəndələr – **S.Orconikidze, A.Mikoyan, S.Kirov, L.Mirzoyan** və s. tərəfindən idarə olunurdu. Moskva Azərbaycanı müstəqil respublika deyil, bir əyalət, Bakını isə özünün yanacaq bazası hesab edirdi. Bunu da heç gizlətmir və açıq şəkildə bildirirdi. N.Nərimanovun başçılıq etdiyi milli əqidəli kommunist qrupunun Azərbaycanı Şərqin qapısında nümunəvi və müstəqil respublikaya çevirmək niyyəti boşa çıxmışdı.

*Çar və Sovet Rusiyasının Azərbaycanda həyata keçirdiyi milli siyasəti müqayisə edin.*



*Bolşevik təbliğatına aid plakat*

Sovet Rusiyası Azərbaycanda kütləvi ruslaşdırma siyasəti yeridirdi. Sənədləşmə işləri, demək olar ki, ana dilində aparılmırdı. Rus dili dövlət dili səviyyəsinə qaldırılmışdı. Milli kadr qıtlığı bəhanəsi ilə rəhbər vəzifələrə qeyri-azərbaycanlılar gətirilirdi. Bakı “beynəlmiləl” şəhər elan olunmuşdu. İxtisaslı fəhlələrin çatışmaması adı ilə Rusiyadan və digər bölgələrdən Bakıya çoxlu işçi qüvvəsi gətirilmişdi.

LAYİHƏ

*Sizcə, Sovet Rusiyasının Azərbaycandakı siyasəti ilə çar Rusiyasının siyasəti arasında oxşarlıq var idimi? Müqayisə edin.*

**Formal müstəqilliyə ilk zərbə: Moskva müqaviləsi. 1920-ci il sentyabrın 30-da Moskvada *RSFSR-lə Azərbaycan SSR arasında "Hərbi-iqtisadi ittifaq" müqaviləsi*** bağlandı. Müqavilə və ona əlavə kimi imzalanan sazişlər qeyri-bərabər olub, təslim aktına bənzəyirdi. Həmin sənədlərə görə, Azərbaycanın hərbi, hərbi-dəniz qüvvələri, maliyyə, poçt, teleqraf idarələri və dəmir yolu nəqliyyatı Rusiyanın nəzarətinə keçdi. İmzalanan sənədlər içərisində ən ağırı xarici ticarətə aid saziş idi. Sazişə görə, Azərbaycan bütün xarici ticarət sahəsindəki fəaliyyətini Rusiyanın ixtiyarına verdi. Bu zaman Azərbaycan neftinin satış hüququ da Rusiyaya keçdi. Azərbaycan daxili ehtiyaclarını ödəmək üçün neft və neft məhsullarından yalnız Rusiyanın icazəsi ilə istifadə edə bilərdi. İmzalanan sənədlərin heç birində Azərbaycan SSR-in müstəqilliyinin və ərazi bütövlüyünün tanınması haqqında bir kəlmə də yazılmamışdı. Əvəzində müstəqil dövlətin fəaliyyəti üçün mühüm sayılan bütün əsas səlahiyyətlər Sovet Rusiyasına təslim edilmişdi. Sovet Azərbaycanının iqtisadi müstəqilliyi tamamilə əlindən alınmışdı. Onun siyasi müstəqilliyi isə yalnız formal xarakter daşıyırdı. Moskva müqaviləsi Azərbaycan SSR-in formal müstəqilliyinə ağır zərbə vurdu.



***Azərbaycan SSR-in ilk bayrağı. 1920 – 1921-ci illər***

*Birinci Sovetlər qurultayında N.Nərimanov əsas sərvətimiz olan neftin Rusiyanın əlinə keçməsini belə izah etmişdi: "İngilisləri Sovet Rusiyasını tanımağa, onunla müqavilə bağlamağa, sözsüz ki, bizim neft məcbur etdi. Biz elan edəndə ki, neftimiz Rusiyaya məxsusdur, ingilislərlə danışıqlarda bu, Sovet hökumətinin əlində əsas vasitəyə çevrildi. Biz kommunistlər üçün Sovet Rusiyası neftdən daha qiymətlidir".*

*Azərbaycan neftinin dövlətlər arasındakı münasibətlərə təsirini müəyyən edin.*

**Cənubi Qafqaz sovet respublikaları federasiyasının yaradılması.** Sovet Rusiyası 1920-ci ilin sonunda Ermənistanın və 1921-ci ilin əvvəlində Gürcüstanın müstəqilliyinə son qoyduqdan sonra yeni məkrli planını işə saldı. Bu planın məqsədi əvvəlcə Cənubi Qafqazın sovet respublikalarını bir ittifaqda birləşdirmək idi. Sonrakı mərhələdə bu ittifaqın Sovet Rusiyasının hegemon rol oynayacağı yeni bir dövlətin tərkibinə daxil edilməsi nəzərdə tutulurdu. Planın həyata keçirilməsinə 1921-ci ilin payızında başlandı. İlk addım kimi Cənubi Qafqaz sovet respublikaları arasında gömrük və sərhəd məntəqələri ləğv edildi. Onların xarici ticarət idarələri və dəmir yollarının birləşdirilməsinə qərar verildi.

**1922-ci il martın 12-də** Azərbaycan, Gürcüstan və Ermənistan arasında Moskvanın göstərişi ilə ***ittifaq müqaviləsi*** bağlandı. Həmin ilin dekabr ayında Bakıda Birinci Zaqafqaziya Sovetlər qurultayı keçirildi. Qurultayda Zaqafqaziya Respublikaları İttifaqının Mərkəzi İcraiyyə Komitəsi təşkil edildi. İttifaqın Konstitusiyası da qəbul olundu. Nəticədə, ***Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının***

LAYİHƏ

***(ZSFSR)*** yaradılması prosesi başa çatdı. Bununla Azərbaycanın formal müstəqilliyinə də son qoyuldu. Üç sovet respublikası federasiya şəklində birləşdirildi. Yeni federativ respublika vahid iqtisadi məkana və vahid büdcəyə malik idi. Belə birləşmə zəngin sərvətlərə və güclü iqtisadi potensiala malik olan Azərbaycan üçün qətiyyən sərfəli deyildi. İqtisadi baxımdan zəif olan Gürcüstan və Ermənistan isə Azərbaycanın neftindən və digər sərvətlərindən müftə şəkildə bəhrələnmək imkanı qazandılar. Bu iki sovet respublikası Azərbaycanın hesabına öz iqtisadiyyatlarını inkişaf etdirməyə başladı. Eyni zamanda Azərbaycanın nefti və digər sərvətlərinin talan edilib Rusiyaya daşınması davam edirdi.

*Gerbdə Azərbaycanın hansı sərvətləri təsvir olunub?*

Sovet Rusiyası ZSFSR yaranan kimi prosesləri daha da sürətləndirdi. **1922-ci il dekabrın 30-da** Moskvada Birinci Ümumittifaq Sovetlər qurultayı çağırıldı. Qurultayda ***Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ)*** yaradılması haqqında bəyannamə qəbul edildi, İttifaq müqaviləsi bağlandı. Yeni ittifaq dövlətinin tərkibinə ***RSFSR, Ukrayna SSR, Belarusiya SSR və ZSFSR*** daxil edildi.




***ZSFSR-in gerbi***

*Hazırda Rusiya, Ukrayna, Belarus və Cənubi Qafqaz respublikaları arasında münasibətlər necədir?*

1924-cü ildə SSRİ-nin birinci Konstitusiyası qəbul olundu. Konstitusiyada SSRİ-nin tərkibinə daxil olan müttəfiq respublikaların formal olsa da, hüquq bərabərliyi öz əksini tapmışdı. Əslində isə, SSRİ-nin tərkibində olan qeyri-rus xalqların müstəqil yaşamaq hüququ əllərindən alınmışdı. Yeni ittifaqda yalnız Rusiyanın maraqları nəzərə alınmış və onun hegemonluğu təmin olunmuşdu. Müttəfiq respublikalar isə Moskvanın bütün göstərişlərini sözsüz yerinə yetirməyə məcbur idilər. Beləliklə, Azərbaycan Sovet İttifaqının tərkibində hüquqları məhdudlaşdırılmış bir əyalətə çevrildi.

### SUAL VƏ TAPŞIRIQLAR:

1. *Azərbaycan rəhbərliyinin bolşevik-daşnak qrupundan ibarət olması respublika əhalisinin çoxmillətli olması ilə əlaqədar idimi? Fikirlərinizi bildirin.*
2. *Moskva müqaviləsinə aid sxem və ya şaxələnmə qurun.*
3. *ZSFSR-in yaradılması daha çox hansı respublikaların xeyrinə oldu? Fikrinizi bildirin.*
4. *Azərbaycanın formal müstəqilliyinin ləğvində neftin rolunu izah edin.*
5. *SSRİ-ni imperiya adlandırmaq olarmı? Fikrinizi əsaslandırın.*



LAYİHƏ

# 32. Azərbaycanın ərazi bütövlüyünə yeni qəsdlər

Sovet hakimiyyətinin qurulması Azərbaycanda baş verən fəlakətlərin başlanğıcı idi. Sovet Rusiyasının himayəsi ilə Ermənistanın yeni-yeni torpaq iddiaları Azərbaycanın hesabına ödənirdi. Xalqımız hansı torpaq itkiləri ilə üz-üzə qaldı? Azərbaycanla Ermənistan arasındakı sərhədlər necə müəyyən olundu? Azərbaycanın hansı torpaqları Gürcüstana verildi?

Dərələyəzin ermənilərə verilməsi, Veysəl bəy, Türkiyənin Naxçıvana hərbi yardımı, Yuxarı Qarayazının Gürcüstana verilməsi, DQMV-nin yaradılması, Naxçıvan MSSR-in təşkili

**Sovet Rusiyası tərəfindən Azərbaycanın parçalanması.** 1920-ci ilin aprel istilasından sonra Sovet Rusiyasının bolşevik rəhbərliyi Azərbaycan SSR-in ərazi bütövlüyünü qorumaq niyyətində deyildi. Sovet hakimiyyəti nümayəndələri erməni və Gürcüstan bolşevikləri ilə gizli danışıqlar aparırdılar. Bu respublikaları sovetləşdirmək üçün Azərbaycan torpaqlarından şirnikləndirici vasitə kimi istifadə edilirdi. Azərbaycan Xalq Cümhuriyyətinin çətinliklə yaratdığı milli ordu hissələrinin ləğvi nəticəsində xalqımız və torpaqlarımız müdafiəsiz qalmışdı. XI Qırmızı Ordu hissələri isə işğalçı erməni hərbi birliklərinin Qarabağ, Naxçıvan və Zəngəzur bölgələrinə hücumlarının qarşısını qəsdən almırdı. Ona görə də yerli əhali tərəfindən 1920-ci ilin yayında Veysəl bəyin başçılıq etdiyi türk qoşunu Naxçıvana dəvət edildi. Bu qoşun Naxçıvanın erməni daşnak-bolşevik hücumlarından qorunmasında həlledici rol oynadı. Sovet Rusiyası ilə Ermənistan Respublikası arasında **1920-ci ilin avqustunda** saziş bağlandı. Sazişdə Azərbaycanın ***Şərur-Dərələyəz bölgəsinin Ermənistan Respublikası verilməsi nəzərdə tutulurdu***. Bu azmış kimi, əzəli torpaqlarımız olan ***Zəngəzur, Naxçıvan, Qarabağ isə "mübahisəli ərazi" hesab edilirdi.***

Ermənistanda Sovet hakimiyyəti qurulandan sonra Moskvanın Azərbaycanla bağlı siyasəti daha da sərtləşdi. Sovet Rusiyasının təzyiqi altında Azərbaycan İnqilab Komitəsi Ermənistanın sovetləşməsindən dərhal sonra belə bir bəyanat verdi: "Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd yoxdur. Zəngəzur və Naxçıvan Sovet Ermənistanının bölünməz ərazisidir. Dağlıq Qarabağın əməkçi kəndlilərinə öz müqəddəratını təyin etmək hüququ verilir". Bu bəyanat Türkiyə tərəfindən qəti etirazla qarşılandı. Naxçıvanda isə əhali kəskin etiraz çıxışlarına başladı. Azərbaycanın Ədliyyə üzrə xalq komissarı Behbud bəy Şahtaxtinski gərginliyi azaltmaq üçün bölgəyə göndərildi. O, Naxçıvan camaatı qarşısında vətənpərvərliklə çıxış edərək, heç nədən çəkinmədən açıq şəkildə əhaliyə bildirdi: "Azərbaycan hökuməti sizi torpağınızla birlikdə Ermənistana satıbdır. Burada arxalana biləcəyiniz yeganə qüvvə türk qoşunlarıdır. Sizi ağır fəlakətdən yalnız onlar xilas edəcəkdir".

Sovet Rusiyası Azərbaycanın Gürcüstanla ərazi-sərhəd mübahisələrində də Azərbaycanın mənafeyinə zidd mövqedən çıxış edirdi. 1921-ci ildə Moskvanın qərarı ilə əhalisinin böyük əksəriyyətinin azərbaycanlılardan ibarət olması nəzərə alınmadan ***Borçalı qəzasının mərkəzi hissəsi Gürcüstana verildi.*** **1922-ci ildə** Sovet Rusiyası Gürcüstanın maraqlarını əsas götürərək Azərbaycanın ***Qarayazı torpağını iki yerə böldü.*** Yuxarı Qarayazı Gürcüstanın tərkibinə qatıldı.



LAYİHƏ



*Ermənistan və Gürcüstana verilmiş Azərbaycan əraziləri*

*Moskvanın rəhbərliyi ilə həyata keçirilən ərazi-sərhəd dəyişikliklərinin nəticəsi Azərbaycan üçün fəlakətli oldu. Şimali Azərbaycanın ərazisi 114 min kv. km-dən azalaraq 86,6 min kv. km-ə endi. Azərbaycan torpaqları hesabına Ermənistanın ərazisi 10 min kv. km-dən 29,8 min kv. km-ə, Gürcüstanın ərazisi isə 69,7 min kv. km-ə çatdırıldı.*

M *Azərbaycanın ərazi və sərhədlərindəki dəyişikliyi çar Rusiyası dövründəki inzibati-ərazi islahatı ilə müqayisə edin.*

**Azərbaycanın tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) yaradılması.** Ermənistan SSR Azərbaycana məxsus Qarabağın dağlıq hissəsini ələ keçirməyə çalışırdı. Sovet rəbbərliyi – Moskva Ermənistanın Qarabağla bağlı iddiasını təmin etməyə qərar verdi. ***Rusiya Kommunist (bolşeviklər) Partiyasının Qafqaz Bürosu*** bu məsələni müzakirəyə çıxardı. Büronun **1921-ci il iyulun 4-də** keçirilən iclasında Dağlıq Qarabağın Ermənistana verilməsi haqqında qərar qəbul edildi. N.Nərimanovun qəti etirazından sonra **iyulun 5-də** Qafqaz Bürosu yeni qərar qəbul etdi: ***Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılsın və inzibati mərkəzi Şuşa şəhəri olmaqla ona vilayət muxtariyyəti verilsin.***

*N.Nərimanov Tiflisdə Azərbaycan, Gürcüstan və Ermənistan sovet respublikaları arasında sərhəd məsələlərinin müəyyənləşdirilməsinə həsr edilmiş iclasın qərarını belə şərh etdi: "Sovet Konstitusiyası çərçivəsində vilayət icraiyyə komitəsi başda olmaqla, daxili özünüidarə hüququ verilməklə Dağlıq Qarabağ Sovet Azərbaycanının ayrılmaz hissəsi kimi qalacaqdır".*

*N.Nərimanov Dağlıq Qarabağa muxtariyyət statusunun verilməsini Rusiyanın Azərbaycanın başına gətirdiyi fəlakətlərin başlanğıcı hesab edirdi.*

Azərbaycan hökuməti daxilində milli kommunistlərin bir qrupu bu qərarın icrasına qarşı iki il müqavimət göstərdi. Moskvanın təzyiqi altında Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi yalnız **1923-cü il iyulun 7-də** Azərbaycanın tərkibində ***Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV)*** yaradılması haqqında qərar verdi. Vilayətin inzibati mərkəzi kimi Xankəndi seçildi. İki ay sonra ermənilər Azərbaycan hökumətinin razılığını almadan Xankəndinin adını dəyişərək xalqımızın qəddar düşməni Stepan Şaumyanın şərəfinə Stepanakert adlandırdılar.

? *Sovet hakimiyyəti illərində bir çox rayon və şəhərlərimizin adı dəyişildi, onlara xalqımızın düşmənlərinin – "inqilabçılar"ın adı verildi. Bu haqda məlumat toplayın.*

**Naxçıvan MSSR-in təşkili.** Naxçıvan bölgəsinin Azərbaycanın tərkibində qalmasında yerli əhalinin ciddi müqaviməti ilə yanaşı, qardaş Türkiyə misilsiz rol oynadı. Naxçıvanda türk qoşunlarının olmasını Sovet Rusiyası və Sovet Ermənistanı rəhbərliyi nəzərə almalı oldu. **1921-ci ilin martında** Sovet Rusiyası ilə Türkiyə arasında ***Moskvada*** imzalanan müqaviləyə görə, ***Naxçıvan bölgəsi Azərbaycanın himayəsi***



LAYİHƏ



*Qars müqaviləsinin iştirakçıları*

***altında muxtar ərazi vahidi kimi təşkil olunmalı,*** Azərbaycan Naxçıvanla bağlı hüququnu hər hansı bir üçüncü dövlətə güzəştə getməməli idi. Müqavilədə üçüncü dövlət dedikdə Ermənistan nəzərdə tuturdu. Naxçıvan məsələsinin ədalətli həlli Azərbaycanın mənafeyi və Türkiyənin təhlükəsizliyi baxımından böyük qələbə idi.

1921-ci ilin oktyabrında Qarsda Cənubi Qafqazın sovet respublikaları ilə Türkiyə arasında danışıqlar başladı. Danışıqlarda Sovet Rusiyasının göstərişi ilə Azərbaycan qardaş Türkiyə tərəfində deyil, Sovet Gürcüstanı və Sovet Ermənistanı tərəfində yer aldı. Rusiyanın iştirakı ilə Türkiyə və Cənubi Qafqaz respublikaları arasında ***Qars müqaviləsi*** imzalandı. Bu müqavilə ilə Naxçıvanın Azərbaycana məxsusluğu bir daha təsdiq edildi. Naxçıvanın bir muxtar ərazi kimi dəqiq sərhədləri də müəyyən olundu.

*Naxçıvan bölgəsinin Azərbaycanın tərkibində qalmasında Türkiyənin tarixi rolunu dəyərləndirin.*

**1924-cü il fevralın 9-da** Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi ***Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının (MSSR)*** yaradılması haqqında dekret imzaladı. Muxtar respublikanın ərazisi 6 min kv. km-ə yaxın idi. Lakin Moskvanın Anti-Azərbaycan siyasəti nəticəsində Naxçıvana məxsus bir çox ərazilər Ermənistana güzəşt edildi. Muxtar respublikanın ərazisi azalaraq 5,5 min kv. km-ə endi. Bu azmış kimi, 1929 – 1930-cu illərdə Ordubad və Zəngilan rayonlarının bəzi kəndləri hesabına yaradılmış Mehri rayonu Ermənistana verildi. Nəticədə, Naxçıvan MSSR Azərbaycanın əsas hissəsindən ayrı salındı. Bu səbəbdən hazırda Azərbaycan Respublikası ayrılmaz hissəsi olan Naxçıvanla birbaşa quru əlaqəsinə malik deyil.

### SUAL VƏ TAPŞIRIQLAR:

1. *Sovet Rusiyasının Cənubi Qafqaz siyasətində Azərbaycan SSR-ə münasibətini müəyyən edin.*
2. *Ermənistanın sovetləşməsi ilə bağlı Azərbaycan İnqilab Komitəsinin verdiyi bəyanatın Anti-Azərbaycan xarakteri daşıdığını əsaslandırın.*
3. *Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması hansı fəlakətlərə yol açdı? Ehtimallarınızı bildirin.*
4. *Azərbaycan Respublikası ilə Naxçıvanın birbaşa quru əlaqəsi olmamasının səbəblərini təhlil edin.*
5. *XX əsrin birinci rübündə itirilmiş Azərbaycan torpaqlarına aid təqdimat hazırlayın.*



LAYİHƏ

# 33. Azərbaycanda Sovet hökumətinin iqtisadi tədbirləri

Sovetləşmədən sonra Azərbaycan xalqını artıq yeni bir həyat gözləyirdi. Fəhlələr və kəndlilər yeni hökumətə böyük ümid bəsləyirdilər. Əhali vəd olunan firavan həyata qovuşa bildimi? Hər kəs iqtisadi imkanlar baxımından bərabər oldumu? Hansı yeni qaydalar tətbiq edildi?

"Hərbi kommunizm" siyasəti, ərzaq sapalağı, Yeni İqtisadi Siyasət, ərzaq vergisi, sənayeləşdirmə xətti, neft sənayesinin inkişafı

**"Hərbi kommunizm" siyasəti. Ərzaq sapalağı.** Sovet hakimiyyəti **1920-ci ilin yayından** ***Azərbaycanda "hərbi kommunizm" siyasətini tətbiq etməyə başladı.*** Taxıl məhsulları dövlət inhisarına alındı. Kəndliyə taxıl məhsulunu açıq satışa çıxarmaq qadağan edildi. Zorakı ***ərzaq sapalağının*** tətbiqinə başlandı. Ərzaq sapalağına görə məhsulun çox az hissəsi kəndlinin ixtiyarında qalırdı. Bu, yaxşı halda kəndlinin acından ölməməsinə kifayət edirdi. Məhsulun böyük bir hissəsi hökmən dövlətə təhvil verilməli idi. Ərzaq sapalağını həyata keçirmək üçün kəndlərə xüsusi ərzaq ekspedisiyaları göndərilirdi. Ekspedisiyaların tərkibi, əsasən, erməni və ruslardan ibarət idi. Xüsusi hərbi dəstənin müşayiət etdiyi ekspedisiyalar Azərbaycan kəndlisini, sözün əsl mənasında, qarət edirdi. Kəndli heç çar hökuməti dövründə də belə özbaşınalıq görməmişdi. Azərbaycanın hər yerindən N.Nərimanova çoxlu sayda şikayət məktubları göndərilirdi. Kəndlilər daha çox sonuncu tikələrinin əllərindən alınmasından, at və digər iş heyvanlarının müsadirə olunmasından şikayətlənirdilər. 1920-ci ilin payızında keçirilən soyğunçu ərzaq toplanması tədbirləri xalqımıza böyük məhrumiyyətlər gətirdi. Azərbaycanın əksər bölgələrini aclıq bürüdü. XI Qırmızı Ordunu və fəhlələri çörəklə təmin etmək adı ilə həyata keçirilən ərzaq sapalağı kəndlilərin kütləvi narazılığına səbəb oldu.



*V.İ.Lenin kəndlilərdən müəyyən edildiyi qədər taxıl toplanmadığını gördükdə qəzəbləndi. 1920-ci ildə zorakılıqlara müqavimət göstərən bölgələrdəki kəndlilərə qorxunc cəza verildi: kəndlilərin yalnız artıq taxılı deyil, eyni zamanda əllərindəki toxumluq taxıl da toplanılacaqdı. Toxumların yığılması kəndlilərin yeni məhsul əldə edə bilməmələri və qıtlıq nəticəsində ölmələri mənasına gəlirdi. Elə belə də oldu. 1921 – 1922-ci illərdə Rusiya sərhədləri daxilində 29 milyon insan aclıq çəkdi. Onlardan 5 milyonu aclıq nəticəsində həyatını itirdi.*

**Yeni İqtisadi Siyasətin həyata keçirilməsi.** Kənddə yaranmış fəlakətli vəziyyət və əhalinin narazılığı Sovet hökumətini iqtisadi siyasəti dəyişməyə məcbur etdi. **1921-ci ilin yazında** Rusiyada, ardınca digər sovet respublikalarında ***Yeni İqtisadi Siyasətə (YİS)*** keçildi. Bu siyasətə görə, ərzaq sapalağından iki dəfə az ərzaq vergisi tətbiq edildi. Milliləşdirilmiş sənaye müəssisələrinin bir hissəsi köhnə sahiblə-



LAYİHƏ

rinə və ya xarici şirkətlərə icarəyə verildi, ticarət azadlığı elan olundu. Azərbaycanda da ərzaq sapalağı ləğv edildi və adı çəkilən islahatlar həyata keçirilməyə başlanıldı. Amma Sovet Rusiyasından fərqli olaraq, Azərbaycanda ərzaq vergisi dərhal tətbiq edilmədi. N.Nərimanovun təşəbbüsü ilə hər kəndli təsərrüfatı üzərinə könüllü ***çanaq rüsumu*** (8 kq taxıl) qoyuldu. **1922-ci ilin yazından isə *ərzaq vergisi tətbiq olundu.*** Nəticədə, Azərbaycan kəndlisinin vəziyyəti xeyli yüngülləşdi. Çünki kəndli vergini ödəyəndən sonra qalan məhsuldan sərbəst şəkildə istifadə edə, hətta bazarda sata bilərdi.

YİS-in tətbiqi Azərbaycanda əkin sahələrinin böyük sürətlə azalmasının qarşısını aldı. Taxıl istehsalı yenidən artmağa başladı. Şəhərlə kənd arasında əlaqələr genişləndi və ticarət canlandı.

Sənaye sahəsində YİS-in həyata keçirilməsi zamanı iri və strateji əhəmiyyətli müəssisələr dövlətin nəzarətində saxlanılırdı. Çoxlu sayda yüngül və yeyinti sənayesi müəssisələri isə xüsusi sahibkarlara icarəyə verilirdi. Moskva öz nəzarətində saxladığı neft sənayesini inkişaf etdirmək üçün müəyyən addımlar atdı. Azərbaycan Neft Komitəsinə xarici şirkətlərlə əlaqələr yaratmağa icazə verdi. Bundan istifadə edən komitə xaricdən xeyli neft avadanlığı satın alıb Azərbaycana gətirdi. Neft və neft məhsulları sərbəst şəkildə xarici ölkələrdə satışa çıxarıldı.

*Azərbaycan SSR və Azərbaycan Xalq Cümhuriyyətinin neft siyasətini müqayisə edin.*

***YİS-in tətbiqi nəticəsində bütövlükdə Azərbaycan iqtisadiyyatında canlanma yarandı.*** Azərbaycan kəndlərində ortabab və varlı kəndli (qolçomaq) təsərrüfatlarının xüsusi çəkisi xeyli artdı. 1925-ci ildə ortabablar artıq bütün kəndlilərin yarıdan çoxunu təşkil edirdi. Bu dəyişikliklər özünü fəhlə-kəndli hökuməti adlandıran bolşevik siyasi dairələrini təşvişə saldı. Sovet hökuməti xüsusi sahibkarlığın və "istismarçı" siniflərin gücləndiyini bəhanə gətirərək ***1920-ci illərin ikinci yarısında YİS-dən imtina etdi.***

**Hökumətin sənayeləşdirmə tədbirləri.** SSRİ rəhbərliyi 1925-ci ilin dekabrında bütün ölkədə sosialistcəsinə sənayeləşdirmə xəttini elan etdi. Azərbaycanda bu xəttin həyata keçirilməsi Rusiyanın maraqlarına tabe edildi. Neft sənayesinin inkişaf etdirilməsi Moskva tərəfindən Azərbaycanda sənayeləşdirmənin başlıca vəzifəsi kimi irəli sürüldü. Bunun üçün neft sənayesini texniki cəhətdən yenidən qurmaq lazım idi. Moskva neft sənayesini birinci növbədə maliyyələşdirirdi. Azərbaycan qəzalarında sənayenin inkişafı isə ikinci dərəcəli vəzifə hesab olunurdu. Bu dövrdə Abşeronda yeni neft yataqları istismara verildi. Neftçıxarmanı zəruri texnika ilə təmin etmək üçün neft maşınqayırması yenidən quruldu. Neft maşınqayırması zavodlarında yeni dərinlik nasoslarının istehsalına başlanıldı. 1930-cu ildə Bakı–Batum neft kəmərinin bərpası başa çatdırıldı. Kəmər neftin daha tez və ucuz daşınmasını təmin edirdi.

XX əsrin 20 – 30-cu illərində Azərbaycan SSR-də neft çıxarılması səkkiz dəfə artdı. Lakin SSRİ rəhbərliyi Azərbaycanda "qara qızıl çıxarılması"nın artım sürətindən yenə də narazı idi. Bu sahədə işlərin sürətləndirilməsi haqqında tez-tez qərarlar verilirdi.

Sənayeləşdirmə dövründə elektrik enerjisi istehsalı Azərbaycanda neft sənayesindən sonra daha çox diqqət yetirilən ikinci sahə idi. Bu dövrdə onlarla su və istilik elektrik stansiyası istifadəyə verilmişdi. Xalqın əsas istehlak mallarına olan tələbini

LAYİHƏ

də ödəmək lazım idi. Bu məqsədlə Azərbaycanın bölgələrində yeni yüngül və yeyinti sənaye müəssisələri inşa edildi. Nəticədə, **Gəncə şəhəri Azərbaycanın ikinci sənaye mərkəzinə çevrildi.**

Sənayeləşdirmə dövründə nəqliyyat sahəsində də müəyyən işlər görüldü. 1926-cı ildə Bakı – Sabunçu elektrik dəmir yolu xətti işə salındı. Bu, SSRİ-də elektriklə işləyən ilk dəmir yolu xətti idi. İnşasına çoxdan başlanan Bakı – Culfa dəmir yolunun Mincivan stansiyasına kimi çəkilişi 1940-cı ildə başa çatdırıldı. **1937-ci ildə Bakı ilə Moskva arasında müntəzəm hava uçuşlarına başlanıldı.**

Sənayeləşdirmə xəttinin həyata keçirilməsi Azərbaycan SSR-in ümumi iqtisadi inkişafına təkan verdi. İqtisadi sahədə uğurlar Azərbaycan fəhləsinin çox ağır zəhməti və fədakarlığı hesabına qazanıldı.

***SUAL VƏ TAPŞIRIQLAR:***

1. *Yeni İqtisadi Siyasətə keçilməsi səbəblərini müəyyənləşdirin.*
2. *YİS-in açdığı yeni imkanlara aid şaxələnmə qurun.*
3. *Ölkə əhalisinin iqtisadi cəhətdən güclənməsi hökuməti niyə narahat edirdi?*
4. *Azərbaycan SSR-də sənayenin daha çox inkişaf etdirilən sahələrini müəyyən edin.*
5. *Mətnə əsasən xronoloji cədvəl qurun.*

# 34. Zorakı kollektivləşdirmə

"Fəhlə və kəndli" hökuməti zəhmətkeş əhaliyə firavan, istismarın olmadığı həyat bəxş edəcəyini vəd etmişdi. Əsrlər boyu torpaq problemi yaşayan kəndlilərin həyatı necə dəyişdi? Onların kollektivləşdirmə dövründəki həyatı əvvəlkindən üstün idimi? Varlı kəndlilərin – qolçomaqların aqibəti necə oldu? Yeni qayda-qanunlar əhalini razı saldımı?

Kollektivləşdirmə xətti, fərdi təsərrüfatların zorakı birləşdirilməsi, kolxoz, "qolçomaqlıqdan salma", xalq çıxışları, "Çayoba faciəsi"

**Kollektivləşdirmə xəttinin həyata keçirilməsi.** Azərbaycanda kollektivləşdirmə siyasəti hələ 1920-ci illərin əvvəllərində başlanmışdır. Lakin uğurlu olmamışdır. Sürətlə sənayeləşdirmə kənd təsərrüfatının kollektivləşdirilməsini tələb edirdi. Lakin bu, kəndlilərin mənafeyinə uyğun deyildi. Ona görə də əvvəllər nəzərdə tutulan kollektiv təsərrüfatların könüllü yaradılması siyasətindən imtina edildi.

SSRİ rəhbərliyi 1920-ci illərin sonlarında kəndli və torpaq məsələlərini özü üçün sərfəli qaydada həll etməyə başladı. Kəndli təsərrüfatlarının ***kollektivləşdirilməsi xətti*** elan olundu. Kollektivləşdirmə siyasətinə görə, fərdi kəndli təsərrüfatları tamamilə ləğv edilməli və bütün torpaqlar ictimailəşdirilmə adı ilə dövlətin ixtiyarına



LAYİHƏ

keçməli idi. Moskva kollektivləşdirmə xəttini həyata keçirmək üçün Azərbaycan rəhbərliyinə dörd il vaxt ayırdı. Azərbaycan rəhbərliyi isə kollektivləşdirmə xəttini çox qısa müddətdə başa çatdırmağa çalışırdı. Kolxoz quruculuğu, bir qayda olaraq, heç bir könüllülük prinsipi gözlənilmədən inzibati və zorakı üsullarla aparılırdı. Azərbaycan kəndinin özünəməxsus xüsusiyyətlərinə və milli adət-ənənələrə məhəl qoyulmurdu. Rusiyadakı təcrübə kor-koranə tətbiq olunurdu. İcma şəklində yaşamağa və birgə işləməyə alışmış rus kəndlilərindən fərqli olaraq, Azərbaycan kəndlisi daha çox fərdi çalışırdı. Ona görə də kolxoza nifrətlə yanaşan Azərbaycan kəndlisini kollektiv təsərrüfata cəlb etmək üçün zorakılığa əl atıldı.

*Kolxozların yaradılması kəndliləri nələrdən məhrum edirdi? Fikirlərinizi bildirin.*

**1930-cu ildə** Azərbaycan SSR-də ***elliklə kollektivləşdirmə*** daha da sürətləndirildi. Hökumət kollektivləşdirmə siyasətini həyata keçirərkən varlı kəndliləri – qolçomaqları bir sinif kimi məhv etmək vəzifəsini irəli sürdü. Yaxşı təsərrüfatçı olan qolçomaqlarla hökumət çox amansız davranırdı. Onlar səsvermə hüququndan məhrum edildi, muzdlu işçi işlətmələri, texnika icarəyə vermələri qadağan olundu. Qolçomaqların torpaqları və əmlakları əllərindən alındı. Sovet cəza orqanları tərəfindən onların bir hissəsi güllələndi, qalanları isə ailəsi ilə birlikdə Sibirə və Qazaxıstana sürgün edildi. “Qolçomaqlıqdan salma” adı altında Azərbaycanda 200 min nəfərdən çox kəndlinin əmlakı müsadirə olundu, özləri ya güllələndi, ya da sürgünə göndərildi. Hökumətin müəyyən etdiyi “qolçomaqları bir sinif kimi ləğvetmə planı” dolmayanda, ortabab kəndliləri də qolçomaq siyahısına salıb məhv edirdilər. Sovet İttifaqının ozamankı rəhbərliyinin etirafına görə, kollektivləşdirmənin gedişində buraxılan səhvlərə, əyinti və özbaşınalıqlara görə, Azərbaycan Sovet İttifaqında birinci yeri tuturdu. 1937-ci ildə Azərbaycan kəndində kolxoz quruluşunun tam qələbə qazandığı rəsmən elan olundu.

*Zor tətbiq etməklə yeni qaydalar yaratmağı islahat hesab etmək olarmı? Fikirlərinizi bildirin.*

Zorakı kollektivləşdirmə tədbirləri nəticəsində Sovet hökuməti kəndliləri birlikdə istismar etmək imkanı qazandı. Kolxozlarda birləşən kəndlilər tamamilə hüquqsuz vəziyyətə düşdülər. Sovet hökuməti 1950-ci illərin sonuna qədər kəndliləri ölkənin tamhüquqlu vətəndaşı saymır, onlara pasport vermirdi. Kolxozçu kəndlinin yaşadığı yeri tərk edib işləmək üçün şəhərə getmək imkanı da yox idi. Yaşadığı yeri tərk edə bilməyən kolxozçu kəndli, əslində, təhkimli vəziyyətinə salınmışdı.

**Kollektivləşdirməyə qarşı üsyan və çıxışlar.** **1930-cu ildə** Azərbaycanın əksər bölgələrində kütləvi üsyanlar baş verdi. Üsyanların əsas səbəbi zorakılıqla həyata keçirilən kollektivləşdirmə tədbirləri idi. Üsyanlarda kəndlilərlə yanaşı, Sovet hökumətinin şübhə ilə yanaşdığı, divan tutmağa çalışdığı ziyalılar və din xadimləri də fəal iştirak edirdilər. İlk üsyanlardan biri ***Şəmkirdə*** baş verdi. Əhalinin bütün təbəqələri, hətta hökumətin dayağı sayılan yerli kommunistlər və milis işçiləri də üsyana qoşuldu. Sovet rejimi amansız cəza üsullarından istifadə etməklə üsyanı yatıra bildi. 1930-cu ildə



LAYİHƏ

gizlədilmiş üsyançıların axtarılması adı altında Gədəbəyin Çayoba kəndində hökumətin keçirdiyi cəza əməliyyatı xüsusilə amansız oldu. "Çayoba faciəsi" zamanı kənddəki evlər yandırıldı və 14-ü uşaq olmaqla, 36 dinc sakin qətlə yetirildi.

Fərdi kəndli təsərrüfatları üzərinə ağır vergilər qoyulur, hökumətin müəyyənləşdirdiyi vergilərdən daha çox vergi yığılırdı. Ərzaq qıtlığı nəticəsində Şəki şəhərində qiymətlər üç dəfədən çox bahalaşmışdı. Din xadimlərinə divan tutulmuş və məscidlər bağlanmışdı. Bütün bunlar 1930-cu ildə ***Şəki – Zaqatala*** bölgəsində böyük üsyana səbəb oldu. Üsyançılar zülm və bəlaların dövlət müstəqilliyimizin itirilməsinin nəticəsi olduğunu aydın şəkildə dərk edir, xilas yolunu isə milli dövlətin bərpasında görürdülər. 1930-cu ilin aprelində Şəkinin Baş Göynük kəndində baş vermiş üsyana **Molla Mustafa Şeyxzadə** başçılıq edirdi. Üsyançılar sovet qoşunlarını məğlubiyyətə uğradaraq Şəki şəhərini tutub həbsxanadakı ziyalıları, din xadimlərini və digər nüfuzlu şəxsləri azad etdilər. Şəkinin ardınca üsyanın Zaqatala və Balakənə də yayılacağı hökuməti bərk qorxuya saldı. Hökumət üsyançılara qarşı böyük hərbi qüvvə göndərdi. Ağır döyüşlərdən sonra üsyan amansızlıqla yatırıldı. Şəki – Zaqatala üsyanı zamanı 180 nəfər igidliklə döyüşərək həlak oldu. Hökumət qoşunları bölgədə qətllər törədərək 1300 nəfəri güllələdi. Yüzlərlə başgöynüklü üsyançı güllələnərək öncədən öz əlləri ilə qazdıqları quyulara dolduruldu. Həbsə alınıb Sibirə və Qazaxıstana sürgün edilənlər isə daha çox idi.

*1930-cu ildə Azərbaycan SSR-də baş vermiş üsyanları XIX əsrin 30-cu illərində Şimali Azərbaycandakı üsyanlarla müqayisə edin.*

1930-cu ildə ***Naxçıvanda*** və ***Ordubadda*** Sovet hakimiyyətinə qarşı böyük üsyan baş verdi. Üsyançılar hətta qısa müddət ərzində Naxçıvanda Sovet hakimiyyətini devirib öz hökumətlərini yaratmışdılar. Lakin Sovet hökuməti xalq çıxışlarını amansızlıqla yatıraraq kolxoz quruluşunu möhkəmləndirməyə nail oldu. Kolxozlarda bərabərlik prinsipi, kəndlinin əməyinin nəticəsinə görə maraqlı olmaması isə kənd təsərrüfatı məhsulları istehsalının artmasına mənfi təsir göstərirdi.

## SUAL VƏ TAPŞIRIQLAR:

1. *Kollektivləşdirmə gedişində kimlərin torpaqları müsadirə olundu? Bu, digər kəndlilərin xeyrinə idimi? Təhlil edin.*
2. *Azərbaycanda kollektivləşdirmənin zorakılıqla həyata keçirilməsinin səbəblərini müəyyən edin.*
3. *Azərbaycan SSR-də baş vermiş üsyanların səbəblərini müəyyən edin.*
4. *Baş vermiş üsyanların əsas iştirakçıları kimlər idi?*
5. *1838-ci və 1930-cu illərdə baş vermiş Şəki üsyanlarını müqayisə edin.*

LAYİHƏ

# 35. Totalitar rejimin qurulması. Kütləvi repressiyalar

SSRİ-nin "xalqlar həbsxanası" adlandırıldığını bilirsinizmi? Böyük bir imperiyanın tərkibində olmaq, mərkəzin göstərişləri ilə yaşamaq azərbaycanlılara baha başa gəldi. XX əsrin 30-cu illərində xalqımız yeni faciələrlə, repressiyalarla üzləşdi. Repressiyaların səbəbi nə idi? Niyə xalqımız yenidən həbslərə, haqsız ittihamlara, sürgünlərə məruz qaldı?

Mircəfər Bağırov, kütləvi repressiyalar, Salman Mümtaz, Əhməd Cavad, Hüseyn Cavid, Mikayıl Müşfiq, Azərbaycan xalqı ifadəsinin yaranması, totalitar rejim



*Salman Mümtaz*



*Bəkir Çobanzadə*

**Bolşevik diktaturasının yaradılması.** Azərbaycanda qurulan Sovet hakimiyyəti, sözün tam mənasında, diktatura idi. Siyasi idarəetmə sərt mərkəzləşdirməyə əsaslanırdı. Bütün dövlət və hökumət orqanları yeganə siyasi qüvvənin – AK(b)P rəhbərlərinin göstərişi ilə fəaliyyət göstərirdi. Uzun müddət rəhbərliyi qeyri-azərbaycanlılardan ibarət olan AK(b)P müstəqil qurum deyildi. Sovet dövlətinin başçısı İ.Stalinin sərt göstərişləri əsasında işləyirdi. **1933-cü ildə *Mircəfər Bağırov*** Moskva tərəfindən AK(b)P MK-nın birinci katibi vəzifəsinə gətirildi. M.C.Bağırov amansız xarakteri və ciddi işgüzarlığı sayəsində Azərbaycanda güclü avtoritar[1] hakimiyyət qura bildi. Bu işdə onun əsas yardımçıları daxili işlər üzrə xalq komissarlığının rəhbərləri Y.Sumbatov-Topuridze, X.Qriqoryan, R. Markaryan, T.Borşev idilər. O dövrdə Azərbaycanın daxili işlər və prokurorluq sistemində çalışanların əksəriyyəti qeyri-azərbaycanlı kadrlar idi.

**Kütləvi repressiyalar.** Avtoritar sovet rejimi 1930-cu illərdə təkcə "istismarçı" siniflərə qarşı deyil, xalqın bütün təbəqələrinə qarşı kütləvi repressiyalar həyata keçirdi. Bu siyasətin əsas məqsədi kütləvi qorxu yaratmaq, xalqı tam itaətkar kütləyə çevirmək idi. Bolşeviklər bu yolla partiyanın təkbaşına hakimiyyətini möhkəmləndirmək istəyirdilər. Xalqımızın görkəmli ziyalılarına, dövlət xadimlərinə, sadə fəhlə və kəndlilərə "əks-inqilabçı", "Sovet hökumətinin düşməni", "müsavatçı" adı ilə divan tutuldu.

Sovet rejiminə sədaqətlə xidmət etmiş partiya və dövlət xadimləri də repressiyadan yaxa qurtara bilmədilər. Kütləvi repressiyaların zirvəsi **1937-ci il** hesab olunur. Öz xalqını canından çox sevən on minlərlə Azərbaycan ziyalısı "xalq düşməni" kimi güllələndi və ya sürgünə göndərildi.

Xalqımızın tarixi, dili və ədəbiyyatı üzrə sanballı tədqiqatlar aparmış görkəmli alimlərimiz **Bəkir Çobanzadə və Salman Mümtaz**, sevimli şairlərimiz

[1] **avtoritar rejim** – siyasi hakimiyyətin bir nəfərin və ya bir qrup şəxsin əlində cəmləşdiyi idarə üsulu



LAYİHƏ



*Hüseyn Cavid*



*Əhməd Cavad*



*Mikayıl Müşfiq*

**Hüseyn Cavid**, **Mikayıl Müşfiq və Əhməd Cavad** repressiyaya məruz qalanlar içərisində idilər.

Bu dəhşətli illərdə 29 min nəfər günahsız insan məhv edildi. Azərbaycan SSR-də kütləvi repressiyalar digər sovet respublikalarından daha amansız, daha qanlı olmuşdu. Bunun başlıca səbəbi o illərdə Azərbaycanın 51 rayonundan 31-də Daxili İşlər Komissarlığının yerli şöbələrinə erməni nümayəndələrin başçılıq etməsi idi.

*Repressiya qurbanlarına aid məlumat toplayıb müzakirə edin.*

Cəza tədbirləri Cənubi Azərbaycandan vaxtilə Şimala – iş dalınca gələn soydaşlarımızdan da yan keçmədi. 1938 – 1940-cı illərdə Sovet hökuməti onları İrana deportasiya[1] etdi.

**Totalitar[2] sosializm cəmiyyətinin qurulması.** XX əsrin 20 – 30-cu illərində sovet rejimi Azərbaycanda bütün milli qüvvələri "xalq düşməni" adı ilə məhv etdi. Xalqın bütün mülkiyyət hüquqlarına sarsıdıcı zərbə vuruldu. Elm və mədəniyyətin bütün sahələri tamamilə Kommunist Partiyası tərəfindən inhisara alındı. Xüsusi sahibkarlara və torpaq sahiblərinə amansız divan tutuldu. Cəmiyyət fəhlə, kəndli və yeni sovet ziyalısından ibarət oldu. Digər müttəfiq respublikalarda olduğu kimi, Azərbaycanda da antidemokratik, totalitar idarə üsulu bərqərar edildi. Bütün bu dəyişikliklər Moskva tərəfindən yeni sosializm cəmiyyətinin qələbəsi elan olundu. 1936-cı ildə qəbul edilmiş SSRİ-nin ikinci Konstitusiyasına görə, ZSFSR ləğv edildi. Azərbaycan SSR birbaşa Sovet İttifaqının tərkibində müttəfiq respublika elan olundu. 1937-ci ildə isə Azərbaycan SSR-in ***ikinci Konstitusiyası*** qəbul edildi. Xalqımızın və dilimizin ***"türk"*** adı dəyişdirilərək ***"Azərbaycan"*** adlandırıldı. Konstitusiyada



*Azərbaycan SSR-in 1937-ci il Konstitusiyasının 151-ci maddəsində Dövlət gerbinin təsviri belə verilmişdir: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət gerbi, üzərində Azərbaycan və rus dillərində: "Azərbaycan Sovet Sosialist Respublikası" və "Bütün ölkələrin proletarları, birləşin!" sözləri yazılmış və doğmaqda olan günəş fonu üzərində pambıq və sünbül çələngdən ibarət haşiyə ilə çəkilmiş oraq və çəkicdən və ön planda neft vışkasından ibarətdir. Gerbin yuxarısında beşbucaqlı ulduz vardır".*

M *Mətnə və mənbəyə əsasən, Azərbaycan SSR-in 1937-ci il gerbini müstəqil Azərbaycan Respublikasının gerbi ilə müqayisə edin.*

[1] **deportasiya** – əhalinin kütləvi surətdə öz daimi yaşayış yerindən sürgün edilməsi

[2] **totalitar** – ictimai həyatın bütün sahələrinin sərt dövlət nəzarətinə tabe edilməsi



LAYİHƏ

Azərbaycan vətəndaşlarının, formal da olsa, geniş demokratik azadlıqlarının və hüquqlarının, o cümlədən, ümumi və birbaşa seçki hüquqlarının olduğu yazılmışdı. Lakin bu hüquqların heç bir real təminatı yox idi. Azərbaycanda yerli və ali hakimiyyət orqanlarına seçkilər dövlətin və partiyanın sərt nəzarəti altında keçirilirdi. Seçkilərdə, bir qayda olaraq, Kommunist Partiyasının bir namizədi irəli sürülür və o, çox yüksək faizlə "qələbə" qazanırdı. Kütləvi saxtalaşdırma şəraitində keçirilən seçkilərin nəticələri nə SSRİ-nin, nə də Azərbaycanın siyasi həyatında heç bir dəyişiklik yaratmırdı. SSRİ-nin və Azərbaycanın rəhbərləri uzun müddət dəyişməz olaraq qalırdılar.

*Əlavə məlumatlar əsasında Azərbaycan xalqının adının dəyişdirilməsini müzakirə edin.*

**Cənubi Azərbaycanda soydaşlarımızın milli hüquqlarının tapdalanması.** Qacar-türk sülaləsinə mənsub Əhməd şahın dövründə ölkədə iqtisadi və siyasi vəziyyət çox ağır idi. Şah rejimi yeritdiyi siyasət nəticəsində milli və sosial dayaqlarından məhrum olunmuşdu. Belə bir vaxtda fars əsilli hərbi nazir Rza xan "respublika uğrunda hərəkat" adı altında ölkədə mübarizəyə başladı və Cənubi Azərbaycanın demokratik qüvvələrinin köməyi ilə Qacar sülaləsini taxtdan saldı. **1925-ci ildə *Rza xan*** özünü şah elan etdi, İranda minillik müddətdən sonra fars əsilli ***Pəhləvi sülaləsi*** hakimiyyətə gəldi. O bütün siyasi partiyaları qadağan etdi və sərt mərkəzləşdirilmiş diktatura rejimi qurdu.

*Cənubi Azərbaycanın İranın siyasi həyatında mühüm qüvvə olduğunu əsaslandırın.*

Rza şah onun taxta çıxmasında həlledici rol oynamış Cənubi Azərbaycanda milli ayrı-seçkilik siyasəti yeritməyə başladı. O, farsları ölkədə hakim millətə çevirməyə, Azərbaycan türklərini isə məhv etməyə çalışırdı. Azərbaycan türkləri ana dilində təhsil almaq, kitab və qəzet çap etmək hüququndan məhrum edildilər. Məktəblərdə və dövlət idarələrində türkcə danışmaq qəti qadağan olundu. Türk dilində olan kitablar və əlyazmalar yandırıldı. Coğrafi və tarixi yer adları, eləcə də soyadlarımız farslaşdırıldı. Şimaldan – Sovet Azərbaycanından Cənubi Azərbaycana teatr və konsert qastrolları dayandırıldı. Şimali Azərbaycanla sərhədlər, demək olar ki, bağlandı. Cənubi Azərbaycan torpaqları, əsasən, iki əyalətə (Qərbi və Şərqi Azərbaycan) bölünərək ərazisi azaldıldı. Zəncan, Qəzvin və Həmədan kimi tarixi Azərbaycan torpaqları isə digər əyalətlərin tərkibinə daxil edildi.

## SUAL VƏ TAPŞIRIQLAR:

1. *Hakimiyyətin qeyri-azərbaycanlılar tərəfindən idarə olunmasının nəticələrini izah edin.*
2. *Sovet hökumətinin xalq arasında qorxu yaratmasının məqsədlərini müəyyənləşdirin.*
3. *Əslində, "xalq düşməni" kimlərə demək olar?*
4. *İranda Rza şah rejiminin xüsusiyyətlərini təhlil edin.*
5. *1920–30-cu illərdə Şimali və Cənubi Azərbaycana aid xüsusiyyətləri müqayisə edin.*



LAYİHƏ

# 36. Mədəni quruculuq tədbirləri

Sovet hakimiyyəti qurulduqdan sonra yeni təhsil sistemi, yeni mədəni dəyərlər tətbiq edilməyə başlandı. 1930-cu illərdə mədəni inqilab tədbirləri çox ağır keçdi. Lakin Sovet hökuməti öz ideologiyasını[1] xalqların beyninə yeritmək, təbliğat aparmaq işini səylə həyata keçirirdi. Bəs bu siyasət necə aparılırdı? Hansı sahələrin inkişafı dövlətin göstərişi ilə davam edirdi?

Savadsızlığı ləğvetmə tədbirləri, institutların açılması, əlifbanın dəyişdirilməsi, Sona Vəlixan, Üzeyir Hacıbəyli, “Koroğlu” operası, Azərbaycan radiosu

**Yeni sovet təhsilinin yaradılması.** Sovet hakimiyyətinin əsas məqsədi sosialist dünyagörüşünə malik olan, yeni quruluşa sədaqətli gənc nəsil yetişdirmək idi. Azərbaycanın Moskvaya tabe olan iqtisadiyyatını inkişaf etdirmək üçün savadlı yerli kadrlar hazırlanmasına ehtiyac vardı. Bolşevik rejimi Azərbaycanı “başdan-başa savadsızlar ölkəsi” hesab edir, dini məktəblərdə verilən təhsili nəzərə almırdı. Azərbaycan əhalisinin yalnız çar hökuməti dövründə açılmış məktəblərdə təhsil almış nümayəndələri savadlı sayılırdı.

Hökumət əvvəlki dövrdə nəinki Avropa və Türkiyədə, hətta Rusiyada ali təhsil almış milli kadrlara da etibar etmirdi. Müstəqil dövlətçiliyə xidmət etmiş milli ziyalıları isə xüsusi nəzarətdə saxlayırdı. Sovet hökuməti 1920-ci illərdə ***“savadsızlıqla mübarizə”*** kampaniyasına başladı, bazar günü və axşam kursları açdı. Bu kurslarda fəhlələrə əlifba, yazmaq və oxumaq öyrədilirdi.

1920 – 1930-cu illərdə məktəblər şəbəkəsi genişləndi. Proqram və dərsliklər yeniləndi, ictimai fənlərdə beynəlmiləlçilik ön plana çəkildi. 1920 – 1930-cu illərdə Azərbaycanda ali təhsilin inkişafı üçün hökumət xeyli iş gördü. ***Pedaqoji, Politexnik, Tibb və Kənd Təsərrüfatı institutları açıldı.*** Bakıda ***Şərqin ilk konservatoriyası*** fəaliyyətə başladı.

*Çar Rusiyası ilə SSRİ-nin təhsil siyasətini müqayisə edin.*

**1929-cu ildə *ərəb əlifbası latın əlifbası*** ilə əvəz olundu. Əlifba islahatına görkəmli ictimai xadim **Səmədağa Ağamalıoğlu** başçılıq etmişdi. 10 il sonra isə ***kiril – rus əlifbasına keçilməsi*** haqqında qərar verildi.

*Azərbaycandakı əlifba dəyişikliyini M.F.Axundzadənin əlifba ilə bağlı fəaliyyətinin nəticəsi hesab etmək olarmı? Fikrinizi əsaslandırın.*

**Elmin inkişafı.** Sovet Azərbaycanında müxtəlif elm sahələri üzrə laboratoriyalar, tədqiqat institutları yaradıldı. 1935-ci ildə isə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı təsis edildi. Neft-kimya sahəsində Azərbaycan alimlərinin axtarışları böyük elmi kəşflərlə nəticələndi. Kimyaçı alimlər ***neft tullantılarından benzol alınması*** üsulunun kəşfinə nail oldular. O zamana qədər SSRİ bu qiymətli məhsulu ABŞ-dan baha qiymətə satın alırdı. Alimlərimiz ***mədən sularından yod alınması*** üsulunu da kəşf etdilər. Bakıda Yod zavodu inşa edildi. Fizika elmi sahəsində tanınmış alim X.Əmirxanovun yarımkeçiricilərlə bağlı araşdırmalarının nəticələri böyük elmi kəşf kimi qiymətləndirildi.

[1] **ideologiya** – fəlsəfədə, siyasətdə, hüquqda, əxlaqda, incəsənətdə, dində ifadə olunan ideyalar, təsəvvürlər



LAYİHƏ

Lozanna və Sankt-Peterburq universitetlərində ali təhsil almış **Sona Vəlixan** göz xəstəliklərinin müalicəsi sahəsində yüksək elmi nəticələr əldə etmişdi. Hətta bu elmi nəticələrə görə, azərbaycanlı alim Nobel mükafatına təqdim olunmuşdu. Lakin İkinci Dünya müharibəsinin başlanmasına görə Nobel komitəsinin mükafat verilməsini dayandırması səbəbindən bu iş yarımçıq qaldı.



*Sona xanım İbrahim qızı Vəlixan (1883–1982)*

**İncəsənət və memarlıq.** 1920 – 30-cu illərdə Azərbaycanda ***Dram, Opera və Balet, Kukla və Musiqili Komediya teatrları fəaliyyət göstərirdi.*** Azərbaycan sovet musiqisinin inkişafında əvəzsiz xidmətlərini davam etdirən dahi bəstəkarımız **Üzeyir Hacıbəylinin** bəstələdiyi ***"Koroğlu" operasının*** 1937-ci ildə tamaşaya qoyulması mədəni həyatımızda böyük hadisə oldu. **Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Xan Şuşinski** muğam sənətinin böyük korifeyləri səviyyəsinə yüksəlmişdilər.



*Üzeyir Hacıbəyli (1885–1948)*

*Böyük bəstəkar Üzeyir Hacıbəyli Şərqdə ilk operanın və ilk musiqili komediyanın yaradıcısı kimi Azərbaycan mədəniyyət tarixində dərin iz qoymuşdur. O, 1921-ci ildə ilk konservatoriyanı, 1922-ci ildə isə Azərbaycan musiqi məktəbini yaratmışdır. Musiqi məktəbinə, əsasən, azərbaycanlılar qəbul edilirdi. Birinci təhsil ilində 383 şagirddən 350-si azərbaycanlı idi.*

**1926-cı ildə *Azərbaycan kinostudiyası və respublika radiosu fəaliyyətə başladı.*** Bu qurumlar mədəniyyətin və incəsənətin nailiyyətlərinin geniş xalq kütlələrinə çatdırılmasında çox böyük rol oynadılar.

Bu dövrdə rəssamlığın inkişafında **Əzim Əzimzadə** və **Rüstəm Mustafayev** böyük xidmətlər göstərdilər.

Azərbaycanda ilk milli heykəltəraşlıq sənətimizin nümunəsi yaradıldı – Bakıda xalqımızın böyük şairi M.Ə.Sabirə heykəl ucaldıldı. Lakin respublikamızda daha çox Lenin, Stalin, Kirov, Şaumyan və başqalarına abidələr qoyulur, Bakının küçə və meydanlarına, əsasən, onların adları verilirdi.

**Ədəbiyyat.** Sovet hökuməti Azərbaycan ədəbiyyatını tamamilə nəzarət altına almağa, siyasi və ideoloji təzyiq altında saxlamağa çalışırdı. Azərbaycan yazıçı və şairlərinin bir hissəsi yeni proletar ədəbiyyatının yaradılması prosesinə qoşulmuşdu. Gənc şairlər – Süleyman Rüstəm, Səməd Vurğun, Rəsul Rza, Məmməd Rahim və başqaları sosializm cəmiyyəti quruculuğunu tərənnüm edirdilər. Əhməd Cavad, Hüseyn Cavid, Mikayıl Müşfiq və digər qələm sahibləri isə kommunist ideologiyasına xidmət etmək istəmir, dövrün real həyatını əks etdirməyə çalışırdılar. Ona görə də repressiyaya məruz qaldılar.

LAYİHƏ

**Milli-mənəvi dəyərlərimiz üzərinə hücum. Dinsizliyin təbliği.** Sovet cəmiyyətində hakim kommunist ideologiyası dini dəyərlərin məhv edilməsi və Allahın inkarı üzərində qurulmuşdu. Sovet hökuməti Bakıda ateizmi təbliğ edən ***"Allahsızlar cəmiyyəti"*** yaratmışdı. Respublikada bütün məscidlər, kilsələr və digər ibadət evləri bağlanmışdı. Şərq memarlığının incilərindən sayılan ***Bibiheybət məscidi isə partladılmışdı.*** Bütün dini bayramlar qadağan edilmişdi. Şərqdə yeni ilin gəlişini bildirən Novruz bayramı da dini bayram sayılaraq 30-cu illərdə qadağan olunmuşdu. Milli geyimlərdən imtina edilmiş, Qərb geyim tərzi yayılmışdı.

***Tar**, **saz** və **kamança*** kimi milli musiqi alətlərimizə qarşı "mədəni təqib" həyata keçirilirdi. Yalnız Ü.Hacıbəyli, M.Müşfiq, Q.Pirimov kimi ziyalılarımızın böyük səyləri nəticəsində tara bəraət qazandırmaq mümkün oldu. Kommunistlərin xalqımızı dinindən, milli-mənəvi dəyərlərindən uzaqlaşdırmaq cəhdləri iflasa uğradı. Ağır repressiya şəraitində xalqımız öz milli-mənəvi dəyərlərini və bayramlarını qoruyub saxlaya bildi.

***SUAL VƏ TAPŞIRIQLAR:***

1. *Azərbaycan SSR-də təhsil sisteminin xüsusiyyətlərini müəyyən edin.*
2. *1920–1930-cu illərdə Azərbaycanda elmin hansı sahələri inkişaf edirdi? İzah edin.*
3. *Üzeyir Hacıbəylinin həyat və yaradıcılığı haqqında məlumat toplayın.*
4. *Milli-mənəvi dəyərlərimizin məhv edilməsinin səbəblərini təhlil edin.*
5. *Mövzuda verilmiş mühüm hadisələrə aid xronoloji cədvəl tərtib edin.*

# *VI fəsil.* Azərbaycan İkinci Dünya müharibəsi və sonrakı dövrdə

## 37. Azərbaycan SSR İkinci Dünya müharibəsi illərində

Dünyanın yenidən bölüşdürülməsi uğrunda 1939 – 1945-ci illərdə İkinci Dünya müharibəsi baş verdi. Bu müharibədə Azərbaycanın yenə də böyük dövlətlərin planlarında olduğunu bilirsinizmi? Cəbhəyə nə qədər azərbaycanlı göndərildi? Onlar hansı şücaətlər göstərdilər? Armed Mişeli, Mixaylonu tanıyırsınızmı? "Edelveys" planı ilə almanlar hansı əraziləri hədəfə almışdılar? Müharibə Azərbaycanın iqtisadiyyatına necə təsir göstərdi?

"Edelveys" planı, Qafqazın müdafiəsi, Əziz Əliyev, milli diviziyalar, İsrafil Məmmədov, Həzi Aslanov, Bakı neftinin qələbəyə töhfəsi

**Ölkəmizlə bağlı planlar.** 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya hücum etməsi ilə İkinci Dünya müharibəsi başlandı. Almaniya qısa müddətdə Mərkəzi və Qərbi Avropanı işğal edib öz gücünü ikiqat artırdı. Sovet İttifaqına ildırımsürətli zərbə



LAYİHƏ

vurmaq üçün ***"Barbarossa"*** planı hazırlandı. Almaniya 1941-ci il iyunun 22-də SSRİ-yə hücum etdi. Bununla Azərbaycan da İkinci Dünya müharibəsinə cəlb edildi. Almaniya öz işğal planında Azərbaycanın əlverişli geosiyasi-strateji mövqeyinə və neftinə xüsusi əhəmiyyət verirdi. Rozenberqin "Qafqazın idarə olunması planı"na görə, mərkəzi Tiflis olan Qafqaz reyxkomissarlığı yaradılmalı və Azərbaycan komissarlığı ona tabe edilməli idi. Daha sonra Almaniya SSRİ-ni məğlub etdikdən sonra türk xalqlarının yaşadıqları bütün əraziləri zəbt edib özündən asılı olan *"Böyük Türküstan"* dövləti yaratmaq planını irəli sürdü. Azərbaycan bütövlükdə bu dövlətə qatılmalı idi. Hitler Bakı neftini çıxarmaq və emal edib daşımaq üçün Almaniyanın "Kontinental neft cəmiyyəti"nə xüsusi tapşırıq da vermişdi.

*Neft və neft məhsullarının müharibədə əhəmiyyəti nədən ibarət idi? Fikrinizi bildirin.*

Almaniya baş qərargahı Qafqaza hücum planı hazırlamışdı. ***"Edelveys[1]"*** adlanan bu plana görə, Bakı 1942-ci ildə zəbt olunmalı idi. Alman ordusu 1942-ci ilin yayında ağır döyüşlərdən sonra Qafqazın şimal hissəsini ələ keçirib Böyük Qafqaz dağlarına çatdı. Bu zaman ABŞ və İngiltərə Qafqaza dair **"Vilvet[2]"** planını irəli sürdülər. Bu plana görə, Qafqazda ağır müdafiə döyüşləri aparan sovet ordusu hissələri buradan çıxarılıb Stalinqradın müdafiəsinə cəlb edilməli, Qafqazda ABŞ və İngiltərə hərbi qüvvələri yerləşdirilməli idi. İ.Stalin bu planı rədd etdi. Sovet rəhbərliyinin də Qafqazla bağlı çirkin planı var idi. Müharibə dövründə Qafqazın bütün türk-müsəlman əhalisini, o cümlədən azərbaycanlıları zorla Mərkəzi Asiya və Qazaxıstana köçürməyə hazırlaşırdı. Azərbaycan SSR-in ozamankı rəhbəri Mircəfər Bağırov bunun qarşısını ala bildi. Dağıstan əhalisinin deportasiyasına isə o dövrdə Dağıstan MSSR-ə rəhbərlik edən **Əziz Əliyev** imkan vermədi.



*Əziz Əliyev*

*Almanlar 1942-ci ilin payızında Şimali Qafqazın çox hissəsini zəbt edib Dağıstana yaxınlaşdılar. Dağıstan əhalisi vahiməyə düşərək evlərini tərk edir, qadınlar, qocalar dağlara pənah aparırdılar. Dağıstanın işğalı ilə Bakıya yol açılırdı. Vəziyyətdən necə çıxış yolu tapmalı? Dağıstanın müdafiəsini kimə etibar etməli? Moskvada bu suallara cavab axtararkən Əziz Əliyevin üzərində dayandılar. Böyük alim, siyasi və dövlət xadimi Əziz Əliyev 1942-ci ilin oktyabrında Dağıstana rəhbər təyin edildi. Əziz Əliyevin rəhbərliyi ilə keçirilən ilk toplantıda o, üzünü Dağıstan ağsaqqallarına tutub dedi: "Qocalar da, qadınlar da, uşaqlar da əsgər olmalıdır, əgər xalqda birlik olarsa, onu məğlub etmək olmaz... Doğma Qafqazı müdafiə etmək, düşməni dağlarımıza buraxmamaq vəzifəsi bizim boynumuza düşür..."*

*Dağıstanın idarə olunmasına azərbaycanlı dövlət xadiminin təyin olunması nə ilə bağlı ola bilərdi? Ehtimallarınızı bildirin.*

[1] **edelveys** – almanca "dağ çiçəyi"

[2] **vilvet** – ingiliscə "mənfəət"



LAYİHƏ



*İsrafil Məmmədov*



*Həzi Aslanov*



*Qafur Məmmədov*



*Mehdi Hüseynzadə*



*Əhmədiyyə Cəbrayılov*

**Azərbaycanlıların döyüşlərdə iştirakı**. Azərbaycan xalqı faşizmə qarşı mübarizədə fəal iştirak etdi. ***700 min adam orduya səfərbərliyə alındı***. Azərbaycanda ***402-ci, 223-cü, 416-cı, 271-ci milli atıcı diviziyalar yaradıldı***. ***77-ci diviziya isə bərpa edildi.*** Azərbaycanlı döyüşçülər müharibənin əvvəlindən döyüşlərdə fəal iştirak edirdilər. Leninqrad səmasını qoruyan təyyarəçi **Hüseynbala Əliyevin** igidliyi bütün Sovet İttifaqına yayıldı.

Qafqaz cəbhəsində ağır vəziyyətlə bağlı 1942-ci il sentyabrın 9-da Cənubi Qafqaz respublikalarında hərbi vəziyyət elan edildi. Bakı ətrafında istehkamlar quruldu. 416-cı milli diviziya Şimali Qafqazın azad edilməsində böyük rol oynadı. Diviziya Taqanroqun azad edilməsində göstərdiyi igidliyə görə *“Taqanroq diviziyası”* fəxri adını aldı.

| **Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən bəzi azərbaycanlılar** | |
|---|---|
| ***İsrafil Məmmədov*** | • 1941-ci ilin dekabrında **Novqorodun Pustinka kəndi uğrunda döyüşlərdə** igidlik göstərərək Sovet İttifaqı Qəhrəmanı fəxri adı alan ilk azərbaycanlı oldu. |
| ***Qafur Məmmədov*** | • **Tuapse uğrunda döyüşdə** igidlik göstərdi və ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. |
| ***Həzi Aslanov*** | • Stalinqrad cəbhəsində tank alayı düşmənə ağır zərbə vurdu və buna görə ona **birinci dəfə Sovet İttifaqı Qəhrəmanı** adı verildi.<br>• H.Aslanovun tank briqadası 1944-cü ilin yayında Belarusun yüzlərlə yaşayış məntəqəsini azad etdiyi üçün **ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı** adına təqdim edildi. Bu haqda fərman yalnız 1991-ci ildə verildi. |
| ***Ziya Bünyadov*** | • Polşa və Çexoslovakiyanın azad edilməsində qəhrəmanlığa görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. |
| ***Yusif Sadıqov*** | • Berlin uğrunda döyüşlərdə, **Reyxstaqın alınmasında** igidliyinə görə Sovet İttifaqı Qəhrəmanı adını qazandı. |
| ***Mehdi Hüseynzadə*** | • **Yuqoslaviyada** partizan hərəkatında “Mixaylo” ləqəbi ilə tanınan Mehdi Hüseynzadə mindən çox faşist zabitini məhv etmiş, çoxlu sayda insan onun sayəsində faşist əsirliyindən xilas olundu.<br>• **1944-cü ildə** qəhrəmancasına həlak olan igid partizan **1957-ci ildə** Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. |

*Azərbaycanlı hərbçilərin İkinci Dünya müharibəsində faşizm üzərindəki qələbədə rolunu müzakirə edin.*

Azərbaycanlılar partizan və antifaşist hərəkatında da fəal iştirak edirdilər. Fransada əsir düşərgəsindən qaçıb partizanlara qoşulan **Əhmədiyyə Cəbrayılov** “Armed Mişel” (Xarqo) ləqəbi ilə döyüşlərdə fəal iştirak etmişdi. O göstərdiyi igidliyə görə

LAYİHƏ

Fransanın ən yüksək hərbi mükafatını – paradda əsgərə generaldan öndə getmək haqqı verən ordeni almışdı.

*Azərbaycanlı Sovet İttifaqı Qəhrəmanları haqqında hansı filmlər çəkilib? Sadalayın.*

**İqtisadiyyatın cəbhənin ehtiyaclarını ödəməyə yönəldilməsi.** 1941-ci ilin iyununda Azərbaycanda bütün işlər müharibənin tələblərinə uyğunlaşdırıldı. İş günü 11 saat oldu, ərzaq və sənaye malları verilməsində talon sistemi tətbiq edildi. Orduya gedənləri qadın və yeniyetmələr əvəz etdi. Müharibə illərində Azərbaycan neftçiləri ölkəyə ***75 milyon ton neft, 22 milyon ton benzin*** verdi ki, bu da Sovet İttifaqı üzrə hasil edilən neftin dörddə üç hissəsinə, benzinin 90 faizinə bərabər idi. Bakıda Katyuşa raketi, YAK-3 qırıcı təyyarəsi, Şpagin pulemyotu, ümumiyyətlə, ***130 adda silah və hərbi texnika*** istehsal edilirdi. Culfa–Mincivan, Salyan–Neftçala dəmir yolu xətləri işə salındı.

*Müharibə rejiminin xüsusiyyətləri haqqında məlumat toplayın.*

***SUAL VƏ TAPŞIRIQLAR:***

1. *Azərbaycan faşist Almaniyasının planlarında necə yer almışdı?*
2. *Mətn və əlavə məlumatlar əsasında Azərbaycan diviziyalarına aid cədvəl qurun.*
3. *Partizan hərəkatında iştirak edən azərbaycanlıların fəaliyyətini təhlil edin.*
4. *Daha hansı azərbaycanlı Sovet İttifaqı Qəhrəmanlarını tanıyırsınız?*
5. *Azərbaycan xalqının faşizm üzərində qələbəyə töhfələri haqqında məlumat toplayın.*

# 38. Cənubi Azərbaycanda milli azadlıq mübarizəsi

Cənubi Azərbaycan İkinci Dünya müharibəsi illərində strateji region kimi mühüm hədəfə çevrilmişdi. SSRİ-nin maraqları nədən ibarət idi? İran hökuməti müharibə illərində hansı siyasi manevrlər etdi? Cənubi Azərbaycan əhalisi bu zaman hansı hadisələrlə qarşı-qarşıya qaldı?

Azərbaycan Demokratik Firqəsi, Seyid Cəfər Pişəvəri, Milli hökumət, “Dil haqqında” qanun, Təbriz Universiteti

**Müttəfiqlərin siyasi fəndləri.** XX əsrin 30-cu illərində İranda hərbi-polis rejimi yaradıldı. Rza şah özünü Hitlerə bənzədərək İranın füreri elan etdi.

İkinci Dünya müharibəsinin başlanması bölgənin geosiyasi əhəmiyyətini artırmışdı. Almaniya SSRİ-yə hücum etdikdə alman kəşfiyyatı Cənubi Azərbaycanda da fəallaşdı, Sovet İttifaqının əsas duru yanacaq bazası olan Bakı üçün real təhlükə yarandı. Ona görə də **1941-ci ilin avqustunda** Sovet İttifaqı rəhbərliyi İranın



LAYİHƏ

şimalına hərbi qüvvə yeritdi. Az sonra İngiltərə və ABŞ İranın cənubuna qoşun yeritdilər və müharibənin sonuna qədər orada qaldılar. Müharibə illərində İran müttəfiq dövlətlər arasında əsas nəqliyyat arteriyasına çevrildi. ABŞ və İngiltərə İran ərazisi vasitəsilə Sovet İttifaqına silah, hərbi texnika, ərzaq göndərilməsini qaydaya saldı.

**Milli demokratik hərəkatın canlanması.** 1941-ci ilin sentyabrında İngiltərənin təzyiqi ilə **Rza şah** istefa verib Misirə getdi, oğlu **Məhəmməd Rza şah** taxta çıxdı. Rza şahın hərbi-polis rejimi iflasa uğradı, demokratik hərəkat canlandı. Cənubi Azərbaycan bu hərəkatın önündə gedirdi. İran Xalq Partiyasının Azərbaycan təşkilatının təşəbbüsü ilə antifaşist cəmiyyətlər yaradıldı, ana dilində qəzet və jurnalların nəşrinə başlanıldı. Sovet ordusunun azərbaycanlı zabitləri Təbrizdə “Vətən yolunda” adlı qəzetin nəşrini təşkil etdilər. Cənubi Azərbaycanda ***demokratik hərəkatın birinci mərhələsi*** 1941-ci ilin payızından 1945-ci ilin yayına qədərki dövrü əhatə etdi. Bu dövrdə demokratik qaydalar bərqərar olur, milli şüurun oyanması baş verirdi. Əsasən, bahalığa, möhtəkirliyə, rüşvətxorluğa qarşı mübarizə aparılır, ana dilinin və milli mədəniyyətin inkişafı üçün addımlar atılırdı.

*Cənubi Azərbaycanda baş verən hərəkatın milli-demokratik xarakter daşıdığını əsaslandırın.*

1945-ci ilin yayında ***milli-demokratik hərəkatın yeni mərhələsi*** başlandı. Bu mərhələdə İran hakim dairələri, Cənubi Azərbaycanda iri torpaq və yüksək mənsəb sahibləri demokratik hərəkatı boğmaq cəhdlərini gücləndirdilər. Onlar ictimai vəziyyəti gərginləşdirməyə çalışır, silahlı dəstələr təşkil edərək həm etnik zəmində, həm də oturaq əhali ilə yarımköçəri maldar əhali arasında toqquşmalar törədirdilər. Cənubi Azərbaycanın demokratik qüvvələri bu fitnəkarlıqların qarşısını almaq üçün hərəkətə keçdilər.

**1945-ci ilin sentyabrında** demokratik hərəkatın fəal nümayəndələrinin təşəbbüsü ilə ***Azərbaycan Demokratik Firqəsi***[1] ***(ADF)*** yaradıldı. ***Seyid Cəfər Pişəvəri (1892 – 1947)*** partiyanın sədri seçildi. ADF-in yaradılması haqqında bəyanatda partiyanın demokratik İran dövləti tərkibində Azərbaycana muxtariyyət verilməsi uğrunda mübarizə aparacağı elan edildi. Bəyanatda həmçinin partiyanın geniş sosial-iqtisadi islahatlar keçirilməsi, əhalinin güzəranının yaxşılaşdırılması, cəmiyyətin demokratikləşməsi, Cənubi Azərbaycanda yaşayan bütün insanlara hüquq bərabərliyi verilməsi uğrunda çalışacağı da qeyd olunmuşdu.

*ADF-in yaradılması haqqında bəyanatı AXC-nin “İstiqlal bəyannaməsi” ilə müqayisə edin.*

Sovet İttifaqının rəhbəri İ.Stalin və Azərbaycan K(b)P MK birinci katibi M.C.Bağırov Cənubi Azərbaycanda milli-demokratik hərəkat haqqında tam məlumata malik idilər. Sovet rəhbərliyi bu hərəkata hərtərəfli yardım göstərməyi vəd etmişdi. Həmin dövrdə Şimali İranın sovet qoşunlarının nəzarətində olması Cənubi Azərbaycanda demokratik qüvvələrin sərbəst fəaliyyətinə imkan verirdi.

1945-ci ilin payızında Təbrizdə ADF-in orqanı olan ***“Azərbaycan” qəzeti*** ana dilində nəşrə başladı. ADF açıq şəkildə fədai dəstələri yaratdı, Marağa, Zəncan, Ərdəbil və digər şəhərlərdə demokratik hakimiyyət orqanları təşkil etdi. Təbrizdə faktik

---

[1] **firqə** – partiya



LAYİHƏ

hakimiyyət ADF rəhbərliyinin nəzarətinə keçdi. Azərbaycan Xalq konqresi çağırıldı və bu qurum özünü Müəssislər Məclisi[1] elan etdi. Müəssislər Məclisi Azərbaycanı idarə etmək üçün Milli Məclisin çağırılmasını, Milli hökumətin yaradılması tələbini irəli sürdü. **1945-ci ilin noyabrında *Milli Məclisə*** seçkilər keçirildi. **Dekabrın 12-də *Milli Məclis işə başladı və* S.C.Pişəvərinin *başçılığı ilə Milli hökumət yaradıldı*.**



*Seyid Cəfər Pişəvəri*

**Milli hökumətin inqilabi tədbirləri.** Sovet hərbi hissələrinin Şimali İranda olması şah hökumətinin Cənubi Azərbaycana açıq hərbi müdaxilə etməsinə imkan vermədi. Azərbaycan Milli hökuməti İran dövləti çərçivəsində Azərbaycana muxtariyyət verilməsi tələbini bir daha irəli sürdü. 1946-cı ilin ilk aylarında *yerli hakimiyyət orqanları* fəaliyyətə başladı.

***Həmin ilin iyununda Təbriz Universiteti fəaliyyətə başladı*.**

| 1946-cı ildə Cənubi Azərbaycanda Milli Məclisin qəbul etdiyi qanunlar | |
|---|---|
| ***Aqrar qanun*** | • Dövlət mülkiyyətində olan torpaqlar və Azərbaycandan qaçmış mülkədarların torpaqları kəndlilər arasında bölüşdürüldü. |
| ***“Əmək haqqında” qanun*** | • Fabrik və zavodlar üzərində fəhlə nəzarəti tətbiq edildi. |
| ***“Dil haqqında” qanun*** | • Azərbaycan-türk dili Cənubi Azərbaycanda rəsmi dövlət dili elan olundu. |

*Cənubi Azərbaycan Milli hökuməti ilə AXC-nin milli-mədəni quruculuq tədbirlərini müqayisə edin.*

İran hökuməti 1946-cı ildə Şimali İranda neft çıxarılmasını Sovet İttifaqına konsessiyaya[2] verməyi vəd etdi. Əvəzində isə Sovet hökuməti Cənubi Azərbaycan məsələsində bitərəf qalmağı öhdəsinə götürdü. Moskva görüşünün nəticəsinə görə, Sovet İttifaqı öz qoşunlarını da tələsik İrandan çıxardı.

1946-cı ilin iyununda İran hakim dairələri Təbrizdə Milli hökumətlə müqavilə bağladı, İran tərkibində Cənubi Azərbaycana bəzi hüquqlar verilməsi haqqında razılıq əldə edildi. İran hökuməti həmin dövrdə SSRİ, ABŞ və İngiltərə arasındakı İranla bağlı ziddiyyətlərdən bacarıqla istifadə etdi. “İran məsələsi”ni BMT-də müzakirəyə çıxardı. ABŞ və İngiltərə Milli hökuməti sovet rəhbərliyinin istəklərinə xidmət edən bir qurum kimi qiymətləndirdikləri üçün, eləcə də SSRİ-nin İrandakı nüfuzuna zərbə vurmaq məqsədilə şah hökumətinə hərtərəfli yardım göstərdi. İran ordusu Cənubi Azərbaycanda hərbi əməliyyatlara başlayaraq ***dekabrın 12-də*** Təbrizə daxil oldu, ***ADF və Milli hökumət rəhbərləri güllələndi***. Sovet rəhbərliyinin xəyanəti də Milli Hökumətin süqutunun səbəblərindən biri oldu. S.C.Pişəvəri və bir qrup yaxın silahdaşı sovet rəhbərliyinin göstərişinə əsasən Sovet İttifaqına aparıldı. Minlərlə vətənpərvər də Azərbaycan SSR-ə mühacirət etdi. S.C.Pişəvəri 1947-ci ildə müəmmalı şəkildə avtomobil qəzasında həlak oldu.

---

[1] **Müəssislər Məclisi** – konstitusiya hazırlayıb qəbul edən, yaxud yeni dövlət quruluşu təsis edəcək səlahiyyətə malik olan xalq nümayəndələri toplantısı

[2] **konsessiya** – ölkə daxilində sənaye müəssisələri təşkil etmək, faydalı qazıntılar çıxarmaq üçün icazə



LAYİHƏ

**SUAL VƏ TAPŞIRIQLAR:**

1. *Cənubi Azərbaycanın hegemon dövlətlər üçün strateji region olduğunu əsaslandırın.*
2. *Milli-demokratik hərəkatın birinci və ikinci mərhələsini müqayisə edin.*
3. *Sovet rəhbərliyinin Cənubi Azərbaycan Milli hökumətinə münasibətinin dəyişməsi səbəblərini müəyyən edin.*
4. *Milli-demokratik hərəkatın məğlubolma səbəbləri nə idi?*
5. *Milli hökumət iqtisadi sahədə hansı tədbirləri həyata keçirdi?*

# 39. Azərbaycan SSR müharibədən sonrakı onillikdə

SSRİ İkinci Dünya müharibəsindən qələbə ilə çıxdı. Azərbaycan xalqı da bu müharibənin əsas qəhrəmanı kimi tarixə düşdü. Müharibənin bütün ağırlığını çəkən Azərbaycan SSR-i müharibədən sonra hansı hadisələr gözləyirdi? Sovet totalitar rejimi xalqımıza qarşı daha hansı zorakılıq tədbirləri həyata keçirdi?

Repressiyaların yeni dalğası, Heydər Hüseynov, DQMV-nin Ermənistana verilməsi məsələsi, deportasiya, “Neft daşları”, yeni sənaye şəhərləri

**Totalitar rejimin güclənməsi.** Müharibəni qələbə ilə başa çatdıran sovet rəhbərliyi ittifaq miqyasında inzibati-amirlik sistemini gücləndirdi. İ.Stalinin şəxsiyyətinə pərəstiş daha geniş miqyas aldı, Sovet dövlətinin bütün uğurları onun xidməti kimi təqdim olundu. Azərbaycanda da M.C.Bağırov respublikanın idarə olunmasını bütünlüklə öz əlində cəmləşdirdi, şəxsən ona sadiq olan adamları yüksək vəzifələrə təyin etdi. Kremlin göstərişi ilə istedadlı adamlara, xüsusən elm və mədəniyyət xadimlərinə qarşı təqiblər gücləndi, repressiyaların yeni dalğası başlandı. İnsanlara qarşı etimadsızlıq, gizli izləmələr, müstəqil düşüncə sahiblərinin təqib edilməsi, satqınların və yaltaqların irəli çəkilməsi geniş miqyas aldı. Cəmiyyətdə ümumi vahimə, qorxu hissi gücləndi.



*Heydər Hüseynov*

Görkəmli filosof **Heydər Hüseynov** Şeyx Şamilin başçılığı ilə mübarizəni Şimali Qafqaz xalqlarının Rusiyanın müstəmləkəçilik siyasətinə qarşı milli azadlıq hərəkatı kimi dəyərləndirdiyinə görə tənqid edildi. Ardınca da bütün vəzifələrindən kənarlaşdırıldı, aldığı “Stalin mükafatı”ndan məhrum edildi. Tariximizin təhrif edilməsi geniş miqyas aldı. Azərbaycanın şimal hissəsinin Rusiya tərəfindən işğalı “könüllü birləşmə” kimi təqdim edildi, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti isə tarixdən çıxarıldı. Görkəmli tarixçi A.Bakıxanov xan və bəyləri müdafiə etməkdə, Rusiya şərqşünaslıq elminin banisi Mirzə Kazım bəy çarizmə sədaqətlə xidmət göstərməkdə günahlandırıldı. “Kitabi-Dədə Qorqud” dastanı feodal həyatını əks etdirən epos kimi dəyərləndirildi, tədqiqatçıları təqib edilməyə başlanıldı. Səməd Vurğun, Mirzə İbrahimov və digər şair və yazıçılar sosializm cəmiyyətində nöqsanlardan bəhs etdiklərinə görə günahkar sayıldılar.

LAYİHƏ

*Tariximizin təhrif edilməsində məqsəd nə idi? Fikrinizi əsaslandırın.*

**Ermənistanın Dağlıq Qarabağa iddia qaldırması.** Müharibə başa çatan kimi Sovet dövlətində yüksək vəzifə tutan və İ.Stalinə yaxın olan A.Mikoyanın təşəbbüsü ilə Dağlıq Qarabağın Ermənistana verilməsi tələbi irəli sürüldü. Onun tapşırığı ilə Ermənistanda gizli "Qarabağ komitəsi" yaradıldı və ***Ermənistan rəhbərliyi 1945-ci ilin payızında Dağlıq Qarabağı onlara vermək haqqında sovet rəhbərliyi qarşısında məsələ qaldırdı.*** Ermənistan tərəfi DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsi təklifini Dağlıq Qarabağ əhalisinin əksəriyyətinin erməni olması və vilayətin "iqtisadiyyatının qonşu respublika ilə sıx bağlılığı və ümumsovet mənafeyi" ilə əsaslandırmağa çalışmışdı.

*1945-ci ilin payızında Ermənistan K(b)P MK rəhbərliyi İ.Stalinə müraciət edərək yenidən Dağlıq Qarabağ məsələsini qaldırmış, bu ərazinin Ermənistana verilməsini tələb etmişdi. İ.Stalin həmin məktubu M.C.Bağırova göndərmişdi. M.C.Bağırov cavab məktubunda aşağıdakıları bildirmişdi: "...nəzərinizə çatdırmağı zəruri hesab edirik ki, DQMV-nin Ermənistan SSR-in tərkibinə daxil edilməsi məsələsinə baxılarkən Ermənistan SSR-in Azərbaycan SSR-ə bitişik olan və əsasən, azərbaycanlıların məskunlaşdığı Əzizbəyov, Vedi və Qarabağlar rayonlarının Azərbaycanın tərkibinə daxil edilməsi məsələsinə də baxılmalıdır...*

*Gürcüstanlı yoldaşlar Azərbaycan SSR-in Balakən, Zaqatala və Qax rayonlarının Gürcüstan SSR-in tərkibinə daxil edilməsi məsələsini qoyurlar. Bu halda Gürcüstan SSR-in, demək olar ki, yalnız azərbaycanlıların yaşadığı və Azərbaycan SSR-ə bitişik olan Borçalı rayonunun Azərbaycan SSR-in tərkibinə daxil edilməsi məsələsinə də baxılmalıdır.*

*Nəhayət, biz Dağıstan MSSR-in keçmişdə Azərbaycanın bir hissəsi olan, Bakı quberniyasının tərkibinə daxil olan və hazırda Azərbaycan SSR-ə bitişik Dərbənd və Qasımkənd rayonları ərazilərinin Azərbaycan SSR-in tərkibinə daxil edilməsi məsələsinə baxmağınızı xahiş edirik".*

*Mətnə və mənbəyə əsasən, M.C.Bağırovun Dağlıq Qarabağla bağlı mövqeyini müzakirə edin.*

*M.C.Bağırovun bu məsələ ilə bağlı göndərdiyi cavab məktubunu müzakirə edin.*

Mərkəzin bu məsələyə Azərbaycanın necə baxması sorğusuna Azərbaycan rəhbəri M.C.Bağırov, əhalisinin əksəriyyəti azərbaycanlı olan Şuşa rayonu istisna olmaqla, Qarabağın dağlıq hissəsinin Ermənistana verilməsinin əvəzində, Ermənistanda, Gürcüstanda və Dağıstanda azərbaycanlıların çoxluq təşkil etdiyi tarixi Azərbaycan torpaqlarının – Zəngəzur, Göyçə, Borçalı, Dərbənd bölgələrinin Azərbaycana qaytarılmasını şərt kimi irəli sürdü. Sovet rəhbərliyi və Ermənistan belə ərazi dəyişikliyinə getməkdən imtina etdi. Çünki Zəngəzur Azərbaycana qaytarılardısa, Türkiyə və Azərbaycan arasında süni yaradılmış "erməni ərazisi" ləğv edilərdi.

**Azərbaycanlı əhalinin Ermənistandan deportasiyası.** Sovet rəhbərliyi 1946-cı ilin oktyabrında xaricdə yaşayan ermənilərin Ermənistana köçürülməsi haqqında qərar qəbul etdi. Respublikaya yeni gələn ermənilərə azərbaycanlıların yaşadıqları

LAYİHƏ

torpaqları boşaltmaqla yer verilməli idi. Ona görə də SSRİ Nazirlər Soveti 1947-ci il dekabrın 23-də “Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalisinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında” qərar qəbul etdi. Qərarın 11-ci maddəsinə əsasən, boşaldılan ərazilərə dərhal xaricdən gəlmiş ermənilərin yerləşdirilməsinə başlanıldı.



Совет Министров Азербайджанской ССР

СОВЕТ МИНИСТРОВ СССР
ПОСТАНОВЛЕНИЕ № 4083
от 23 декабря 1947 г. Москва, Кремль.

О переселении колхозников и другого азербайджанского населения из Армянской ССР в Куре-Араксинскую низменность Азербайджанской ССР.

Совет Министров Союза ССР ПОСТАНОВЛЯЕТ:

1 Переселить в 1948–1950 гг. на добровольных началах в Кура-Араксинскую низменность Азербайджанской ССР 100 тыс. колхозников и другое азербайджанское население из Армянской ССР, из них: 10 тыс. человек – в 1948 году, 40 тыс. человек – в 1949 году и 50 тыс. человек – в 1950 году.

11. Разрешить Совету Министров Армянской ССР освобождаемые азербайджанским населением постройки и жилые дома в связи с переселением их в Кура-Араксинскую низменность Азербайджанской ССР использовать для расселения зарубежных армян, прибывающих в Армянскую ССР.

Председатель
Совета Министров Союза ССР И. Сталин

Управляющий Делами
Совета Министров СССР Я. Чадаев

ПРОТОКОЛЬНАЯ ЧАСТЬ

*Sovet rəhbərliyinin azərbaycanlıların Ermənistan SSR-dən köçürülməsi haqqında qərarı*

Nəticədə, Ermənistan SSR-də yaşayan azərbaycanlılar **1948 – 1953-cü illərdə** öz tarixi torpaqlarından zorla çıxarıldı. Onlar Sabirabad, Saatlı və digər aran rayonlarında yerləşdirildilər. Dağlıq yerlərdə yaşamış insanların Kür-Araz ovalığına, yaşayış üçün heç bir şərait yaradılmayan yerlərə köçürülməsi çox ağır nəticələr verdi. Çox keçmədən köçürülənlərin üçdə bir hissəsi dünyadan köçdü. Ermənistan SSR-dən azərbaycanlıların deportasiyası ilə yanaşı, burada tarixi Azərbaycan yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi həyata keçirildi. Azərbaycanda Mərkəzin göstərişi ilə digər proses də baş verdi. Müharibədən sonrakı illərdə Bakıya, Gəncəyə, yeni yaradılan sənaye mərkəzlərinə minlərlə erməni ailəsi köçürüldü. Bakıda, Dağlıq Qarabağda erməni lobbisi[1] yaradıldı.

Xalqımıza qarşı bu qəddar tədbirlərə, soydaşlarımızın həyatına və əmlakına qarşı zorakılıqlara yalnız 50 il keçdikdən sonra hüquqi qiymət verildi. **1997-ci il dekabrın 18-də** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin imzaladığı fərmanla 1948 – 1953-cü illərdə Ermənistandan azərbaycanlıların kütləvi deportasiyası ***etnik təmizləmə və soyqırımı siyasəti kimi qətiyyətlə pisləndi***.

*Xaricdən hər bir şəxsin SSRİ-yə gəlişində casusluq məqsədi axtaran hökumət nəyə görə xaricdəki ermənilərə etibar edib onları Ermənistana köçürürdü? Fikirlərinizi bildirin.*

**İqtisadi inkişaf.** Müharibə Azərbaycan iqtisadiyyatına, xüsusən neft sənayesinə ağır zərbə vurdu. Cəbhəni fasiləsiz olaraq neft məhsulları ilə təmin etmək üçün neft yataqlarının istismarı qaydalarına əməl edilməməsi, ixtisaslı kadrların çatışmaması, neft maşınqayırması müəssisələrinin hərbi sifarişlər yerinə yetirməyə yönəldilməsi müharibənin sonunda neft hasilatının iki dəfədən çox aşağı düşməsinə səbəb oldu. Digər sənaye sahələrində və kənd təsərrüfatında da işçi qüvvəsinin çatışmaması və digər problemlərlə bağlı məhsul istehsalı kəskin şəkildə azaldı.

Azərbaycan rəhbərliyi qısa müddət ərzində iqtisadiyyatın bərpa olunması və müharibədən əvvəlki səviyyəni də ötüb-keçməsi vəzifəsini irəli sürdü. İqtisadiyyata

[1] **lobbi** – bir qrup şəxsin və ya təşkilatın hakimiyyət orqanlarına təsir göstərərək özünə sərfəli qərarların qəbul edilməsinə nail olmaq üçün fəaliyyət növü



LAYİHƏ

əsaslı vəsait qoyuluşu artırıldı. Minlərlə gənc sənət məktəblərində qısa hazırlıqdan sonra neft mədənlərində, fabrik və zavodlarda işləməyə göndərildi. Neft sənayesinə yeni texniki avadanlıq və texnologiyaların tətbiqi genişləndi, yeni neft yataqları istismara verildi.



*Xəzər dənizində neft estakadaları*

Azərbaycan neftçiləri dünyada ilk dəfə açıq dənizdə neft çıxarmağa başladılar. **1949-cu ildə *"Neft daşları"nda ilk neft quyusu fontan vurdu.*** Sonrakı illərdə Xəzər dənizində yeni neft estakadaları quruldu və dənizin dərin qatlarından çıxarılan neft hasilatı sürətlə artmağa başladı. Azərbaycanın təcrübəli neftçiləri Sovet İttifaqının müxtəlif regionlarında, xüsusən Volqaboyu və Uralda yeni neft yataqlarının kəşfində və istismarında böyük xidmətlər göstərdilər.

Respublikamızda müharibədən sonrakı illərdə yeni kimya, dağ-mədən, qara və əlvan metallurgiya, tikinti, yüngül və yeyinti sənayesi müəssisələri, nəhəng energetika obyektləri inşa edilməyə başlandı. Sumqayıt, Mingəçevir, Daşkəsən, Əli Bayramlı (indiki Şirvan) kimi yeni sənaye şəhərləri yarandı. Sumqayıt Sovet İttifaqının əsas kimya sənayesi mərkəzlərindən birinə çevrildi. **1954-cü ildə** Qafqazda ən böyük ***Mingəçevir SES və Daşkəsən filizsaflaşdırma kombinatı*** istifadəyə verildi. Lakin sovet rəhbərliyi Azərbaycanda daha çox gəlir gətirən son məhsul istehsalı müəssisələri yaradılmasına mane olurdu. Ona görə də Daşkəsəndə saflaşdırılan dəmir filizi sonrakı emal üçün Gürcüstana – Rustavi metallurgiya zavoduna göndərilirdi.



*Mingəçevir SES*



LAYİHƏ

*SSRİ hökumətinin Azərbaycandakı iqtisadi siyasətini çar Rusiyasının müstəmləkəçi iqtisadi siyasəti ilə müqayisə edin.*

Müharibədən sonrakı illərdə kənd təsərrüfatı məhsulları istehsalını artırmaq üçün mühüm addımlar atıldı. Xırda, azgəlirli kolxozlar birləşdirilərək iri kənd təsərrüfatı kollektivləri yaradıldı. Bu dövrdə dövlət pambıq, ipək, tütün, üzüm və tərəvəz istehsalının artırılmasına xüsusi diqqət yetirirdi. Lakin əhalinin ərzaqla təmin edilməsində çox önəmli yer tutan taxılçılıq və heyvandarlıq sahələrinə ciddi fikir verilmirdi.

Sovet rəhbərliyi müharibə dövrünün çətinliklərini aradan qaldırmaq, əhalinin dolanışıq şəraitini yüngülləşdirmək üçün bir sıra tədbirlər görürdü. Ərzaq və digər gündəlik tələbat məhsullarının satışı üzrə talon sistemi ləğv edildi. Lakin gündəlik tələbat mallarının qiymətləri müharibədən əvvəlki dövrə nisbətən yenə də çox baha idi. Ona görə də sovet rəhbərliyi gündəlik tələbat məhsullarının qiymətini ilbəil ucuzlaşdırmağa başladı.

***SUAL VƏ TAPŞIRIQLAR:***

1. *SSRİ-nin müharibədən sonra azərbaycanlılara qarşı siyasətinin xüsusiyyətlərinə aid şaxələnmə qurun.*
2. *Ermənilərin Dağlıq Qarabağa olan iddialarının boşa çıxması səbəblərini izah edin.*
3. *Azərbaycanlıların tarixi torpaqlarından deportasiya olunması haqqında məlumat toplayın.*
4. *Müharibənin neft hasilatına mənfi təsiri nə ilə bağlı idi?*
5. *“Neft daşları” haqqında sənədli filmə baxıb müzakirə edin.*

# 40. Milli oyanış cəhdləri

Sovet dövlətinə 30 ildən artıq rəhbərlik etmiş İ.Stalin 1953-cü ildə vəfat etdi. Onun ölümündən dərhal sonra Sovet İttifaqının ictimai-siyasi həyatında ciddi dəyişikliklər baş verdi. Bu dəyişikliklər nədən ibarət idi? Xalqımız İttifaq miqyasında başlanmış mülayimləşmə siyasətindən necə yararlandı?

Mülayimləşmə siyasəti, şəxsiyyətə pərəstişin tənqidi, İmam Mustafayev, “Gülüstan” poeması, Azərbaycan dilinə dövlət dili statusu verilməsi, Şıxəli Qurbanov

**Mülayimləşmə siyasəti.** İ.Stalinin ölümündən az sonra Nikita Xruşşov Sov.İKP MK-nın birinci katibi seçildi. Onun hakimiyyəti zamanında Sovet totalitar sisteminin yumşalması baş verdi. Dövlətin idarə edilməsində Stalin dövrünün amansız, qanlı metodlarından imtina edildi, həbsdə olanlara geniş əfv tətbiq olundu.

Milli siyasətdə də mülayimləşmə meyilləri başlandı. Təsərrüfat planlarının hazırlanmasında və mədəni həyatın idarə olunmasında müttəfiq respublikaların hüquqları müəyyən dərəcədə genişləndirildi. Mərkəzi hökumət məhkəmə quruculuğu, mülki, cinayət və məhkəmə məcəllələrinin qəbulunu respublikaların ixtiyarına verdi. Sov.İKP-nin XX qurultayında Stalin dövrünün cinayətləri, özbaşınalıq və qanunsuzluqları üzə çıxarıldı, Stalin şəxsiyyətinə pərəstiş tənqid edildi.



LAYİHƏ

*Şəxsiyyətə pərəstiş nədir? Fikirlərinizi bildirin.*

Azərbaycan KP MK-nın birinci katibi Mircəfər Bağırov vəzifəsindən çıxarıldı və həbs edildi. 1956-cı ildə isə xalq düşməni kimi güllələnməyə məhkum olundu.

1954-cü ildə **İmam Mustafayev** Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə seçildi. Azərbaycanda demokratik dəyişikliklər başlandı, milli məsələyə diqqət artırıldı, xalqın vəziyyətini yaxşılaşdırmaq üçün addımlar atıldı. Repressiyaya məruz qalmış minlərlə azərbaycanlıya bəraət verildi. Azərbaycanlı gənclərin rayonlardan gəlib Bakıda işləməsinə imkan yaradıldı. Bakı ətrafındakı qəsəbələr şəhər rəhbərliyinə tabe edildi. Görülən bu və digər tədbirlər Bakının gələcək taleyinə ciddi təsir göstərdi. Belə ki Mərkəzin Bakıda rusdilli əhalinin çoxluq təşkil etməsini əsas götürərək onu beynəlmiləl şəhər kimi Azərbaycanın tərkibindən çıxarıb birbaşa Moskvaya tabe etmək planı pozuldu.


*İmam Mustafayev*

*Sizcə, mərkəzi hökumət nəyə görə məhz Bakı şəhərini birbaşa Moskvaya tabe etməyə can atırdı?*

Bu dövrdə Azərbaycan SSR Konstitusiyasına ***dövlət dilinin Azərbaycan dili olması haqqında*** yeni maddə əlavə edildi. Respublikanın dövlət idarələrində sənədlərin hazırlanması Azərbaycan dilində aparılmağa başlandı. Təhsil müəssisələrində Azərbaycan tarixi fənninin tədrisinə diqqət artırıldı. Azərbaycan tarixi üzrə dərslik və ümumiləşdirilmiş əsərlər yaradılması haqqında qərar qəbul edildi. Repressiyaya məruz qalmış yazıçı və şairlərin əsərləri yenidən nəşr olundu.


*Rəsul Rza*

Azərbaycanda milli oyanış açıq şəkildə hiss olunmağa başlandı. Ədəbiyyatda yeni, xalqın taleyi ilə bağlı, ictimai maraq doğuran problemlərdən cəsarətlə bəhs edən əsərlər yarandı. **Bəxtiyar Vahabzadənin** “Gülüstan”, **Rəsul Rzanın** “Qızılgül olmayaydı” poemaları, **İsa Hüseynovun** povestləri milli oyanışa böyük təsir göstərdi.


*Bəxtiyar Vahabzadə*

**Sovet rəhbərliyinin Azərbaycanda milli oyanışın qarşısını almaq tədbirləri.** Sovet rəhbərliyi Azərbaycanda milli oyanışı, Azərbaycan dilinin dövlət dili kimi idarə və təşkilatlarda tətbiq edilməsini narahatlıqla qarşıladı. Mərkəzi hökumət rusdilli əhalinin bununla bağlı narazılığını bəhanə edərək respublika rəhbərlərinə təzyiqi gücləndirdi. Azərbaycanda genişlənən milli oyanışın qarşısını almaq üçün Moskvanın göstərişi ilə 1959-cu ildə İ.Mustafayev vəzifəsindən uzaqlaşdırıldı, **Vəli Axundov** Azərbaycan KP MK-nın birinci katibi seçildi.


*Vəli Axundov*

LAYİHƏ

*Yadınıza salın: "Kitabi-Dədə Qorqud" dastanı nəyə görə qadağan edilmişdi?*

1950-ci illərin sonunda ermənilərin təşəbbüsü ilə Dağlıq Qarabağın Ermənistana verilməsi məsələsi yenidən qaldırıldı. Lakin N.Xruşşov Sovet İttifaqında 30-a qədər belə mübahisəli milli münaqişə ocağı olmasını nəzərə alaraq, Dağlıq Qarabağ məsələsinin müzakirəsini dayandırdı.

Bəhs edilən dövrdə Ermənistanda azərbaycanlı əhaliyə qarşı təzyiqlər gücləndi. Ermənistanda əhalinin çoxu azərbaycanlılar yaşayan rayonlarda Azərbaycan dilində qəzetlər çıxarılması dayandırıldı. **İrəvan Azərbaycan Dram Teatrı**, Azərbaycan məktəbləri üçün müəllim kadrları hazırlayan **pedaqoji texnikum** bağlandı.

**1965-ci ildə** Ermənistanda uydurma "erməni soyqırımı"nın 50 illiyinin qeyd edilməsi respublikada Anti-Azərbaycan əhvali-ruhiyyəsini gücləndirdi. Ermənilərin "Qarabağ Komitəsi" açıq fəaliyyətə keçdi. Xankəndində yaşayan bir neçə azərbaycanlı öldürüldü. Lakin Azərbaycan rəhbərliyinin qətiyyətli hərəkəti Dağlıq Qarabağ ermənilərinin millətçi, qanunazidd fəaliyyətinin genişlənməsinə imkan vermədi.



*Oqtay Rəfili*



*Xudu Məmmədov*



*Şıxəli Qurbanov*

Azərbaycanın vətənpərvər ziyalıları və alimləri xalqın milli maraqlarını qorumaq uğrunda təşkilatlanmağa qərar verdilər. Onlar 1962-ci ildə gizli yığıncaq keçirib **"Milli Azərbaycan Qərargahı"** yaratdılar. Oqtay Rəfilinin sədr, Xudu Məmmədovun müavin olduğu bu təşkilatın əsas məqsədi azərbaycanlı kadrların mühüm vəzifələrə yerləşdirilməsinə nail olmaq idi.

*Milli Azərbaycan Qərargahının fəaliyyətini əlavə məlumatlar əsasında dəyərləndirin.*

Mərkəzin göstərişi ilə Şimali Azərbaycanın Rusiyaya "könüllü birləşdirilməsi"nin 150 illiyinin təntənə ilə qeyd edilməsi bəzi ziyalılar arasında etirazlara səbəb oldu. 60-cı illərdə isə milli-mədəni dəyərlərimizin qorunub saxlanması və dirçəldilməsi sahəsində bir sıra mühüm addımlar atıldı. Azərbaycan KP MK-nın katibi ***Şıxəli Qurbanovun*** təşəbbüsü ilə Novruz bayramı "Bahar bayramı" kimi rəsmən qeyd edilməyə başlandı.

1969-cu il mayın 7-də Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti sərhəd rayonlarından 2 min hektar ərazinin Ermənistana verilməsi haqqında 1938-ci il mayın 5-də qəbul edilmiş qərarı təsdiq etdi. **1969-cu ilin iyulunda** Azərbaycanda rəhbərliyə gələn **Heydər Əliyev** isə bu qərarın icrasına imkan vermədi.

**İqtisadiyyatda yeniliklər.** 1950-ci illərin ikinci yarısı – 60-cı illərdə Bakıda, Sumqayıtda, Mingəçevirdə, Gəncədə, Əli



LAYİHƏ

Bayramlıda (indiki Şirvan) yeni sənaye müəssisələri inşa edildi. Bakı–Krasnovodsk (Türkmənbaşı) gəmi-bərə yolu, Yevlax–Ağdam dəmir yolu xətti istifadəyə verildi. 1950-ci illərin ikinci yarısında kəndlilərin şəxsi yardımçı təsərrüfatlarının sıxışdırılması baş verdi. Bu, əhalinin ərzaq məhsulları ilə təmin edilməsinə mənfi təsir göstərdi.

***SUAL VƏ TAPŞIRIQLAR:***

1. *Milli siyasətdə mülayimləşmənin əlamətlərini müəyyən edin.*
2. *Azərbaycanlıların rəhbər vəzifələrə təyin olunmasının əhəmiyyətini izah edin.*
3. *Ermənistan SSR-də Anti-Azərbaycan tədbirlərinin həyata keçirilməsinin səbəbi nə idi?*
4. *Sənaye və kənd təsərrüfatındakı yenilikləri müqayisə edin.*
5. *Mövzu ilə bağlı ən mühüm hadisələrə aid zaman oxu tərtib edin.*

# 41. 1940 – 60-cı illərdə mədəniyyət sahəsində uğurlar

İkinci Dünya müharibəsi respublikamızın mədəni həyatında da dərin iz qoydu. Bu illərdə xalqımızın yaradıcı insanları da qələbə üçün əllərindən gələni əsirgəmədilər. Müharibə illərində xalqımızın hansı elmi-mədəni uğurları oldu? Müharibədən sonra bu uğurlar davam etdimi? 50 – 60-cı illərdə mədəniyyətin inkişafını uğurlu hesab etmək olarmı?

Azərbaycan Elmlər Akademiyasının yaradılması, Yusif Məmmədəliyev, icbari onillik təhsil, Qara Qarayev, Səttar Bəhlulzadə, Azərbaycan televiziyasının yaradılması


*Yusif Məmmədəliyev*

**İkinci Dünya müharibəsi dövründə mədəniyyət sahəsində yeniliklər.** Faşizm üzərində qələbənin qazanılması üçün Azərbaycanın elm və mədəniyyət xadimləri də böyük töhfələr verdilər. Kimyaçı alim **Yusif Məmmədəliyev** aviasiya üçün yüksək oktanlı təyyarə benzini istehsalının yeni texnologiyasını hazırladı. Geoloqlar yeni strateji xammal yataqları kəşf etdilər. Cərrah ***Mustafa Topçubaşovun*** yeni hərbi cərrahiyyə metodlarının tətbiqi sayəsində minlərlə yaralı döyüşçünün həyatı xilas olundu.

**1945-ci ilin martında** SSRİ EA-nın Azərbaycan filialı əsasında ***Azərbaycan SSR Elmlər Akademiyası*** yaradıldı. Görkəmli cərrah **Mirəsədulla Mirqasımov** akademiyanın ilk prezidenti seçildi. Respublikamızda elmi tədqiqatların miqyası genişləndi.

Müharibə illərində musiqi, rəssamlıq sahəsində yeni əsərlər yaradıldı. **Qara Qarayev** və **Cövdət Hacıyev *"Vətən" operasını*** bəstələdilər. **Maral Rəhmanzadə** və

LAYİHƏ

**Əzim Əzimzadə** müharibə mövzusunda tablolar yaratdılar. Azərbaycan kinematoqrafçıları ***"Vətən oğlu", "Bəxtiyar", "T–9 sualtı gəmisi"*** filmlərini çəkdilər. 1941-ci ilin oktyabrında Sovet Azərbaycanının mədəniyyət xadimləri Cənubi Azərbaycanda sovet əsgərləri, Təbriz əhalisi qarşısında çıxış etdilər, tamaşa və konsertlər verdilər.

SSRİ rəhbərliyi **1944-cü ildə *Cənubi Qafqaz Müsəlmanlarının Ruhani İdarəsini*** yaratdı. Hökumətin məqsədi dindarların Vətənin müdafiəsinə fəal surətdə qoşulmalarına nail olmaq idi.



*Qara Qarayev*

*Yadınıza salın: ilk dövrlərdə Sovet hakimiyyətinin din sahəsində siyasəti necə idi?*

**Müharibədən sonrakı dövrdə təhsil və elmin inkişafı.** Müharibədən sonra ittifaq miqyasında orta təhsilin səviyyəsini yüksəltmək üçün ümumtəhsil məktəblərində buraxılış imtahanları tətbiq edildi. Məktəbi əla qiymətlərlə bitirənlərə qızıl və gümüş medallar verilməsinə başlandı. Əvvəlcə *icbari yeddiillik təhsilə*, sonralar isə *icbari səkkizillik təhsilə* keçildi. **1966-cı ildən *icbari onillik təhsil*** tətbiq edildi. Müharibədən sonrakı illərdə yeni ali məktəblər – Teatr, Xarici dillər, Rus dili və ədəbiyyatı institutları açıldı.

Müharibədən sonrakı ilk illərdə xalqımızın qabaqcıl elm və mədəniyyət xadimləri təqib və təzyiqlərə məruz qalırdılar. Azərbaycan alimləri mövcud rejimin ideologiyasından azacıq kənara çıxan fikirlərinə görə dərhal repressiyalara məruz qalır, həbs və sürgün edilir, əsərləri isə qadağan olunurdu. Hakim ideologiyanın tarix elmi üzərində təzyiqi daha da güclənmişdi. Azərbaycan xalqının soykökü məsələsi qəsdən təhrif olunur, Şimali Azərbaycanın Rusiyaya könüllü birləşdirilməsi haqqında qeyri-elmi və uydurma fikirlər irəli sürülürdü. Azərbaycan Xalq Cümhuriyyətinin tarixi tamamilə saxtalaşdırılırdı. Buna baxmayaraq, Azərbaycanın elm xadimləri müxtəlif sahələrdə tədqiqatlarını uğurla davam etdirir, Azərbaycan dili və ədəbiyyatı, Azərbaycan tarixi üzrə fundamental əsərlər yaradırdılar.

*Qobustan qaya rəsmləri və Azıx mağarasının tədqiqi haqqında məlumat toplayın.*

Bu dövrdə görkəmli Azərbaycan alimləri tərəfindən yeni elmi məktəblər yaradılmışdı. Bu elmi məktəblərə neft-kimya sahəsində **Yusif Məmmədəliyev**, geologiya-mineralogiya sahəsində **Xudu Məmmədov**, astronomiyada **Nadir İbrahimov**, riyaziyyatda **Zahid Xəlilov** və **Əşrəf Hüseynov**, bitkiçilikdə **İmam Mustafayev** və **Həsən Əliyev**, dilçilikdə **Əbdüləzəl Dəmirçizadə**, ədəbiyyatşünaslıqda **Məmməd Arif Dadaşzadə**, tarixşünaslıqda **İsmayıl Hüseynov**, **Ziya Bünyadov** və **Əlisöhbət Sumbatzadə** kimi tanınmış alimlər başçılıq edirdilər.

**Ədəbiyyat və incəsənət sahəsində uğurlar.** Müharibədən sonrakı dövrün Azərbaycan ədəbiyyatında şair **Səməd Vurğunun** yaradıcılığı xüsusi yer tuturdu. Ədəbiyyatımızın digər görkəmli nümayəndələri – şairlər **Süleyman Rüstəm**, **Rəsul Rza**, **Bəxtiyar Vahabzadə**, yazıçılar **Mir Cəlal Paşayev**, **Mehdi Hüseyn**, **Mirzə İbrahimov**, **İlyas Əfəndiyev**, **Sabit Rəhman** və başqaları sovet ideologiyası çərçivəsində də öz bədii yaradıcılıqlarında Vətən sevgisini tərənnüm edirdilər.

LAYİHƏ


*Mir Cəlal Paşayev*


*Əşrəf Hüseynov*


*Əlisöhbət Sumbatzadə*


*Ziya Bünyadov*

1950-ci illərin ikinci yarısında mülayimləşmə siyasəti nəticəsində repressiyaya məruz qalmış ictimai xadimlərin, elm və mədəniyyət nümayəndələrinin bir qismi bəraət aldı. Hüseyn Cavid, Mikayıl Müşfiq, Yusif Vəzir Çəmənzəminli də bəraət alanlar sırasında idilər. Yüzlərlə kitabın, o cümlədən "Kitabi-Dədə Qorqud" dastanının, A. Bakıxanovun və Heydər Hüseynovun əsərləri üzərindən qadağalar götürüldü. Həmin əsərlərin kütləvi tirajla yenidən nəşr edilməsi qərara alındı.

*Hazırda "Kitabi-Dədə Qorqud" dastanına münasibət necədir?*


*Sara Qədimova*

Azərbaycan bəstəkarları yeni-yeni əsərlər yaradırdılar. **Fikrət Əmirovun** *"Sevil"* operası, **Qara Qarayevin** *"Yeddi gözəl"* və *"İldırımlı yollarla"* baletləri milli musiqimizi xeyli zənginləşdirdi. **Niyazi** *"Rast"*, **Süleyman Ələsgərov** *"Bayatı-Şiraz"* simfonik muğamlarını bəstələdilər. Bu əsərlər Azərbaycan musiqisinin dünya miqyasında tanınmasına imkan verdi. Xalq musiqimizin gözəl ifaçıları olan Bülbül (Murtuza Məmmədov), Rəşid Behbudov, Xan Şuşinski, Sara Qədimova, Şövkət Ələkbərova böyük şöhrət qazandılar.


*Şövkət Ələkbərova*

1945-ci ildə çəkilmiş "Arşın mal alan" filmi ilə Azərbaycan kinofilmi dünya ekranlarına çıxdı. SSRİ-nin və dünyanın bir çox ölkələrinin kinoteatrlarında uğurla nümayiş etdirilən bu filmin yaradıcı kollektivi Dövlət mükafatına layiq görüldü. Kino sənətinin inkişafında *"O olmasın, bu olsun"*, *"Uzaq sahillərdə"*, *"Ögey ana"* bədii filmlərinin rolu da əvəzsiz idi.

*Sizcə, filmlər dövrün ictimai-siyasi həyatını əks etdirən tarixi mənbə ola bilərmi?*

Bu dövrün məşhur rəssamları – **Səttar Bəhlulzadə**, **Tahir Salahov**, **Vəcihə Səmədova**, **Toğrul Nərimanbəyov** öz tablolarında Azərbaycanın füsunkar təbiətini, zəhmətkeş insanların həyatını yüksək sənətkarlıqla əks etdirirdilər. Xalçaçı rəssam **Lətif Kərimov** milli naxışları müasirliklə birləşdirir, gözəl sənət nümunələri yaradırdı. Rəssamların çəkdikləri rəngarəng tablolar, heykəltəraşların Bakıda və respublikamızın digər şəhərlərində ucaltdıqları əzəmətli abidələr Azərbaycan incəsənətini xeyli zənginləşdirdi. Bu dövrdə yeni memarlıq abidələri də yaradıldı. Bakıda *Hökumət Evi, Respublika stadionu, Akademiya şəhərciyi, Bakı Hava limanı, Dövlət Sirki* inşa edildi. 1956-cı ildə Azərbaycan televiziyası, 1967-ci ildə Bakı metropoliteni istifadəyə verildi. 1940 – 1960-cı illərdə Azərbaycan mədəniyyətinin bütün sahələrinin inkişafında böyük uğurlar qazanıldı.



LAYİHƏ

**SUAL VƏ TAPŞIRIQLAR:**

1. *Müharibə illərində elm və mədəniyyət sahəsində qazanılan uğurları müəyyənləşdirib qeyd edin.*
2. *Müharibədən sonrakı illərdə orta təhsillə bağlı islahatların əhəmiyyəti nə idi?*
3. *Azərbaycan tarixinin saxtalaşdırılmasında məqsəd nə idi?*
4. *İncəsənətdə əldə olunmuş uğurlara aid təqdimat hazırlayın.*
5. *Bakıda inşa edilən tikililər əsasında mədəniyyətin hansı sahələrinin inkişaf etdiyini müəyyənləşdirin.*

# 42. 1970 – 80-ci illərdə sosial-iqtisadi yüksəliş

1969-cu ilin iyul ayı Azərbaycanın müasir tarixinin dönüş nöqtəsi kimi qiymətləndirilir. SSRİ kimi nəhəng, nüfuzlu imperiyanın tərkibində olan Azərbaycan SSR-də nə baş verdi? Bu dövrdə xalqımızın mənafeyi necə müdafiə edilirdi? Hansı sahələrdə gələcəyə hesablanmış tədbirlər həyata keçirildi? Əhalinin həyat səviyyəsinin yüksəldilməsi üçün hansı tədbirlər görüldü?

Heydər Əliyev, Dağlıq Qarabağa erməni iddialarının dəf edilməsi, Şuşanın abadlaşdırılması, Ağdam–Xankəndi dəmir yolu, Məişət Kondisionerləri Zavodu

**Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsi.** XX əsrin 60-cı illərinin sonunda respublika iqtisadiyyatının, xüsusilə kənd təsərrüfatının zəif inkişafı, iqtisadi çətinliklərin artması Azərbaycan SSR-in rəhbərliyində dəyişiklik edilməsi ilə nəticələndi. Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə **Heydər Əliyev** seçildi.

*Ümummilli lider Heydər Əliyevin dövlətçilik fəaliyyəti haqqında nə bilirsiniz?*



**Ümummilli lider Heydər Əliyev**

*Ulu öndər Heydər Əliyev 1960-cı illərdə Azərbaycandakı vəziyyəti belə xarakterizə etmişdi: "60-cı illərdə respublika iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi".*

*Azərbaycan SSR-də 1960-cı illərdə baş vermiş böhran və geriləməni aradan qaldırmaq üçün zəruri olan tədbirləri müzakirə edin.*



LAYİHƏ

Bu zaman respublikada ictimai-siyasi və sosial-iqtisadi vəziyyət kifayət qədər mürəkkəb idi. İqtisadiyyatın bütün sahələri zəif inkişaf edirdi və xalq təsərrüfatının əsas sahələri üzrə göstəricilər xeyli aşağı idi. Heydər Əliyev öz fəaliyyətinə idarəetmə orqanlarında ciddi kadr dəyişiklikləri ilə başladı. Bütün strukturlarda qanunu pozan, nüfuzunu itirən və işinin öhdəsindən gələ bilməyən kadrlar yeniləri ilə əvəz olundu. İşgüzar şəxslərin dövlət və hökumət orqanlarında məsul vəzifələrə təyin edilməsi hakimiyyətin nüfuzunun yüksəlməsinə səbəb oldu. Respublikada mənəvi-psixoloji mühitin sağlamlaşdırılması və əmək intizamının möhkəmləndirilməsi istiqamətində qətiyyətli addımlar atıldı. Rüşvətxorluğa və korrupsiyaya qarşı sərt mübarizə başlandı. Dağlıq Qarabağda azərbaycanlıların yaşadığı kənd və rayonların acınacaqlı sosial-iqtisadi vəziyyəti ilə tanış olan Heydər Əliyev, xüsusilə Şuşa şəhərinin inkişaf etdirilməsi ilə bağlı bir sıra mühüm tədbirlər həyata keçirdi. Onun Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri **1978-ci ildə *Azərbaycan SSR-in yeni konstitusiyasının*** qəbulu zamanı bu sənədə Azərbaycan dilinin dövlət dili olması haqqında ayrıca maddənin daxil edilməsi oldu.

*Ermənistan SSR rəhbərliyi erməni Qriqorian kilsəsinin təhriki ilə 70-ci illərdə yenidən Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı SSRİ rəhbərliyinə müraciət etdi. Hətta 1977-ci il noyabrın 23-də SSRİ hökumətinin iclasında Ermənistan rəhbərliyinin təkidi ilə bu məsələ müzakirə olunmuş və təkliflər irəli sürülmüşdü.*

*Məsələdən xəbər tutan Heydər Əliyev erməni siyasi təcavüzünün qarşısını almaq üçün qəti addımlar atdı. O, Azərbaycan SSR Elmlər Akademiyasının Tarix İnstitutuna Qarabağ regionunun qədim Azərbaycan torpağı olması haqqında elmi arayış hazırlamaq barədə göstəriş verdi. Heydər Əliyev həmin elmi arayışı Azərbaycan KP MK Bürosunda müzakirəyə qoydu, Ermənistan SSR rəhbərliyinin iddialarının əsassız olması haqqında qərar qəbul edilməsinə nail oldu. Həmin qərar SSRİ rəhbəri L.Brejnevə təqdim olundu və ermənilərin çirkin niyyətinin qarşısı alındı.*

M *Heydər Əliyevin Qarabağ torpaqlarını dəfələrlə xilas etməsi haqqında məlumat toplayıb təqdimat hazırlayın.*

Heydər Əliyev fəhlə, kəndli və ziyalıların nümayəndələri ilə bütün görüşlərində onların şikayətlərini səbirlə dinləyir, qaldırılan problemlərin qısa müddət ərzində həll edilməsinə nail olurdu. Əhalinin getdikcə artan tələblərinin ödənilməsində ciddi problemlərin olduğu bir şəraitdə mənzil, minik avtomobili və digər aztapılan malların ədalətlə bölüşdürülməsi prinsipinə ciddi əməl olunmasına şəxsən nəzarət edirdi.

**İqtisadiyyatın sürətli inkişafı.** Heydər Əliyev 1969 – 1982-ci illərdə respublika rəhbəri olarkən ***250-dən çox fabrik və zavod*** işə salındı. Onlardan ən əhəmiyyətlisi 1975-ci ildə Bakıda tikilən Məişət Kondisionerləri Zavodu idi. Bu illərdə respublikamızın neft-maşınqayırma sənayesi də əsaslı şəkildə yenidən quruldu. Azərbaycan rəhbərliyi bu məqsədlə Mərkəzi hökumətin böyük məbləğdə vəsait ayırmasına nail oldu. Nəticədə, Azərbaycan İttifaq miqyasında neft çıxarılmasında öz əvvəlki mövqeyini itirsə də, neft-maşınqayırma sahəsində üstün mövqeyini daha da möhkəmləndirdi.

LAYİHƏ

*Müasir dövrdə Azərbaycan neft sənayesinin inkişafı haqqında nə bilirsiniz?*

Respublikada kənd təsərrüfatının bütün sahələrinin inkişafına diqqət artırıldı. Xüsusən yüksək gəlir verən pambıqçılıq, üzümçülük, tütünçülük və tərəvəzçiliyin inkişafında böyük uğurlar qazanıldı. Kənd təsərrüfatının texniki təchizatı yaxşılaşdı. Bir sıra su kanalları çəkildi, Sərsəng və Şəmkir su anbarları yaradıldı. Nəticədə, suvarılan əkin sahələri əhəmiyyətli dərəcədə genişləndirildi.



*Heydər Əliyev kənd zəhmətkeşləri arasında*

70-ci illərdə nəqliyyatın inkişafı da diqqət mərkəzində idi. Bir çox dəmir yolu xətləri elektrikləşdirildi. Bu da dəmir yolu ilə yükdaşımaların həcmini artırmağa imkan verdi. **1979-cu ildə *Ağdam–Xankəndi dəmir yolunun*** çəkilməsi başa çatdırıldı. Bununla Dağlıq Qarabağ regionunun respublikamızın digər bölgələri ilə daha sıx əlaqəsi təmin olundu.

**Əhalinin həyat səviyyəsini yaxşılaşdırmaq tədbirləri.** 1970-ci illərdə əhalinin yaşayış səviyyəsini yüksəltmək üçün ciddi addımlar atıldı. Yeni fabrik və zavodların, müxtəlif istehsal sahələrinin işə salınması minlərlə insanı işlə təmin etməyə imkan verdi. Əhalinin mənzil probleminin həlli üçün Bakı şəhərinin kənar məhəllələrində yeni mikrorayonlar inşa edildi, yeni yaşayış massivləri istifadəyə verildi. Sumqayıt, Mingəçevir və digər şəhərlərdə də mənzil tikintisi genişləndirildi.

1971-ci ildə Kürdən Bakıya su kəməri çəkilməsi başa çatdırıldı. Bu, Bakı şəhəri əhalisinin içməli suya tələbatının ödənilməsində əhəmiyyətli addım oldu. Telefon rabitəsinin inkişafı məqsədilə yeni telefon stansiyaları inşa edildi, həmçinin şəhərlərarası telefon rabitəsinin keyfiyyətini yüksəltmək üçün tədbirlər görüldü.

*XX əsrin əvvəlində və 70-ci illərində yaşayan azərbaycanlı ailəsinin həyat tərzini təhlil edin.*

Bu dövrdə Azərbaycanın iqtisadi və sosial-mədəni sahələrdə böyük nailiyyətlər qazanması Mərkəzin də diqqətini çəkdi. Azərbaycanın rəhbəri Heydər Əliyev 1976-cı ildə Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, **1982-ci ildə** isə Siyasi Büronun üzvü seçildi, ardınca rəhbər vəzifələrdən birinə – ***SSRİ Nazirlər Soveti sədrinin birinci müavini*** vəzifəsinə təyin edildi. Sovet İttifaqının rəhbərliyində olduğu dövrdə də Heydər Əliyev Azərbaycan xalqının mənafeyi naminə çalışır, respublikamızın inkişafı üçün çox işlər görürdü.

LAYİHƏ

**SUAL VƏ TAPŞIRIQLAR:**

1. *1960-cı illərdə Azərbaycan SSR-in üzləşdiyi problemləri müəyyən edin.*
2. *Azərbaycan dilinin dövlət dili elan olunmasının əhəmiyyətini müzakirə edin.*
3. *1970-ci illərdə sənayenin inkişafında hansı yeniliklər baş verdi?*
4. *Bu dövrdə əhalinin həyatındakı yenilikləri müəyyənləşdirin.*
5. *Ermənilərin Azərbaycan torpaqlarına yeni iddialarının qarşısının alınması üçün Heydər Əliyevin gördüyü tədbirləri izah edin.*
6. *Heydər Əliyevin fəaliyyətinin 1982-ci ildən başlayan Moskva dövrünə aid məlumat toplayın.*

# 43. Yenidənqurma siyasətinin iflası

1985-ci ildə Sov.İKP MK-nın Baş katibi seçilən Mixail Qorbaçov Sovet sisteminin tənəzzülünün qarşısını almaq üçün “yenidənqurma” və “aşkarlıq” siyasi xəttini irəli sürdü. Bu siyasət demokratik cəmiyyət qurulmasına imkan verdimi? Bundan kimlər istifadə etdi? Azərbaycanda hansı proses başlandı? Respublikamız nələri itirdi?

Durğunluq və böhran meyilləri, “yenidənqurma”, Dağlıq Qarabağ münaqişəsinin başlanması, azərbaycanlıların Ermənistandan qovulması, Sumqayıt fitnəkarlığı

**Sosial-iqtisadi həyatda durğunluq.** XX əsrin 80-ci illərində Sovet İttifaqında durğunluq və böhran meyilləri gücləndi. İstehsalın artım sürəti azaldı, əhalinin gündəlik tələbat malları ilə təmin edilməsində çətinliklər yarandı. M.Qorbaçovun *“yenidənqurma”* və *“aşkarlıq”* şüarlarını irəli sürməsindən istifadə edən qatı millətçi qüvvələr fəallaşdılar. Sovet hakimiyyətinə, sosializm quruluşuna qarşı çıxışlar gücləndi. Sovet rəhbərliyinin qətiyyətsiz addımları və yarımçıq islahatları Sovet İttifaqının süqutunu sürətləndirdi.

Azərbaycanda milli hüquqların məhdudlaşdırılmasına, sərvətlərimizin talan edilməsinə qarşı narazılıq artmaqda idi. Respublikanın yeni rəhbərliyi 70-ci illərdən güclənməkdə olan milli dirçəliş prosesinə istiqamət vermək və rəhbərlik etmək əvəzinə, Mərkəzin göstərişlərini yerinə yetirməyə çalışırdı.

1980-ci illərdə respublikamızda bir sıra yeni sənaye müəssisələri və digər obyektlər istifadəyə verildi. Dərin dəniz özülləri zavodu işə salındı. Bakı–Aktau gəmi-bərə yolu açıldı. Azərbaycanın şimal-qərb bölgəsini Bakı–Tbilisi dəmir yolu ilə birləşdirən *Yevlax–Balakən dəmir yolu xətti* işə salındı. **1983-cü ildə *Qroznı–Bakı neft kəməri*** çəkildi və Azərbaycan Sovet İttifaqının vahid neft kəmərinə qoşuldu. Nəticədə, kükürdlü Sibir nefti emal üçün Bakıya göndərilməyə başlandı ki, bu da ciddi ekoloji problemlər doğurdu.

*Kükürdlü neftin yaratdığı ekoloji problemləri müzakirə edin.*

LAYİHƏ

Gəlirli sahə olan üzümçülüyün sürətli inkişafı sonrakı dövrdə davam etdirilmədi. Əksinə, 80-ci illərin ortalarında Mərkəzin göstərişi ilə "alkoqolizm"ə qarşı mübarizə başlandı. Həmin dövrdə respublikamızda minlərlə hektar üzüm sahəsi məhv edildi və müasir avadanlıqlarla təchiz edilmiş onlarla ilkin şərab emalı zavodu bağlandı.

**Ermənilərin Dağlıq Qarabağı Azərbaycandan qoparmaq siyasəti.** M.Qorbaçovun sovet rəhbərliyinə gəlməsindən sonra həyata keçirilən yenidənqurma siyasəti gözlənilən nəticəni vermədi. Atılan addımlar Sovet sisteminin süqutunun qarşısını almaq üçün səmərəli olmadı. Moskva ölkənin diqqətini vacib məsələlərdən yayındırmaq üçün milli münaqişələri alovlandırmağa başladı. Heydər Əliyevin Sovet dövləti rəhbərliyində olması buna ciddi əngəl törətdiyi üçün M.Qorbaçov və əqidə yoldaşları 1987-ci ilin oktyabr ayında onun istefa verməsinə nail oldular.

Bu hadisədən bir ay keçməmiş ermənilər heç nədən çəkinmədən Dağlıq Qarabağın Ermənistana verilməsini tələb etdilər. **1988-ci il fevralın 14-də** Dağlıq Qarabağ Muxtar Vilayətinin separatçı erməni rəhbərliyi Ermənistana birləşmək məsələsini qaldırdı. Qarabağ erməniləri Azərbaycan hökumətindən vilayətin statusunun dəyişdirilməsini, SSRİ rəhbərliyindən isə vilayətin Azərbaycan SSR-in tərkibindən çıxarılıb Ermənistan SSR-ə verilməsini tələb etdilər. Buna qarşı olan azərbaycanlı gənclər Xankəndinə dinc etiraz yürüşü etdi. Onlardan 2 nəfər Əsgəranda öldürülsə də, Azərbaycan rəhbərliyi heç bir qəti addım atmadı. Əksinə, bu məsuliyyətli dövrdə qorxaq və qətiyyətsiz mövqe nümayiş etdirərək, xalqımızın vətənpərvər övladlarının erməni iddialarına qarşı etiraz çıxışlarını "xalqlar dostluğunun pozulmasına cəhd" kimi qiymətləndirib qarşısını almağa çalışdı.

*Sizcə, bu dövrdə ermənilərin tələblərinin qarşısını almaq üçün nə etmək olardı? Fikrinizi əsaslandırın.*

Azərbaycanın suveren hüquqlarının kobud şəkildə tapdalanmasına xalqımız öz etirazını mitinq və nümayişlərlə bildirməyə başladı. Azərbaycan xalqını "sakitləşdirmək" üçün Mərkəzi hökumət Azərbaycanda və Ermənistanda birinci şəxsləri vəzifələrindən azad etdi. **1988-ci ilin mayında *Kamran Bağırovun əvəzinə, Əbdürrəhman Vəzirov*** Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə gətirildi. Azərbaycanın problemlərinə, milli dəyərlərinə dərindən bələd olmayan, Mərkəzin göstərişi ilə hərəkət edən Ə.Vəzirov bu çətin və məsuliyyətli dövrdə milli münaqişəyə laqeyd yanaşdı. Vəziyyətdən çıxış yolu axtarmaq əvəzinə, ikinci dərəcəli məsələlərin həlli ilə məşğul olmağa başladı. Beləliklə, respublikamızda ictimai-siyasi vəziyyət daha da mürəkkəbləşdi.

*Mərkəzi hökumətin tədbirlərinin milli münaqişəni daha da alovlandırdığını əsaslandırın.*

**Azərbaycanlı əhalinin Ermənistandan kütləvi qovulması.** Ermənistan rəhbərliyi və onların Moskvadakı havadarları Dağlıq Qarabağ məsələsini qaldırmaqla yanaşı, paralel şəkildə azərbaycanlı əhalini Ermənistandan – ata-baba torpaqlarından tamamilə qovmağa da başladılar. İlk qaçqınlar ***Ermənistanın Qafan və Mehri rayonlarında*** yaşayan azərbaycanlılar oldu. **1988-ci ilin yanvar ayında** bu rayonların yerli əhalisini erməni rəsmi nümayəndələri ata-baba torpaqlarından zorla çıxardı. İlk qaçqın dəstələri Azərbaycana – Bakıya, Sumqayıta pənah gətirdi. İrəvanda millətçi qüvvələr kütləvi



LAYİHƏ

mitinqlər təşkil edərək “Ermənistan türklərdən təmizlənməlidir!”, “Ermənistanda ermənilər yaşamalıdır!” şüarlarını səsləndirdilər. 1988-ci ilin fevralında ermənilər İrəvan məscidini yerlə yeksan etdilər.

Erməni millətçiləri dünya ictimaiyyətini çaşdırmaq, vəhşi azərbaycanlı obrazı yaratmaq üçün ***1988-ci il fevralın 28-də Sumqayıtda fitnəkarlıq törətdilər.*** E.Qriqoryan adlı erməni özünü “azərbaycanlı Paşa” kimi qələmə verib yaratdığı dəstə ilə şəhərdə yaşayan erməniləri öldürməyə, mənzillərini dağıtmağa başladı. Öldürülən ermənilər Daşnaksütyun partiyasının fonduna pul keçirməyən, millətçiləri müdafiə etməyən dinc sakinlər idilər. Sumqayıt hadisəsindən sonra Ermənistan hakimiyyət nümayəndələrinin, hüquq mühafizə orqanlarının iştirakı ilə bütün respublikadan azərbaycanlı əhalinin qovulması kütləvi şəkil aldı. 1991-ci il avqustun 8-də azərbaycanlılar yaşayan sonuncu – ***Nüvədi kəndi*** də rus əsgərlərinin iştirakı ilə boşaldıldı. Bütövlükdə, **1988 – 1991-ci illərdə *Ermənistandakı 185 yaşayış məntəqəsindən 230 min azərbaycanlı zorakılıqla çıxarıldı, minlərlə dinc sakin erməni millətçi qüvvələri tərəfindən qətlə yetirildi, soyqırımına məruz qaldı.***



*1988-ci ilin əvvəlində azərbaycanlıların Ermənistandan deportasiyası*

*Ermənistan SSR-də azərbaycanlılara məxsus məhv edilmiş tarixi abidələr haqqında məlumat toplayın.*

## *SUAL VƏ TAPŞIRIQLAR:*

1. *XX əsrin 80-ci illərində Azərbaycandakı daxili siyasi vəziyyəti təhlil edin.*
2. *Azərbaycanda milli münaqişə ocağı yaratmaq kimlərin mənafeyinə xidmət edirdi?*
3. *Mərkəzi hökumətin DQMV ilə bağlı ikili siyasətini izah edin.*
4. *Mətnə əsasən xronoloji cədvəl qurun.*
5. *Mərkəzi hökumətin və ermənilərin məkrli siyasətinin nəticələrini təhlil edin.*

LAYİHƏ

# 44. Ərazi bütövlüyü və milli hüquqların qorunması uğrunda mübarizə

Azərbaycan rəhbərliyinin Ermənistanda və DQMV-də azərbaycanlılara qarşı artan zorakılıq aktlarına biganə qalması respublikada xalq hərəkatının başlanmasına səbəb oldu. Xalq hansı tələbləri irəli sürürdü? Etirazlar hansı formada bildirilirdi? Mərkəzi hökumət xalq hərəkatına qarşı hansı tədbirləri həyata keçirdi?

Meydan hərəkatı, Topxana meşəsi, Azərbaycan Xalq Cəbhəsi, sərhədlərin sökülməsi, 20 Yanvar hadisəsi

**Meydan hərəkatı.** Dağlıq Qarabağda erməni millətçilərinin separatçı çıxışlarına qarşı **1988-ci il fevralın 19-da *Bakıda tələbələrin ilk etiraz mitinqi oldu***. Sonrakı aylarda etiraz çıxışlarının miqyası genişləndi, xalq hərəkatı daha kütləvi xarakter aldı.




**1988-ci ilin noyabrında** Dağlıq Qarabağda Topxana meşəsinin qırılmasına etiraz edən xalq Azadlıq meydanına toplandı. Noyabrın 17-dən etiraz çıxışı fasiləsiz mitinq və nümayişə çevrildi. ***Meydan hərəkatında*** Ermənistanın Azərbaycana qarşı təcavüzünün dayandırılması, Dağlıq Qarabağda Anti-Azərbaycan siyasəti yeridən qurumun ləğv olunması, Ermənistana qarşı iqtisadi sanksiyalar[1] tətbiq edilməsi tələbləri irəli sürüldü. Hətta ilk dəfə "suverenlik[2]", "azadlıq" şüarları səsləndirildi. Mitinqdə ilk dəfə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı qaldırıldı.

Sovet rəhbərliyi xalq hərəkatını boğmaq üçün Bakı, Gəncə və Naxçıvanda xüsusi vəziyyət və ***komendant saatı***[3] tətbiq etdi. Bakının mərkəzi meydanına (indiki *Azadlıq* meydanı) ordu hissələri yeridildi. Meydan zor gücünə boşaldıldı.

**1989-cu ilin yanvarında *SSRİ hökuməti DQMV-də "xüsusi idarəçilik" yaratdı.*** Xüsusi İdarə Komitəsi ermənipərəst xətt yeridərək DQMV-ni, faktiki olaraq, Azərbaycanın tabeliyindən çıxardı. Azərbaycan xalqı və demokratik qüvvələr buna qəti etiraz etdilər.

Azərbaycanın xalq hərəkatına istiqamət vermək və ona rəhbərlik etmək üçün hərəkatın fəal üzvləri **1989-cu ilin iyun ayında** Bakıda ***Azərbaycan Xalq Cəbhəsini (AXC)*** yaratdılar. Təsis konfransında təşkilatın proqram və nizamnaməsi qəbul edildi.

---

[1] **sanksiya** – dövlətlər və ya beynəlxalq təşkilatlar tərəfindən bir dövlətə qarşı məcburedici tədbirlər

[2] **suverenlik** – müstəqillik, öz dövlətinin ərazisində səlahiyyətli olmaq, hakimiyyət hüququ

[3] **komendant saatı** – xüsusi və ya hərbi vəziyyət zamanı qoyulmuş vaxt məhdudiyyəti



LAYİHƏ



*Şuşa. Topxana meşəsi*

**Əbülfəz Elçibəy** AXC-nin sədri seçildi.

Xalqın təzyiqi və AXC-nin tələbi ilə **1989-cu il sentyabrın 23-də *Azərbaycan Ali Soveti "Azərbaycan SSR-in suverenliyi haqqında" Konstitusiya qanunu qəbul etdi.*** Bu sənədə görə, respublikada Azərbaycan SSR qanunları İttifaq qanunlarından üstün sayılırdı. Konstitusiya qanununa Azərbaycan SSR-in Sovet İttifaqının tərkibindən çıxa bilməsi haqqında bəndin daxil edilməsi demokratik hərəkatın böyük qələbəsi idi.

*Qədim tarixə malik Topxana Meşəsi Dövlət Qoruğu Qarabağın nadir təbii sərvətlərindən biri idi. Şuşa ətrafını əhatə edən bu meşədə palıd, fıstıq, qarağac və s. nadir ağac növləri vardı. Topxana əsl təbiət möcüzəsi idi. Ermənilər meşənin qiymətli ağaclarını tikinti məqsədilə qırıb Ermənistana daşımışlar.*

M *Topxana meşəsinin qırılmasına qarşı etiraz çıxışları niyə kütləvi xalq hərəkatına çevrildi?*

Demokratik qüvvələrin təzyiqi qarşısında sovet rəhbərliyi geriyə addım atdı: xalqın tələbi ilə 1989-cu ilin noyabrında Xüsusi İdarə Komitəsi ləğv olundu və Dağlıq Qarabağ rəsmən Azərbaycanın tabeliyinə qaytarıldı. Bundan qəzəblənən Ermənistan rəhbərliyi dekabrın 1-də DQMV-ni Ermənistana birləşdirmək haqqında qərar qəbul etdi.

**1989-cu il dekabrın 31-də** isə ***Naxçıvanda Sovet – İran sərhədi söküldü***, yerli əhali cənublu soydaşlarımızla görüşdü. Bu dövrdə baş vermiş mühüm hadisələrdən biri də 30-cu illərdən Kirovabad adlandırılan qədim Gəncə şəhərinin tarixi adının bərpa edilməsi oldu.

? *Araşdırın: 1989-cu il dekabrın 31-də Sovet – İran sərhədinin sökülməsi hadisəsi hansı adla hər il bayram kimi qeyd edilir?*

**20 Yanvar hadisəsi.** Ermənistanda soydaşlarımızın hüquqlarının tapdalanması, Dağlıq Qarabağda Azərbaycanın suverenliyinin pozulması hallarının davam etməsi xalqın hakimiyyətdən narazılığını gücləndirirdi.

Ermənistandan göndərilmiş silahlı dəstələr 1990-cı ilin yanvarında Xanlar (indiki Göygöl) rayonunun Quşçu kəndinə basqın etdi. Dağlıq Qarabağda və Ermənistanla sərhəddə yerləşən azərbaycanlıların yaşayış məntəqələrinə hücum təhlükəsi çoxaldı. AXC erməni hücumlarının qarşısını almaq üçün 1990-cı ilin yanvarında Milli Müdafiə Şurası yaratdı və özünümüdafiə dəstələri təşkil etməyə başladı.

AXC-nin böyük nüfuza malik olan siyasi qüvvəyə çevrilməsi Azərbaycan rəhbərliyini, xüsusilə də Moskvanı bərk qorxuya saldı. Həmin vaxt Bakıda qəsdən erməni mənzillərinə hücumlar təşkil edildi. Bu hadisələr Mərkəzi hakimiyyətə bəhanə verdi ki, DQMV ilə yanaşı, başqa rayonlarda, xüsusən Bakıda fövqəladə vəziyyət elan etsin. Sovet ordusunun yardımı ilə erməni hərbi dəstələri yanvarın 19-da Naxçıvana hücum

LAYİHƏ

etdi. Naxçıvan əhalisi doğma torpağı mərdliklə qoruyub düşməni geri çəkilməyə məcbur etdi. Naxçıvan Ali Soveti isə SSRİ tərkibindən çıxdığını bildirdi.

*Ermənilərin Naxçıvan ərazisinə olan hücumları haqqında əlavə məlumat toplayın.*

Sovet rəhbərliyi Azərbaycanda güclənən ümumxalq etirazını boğmaq, ictimai-siyasi prosesləri nəzarətdə saxlamaq üçün hərbi qüvvədən istifadə olunması haqqında qərar qəbul etdi. ***SSRİ Ali Soveti Rəyasət Heyəti* 1990-cı il yanvarın 20-dən *"Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verdi.*** Lakin yanvarın 19-da axşam Bakıda Azərbaycan Televiziyasının enerji bloku qəsdən partladıldığı üçün əhali bu fərmandan xəbər tutmadı.

Yanvarın 20-nə keçən gecə sovet ordusu Bakı üzərinə müxtəlif istiqamətlərdən hücuma başladı. Hərbi qüvvələrin Bakıya yeridilməsinə etiraz əlaməti olaraq şəhərin giriş yollarında barrikadalar qurmuş sakinlərin üzərinə tanklar yeridildi, əhali atəşə tutuldu. Yüzlərlə dinc sakin öldürüldü və yaralandı.



*Şəhidlər xiyabanı*

*Vətən yolunda şəhidlik əsl qeyrət, hünər, şəraf və ləyaqət zirvəsidir. Ulu öndər Heydər Əliyev 1990-cı ilin 20 Yanvar gecəsi məhz belə bir zirvəni fəth edən Vətən oğullarının fədakarlığını yüksək qiymətləndirərək demişdir: "20 Yanvar şəhidlərinin qəhrəmanlığı Azərbaycan xalqı üçün, Azərbaycan gəncləri üçün örnəkdir. Azərbaycanın bugünkü nəsli də, gələcək nəsilləri də bu şəhidlərin qəhrəmanlığından nümunə götürəcəklər. ...Ona görə də bu şəhidlərin həlak olması bizim üçün nə qədər qəm-qüssə doğurursa, nə qədər ağır itkidirsə, o qədər də xalqımız üçün qəhrəmanlıq nümunəsi kimi, örnək kimi bizim milli sərvətimizdir, milli iftixarımızdır".*

M

*20 Yanvar şəhidlərinin xatirəsini əbədiləşdirmək üçün dövlətimizin gördüyü tədbirlər haqqında məlumat toplayın.*

Azərbaycan xalqı 20 Yanvar hadisələrində dinc əhaliyə qanlı divan tutan Sovet İttifaqının tərkibində qalmağın heç bir mənasının olmadığını, yalnız müstəqil dövlətçiliyi bərpa etməklə öz hüquqlarını qorumağın mümkün olduğunu aydın dərk etdi. Sovet rejiminə qarşı etimadsızlıq dərinləşdi.

20 Yanvar hadisələri ərəfəsində Ə.Vəzirov Azərbaycana rəhbərlikdən çəkildi və Bakını tərk etdi. ***Mərkəzin göstərişi ilə Ayaz Mütəllibov Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə gətirildi.* 1990-cı il mayın 19-da *Azərbaycan Respublikasının Prezidenti vəzifəsi təsis edildi*** və A.Mütəllibov Azərbaycan Ali Sovetinin sessiyasında bu vəzifəyə seçildi.

1990-cı il iyulun 20-də Heydər Əliyev Bakıya gəldi. Azərbaycan rəhbərliyi xalqın ona böyük ümidlər bəsləməsini, xilaskar kimi qəbul etməsini qısqanclıqla qarşıladı və Bakıda yaşamasına imkan vermədi. Naxçıvan əhalisinin dəvəti ilə Heydər Əliyev Naxçıvana getdi və dəyərli məsləhətləri ilə Muxtar Respublikanın çox ağır günlərində əhalinin üzləşdiyi mürəkkəb problemlərdən çıxış yolları tapmasına yardım göstərdi.

LAYİHƏ

**SUAL VƏ TAPŞIRIQLAR:**

1. *Xalqı Azadlıq meydanında etirazlara toplayan səbəbləri müəyyən edin.*
2. *"Azərbaycan SSR-in suverenliyi haqqında" Konstitusiya qanununun əhəmiyyətini müzakirə edin.*
3. *20 Yanvar hadisəsindən öncə görülən tədbirlərin qərəzli olduğunu sübut edin.*
4. *20 Yanvar şəhidləri haqqında məlumat toplayın.*

# 45. Cənubi Azərbaycan müharibədən sonrakı dövrdə

Cənubi Azərbaycanda İkinci Dünya müharibəsindən sonra ağır sosial-iqtisadi problemlər qalmaqda idi. Əhalinin əksər hissəsinin yaşayış səviyyəsi yoxsulluq həddinə çatmışdı. Hər zaman milli-demokratik hərəkatın mərkəzi olan Cənubi Azərbaycanda yeni etiraz dalğasının başlanmasının səbəbi nə idi? Hansı islahatlar keçirildi? İranda baş verən inqilabi dəyişikliklər Cənubi Azərbaycana necə təsir etdi?

"Ağ inqilab", şah rejimi, İran İslam İnqilabı, R.Xomeyni, Cavad Heyət, "Varlıq" jurnalı

Cənubi Azərbaycanda S.C.Pişəvərinin başçılıq etdiyi milli-demokratik hərəkat yatırılsa da, az sonra onun təsiri ilə İranda yeni mübarizə başlandı. **1949 – 1953-cü illərdə** İranın siyasi həyatının demokratikləşdirilməsi, *neft sənayesi üzərində ingilis inhisarına son qoyulması və bu sahənin milliləşdirilməsi tələbləri ilə kütləvi çıxışlar baş verdi.* Nəticədə, neft sənayesi üzərində ingilis inhisarına son qoyuldu və onun milliləşdirilməsi üçün addımlar atıldı.

**1960-cı illərdə islahatlar və Cənubi Azərbaycan.** 1960-cı illərdə İranda, eləcə də Cənubi Azərbaycanda sosial gərginliyi zəiflətmək məqsədilə tarixə ***"ağ inqilab"***[1] adı ilə daxil olan islahatlar keçirildi. Bu islahatlardan ən əhəmiyyətlisi aqrar islahat idi. Aqrar islahat kəndlilərin dövlətdən və mülkədarlardan torpaq sahələrini satın almalarına imkan yaratdı. Nəticədə, bankların verdiyi vəsait hesabına Cənubi Azərbaycanda kəndlilərin 80 faizi torpaq sahibinə çevrildi.

*Bu dövrdə Şimali Azərbaycanda kəndlilər dövlətdən torpaq satın ala bilirdimi?*

1960 – 70-ci illərdə Cənubi Azərbaycanda sənaye ləng inkişaf edirdi. Çünki şah hakimiyyəti iri sənaye müəssisələrinin yaradılmasında maraqlı deyildi və bunun üçün xüsusi kapital qoyuluşu çox az idi. Ona görə də bəhs olunan dövrdə Cənubi Azərbaycanda xırda müəssisələr daha çox idi. İranda *"milli vəhdət"* adı altında başqa xalqları farslaşdırmaq siyasəti həyata keçirilirdi. Bu siyasət nəticəsində Cənubi Azərbaycanda türk dili qadağan edilmiş, bu dildə bütün qəzet, jurnal və kitab nəşri dayandırılmış, əvvəlki illərdə çap olunanlar yığılıb yandırılmışdı.

[1] **ağ inqilab** – Dinc yolla həyata keçirildiyi üçün belə adlanırdı.



LAYİHƏ

*Bu dövrdə Şimali Azərbaycanda Azərbaycan dilinin statusu, milli mədəniyyətin vəziyyəti haqqında nə bilirsiniz?*

**İran İslam inqilabı və Cənubi Azərbaycan.** 1970-ci illərin ortalarından etibarən İranın müxtəlif yerlərində baş verən xalq çıxışları ölkədə ictimai-siyasi ziddiyyətlərin dərinləşdiyini göstərdi. Şah hökumətinin gördüyü sərt cəza tədbirləri sosial partlayışın qarşısını ala bilmədi. 1977-ci il dekabrın 12-də Təbriz şəhərində Cənubi Azərbaycanda Milli hökumətin yaranmasının ildönümü münasibətilə tədbir keçirildi.

Bir qədər sonra Qum şəhərində monarxiyanın ləğv edilməsi tələbi ilə izdihamlı nümayiş oldu. Şah rejimi bu çıxışlarda iştirak edənlərə qəddarlıqla divan tutdu. **1978-ci ilin fevralında Təbrizdə** nüfuzlu ruhanilərin çağırışı ilə 10 minlərlə insan küçələrə çıxdı. Dinc etiraz nümayişi mövcud quruluşa qarşı üsyana çevrildi.

Üsyanda əhalinin müxtəlif təbəqələri – ziyalılar, tələbələr, ruhanilər, sənətkarlar, xırda tacir və sahibkarlar, fəhlələr, məktəb şagirdləri iştirak edirdilər. Şah İranın başqa şəhərlərindən gətirdiyi hərbi hissələrin köməyi ilə Təbriz üsyanını silah gücünə yatırdı. Təbriz üsyanı 1978 – 1979-cu illər inqilabının ilk müjdəçisi oldu.

İnqilabın növbəti mərhələsində ruhanilərin rolu artdı. Dini lider ayətüllah R.Xomeyninin geniş xalq kütləsi içərisində təsiri gücləndi.

Bundan sonra on iki şəhərdə, o cümlədən Təbrizdə yeni etiraz çıxışları başlandı. Xalq hərəkatına neft sənayesi fəhlələri də qoşuldular. Tətilçilər gizli polis qurumunun ləğv edilməsi, İran cəmiyyətinin demokratikləşdirilməsi və s. tələblər irəli sürdülər.



*Təbrizdə xalq hərəkatı*

Neftçilərin mütəşəkkil ümumi tətili inqilabın taleyini həll etdi. İnqilabi qüvvələrin artan təzyiqi nəticəsində Məhəmməd Rza şah **1979-cu ilin yanvarında** ölkəni tərk etdi. R.Xomeyni Parisdən Tehrana gəldi.

*Cənubi Azərbaycanın İran inqilabında rolunu müəyyən edin.*

**1979-cu ilin fevralında *Tehranda inqilab qalib gəldi.*** Şah hakimiyyəti devrildi. Ümumxalq rəy sorğusu əsasında 1979-cu il aprelin 1-də ***İran İslam Respublikası*** elan edildi. Cənubi Azərbaycanda ana dilində çoxlu sayda qəzet və jurnalların nəşrinə başlandı. Görkəmli alim və ictimai xadim **Cavad Heyətin** nəşr etdirdiyi ***"Varlıq"*** jurnalı daha uzunömürlü oldu. Jurnalda xalqımızın tarixi, mədəniyyəti ilə bağlı dərc edilən məqalələr maraqla qarşılanırdı.



*Cavad Heyət*

LAYİHƏ

İnqilabdan sonrakı dövrdə İran regionun güclü dövlətlərindən birinə çevrildi. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra İran İslam Respublikası ilə normal münasibətlər yaradıldı. Ölkəmizə Ermənistanın hərbi müdaxiləsi nəticəsində 1 milyona qədər insanın qaçqın və məcburi köçkünə çevrildiyi şəraitdə İran İslam Respublikası Azərbaycana böyük həcmdə humanitar yardım göstərdi. Qaçqınlar üçün çadır şəhərcikləri yaradılması, müntəzəm olaraq ərzaq yardımları göndərilməsi təşkil edildi. Lakin eyni zamanda bu dövlət işğalçı Ermənistanla da siyasi-iqtisadi əlaqələr saxlayırdı.

İran 2000-ci illərdə nüvə proqramlarına görə, ABŞ və Avropa Birliyinin sərt sanksiyaları ilə üzləşib beynəlxalq miqyasda təcrid olunduqda Azərbaycan Respublikası sanksiyalara qoşulmamış, bütün səviyyələrdə əməkdaşlığı davam etdirmişdir. Hazırda Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında mehriban qonşuluq münasibətləri uğurla inkişaf etdirilir.

***SUAL VƏ TAPŞIRIQLAR:***

1. *“Ağ inqilab” adlanan islahatlar haqqında əlavə məlumat toplayın.*
2. *Cənubi Azərbaycanda sənayenin zəif inkişaf etməsi səbəblərini müəyyən edin.*
3. *İran inqilabında Cənubi Azərbaycan əhalisinin fəal iştirakı özünü nədə göstərirdi?*
4. *İranda həyata keçirilən inqilabi dəyişikliklərin Cənubi Azərbaycana təsirini təhlil edin.*
5. *Müasir dövrdə Cənubi Azərbaycanda ana dilinin, milli dəyərlərimizin vəziyyəti haqqında məlumat toplayın.*

## 46. 1970 – 80-ci illərdə mədəniyyətin inkişafı

1970 – 80-ci illərdə Azərbaycan SSR Sovet İttifaqı respublikaları arasında iqtisadi inkişaf sürətinə görə ön sıralara keçdi. İqtisadi nəticələr xalqın yaşayış səviyyəsinin artmasına gətirib çıxardı. Bəs mədəniyyətimiz hansı səviyyədə idi? Milli-mənəvi dəyərlərə münasibət necə idi?

Naxçıvan və Xankəndi Pedaqoji İnstitutları, “Sovet türkologiyası” jurnalı, Fikrət Əmirov, “Min bir gecə” baleti, Tahir Salahov, Heydər Əliyev sarayı

**Təhsil sahəsində uğurlar.** Bu dövrdə Azərbaycanda ali və orta ixtisas məktəbləri şəbəkəsi genişləndi. Bakıda İnşaat Mühəndisləri İnstitutu, Gəncədə Texnologiya İnstitutu, Naxçıvanda və Xankəndidə Pedaqoji İnstitutlar açıldı. Bundan əlavə, 1970 – 80-ci illərdə Moskva, Leninqrad, Kiyev və SSRİ-nin digər şəhərlərinin nüfuzlu ali məktəblərində respublikamız üçün vacib olan sahələr üzrə yüksəkixtisaslı kadr hazırlığı sistemli xarakter aldı. Nəticədə, bu illərdə Sovet İttifaqının qabaqcıl ali məktəblərində ***17 min azərbaycanlı gənc*** respublikamızda böyük ehtiyac duyulan vacib ixtisaslara yiyələndi. Amma həmin dövrdə təhsilin bütün pillələri üzrə marksizm-leninizm ideyalarının təbliğinə geniş yer ayrılır, Azərbaycan tarixinin, mədəniyyətinin və coğrafiyasının öyrədilməsinə kifayət qədər diqqət yetirilmirdi.



LAYİHƏ

**1971-ci ildə** Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda milli hərbi kadrlar hazırlamaq üçün ***Bakıda Cəmşid Naxçıvanski adına İxtisaslaşdırılmış orta hərbi məktəb açıldı***. Bu məktəbi bitirən azərbaycanlı gənclərin SSRİ-nin ali hərbi məktəblərinə daxil olmasına şərait yaradıldı. Həmin məzunlar ölkəmizdə müstəqillik qazanıldıqdan sonra Milli Ordu quruculuğunda böyük rol oynadılar.

**Elmin inkişafı.** Azərbaycan alimləri 1970 – 80-ci illərdə fundamental və tətbiqi elm sahələrində böyük uğurlar qazandılar. Bakıda ***Kosmik Tədqiqatlar Elm İstehsalat Birliyinin*** fəaliyyətə başlaması yeni faydalı qazıntı və tikinti materialları yataqlarının kəşfinə imkan yaratdı. Bu dövrdə Şamaxı rəsədxanası SSRİ-nin ən böyük astrofizika mərkəzlərindən birinə çevrildi. Astronom N.İbrahimovun bu sahədə uğurlarının şərəfinə Mars planeti kraterlərindən biri “İbrahimov krateri” adlandırıldı.

Bu dövrdə Bakı Sovet İttifaqı miqyasında *“Neft akademiyası”* kimi tanınırdı. Görkəmli Azərbaycan alimlərinin neft, neft-kimya, geologiya sahəsindəki tədqiqatları ittifaq miqyasında tətbiq olunurdu. Azərbaycanlı geoloq **Fərman Salmanovun** rəhbərliyi ilə Qərbi Sibirdə zəngin neft və qaz yataqları kəşf edilmişdi.

*Azərbaycan alimlərinin daha hansı kəşfləri, ixtiraları ümumittifaq miqyasında böyük əhəmiyyətə malik idi? Məlumat toplayın.*

Tarix, ədəbiyyat, dilçilik və digər ictimai elm sahələrində qiymətli tədqiqat əsərləri yazılmış, milli mədəniyyətimizin təbliği və dirçəlişi istiqamətində müəyyən uğurlar qazanılmışdı. Bu dövrdə ***“Azərbaycan Sovet Ensiklopediyası”*** çoxcildliyi çap olundu. Bakıda ***“Sovet türkologiyası”*** jurnalı nəşrə başladı və türkçülük üzrə tədqiqatların aparılması genişləndi.

**Ədəbiyyat və incəsənət.** Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri olan şair və yazıçıların – Rəsul Rza, İlyas Əfəndiyev, İsmayıl Şıxlı, Əzizə Cəfərzadə, Bəxtiyar Vahabzadə, Anar, Elçin, Yusif Səmədoğlu, Məmməd Araz və digərlərinin əsərləri xalq tərəfindən rəğbətlə qarşılanırdı. Bu əsərlərdə sovet həyat tərzinin eybəcərlikləri, insanların hüquqlarının pozulması və cəmiyyətdə baş verən qanunsuzluq halları tənqid edilirdi.



*Göyçə mahalının Ağkilsə kəndində Aşıq Ələsgərin qəbirüstü abidəsi. 1972-ci il*

Cənubi Azərbaycanın böyük şairi **Şəhriyarın** şeirləri, xüsusən də ***“Heydərbabaya salam”*** poeması respublikamızda böyük əks-səda doğurmuş və dillər əzbəri olmuşdu.

1972-ci ildə Aşıq Ələsgərin 150 illik yubileyinin keçirilməsi haqqında Heydər Əliyevin imzaladığı sərəncam müasir Ermənistandakı tarixi-mədəni irsin məhz Azərbaycan xalqına mənsubluğunun rəsmən bəyan edilməsi və bu irsə sahib çıxmağımızın göstəricisi idi.

Türkçülüyü təbliğ etməkdə günahlandırılaraq Sibirə sürgün edilib orada vəfat edən görkəmli şair və dramaturq **Hüseyn Cavidin** nəşi 1982-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə İrkutsk vilayətindən gətirilərək doğma yurdu Naxçıvanda dəfn edildi.

LAYİHƏ

**1977-ci ildə** Şuşa tarixi-memarlıq qoruğuna çevrildi. Burada azərbaycanlı şairlərin, musiqiçilərin və digər yaradıcı şəxsiyyətlərin heykəl və büstləri ucaldıldı, ev-muzeyləri təşkil olundu. Şuşada böyük Azərbaycan şairi M.P.Vaqifin qəbri üzərində məqbərə inşa edildi. Milli-mədəni irsimizə qayğı və mədəniyyət xadimlərimizin xatirələrinin ehtiramla yad edilməsi milli oyanışa və gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsinə böyük təsir göstərdi.



***Heydər Əliyev Şuşada M.P.Vaqifin məqbərəsinin açılışında. 1982-ci il***

*Heydər Əliyevin Azərbaycanın milli-mədəni irsinə qarşı baş vermiş haqsızlıqları aradan qaldırmaq tədbirlərini müzakirə edin.*

*Heydər Əliyev Aşıq Ələsgərin yubiley tədbirlərinin ardınca 1981-ci ildə Aşıq Alının 180 illik yubileyinin qeyd olunması ilə bağlı sərəncam imzaladı. Heydər Əliyevin bu sərəncamları Ermənistan rəhbərliyini Göyçədə yubiley tədbirləri keçirməyə, böyük sənətkarlarımıza abidələr ucaltmağa məcbur etdi. Həmin illərdə Ermənistan SSR-in rəsmi qəzetlərində, xüsusən "Sovet Ermənistanı"nda Azərbaycan xalqına məxsus yüzlərlə folklor nümunəsi, aşıqlarımız və el şairlərimiz haqqında silsilə yazılar dərc olundu.*

M

*Sizcə, Ermənistanda (Qərbi Azərbaycanda) azərbaycanlıların milli mədəniyyətinin təbliği hansı məqsədləri daşıyırdı?*



*Şəfiqə Axundova*

Bu dövrdə Fikrət Əmirovun ***"Min bir gecə"*** və ***"Nizami" baletləri,*** Şərqdə opera yazan ilk qadın bəstəkar Şəfiqə Axundovanın ***"Gəlin qayası" operası*** Azərbaycan musiqi sənətinin çox mühüm nailiyyətləri idi. Tofiq Quliyev, Süleyman Ələsgərov, Emin Sabitoğlu, Cavanşir Quliyev, Ələkbər Tağıyev və başqa bəstəkarlarımız xalqımız tərəfindən sevilən mahnılar yaratdılar.

Azərbaycanın kino sənətində böyük uğurlar qazanıldı. 1970 – 80-ci illərdə çəkilmiş *"Nəsimi"*, *"Babək"*, *"Axırıncı aşırım"*, *"Dədə Qorqud"* və digər filmlər Azərbaycan kinosunun qızıl fonduna daxil oldu.



LAYİHƏ

*Sizcə, 1970 – 80-ci illərdə tarixi filmlər çəkilişinin artması nəyi sübut edir?*



*Akademik Zərifə Əliyevanın abidəsi. Heykəltəraş Ömər Eldarov*

İstedadlı rəssamlar Tahir Salahov, Mikayıl Abdullayev və Toğrul Nərimanbəyov bu dövrdə Azərbaycan boyakarlığının gözəl nümunələrini yaratmaqda davam edirdilər. Onların yaratdıqları tablolar dünyanın müxtəlif ölkələrinin sərgi salonlarında uğurla nümayiş etdirilirdi.

Heykəltəraşlarımızdan ***Cəlal Qaryağdı, Mirələsgər Mirqasımov, Tokay Məmmədov, İbrahim Zeynalov, Fuad Əbdürrəhmanov və Ömər Eldarovun*** Bakıda, Buxarada, Düşənbədə ucaltdıqları abidələr möhtəşəmliyi ilə seçilmiş və yüksək mükafatlara layiq görülmüşdü.

*Sizcə, 1970 – 80-ci illərdə mədəniyyətin inkişafını intibah adlandırmaq olarmı?*

70-ci illərdə Bakıda *Dəniz vağzalı*, indiki *Heydər Əliyev sarayı*, 80-ci illərdə *Gülüstan sarayı* inşa edildi.



*Dəniz vağzalı*




*Heydər Əliyev sarayı*



*Gülüstan sarayı*

Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində mədəniyyətin inkişafında qazanılan böyük uğurlar güclü milli oyanışa səbəb oldu.

## SUAL VƏ TAPŞIRIQLAR:

1. *Bu dövrdə təhsildə baş verən uğurları və mənfi cəhətləri müəyyən edin.*
2. *Bakının "Neft akademiyası" kimi tanınmasının səbəblərini izah edin.*
3. *Dağlıq Qarabağda mədəniyyət sahəsində görülən tədbirləri təhlil edin.*
4. *Nəyə görə Ermənistanda Azərbaycan mədəniyyətinin təbliğinə mane ola bilmirdilər? Fikrinizi əsaslandırın.*
5. *Bu dövrdə görülən işlərin milli dəyərlərin təbliğinə, milli oyanışa xidmət etdiyini əsaslandırın.*

LAYİHƏ

# *VII fəsil.* Azərbaycan Respublikası müstəqillik dövründə (1991 – 2000-ci illər)

## 47. Dövlət müstəqilliyinin bərpası

Azərbaycanın ağır vəziyyəti, daxili və xarici təhlükənin artması təxirəsalınmaz qərarlar qəbul edilməsini, tədbirlər görülməsini vacib etmişdi. 20 Yanvar hadisəsi xalqın sovet rəhbərliyinə inamını sarsıtmışdı. Bəs ölkə daxilində respublikanın gələcəyi üçün hansı yol seçildi? Bu zaman xalq nə etdi? Dağlıq Qarabağda hansı hadisələr baş verdi? Hərbi uğurlarımız oldumu?

Naxçıvan Ali Sovetinin qərarları, “Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı”, MDB, “Daşaltı əməliyyatı”, Xocalı soyqırımı, Goranboy və Əsgəran əməliyyatları

**Dövlət müstəqilliyinin bərpa edilməsi.** 1990-cı ilin sentyabr ayında Azərbaycan Ali Sovetinə seçkilər keçirildi. Heydər Əliyev Azərbaycan və Naxçıvan Ali Sovetinə deputat seçildi. Onun təşəbbüsü ilə Naxçıvan Ali Soveti 1990-cı il noyabrın 17-də keçirilən iclasında Naxçıvan MSSR-in adından “Sovet Sosialist” ifadəsini götürdü. Ali Sovet isə Naxçıvan Ali Məclisi adlandı. İlk dəfə 20 Yanvar hadisələrinə siyasi qiymət verildi. AXC-nin üçrəngli bayrağı Naxçıvan MR-in rəsmi bayrağı kimi qəbul edildi.

*1990-cı ildə Naxçıvan MR-də həyata keçirilən tədbirlərin demokratik xarakter daşıdığını sübut edin.*

**1991-ci il fevralın 5-də** Azərbaycan SSR Ali Soveti sessiyasının qərarı ilə Azərbaycan SSR – Azərbaycan Respublikası adlandı və AXC-nin üçrəngli bayrağı dövlət bayrağı kimi təsdiq edildi. Amma bununla bərabər, Azərbaycan rəhbərliyi SSRİ-nin saxlanması haqqında referendumda iştirak etmək qərarına gəldi. Yalnız Naxçıvan referendumda iştirakdan imtina etdi.

Azərbaycan Ali Soveti xalqın tələbi ilə **avqustun 30-da “Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannamə”** qəbul etdi. Azərbaycan Kommunist Partiyası ləğv edildi.

**1991-ci il sentyabrın 3-də *Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin sədri seçildi.*** Onun həyata keçirdiyi məqsədyönlü tədbirlər sayəsində sovet ordusu hissələri Naxçıvandan çıxarıldı. Onun Türkiyə və İrana işgüzar səfərləri, apardığı danışıqlar regionda blokada[1] şəraitinin yaratdığı böhranın aradan qaldırılması, iqtisadi problemlərin və enerji məsələlərinin həllində əhəmiyyətli rol oynadı. Naxçıvan aeroportu yenidən quruldu. Culfa və Şahtaxtı keçid məntəqələri inşa olundu. 1992-ci ildə Muxtar Respublikanı Türkiyə ilə birləşdirən və xalq arasında “Ümid körpüsü” adlandırılan Sədərək körpüsü tikildi.

1991-ci ilin payızında Dağlıq Qarabağda vəziyyət daha da gərginləşdi. Sentyabrın əvvəllərində qondarma “Dağlıq Qarabağ Respublikası” yaradıldığı elan edildi.

[1] **blokada** – siyasi və iqtisadi cəhətdən təcrid etmək



LAYİHƏ

Xalqın tələbi ilə Azərbaycan Ali Soveti **1991-ci il oktyabrın 18-də *“Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı”*** qəbul etdi. Azərbaycanın müstəqil dövlətçiliyi bərpa olundu.

Rayonlarda və şəhərlərdə icra hakimiyyəti başçısı vəzifəsi, dövlət katibi, dövlət müşavirləri vəzifələri təsis olundu və prezident idarəsi yaradıldı. Lakin görülən tədbirlər hökumətin mövqeyini möhkəmləndirə bilmədi.

**1991-ci il dekabrın 8-də** SSRİ-nin varlığına son qoyuldu. ***Müstəqil Dövlətlər Birliyi (MDB)*** yaradıldı. Azərbaycanda keçirilən referendumda xalq yekdilliklə dövlət müstəqilliyinə tərəfdar çıxdı.

**Dağlıq Qarabağda erməni vəhşilikləri.** 1991-ci ilin noyabr ayında Dağlıq Qarabağda Xocavənd rayonunun azərbaycanlılar yaşayan kəndləri erməni silahlı dəstələrinin hücumlarına məruz qaldı. Vəziyyəti yerində öyrənmək üçün respublikanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri əraziyə yola düşdülər. Onları aparan vertolyot noyabrın 20-də Qarakənd adlı yaşayış məntəqəsi yaxınlığında vuruldu. Bu terror aktı nəticəsində Azərbaycan Respublikasının yüksək vəzifəli nümayəndələri həlak oldular. Bu hadisə respublikamızda ictimai-siyasi vəziyyəti daha da gərginləşdirdi.

*Sizcə, Qarakənddə terror hadisəsinin səbəbi nə idi? Ehtimallarınızı əsaslandırın.*

Dünyanın böyük dövlətlərinin Ermənistanı dəstəkləməsi ermənilərə Dağlıq Qarabağ problemini vaxtında həll etməyə imkan verməsə də, onları yenidən təcavüzlərə şirnikləndirdi. Dağlıq Qarabağ erməniləri Rusiyanın köməyi ilə Azərbaycana qarşı silahlanıb açıq müharibəyə başladılar. Belə vəziyyətdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılması zəruri idi. Ali Sovet ***“Azərbaycanın milli özünümüdafiə qüvvələri haqqında” qanun*** qəbul etdi. Bu qanuna əsasən, sərhədyanı bölgələrdə könüllü özünümüdafiə batalyonları yaradıldı.

1992-ci ilin yanvar ayında Azərbaycan Ordusu ilk əməliyyatını həyata keçirdi. Məqsəd Şuşa şəhəri yaxınlığındakı Daşaltı kəndini erməni silahlı dəstələrindən təmizləmək idi. Ancaq “Daşaltı əməliyyatı” uğursuzluqla nəticələndi. Bundan sonra Malıbəyli, Quşçular, Qaradağlı kəndləri ermənilər və onlara havadarlıq edən rus hərbçiləri tərəfindən ələ keçirildi.

*“Daşaltı əməliyyatı”nda yenicə yaranmış Azərbaycan Ordusunun 3 bölüyü və Şuşa şəhərinin özünümüdafiə dəstəsinin döyüşçüləri iştirak etmişdi. Qruplar arasında rabitə əlaqəsinin olmaması, döyüş taktikasında səhvlər və əməliyyat sirrinin yayılması nəticəsində Daşaltıya daxil olan Azərbaycan döyüşçüləri düşmənin pusqusuna düşərək qəhrəmancasına həlak oldular.*

M *“Daşaltı əməliyyatı”nın uğursuzluğunun səbəblərini müzakirə edin.*

**Xocalı soyqırımı.** Düşmənin növbəti hədəfi Xocalı idi. Çünki Xocalı Əsgəran–Xankəndi yolunun üstündə yerləşirdi. Dağlıq Qarabağdakı yeganə aeroport da burada



LAYİHƏ



*Əlif Hacıyev*

*Əlif Hacıyev Xocalı təyyarə limanında daxili işlər bölməsinin rəisi idi. O, eyni zamanda Xocalı aeroportunun hərbi komendantı təyin edilmişdi. Məhz onun bu vəzifəyə təyin olunmasından sonra Xocalı aeroportu vasitəsilə regiona silahlı dəstə gətirilməsinə son qoyulmuşdu.*

*Xocalının müdafiəsi üçün bütün qüvvələri səfərbər edən Əlif Hacıyev digər qeyrətli həmvətənləri ilə birgə özü də döyüşlərə atıldı. Aeroportdakı məxfi sənədlərin düşmən əlinə keçməməsi üçün dispetçer məntəqəsini partlatdı. Düşmənin zirehli hərbi texnikaları Xocalıya girəndə Əlif Hacıyev dinc əhalinin Ağdamın Şelli kəndi istiqamətinə çıxarılmasını təmin etdi. Sonra isə geriyə dönərək yenidən döyüşə atıldı və Vətən uğrunda şəhid oldu. Xocalının müdafiəsində göstərdiyi qəhrəmanlığa görə, Əlif Hacıyevə ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adı verildi.*

M *Xocalıda şəhid olmuş digər Milli Qəhrəman Tofiq Hüseynov haqqında məlumat toplayıb müzakirə aparın.*

idi. **1992-ci il fevralın 25-dən 26-na keçən gecə** sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı alayı və erməni silahlı dəstələri Xocalıya hücum etdilər. Şəhər əhalisinə qanlı divan tutuldu. Bu soyqırımı nəticəsində 613 nəfər Xocalı sakini, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca qətlə yetirildi, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirdi.



***Xocalıda erməni vandalizminin qurbanı olan dinc sakinlər. Foto: Frederik Lenqeyn***

**Hakimiyyət çevrilişləri və bu çevrilişlərin müharibə vəziyyətinə təsiri.** Xocalı soyqırımı Azərbaycan Respublikasındakı siyasi gərginliyi daha da artırdı. Xalqın tələbi ilə A.Mütəllibov prezident vəzifəsindən istefa verdi. Yeni rəhbərlik İran İslam Respublikasının vasitəçiliyi ilə Ermənistan prezidenti ilə sülh danışıqlarına başladı. Ermənilər belə bir vaxtda – mayın 8-də Şuşa şəhərini işğal etdilər. Danışıqlar yarımçıq dayandırıldı.

Bu hadisə yenidən hakimiyyət böhranı yaratdı. A.Mütəllibov hakimiyyətə qayıtdı və Konstitusiyaya zidd olaraq fövqəladə vəziyyət haqqında fərman verdi. Bu fərman əhalinin hiddətinə səbəb oldu. Bundan istifadə edən AXC-nin silahlı dəstələri Ali Sovetin binasını, Prezident sarayını və digər mühüm dövlət əhəmiyyətli məntəqələri ələ keçirdilər. Bakıdakı hərc-mərclikdən istifadə edən ermənilər isə rus hərbçilərinin dəstəyi ilə mayın 18-də Dağlıq Qarabağı Ermənistanla birləşdirən strateji əhəmiyyətli Laçın rayonunu işğal etdilər.

1992-ci ilin mayında SSRİ-nin hərbi əmlakının bölüşdürülməsini nəzərdə tutan Daşkənd müqaviləsi imzalandı. Müqaviləyə əsasən, Azərbaycan Respublikasının



LAYİHƏ

payına da xeyli silah və hərbi sursat düşdü. Azərbaycan Respublikasında aviasiya alayı və desant qoşunları yaradıldı. Azərbaycanın payına düşən Xəzər donanmasının hərbi gəmiləri hesabına hərbi donanma yaradıldı. 1992-ci il iyunun 7-də AXC-nin sədri **Əbülfəz Elçibəy** prezident seçildi.

Azərbaycan Respublikasının silahlı qüvvələrini idarə etmək məqsədilə vahid komandanlıq təşkil edildi.

**Azərbaycan ordusunun uğurlu hücumu.** **1992-ci il iyun ayının 12-də *Azərbaycan Ordusu hücuma keçdi.*** Goranboy-Ağdərə və Əsgəran əməliyyatları nəticəsində rus-erməni hərbi qüvvələri geri oturduldu. **İyulun 4-də *Ağdərə rayon mərkəzi erməni işğalından azad edildi.*** Strateji əhəmiyyətə malik Tərtər–Ağdərə–Kəlbəcər yoluna nəzarət ələ keçirildi. İyulun sonunda Dağlıq Qarabağ ərazisinin təxminən yarısı erməni işğalçılarından təmizlənmiş, Azərbaycan Ordusunun bölmələri Xankəndinin yaxınlığındakı Sırxavənd kəndində mövqe tutmuşdular. Qorxuya düşmüş erməni hərbi qüvvələri Ermənistanla sərhədə doğru qaçırdı.



*Vaqif Qurbanov*

*Vaqif Qurbanov MDB-nin Sitalçaydakı Aviasiya alayında xidmət edirdi. O, hərbi təyyarə pilotu idi. Vaqif və dostları 8 aprel 1992-ci ildə “Su–25” qırıcı-bombardmançı təyyarəsini qaçırdılar. Təyyarə Şəkiyə aparıldı. Mayın 8-də ermənilərin Şuşaya hücumu zamanı “Su–25” ilk döyüş uçuşuna qalxdı. İyunun 12-də isə Azərbaycan Silahlı Qüvvələri bütün cəbhə boyu hücuma keçdi. Vaqif Qurbanov erməni hərbi qüvvələrinin müdafiə xəttini bombaladı. Bundan sonra Azərbaycan Ordusunun Goranboy–Ağdərə istiqamətində uğurlu hücumu reallaşdı. Lakin 3 döyüş uçuşundan sonra Vaqifin təyyarəsi Əsgəran yaxınlığında vuruldu.*

M *Siz Vaqif Qurbanovun yerində olsaydınız, onun kimi davranardınızmı? Müzakirə edin.*

Lakin Qarabağdakı Azərbaycan Silahlı Qüvvələrinin komandanı Surət Hüseynovun özünə sadiq qüvvələri Gəncəyə çəkib aparması, digər tərəfdən isə Rusiyanın dövlət səviyyəsində ermənilərə yeni hərbi yardımlar verməsi cəbhədəki vəziyyəti dəyişdirdi.



*Azərbaycan əsgərləri Vətən uğrunda döyüşdə*

**1993-cü ilin aprelində *Kəlbəcər rayonu ermənilər tərəfindən işğal edildi.***

Lakin dünya dövlətləri münaqişəyə ədalətlə yanaşmırdılar. Azərbaycan Respublikasını Ermənistanı blokadaya almaqda günahlandıran ABŞ konqresi 1992-ci ilin oktyabrında “Azadlığı müdafiə aktı”na etdiyi ***907 saylı əlavə*** ilə Azərbaycan Respublikasına ABŞ-ın dövlət səviyyəsində yardım göstərməsini qadağan etdi.

LAYİHƏ

**SUAL VƏ TAPŞIRIQLAR:**

1. *Heydər Əliyevin Naxçıvan MR-də gördüyü işlərə aid təqdimat hazırlayın.*
2. *1991-ci ildə xalqın təkidi ilə qəbul olunmuş qərarları təhlil edin.*
3. *Azərbaycan Respublikasının himninin və gerbinin qəbul edilməsi haqqında məlumat toplayın.*
4. *Goranboy-Ağdərə və Əsgəran əməliyyatlarında qələbəmizin səbəbi nə idi?*
5. *Mövzuya aid xronoloji cədvəl qurun.*

# 48. Qurtuluş hərəkatı

Uğursuz daxili və xarici siyasət nəticəsində 1993-cü ilin yazında Azərbaycan Respublikasının siyasi, sosial-iqtisadi vəziyyəti ağırlaşdı. Əhalinin hökumətə inamı sarsıldı. Ölkədə nə baş verdi? Azərbaycanı bölmək, parçalamaq cəhdi niyə baş tutmadı? Tariximizə Qurtuluş günü kimi daxil olmuş 1993-cü il iyunun 15-də nə baş verdi?

Gəncədə hərbi qiyam, Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsi, vətəndaş müharibəsi təhlükəsi, Dövlət Müdafiə Şurası

**İyun qiyamı.** 1993-cü il aprelin əvvəlində Kəlbəcərin işğalı Azərbaycan Xalq Cəbhəsi və Müsavat partiyası rəhbərlərinin təmsil olunduğu hakimiyyətə xalqın inamını sarsıtdı və respublikada dərin siyasi böhrana səbəb oldu. **1993-cü il iyunun əvvəllərində *Gəncədə hərbi qiyam başlandı.*** Hökumət Surət Hüseynovun başçılıq etdiyi qiyamçı hərbi hissənin tərk-silah olunması və ləğv edilməsi haqqında qərar verdi. Hökumət qoşunları bu qərarı yerinə yetirmək üçün 1993-cü il iyunun 4-də hərbi əməliyyata başladı. Lakin bu əməliyyat tamamilə iflasa uğradı və hökumət qüvvələri məğlub oldular.

*Gəncə hadisələrini vətəndaş müharibəsi adlandırmaq olarmı? Fikrinizi əsaslandırın.*

Qiyamçılar Bakıya doğru hərəkətə başladılar. Ölkə vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qaldı. Yaranmış böhranlı vəziyyətlə əlaqədar hökumət qiyamçılarla danışıqlara getməyə məcbur oldu. Qiyamçıların tələbi ilə Baş nazir və güc nazirləri, Ali Sovetin sədri istefaya göndərildilər. Ölkədə hakimiyyətin, faktiki olaraq, qiyamçıların əlinə keçməsi təhlükəsi yarandı.

Belə bir vaxtda Azərbaycan Respublikası Müdafiə nazirinin müavini Əlikram Hümbətov cəbhə bölgələrindən çıxardığı hərbi dəstələri cənub bölgəsinə apardı. O, Lənkəranda qanuni hakimiyyəti devirdi və qondarma “Talış – Muğan Respublikası”nın qurulduğunu bəyan etdi. Beləliklə, 1993-cü ilin yayında respublikada böhran dərinləşdi və hakimiyyət boşluğu yarandı.

*Sizcə, Azərbaycanı parçalamağa çalışan separatçı qüvvələr hansı dövlətlər tərəfindən dəstəklənirdi? Ehtimallarınızı əsaslandırın.*



LAYİHƏ



*Ümummilli lider Heydər Əliyev*

**Azərbaycanı parçalamaq cəhdlərinin qarşısının alınması.** Azərbaycanı siyasi böhrandan çıxarmağa və dövlətçiliyimizi məhv olmaqdan xilas etməyə qadir olan yeganə şəxsiyyət böyük siyasətçi və dövlət xadimi Heydər Əliyev idi.

Xalq Cəbhəsi hökumətinə qarşı Gəncədə hərbi qiyam zamanı Heydər Əliyev dövləti müdafiə etdiyini açıq şəkildə bildirdi. Böhrandan çıxış yolu axtaran ölkə prezidenti Əbülfəz Elçibəy kömək üçün Heydər Əliyevə müraciət etdi. Xalqın təkidi ilə Naxçıvandan Bakıya gələn Heydər Əliyev respublikanı ağır siyasi böhrandan çıxarmaq üçün bir neçə mühüm addım atdı. O, ilk növbədə, Gəncə şəhərinə gedərək hərbi müxalifətin başçıları ilə danışıqlar apardı, vəziyyətdən çıxış yollarını müəyyən etdi. **Heydər Əliyev 1993-cü il iyunun 15-də *Milli Məclisin sessiyasında Ali Sovetin sədri seçildi.*** Azərbaycan tarixində yeni bir dövrün başlanğıcını qoyan həmin gün Milli Məclis tərəfindən 1997-ci ildə ***Milli Qurtuluş Günü*** elan olundu.

Respublikada yaranmış mürəkkəb siyasi proseslərlə bağlı prezident Ə.Elçibəy Bakını tərk etdi. Milli Məclis tərəfindən respublika prezidentinin səlahiyyətləri Ali Sovetin sədri Heydər Əliyevə həvalə olundu. Dövlət başçısı olan Heydər Əliyevin qətiyyətli səyləri nəticəsində 1993-cü ilin avqustunda Azərbaycanın cənub bölgəsi xarici qüvvələrin əlaltısı olan təxribatçı-separatçı qüvvələrdən təmizləndi. 1993-cü ildə ölkənin şimal bölgəsində də yerli əhalinin səyi ilə separatçı meyillərin qarşısı alındı. Bununla da, Azərbaycan parçalanmaq təhlükəsindən qurtuldu.

**1993-cü il oktyabrın 3-də** keçirilən seçkilərdə **Heydər Əliyev** böyük səs çoxluğu ilə ***Azərbaycan Respublikasının Prezidenti*** seçildi. O, əsas diqqətini ordu quruculuğuna yönəltdi. Milli Ordunun hərbi hissələrini ayrı-ayrı siyasi qrupların təsiri altından çıxardı. Ordunun silah-sursat, geyim və ərzaqla təminatını nizama salmağa başladı.

**1993-cü il noyabrın 1-də** respublikanın bütün imkanlarını ordu quruculuğu məsələlərinə səfərbər etmək üçün ***Dövlət Müdafiə Şurası*** yaradıldı. Yeni Milli Ordu hissələri təşkil edildi.

### *SUAL VƏ TAPŞIRIQLAR:*

1. *Gəncə qiyamının yaratdığı böhranı təhlil edin.*
2. *Respublikada daha hansı hadisələr böhranı dərinləşdirdi? İzah edin.*
3. *Ulu öndər Heydər Əliyevin respublikanı böhrandan və vətəndaş müharibəsindən xilas etməsini təhlil edin.*
4. *Milli Ordumuz haqqında təqdimat hazırlayın.*
5. *Hakimiyyət çevrilişləri respublikada vəziyyətə necə təsir etdi?*

LAYİHƏ

# 49. Qarabağ müharibəsi

1993-cü ilin iyun böhranı Ermənistana Qarabağda hücum əməliyyatlarını genişləndirmək üçün əlverişli imkan yaratdı. Ağır daxili və beynəlxalq şərait Azərbaycan xalqını itkilərə düçar etdi. Bəs Qarabağ müharibəsində hansı uğurlarımız oldu? Məğlubiyyətlərin hansı daxili və xarici səbəbləri vardı? Ağır müharibə vəziyyətindən necə çıxış yolu tapıldı?

Dağlıq Qarabağ ətrafındakı rayonların işğalı, “Murovdağ əməliyyatı”, Horadizin azad edilməsi, Bişkek protokolu

**Siyasi böhranın Qarabağ müharibəsinə təsiri.** 1993-cü ilin iyununda hakimiyyət böhranı və ölkə daxilindəki separatçılıq meyilləri Qarabağ müharibəsində ciddi itkilərə yol açdı. Düşmən sürətlə irəliləyərək **iyulun 23-də *Ağdam şəhərini işğal etdi***. Erməni və rus hərbçiləri ilə qeyri-bərabər döyüşlərdə Ağdam əhalisi yüzlərlə şəhid verdi.

1993-cü ildə yay-payız hərbi əməliyyatları zamanı yeni, daha böyük ərazilər itirildi. **Avqustun 23-də *Cəbrayıl və Füzuli,* avqustun 31-də *Qubadlı,* oktyabrın 30-da** isə ***Zəngilan*** rayonları Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu.

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Azərbaycan rayonlarının işğalı ilə bağlı qətnamələr qəbul etdi. Bu sənədlərdə təcavüzkar erməni hərbi birləşmələrinin işğal olunmuş Azərbaycan ərazilərindən tamamilə və qeyd-şərtsiz çıxarılması tələb olundu. Rusiyanın, ABŞ-ın, Fransanın və digər Qərb dövlətlərinin hərtərəfli dəstəyinə arxalanan Ermənistan bu qətnamələri yerinə yetirmədi.



*Erməni işğalının qurbanı olan uşaqlar.*
*Foto: İlqar Cəfərov*

Ermənistan silahlı qüvvələri 1993-cü ilin noyabrında bütün cəbhə xətti boyu yenidən hücum əməliyyatlarına başladı. Lakin işğalçılar bu zaman artıq Heydər Əliyevin təşəbbüsü ilə gücləndirilmiş Azərbaycan Ordusunun ciddi müqaviməti ilə rastlaşdılar. ***Dekabrın ortalarında Milli Ordumuz düşmənin Beyləqan istiqamətində tank hücumunun qarşısını aldı*** və onun yeddi tankını məhv etdi. Milli Ordumuzun döyüşçüləri əks-hücuma keçərək 30 kilometr irəlilədilər.

**1994-cü ilin yanvarında** Azərbaycan Ordusunun uğurlu hərbi əməliyyatları nəticəsində Füzuli rayonunun 22 yaşayış məntəqəsi və böyük strateji əhəmiyyətə malik olan Horadiz qəsəbəsi düşməndən təmizləndi.

Sonrakı günlərdə Milli Ordu hissələri hücum əməliyyatlarının miqyasını daha da genişləndirərək Cəbrayıl və Kəlbəcər rayonlarının 10-dan çox kəndini işğalçı erməni hərbi birləşmələrindən təmizlədi.

Milli Ordunun uğurlu hücum əməliyyatları, Azərbaycanın NATO ilə strateji əməkdaşlığa başlaması respublikamızda çətinliklə qazanılmış müstəqilliyin dönməzliyinə xalqın inamını möhkəmləndirdi. Bunun qarşısını almaq, Cənubi Qafqaz bölgəsində öz mövqeyini qoruyub saxlamaq üçün Rusiyanın imperiyapərəst qüvvələri ermənilərə hərbi yardımlar və silah-sursat göndərilməsini daha da artırdılar.



LAYİHƏ

Məhz bunun nəticəsində ***erməni-rus*** hərbi birləşmələri **1994-cü ilin fevralında** Azərbaycan Ordusunun Kəlbəcər rayonu istiqamətində əvvəlcə uğurla həyata keçirdiyi ***"Murovdağ əməliyyatı"nın qarşısını ala bildilər.*** Məğlubiyyətin səbəblərindən biri də hərbi əməliyyat üçün qışın ən kəskin vaxtının seçilməsi və Murovdağda təbii şəraitin ağır olması idi.

*Mətndə adı çəkilən məkanları xəritədə müəyyən edin.*




*Azərbaycan Respublikasının XX əsrin 90-cı illərində işğal olunmuş əraziləri*

*Xəritə və diaqram əsasında Dağlıq Qarabağda əhalinin say dinamikasının dəyişmə səbəblərini izah edin.*

LAYİHƏ




*"Murovdağ əməliyyatı"nda qəhrəmancasına şəhid olmuş Azərbaycan döyüşçülərinin xatirəsinə həsr edilmiş abidə*



*Azad edilmiş Horadizdə Azərbaycan bayrağı qürurla dalğalanır.*

*Fotolarda gördüklərinizi müqayisə edin.*

Rusiya 1994-cü ilin aprelində öz qoşunlarını cəbhə xəttində yerləşdirməyi, bununla da Azərbaycan tərəfindən siyasi-iqtisadi güzəştlər əldə etməyi nəzərdə tutan sülh sazişi layihəsi təklif etdi. Artıq Ermənistanın bəyəndiyi bu layihəni Azərbaycana qəbul etdirmək üçün aprelin 10-dan ermənilər bütün cəbhələrdə yenidən hücuma başladılar. Azərbaycan Ordusu isə düşmənin hücumlarını müvəffəqiyyətlə dəf etdi. Bununla da, münaqişənin yalnız Rusiyanın vasitəçiliyi ilə və təklif etdiyi şərtlərlə həll edilməsi planı baş tutmadı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin uzaqgörən xarici siyasəti və Milli Ordunu gücləndirməsi nəticəsində Ermənistan və onun havadarları artıq Qarabağ münaqişəsini silah gücünə, zorakı vasitələrlə həll etmək cəhdlərinin mümkün olmadığını dərk etdilər. **1994-cü il mayın 8-də** Azərbaycan Respublikası ***Bişkek protokolunu*** imzaladı və cəbhədə atəşkəsə nail oldu.

*Bişkek protokolu haqqında məlumat toplayın.*

O vaxtdan respublikamızın ərazi bütövlüyünün sülh və danışıqlar yolu ilə təmin olunmasını nəzərdə tutan çox çətin və uzunsürən atəşkəs dövrü başladı.

Atəşkəs dövründə Azərbaycan Ordusunun gücünü artırmaq üçün ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirildi. Silahlı qüvvələrin müasir hərbi texnika və bacarıqlı kadrlarla təchiz olunması diqqət mərkəzində saxlanıldı. Ordunun şəxsi heyətinin döyüş qabiliyyəti artırıldı və hərbi hissələrdə nizam-intizam möhkəmləndirildi. Bu işdə Azərbaycanın NATO ilə sülh naminə tərəfdaşlıq proqramı çərçivəsində həyata keçirilən tədbirlərin, habelə Türkiyə Respublikası hərbçilərinin böyük köməyi oldu. Azərbaycan xalqının orduya yardımını tənzimləmək məqsədilə 2002-ci il avqustun 17-də Prezident Heydər Əliyevin fərmanı ilə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinə Yardım Fondu" təsis edildi.

*Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan Respublikasının ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirləri müqayisə edin.*



LAYİHƏ

**SUAL VƏ TAPŞIRIQLAR:**

1. *1993-cü ildə yay-payız hərbi əməliyyatlarında Azərbaycan silahlı qüvvələrinin məğlub olmasının daxili və xarici səbəblərini müəyyənləşdirib müzakirə edin.*
2. *1993-cü ilin dekabrından etibarən cəbhədə Azərbaycan Ordusunun əldə etdiyi uğurları sxemləşdirin.*
3. *Ermənistan və Azərbaycan arasında atəşkəs haqqında protokol imzalanmasının səbəbi nə idi?*
4. *Azərbaycan Ordusunun gücləndirilməsi üçün görülən tədbirləri müzakirə edin.*

# 50. Azərbaycan Respublikasının beynəlxalq və regional təşkilatlara üzv olması

Azərbaycan dövlət müstəqilliyini çox mürəkkəb beynəlxalq şəraitdə qazanmışdı. Beynəlxalq aləmdə yeni xammal mənbələri və satış bazarları ələ keçirmək istəyən böyük dövlətlərlə keçmiş SSRİ-nin varisi Rusiya arasında ciddi mübarizə başlanmışdı. Bu mübarizə zəngin maddi sərvətləri olan Azərbaycanla bağlı münasibətlərdə daha açıq şəkildə sezilirdi. Belə şəraitdə respublika xarici siyasət xəttini necə yeridirdi? Respublika daxilində hansı siyasi proseslər gedirdi?

Azərbaycanın beynəlxalq aləmdə tanınması, BMT, Minsk qrupu, ATƏT, GUAM, İpək yolunun bərpası, “Sülh naminə tərəfdaşlıq”

**Xarici siyasətdə uğurlar.** Azərbaycan Respublikası müstəqilliyini bərpa etdiyi vaxtdan bütün dövlətlərlə münasibətlərini hüquq bərabərliyi əsasında qurmağa çalışırdı. Ölkəmiz öz xarici siyasətində zor işlətməmək, beynəlxalq birlik tərəfindən qəbul edilmiş dövlətlərin ərazi bütövlüyünə hörmət etmək, mübahisələri dinc yolla nizama salmaq, başqa dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini əsas götürmüşdü.

Azərbaycan Respublikasının dövlət müstəqilliyini ilk olaraq ***Türkiyə Respublikası,*** ardınca ***Rumıniya*** *və* ***Pakistan****,* daha sonra isə başqa dövlətlər tanıdı. 1993-cü ildə Azərbaycanın dövlət müstəqilliyini artıq 116 dövlət tanımış, 70 xarici dövlət ilə diplomatik əlaqələr yaradılmışdı. Bir çox ölkələrdə Azərbaycanın səfirlikləri açılmışdı.

*Azərbaycan Respublikasının dünya dövlətləri tərəfindən tanınmasının əhəmiyyətini müzakirə edin.*

Azərbaycan Respublikası **1991-ci ilin dekabrında *İslam Konfransı Təşkilatına*** (indiki İslam Əməkdaşlıq Təşkilatı), növbəti ilin əvvəllərində isə İqtisadi Əməkdaşlıq Təşkilatına üzv qəbul edildi. **1992-ci il martın 2-də** Azərbaycan Respublikası ***Birləşmiş Millətlər Təşkilatının*** tamhüquqlu üzvü oldu.

**1992-ci il iyulun 10-da** Azərbaycan ***Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinə (ATƏM)*** üzv qəbul edildi. Avropa dövlətlərinin təmsil olunduğu bu nüfuzlu təşkilat Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə nizama salınması üçün *Minsk qrupu* yaratdı. 1994-cü ildə Budapeşt sammitində bu təşkilat ***Avropa***

LAYİHƏ

***Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT)*** adlandı və *Rusiya, ABŞ, Fransa* nümayəndələri Minsk qrupunun həmsədrləri təyin edildi.

Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycanın dünya dövlətləri arasında tanıdılması sahəsində fəaliyyət daha da genişləndirildi və məqsədyönlü şəkil aldı.

Rusiyanın təzyiqlərini zəiflətmək məqsədilə Azərbaycan Respublikası **1993-cü ilin sentyabrında *Müstəqil Dövlətlər Birliyinə (MDB)*** daxil oldu. Lakin MDB-yə üzv olan dövlətlərin bərabərhüquqlu əməkdaşlığı təmin edilmədi, bu təşkilatda təmsil olunan dövlətlər arasında münaqişələrin aradan qaldırılması üçün təsirli tədbirlər həyata keçirilmədi.

Heydər Əliyev MDB dövlət başçılarının, demək olar ki, bütün görüşlərində birlik daxilində belə qeyri-sağlam münasibətlər olmasının yolverilməzliyini, separatizmlə mübarizənin vacibliyini diqqətə çatdırırdı. Ona görə də Azərbaycan daha çox MDB-yə daxil olan dövlətlərlə ikitərəfli əlaqələri möhkəmləndirməyə üstünlük verməyə başladı.

*MDB-ni SSRİ-nin varisi hesab etmək olarmı? Fikrinizi bildirin.*

Azərbaycan Respublikası 1994-cü ilin may ayında ***NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramına*** qəbul edildi. Azərbaycanlı hərbçilərin Kosovo və Əfqanıstanda beynəlxalq sülhməramlı qüvvələrin tərkibində əməliyyatlarda iştirak etməsi NATO ilə əlaqələrin daha da genişlənməsinə gətirib çıxardı. Azərbaycan-Gürcüstan və Azərbaycan-Ukrayna strateji əməkdaşlıq sazişləri bağlandı. **1997-ci ilin payızında *Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova*** respublikalarının başçıları ***GUAM*** təşkilatının yaradılması haqqında rəsmi protokol imzaladılar. Bu ölkələrin öz aralarında nəqliyyat, ticarət və iqtisadi sahələrdə əməkdaşlıq üçün yeni imkanlar yarandı.

*MDB çərçivəsində dövlətlərarası əməkdaşlıqla ayrı-ayrı ölkələrlə fərdi əməkdaşlıq etməyin fərqini izah edin.*

**1998-ci il sentyabrın 8-də** Bakıda keçirilən beynəlxalq konfransda ***İpək Yolunun bərpası üzrə Bakı Bəyannaməsi*** imzalandı.

2000-ci ilin sentyabrında BMT Baş Məclisində və 2001-ci ildə Avropa Şurası Parlament Assambleyasında Heydər Əliyev çıxış etdi. O, inkişaf etməkdə olan ölkələrə texnoloji yardım göstərilməsinin, milli münaqişələrin həll edilməsi üçün təsirli tədbirlər görülməsinin vacib olduğunu vurğuladı. Heydər Əliyev mədəniyyətlərin toqquşması təhlükəsini aradan qaldırmaq üçün demokratiya və bazar iqtisadiyyatının inkişafında ayrı-ayrı xalqların xüsusiyyətlərinin nəzərə alınmasının zəruriliyini qeyd etdi.

*Heydər Əliyevin vurğuladığı problemləri və onların həlli yollarını müzakirə edin.*

**2001-ci ilin yanvarında** Azərbaycan Respublikası ***Avropa Şurasına*** üzv qəbul edildi. Bununla da, Azərbaycan Avropa Şurasının tamhüquqlu üzvünə çevrildi. Həmin ilin payızında Avropa Şurası Parlament Assambleyasının (AŞPA) payız sessiyası Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən sənəd qəbul etdi. **2003-cü ilin**

LAYİHƏ

**yanvar *sessiyasında* İlham Əliyev *AŞPA-nın vitse-prezidenti və bu mötəbər qurumun büro üzvü seçildi.***

***SUAL VƏ TAPŞIRIQLAR:***

1. *Azərbaycan Respublikası üçün beynəlxalq təşkilatlarla əməkdaşlıq etməyin vacibliyini təhlil edin.*
2. *Müstəqil xarici siyasət Azərbaycan Respublikası üçün hansı iqtisadi imkanlara yol açdı?*
3. *Tarixi İpək yolunun bərpasının Azərbaycan Respublikası üçün siyasi və iqtisadi əhəmiyyəti nə idi? Fikrinizi bildirin.*
4. *Mövzuya aid xronoloji cədvəl qurun.*
5. *Son illərdə Azərbaycanın xarici siyasət sahəsində əldə etdiyi uğurlara aid referat hazırlayın.*

# 51. Dövlət müstəqilliyini möhkəmləndirmək tədbirləri

1990-cı illərin ortalarında demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu sahəsində ilk və mühüm addımlar atıldı. Dövlətin Əsas Qanunu hansı prinsipləri əsas götürdü? Hansı islahatlar keçirildi? Dövlətin strukturu necə möhkəmləndirildi? Ölkə iqtisadiyyatında hansı mühüm dəyişikliklər baş verdi?

Azərbaycan Respublikasının Konstitusiyası, Konstitusiya Məhkəməsi, Ombudsman, "Əsrin müqaviləsi", Bakı–Tbilisi–Ceyhan neft kəməri, milli valyuta

**Müstəqil Azərbaycanın ilk Konstitusiyası.** 1995-ci ilin iyununda Milli Məclisin qərarına əsasən, Azərbaycan Respublikasının Konstitusiyasını hazırlamaq üçün komissiya təşkil edildi. Heydər Əliyevin başçılıq etdiyi bu komissiyaya görkəmli hüquqşünaslar, qanunverici, icra və məhkəmə hakimiyyəti nümayəndələri daxil idilər. Komissiya üzvləri qabaqcıl demokratik ölkələrin təcrübəsi əsasında, Azərbaycan xalqının milli xüsusiyyətlərini nəzərə almaqla, Azərbaycan Respublikası Konstitusiyasının layihəsini hazırladılar. Layihə ümumxalq müzakirəsi üçün mətbuatda dərc edildi və cəmiyyətdə böyük maraqla müzakirə olundu. Bəzi məsələlər, anlayışlar, məsələn, dövlət dilinin adı ilə bağlı ziyalıların iştirakı ilə geniş diskussiyalar keçirildi.

*Araşdırın: Azərbaycan Respublikasının Konstitusiyası neçə bölmə, fəsil və maddədən ibarətdir?*

**1995-ci il noyabrın 12-də** keçirilmiş referendumla ***Azərbaycan Respublikasının Konstitusiyası*** – müstəqil Azərbaycan dövlətinin ilk Əsas Qanunu qəbul edildi. Konstitusiyanın qəbulu ilə Azərbaycan Respublikasında dövlət quruculuğunun hüquqi, qanuni əsasları yaradıldı.

LAYİHƏ






Azərbaycan Respublikası Konstitusiyasında vətəndaşların əsas hüquq və azadlıqları, vəzifələri göstərilmiş, ***Azərbaycan dövlətinin insan və vətəndaş hüquq və azadlıqlarının təminatçısı olduğu bəyan edilmişdir.***

*Sxemə əsasən, Azərbaycan Respublikasının idarəetmə formasında nəzarətçi və məsul tərəfləri müəyyən edin.*

Dünyanın qabaqcıl, demokratik dövlətlərində olduğu kimi, respublikamızın yeni Konstitusiyasında da hakimiyyət bölgüsü nəzərdə tutulmuşdur: icra hakimiyyətinin Azərbaycan Respublikası Prezidentinə, qanunverici hakimiyyətin Milli Məclisə, məhkəmə hakimiyyətinin isə müstəqil məhkəmələrə mənsub olduğu təsbit edilmişdir.

Bu Konstitusiyanın qəbul edilməsi ölkəmizdə demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunda önəmli addım oldu.

**1995-ci il noyabrın 12-də** ilk dəfə müstəqil ***parlament seçkiləri*** keçirildi. Yeni seçilən Azərbaycan parlamenti dərhal geniş qanunvericilik fəaliyyətinə başladı. Parlamentdə insan hüquqları, elm, təhsil, mədəniyyət, iqtisadiyyat, ekologiya və digər sahələr üzrə daimi komissiyalar təşkil olundu. Azərbaycan parlamenti dünyanın qabaqcıl ölkələrinin qanunverici orqanlarının təcrübəsini öyrənməyə başladı. Parlamentin nümayəndələri Avropa Şurası sessiyalarında dəfələrlə iştirak etdilər. Bütün bunlar respublikamızda demokratik qanunvericiliyin forma-




*Azərbaycan Respublikasının Konstitusiyasına və ona edilmiş əlavə və dəyişikliklərə görə*



LAYİHƏ

laşmasına və inkişaf etdirilməsinə geniş imkanlar açdı. Parlamentin qəbul etdiyi qanunlar əsasında Azərbaycanda siyasi, iqtisadi, hüquqi, demokratik islahatlar həyata keçirildi.

**Milli dövlətçiliyin möhkəmləndirilməsi.** **1998-ci ildə *Konstitusiya Məhkəməsi*** təşkil olundu. Həmin ildə Azərbaycan Respublikasında senzura və ölüm cəzası ləğv edildi. İnsan azadlığı və vətəndaşların sərbəst siyasi-ictimai fəaliyyət göstərmələri üçün real imkanlar yaradıldı. Bu müsbət dəyişikliklər **1998-ci ilin oktyabrında** alternativ əsaslarla keçirilən prezident seçkilərində Heydər Əliyevin mütləq səs çoxluğu ilə qalib gəlməsinə səbəb oldu. Xalq onu yenidən Azərbaycan Respublikasının Prezidenti seçdi. Respublikamızda siyasi sabitliyin yaranması, dövlətçiliyin inkişafı, xüsusilə də dövlət nəzarətinin güclənməsi, Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınması və nüfuz qazanması ölkəmizin iqtisadi və mədəni həyatına önəmli təsir göstərdi.

*Azərbaycan xalqının prezident seçkilərində yenidən Heydər Əliyevə səs verməsinin səbəblərini izah edin.*

Yeni Konstitusiyanın tələblərinə uyğun olaraq yerli özünüidarə orqanları – seçkili bələdiyyələr yaradılmasına başlanıldı. 1999-cu ilin dekabrında Azərbaycan Respublikasında ilk bələdiyyə seçkiləri keçirildi.

**2001-ci il dekabrın sonunda** Milli Məclis ***“Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Konstitusiya qanununu*** qəbul etdi. Nəticədə, qabaqcıl demokratik Avropa dövlətlərində olduğu kimi, Azərbaycanda da insan hüquq və azadlıqlarının müdafiəçisi olan Ombudsman təsisatı yaradıldı.

*Ombudsman təsisatının fəaliyyəti haqqında məlumat toplayın.*

**2002-ci, 2009-cu və 2016-cı illərdə** keçirilmiş referendumlar nəticəsində Konstitusiyanı daha da demokratikləşdirmək üçün bir sıra dəyişikliklər və əlavələr edildi. Önəmli dəyişikliklərdən biri Azərbaycan Respublikasının vitse-prezidenti vəzifəsinin təsis edilməsi idi.

**Uğurlu neft strategiyası.** Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycanın yeni neft strategiyası müəyyən edildi. **1994-cü il sentyabrın 20-də** Azərbaycan Dövlət Neft Şirkəti dünyanın iri neft şirkətləri ilə Xəzər dənizinin Azərbaycana aid hissəsində neft hasilatı haqqında saziş imzaladı. Bu müqavilə tezliklə dünyada ***“Əsrin müqaviləsi”*** adı ilə məşhurlaşdı. Xəzər dənizindən çıxarılan Azərbaycan neftini Rusiya vasitəsilə Qara dəniz limanlarına aparmaq üçün *Bakı–Novorossiysk boru xətti* 1997-ci ildə istifadəyə verildi. Gürcüstan ərazisindən keçən *Bakı–Supsa neft kəməri isə 1999-cu ilin əvvəlində* istifadəyə verildi.

**1999-cu ilin noyabrında** İstanbulda Xəzər dənizində çıxarılacaq xam neftin ***Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri*** vasitəsilə nəql edilməsi haqqında saziş imzalandı. 2001-ci ildə isə Azərbaycan qazının ***Bakı–Tbilisi–Ərzurum qaz kəməri*** vasitəsilə dünya bazarına çıxarılması haqqında Türkiyə və Gürcüstanla sazişlər bağlandı.

*Bağlanan sazişlərin Azərbaycan üçün strateji əhəmiyyətini izah edin.*



LAYİHƏ




*Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri*

**Bazar iqtisadiyyatına doğru. İqtisadi dirçəlişin başlanması.** 1990-cı illərin ağır siyasi vəziyyəti, planlı təsərrüfatdan azad bazar iqtisadiyyatına keçilməsi iqtisadiyyatın hər bir sahəsinə mənfi təsir göstərmişdi. Respublikanı ağır iqtisadi böhran vəziyyətindən çıxarmaq üçün, ilk növbədə, yeni qanunlar qəbul edildi, islahatlar keçirildi. 1994-cü ildə xarici ticarətin sərbəstləşdirilməsi haqqında prezident fərmanı verildi. Hüquqi və fiziki şəxslər xarici ölkələrlə sərbəst şəkildə ticarət etmək hüququ qazandılar. Həmin ildə ***milli valyuta – manat*** respublikada yeganə ödəniş vasitəsi elan edildi, inflyasiya[1] cilovlandı.

Müstəqillik dövründə respublika iqtisadiyyatında baş vermiş struktur dəyişikliklərinin mühüm istiqamətlərindən biri də torpaq islahatının həyata keçirilməsi oldu. **1996-cı ilin iyulunda *"Torpaq islahatı haqqında" qanun*** qəbul edildi. Sovet İttifaqı dağılandan sonra müstəqillik əldə edən bütün digər respublikalardan fərqli olaraq, Azərbaycanda torpaq sosial ədalət prinsipinə əməl edilərək kənd sakinlərinin xüsusi mülkiyyətinə pulsuz verilirdi. Respublikamızın vahid torpaq fondu əsasında dövlət, bələdiyyə və xüsusi torpaq mülkiyyəti forması müəyyən edilmişdi.

Beləliklə, Azərbaycan Respublikası üçüncü minilliyə ictimai-siyasi sabitliyin möhkəmləndiyi, iqtisadiyyatın uğurla inkişaf etdiyi, yeni-yeni mədəni nailiyyətlərin qazanıldığı bir şəraitdə daxil oldu.

---

[1] **inflyasiya** – pulun dəyərdən düşməsi



LAYİHƏ




*Ulu öndər Heydər Əliyevin*
*"Əsrin müqaviləsi"nin imzalanması mərasimində çıxışı. 20 sentyabr 1994-cü il*

## SUAL VƏ TAPŞIRIQLAR:

1. *Xalqın yeni Konstitusiya layihəsinə münasibətini əlavə məlumat əsasında müzakirə edin.*
2. *Azərbaycan Respublikasında hakimiyyət bölgüsünü təhlil edin.*
3. *Azərbaycan Respublikası Konstitusiyasına 2016-cı ildə edilmiş əsas dəyişiklikləri araşdırın.*
4. *Qarabağ münaqişəsi amili neft strategiyasına necə təsir göstərdi?*
5. *Azərbaycan Respublikasının torpaq islahatı ilə Sovet hökumətinin torpaq islahatı arasındakı fərqi müəyyən edin.*
6. *Mövzuya aid xronoloji cədvəl qurun.*

LAYİHƏ

# *VIII fəsil.* Azərbaycan yeni minilliyin başlanğıcında

## 52. Azərbaycan Respublikasının inkişafında yeni mərhələ

Azərbaycan Respublikası tam gücü ilə inkişaf edir. Uğurlu daxili və xarici siyasət ölkənin ağır illərini geridə qoymuşdur. Bəs XXI əsrin əvvəllərində respublikanın həyatında hansı yeniliklər baş vermişdir? Azərbaycan Respublikası Qafqazda və dünyada öz mövqeyini möhkəmlətmək üçün hansı addımlar atmışdır?

İlham Əliyev, XXI əsrin ilk onilliklərində iqtisadi uğurlar, “XXI əsrin müqaviləsi”, TANAP, TAP, Bakı–Tbilisi–Qars dəmir yolu, “ASAN xidmət”

**Azərbaycanın yeni lideri.** **2003-cü ilin *prezident seçkiləri*** ərəfəsində Heydər Əliyev ABŞ-ın Klivlend klinikasında müalicə olunurdu. Xalq öz liderini yenə də prezident görmək istəyirdi. Lakin Heydər Əliyev səhhəti ilə əlaqədar seçkilərdə iştirak etmədi. Xalq onun siyasi kursunu layiqincə davam etdirəcək liderə – **İlham Əliyevə *səs verdi.*** Oktyabr ayında keçirilən prezident seçkilərində İlham Əliyev qalib gəldi və Azərbaycan Respublikası Prezidenti kimi fəaliyyətə başladı. **2003-cü il dekabrın 12-də** Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev vəfat etdi.



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev*




*“Heydər Əliyev” ordeninin təsis edilməsi Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 28 aprel 2005-ci ildə qərara alınmışdır. “Heydər Əliyev” ordeni Azərbaycan xalqının Ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında müstəsna tarixi xidmətləri nəzərə alınaraq və onun xatirəsini əbədiləşdirmək məqsədilə yaradılmışdır.*

*Araşdırın: “Heydər Əliyev” ordeni Azərbaycan vətəndaşlarına və əcnəbi vətəndaşlara hansı xidmətlərinə görə verilir?*

İlham Əliyev daxili və xarici siyasət sahəsində Heydər Əliyev kursunu inamla davam etdirərək Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafında yeni bir mərhələnin başlanğıcını qoydu. Azərbaycanda hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin yaradılması istiqamətində mühüm addımlar atdı. O, Azərbaycanı Cənubi Qafqazın lider dövlətinə çevirməyə nail olub, xalqın inam və etimadını doğrultdu. Ona görə də İlham Əliyev **2008, 2013 və 2018-ci illərdə** keçirilən prezident seçkilərində də böyük səs çoxluğu ilə qalib gəldi.

LAYİHƏ

**Neft strategiyasının uğurla davam etdirilməsi.** Heydər Əliyevin əsasını qoyduğu müstəqil Azərbaycanın neft strategiyası XXI əsrin ilk illərində daha böyük uğurla davam etdirildi. Bu mühüm və strateji əhəmiyyətli sahəyə iri həcmdə investisiyalar qoyuldu, Xəzər dənizindəki "Azəri", "Çıraq", "Günəşli" sahələrində yeni neft yataqlarının istismarına başlandı. "Şahdəniz" yatağında aparılan uğurlu qazma işləri Azərbaycanı həm də böyük həcmdə qaz istehsal edən ölkəyə çevirdi. Neft amili Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə ciddi təsir etdi. Dünyanın aparıcı neft şirkətləri ilə qarşılıqlı faydalı əməkdaşlığın dərinləşməsi həmin şirkətlərin mənsub olduğu dövlətlərlə siyasi və mədəni əməkdaşlığın genişlənməsinə imkan yaratdı.

Azərbaycan neft və qaz istehsalının sürətlə artması nəticəsində regionun, həmçinin bütövlükdə dünyanın iri neft və qaz ixrac edən ölkəsinə çevrildi. **2006-cı il iyulun 13-də *Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin*** inşası başa çatdırıldı. Bu neft kəmərinin çəkilməsi ilə Azərbaycanın "qara qızılı"nın dünya bazarına ən qısa və təhlükəsiz yolla çıxarılması təmin olundu. Hazırda Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri Türkiyənin və Avropanın enerji təhlükəsizliyi sisteminin ayrılmaz hissəsinə çevrilmişdir.

*Cənubi Qafqazın hansı dövləti həyata keçirilən layihələrdən kənarda qalmışdır?*

2007-ci ildə ***Bakı–Tbilisi–Ərzurum qaz kəməri*** də işə salındı. Bu qaz kəməri Gürcüstanın və Türkiyənin təbii qaza olan tələbini ödəməklə yanaşı, Azərbaycan qazının Türkiyə vasitəsilə Yunanıstana və digər Avropa ölkələrinə ötürülməsinə də imkan verdi. Azərbaycan təbii qazının Avropaya daha böyük həcmdə çıxarılması üçün **2013-cü ilin dekabrında** bir sıra Avropa dövlətləri nümayəndələrinin iştirakı ilə müqavilə imzalandı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ***"XXI əsrin müqaviləsi"*** adlandırdığı bu sənəd *Trans–Anadolu (TANAP), Trans–Adriatik (TAP)* qaz boru kəmərlərinin tikintisini reallığa çevirdi. Eyni zamanda Xəzər dənizindən İtaliyaya doğru, Avropanın enerji təhlükəsizliyi üçün böyük əhəmiyyətə malik yeni *"Cənub" qaz dəhlizinin* yaradılmasına imkan yaratdı.

**Qeyri-neft sektorunun inkişafı.** XXI əsrin əvvəllərində Azərbaycan hökuməti respublika iqtisadiyyatının neft-qaz istehsalı və ixracından asılılığının azaldılması, dayanıqlı inkişafının təmin edilməsi üçün ardıcıl tədbirlər həyata keçirmişdir. Aparılan dövlət siyasəti neft sənayesi ilə yanaşı, qeyri-neft sektorunun, xüsusilə emal sənayesinin inkişafına zəmin yaratmışdır.

*Qeyri-neft sektoru dedikdə hansı sənaye sahələri nəzərdə tutulur? Həmin sahələrin inkişafının əhəmiyyətini müəyyən edin.*

**2003 – 2015-ci illərdə** Bakı ilə yanaşı, respublikamızın bölgələrində də yeni sənaye müəssisələri yaradıldı. Həyata keçirilən sosial-iqtisadi tədbirlər yerli sahibkarlığın inkişafına, əhalinin işlə təmin olunmasına və iqtisadiyyatın qeyri-neft sektorunun sürətli inkişafına təkan vermişdir.

*Yaşadığınız ərazidə (şəhər, rayon, kənd, qəsəbə) son dövrlərdə həyata keçirilən abadlıq işləri və ya yeniliklər haqqında müzakirə aparın.*

Respublikada nəqliyyat infrastrukturunu inkişaf etdirmək üçün böyük layihələr həyata keçirilmişdir. Yeni avtomobil yolları çəkilmiş və ya yenidən qurulmuşdur. Şərqlə Qərbi,

LAYİHƏ

Asiya ilə Avropanı birləşdirən strateji və böyük iqtisadi əhəmiyyətli ***Bakı–Tbilisi–Qars dəmir yolu xətti*** inşa edilmişdir.

Bakının *Ələt qəsəbəsində* Xəzər dənizinin ən böyük və müasir beynəlxalq liman kompleksi tikilmişdir.

**Sosial layihələrin gerçəkləşdirilməsi.** XXI əsrin ilk onilliyində, demək olar ki, respublikamızın bütün rayonlarında yeni tipli və müasir avadanlıqlarla təchiz olunan məktəblər və muzeylər tikilmiş, parklar salınmışdır. Rayonların əksəriyyətində müalicə-diaqnostika mərkəzləri və xəstəxanalar açılmışdır.

Yenidən qurulmuş və nəticədə Bakının simasını tamamilə dəyişdirmiş Dənizkənarı bulvar şəhər sakinlərinin ən sevimli istirahət məkanıdır.

***2007-ci ildə respublikamızda bütün çadır şəhərcikləri ləğv edilmiş,*** qaçqın və məcburi köçkünlərin mənzil şəraitini yaxşılaşdırmaq üçün bölgələrdə və Bakı şəhərinin müxtəlif rayon və qəsəbələrində müasir şəraitli yaşayış evləri tikilmişdir.

Bakı şəhərinin əhalisini yüksək keyfiyyətli içməli su ilə təmin etmək üçün dövrün nəhəng layihələrindən biri olan *Oğuz–Qəbələ–Bakı su kəməri* çəkilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin **2012-ci ilin iyulunda** verdiyi fərmana əsasən, vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azaldılması, şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi məqsədilə ***"ASAN xidmət" mərkəzləri*** açılmışdır. Belə mərkəzlərin açılması ölkəmizdə dövlət–vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə şərait yaratmışdır.



*Qaçqınlar üçün yaşayış evləri*

*"ASAN xidmət" mərkəzlərində hansı xidmətlərin olması haqqında məlumat toplayın.*

**Dünya azərbaycanlılarının təşkilatlanması.** XXI əsrin başlanğıcında xalqımızın ən böyük nailiyyətlərindən biri dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlıların bir araya gətirilməsi, soydaşlarımızın milli hüquqlarının qorunması üçün davamlı iş aparan qurumların yaradılması olmuşdur. **2001-ci ilin noyabr ayında** Bakı şəhərində ***Dünya azərbaycanlılarının birinci qurultayı*** keçirilmiş, qurultayda 36 ölkədən gəlmiş 2 mindən çox nümayəndə və qonaq iştirak etmişdir.

Milli tariximizdə yeni bir mərhələnin əsasını qoyan bu qurultay göstərdi ki, qüdrətli Azərbaycan yaradılması üçün bütün azərbaycanlılar sıx birləşməlidirlər. Harada yaşamalarından asılı olmayaraq, Vətənin bir parçası olduqlarını unutmamalı, milli mənafeyin qorunması üçün var gücləri ilə çalışmalıdırlar. Heydər Əliyev isə dünya azərbaycanlılarını – bu qurultayın nümayəndələrini ilk dəfə bir araya gətirən böyük dövlət xadimi idi.

Milli Məclis ***"Xaricdə yaşayan azərbaycanlılara münasibətdə Azərbaycan Respublikasının dövlət siyasəti haqqında" qanun*** qəbul etdi. ***2002-ci ildə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi*** (2008-ci ildən Diaspora ilə İş üzrə Dövlət Komitəsi adlanır) yaradıldı.

LAYİHƏ

*Dünya azərbaycanlılarının həmrəy olduğunu nümunələr əsasında izah edin.*

Dünya azərbaycanlılarının birliyinin möhkəmləndirilməsində **2006-cı ilin martında** keçirilmiş *ikinci qurultay* böyük rol oynadı. Qurultay xaricdə yaşayan azərbaycanlıların problem və qayğılarını, onların birliyi və təşkilatlanması sahəsindəki mövcud vəziyyəti təhlil etdi. Qurultayda xaricdə yaşayan azərbaycanlıların ölkəmizlə əlaqələrinin daha da möhkəmləndirilməsinə, Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasına, diaspor quruculuğunun təkmilləşdirilməsinə dair önəmli qərarlar qəbul edildi.

Dünya azərbaycanlılarının bir bayraq altında birləşməsi istiqamətində irəliyə doğru növbəti addım **2011-ci ilin iyulunda** atıldı. Bakıda Dünya azərbaycanlılarının *üçüncü qurultayı* oldu. Qurultayda Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının sədri seçildi.

**2016-cı ilin iyununda** Dünya azərbaycanlılarının *dördüncü qurultayı* keçirildi.

**Milli Ordunun hərbi qüdrətinin artırılması.** Azərbaycanın ərazi bütövlüyünün pozulması və torpaqlarımızın 20 faizinin təcavüzkar Ermənistan dövlətinin işğalı altında qalması dövlət büdcəsinin əhəmiyyətli bir hissəsinin hərbi xərclərə yönəldilməsinə sərf edilir.

Belə ki XXI əsrin ikinci onilliyində Azərbaycan Respublikasının illik hərbi büdcəsi Ermənistan Respublikasının bütün büdcə xərclərindən çox idi. Bu da Milli Ordumuzun ən yeni hərbi texnika, silah-sursat və digər döyüş vasitələri ilə təchiz edilməsinə imkan vermişdir.

Azərbaycan xaricdən ən müasir, yüksək keyfiyyətli döyüş silahları və hərbi texnika almaqla yanaşı, Milli Ordunun silah, sursat və hərbi texnika ilə təchizi sahəsində xarici dövlətlərdən asılılığını azaltmaq üçün həm də milli hərbi sənayeni formalaşdırmağa başlayıb.



*2016-cı il aprel döyüşlərində azad edilmiş Lələtəpə*

Hazırda Azərbaycan Ordusu Cənubi Qafqazda ən güclü və hazırlıqlı ordu hesab edilir. Atəşkəs rejimi erməni hərbçiləri tərəfindən tez-tez pozulsa da, bu təxribatların qarşısı ordumuz tərəfindən dərhal alınır və düşmən cavab atəşi ilə yerindəcə susdurulur. 2016-cı ilin aprel ayında cəbhə xətti boyunca atəşkəsi pozan erməni hərbi qüvvələrinin böyük itkilər verməsi və geri oturdulması buna sübutdur. 2010-cu ilin iyununda **Mübariz İbrahimov** təkbaşına işğalçı Ermənistan silahlı qüvvələrinin çox sayda əsgər və zabitini məhv etdi. O, qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhid oldu. Azərbaycanın bu igid oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görüldü.



*Mübariz İbrahimov. Azərbaycanın Milli Qəhrəmanı*

Döyüşlər Azərbaycan Ordusunun qələbəsi ilə nəticələndi. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və bəzi mövqelər düşməndən azad olundu. Bununla da cinayətkar erməni rəhbərlərinin keçilməz erməni səngərləri haqqında mifi alt-üst edildi.

2018-ci ilin mayında növbəti qələbə nəticəsində Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edildi.

LAYİHƏ

***SUAL VƏ TAPŞIRIQLAR:***

1. *Neft strategiyasının Azərbaycanın dünya dövlətləri ilə siyasi və mədəni əlaqələrinin inkişafına təsirini izah edin.*
2. *Qeyri-neft sektorunu inkişaf etdirməkdə dövlətin məqsədləri nədir?*
3. *Dünya azərbaycanlılarının bir mərkəzdə təşkilatlanmasının əhəmiyyətini müzakirə edin.*
4. *Müasir Azərbaycan Ordusu haqqında sənədli filmə baxıb müzakirə aparın.*
5. *Xalqımızın qəhrəman oğlu Mübariz İbrahimov və digər milli qəhrəmanlarımız haqqında təqdimat hazırlayın.*
6. *“Aprel döyüşü” – böyük qələbənin başlanğıcı mövzusunda referat hazırlayın.*

# 53. Xarici siyasət

Hazırda Azərbaycan Respublikası dünyanın ən dinamik inkişaf edən ölkələri sırasındadır. Respublikanın qarşısında duran ən vacib məsələ Dağlıq Qarabağ münaqişəsinin həll olunmasıdır. Bu istiqamətdə hansı işlər aparılır? Respublikamızın qonşu dövlətlərlə münasibətləri hansı əsaslar üzrə inkişaf etdirilir? ABŞ və Avropa dövlətləri ilə əməkdaşlığın ölkəmiz üçün əsas üstünlüyü nədədir?

Türkiyə ilə münasibətlər, Təbrizdə konsulluğumuzun açılması, Xəzərin hüquqi statusu, Avropa Birliyinin “yeni qonşuluq” siyasəti, “hücum diplomatiyası”

**Qonşu dövlətlərlə münasibətlər.** **2003 – 2020-ci illərdə** Azərbaycan dövlətinin ***xarici siyasətinin ana xətti*** Azərbaycanın dünya dövlətləri içərisində beynəlxalq nüfuzunu daha da möhkəmləndirmək, dünyanın aparıcı dövlətləri və qonşu ölkələrlə qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirmək, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın milli mənafeyinə uyğun şəkildə ədalətli həllinə nail olmaq istiqamətlərinə əsaslanıb.

Azərbaycan təcavüzkar Ermənistan istisna olmaqla, bütün qonşu dövlətlərlə normal münasibətlər qurmuşdur. ***Türkiyə Respublikası*** ilə münasibətlər isə ən yüksək səviyyədədir. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin “Bir millət, iki dövlət” adlandırdığı bu ölkələr arasında hərbi-siyasi, iqtisadi və mədəni əməkdaşlıq XXI əsrin ilk onilliklərində daha da genişlənmiş, bu gün artıq strateji tərəfdaşlıq həddinə yüksəlmişdir.

2014-cü il aprelin 24-də Praqada “Şərq tərəfdaşlığı” proqramına həsr olunmuş sammitdə Ermənistan rəhbəri Türkiyənin ünvanına əsassız ittihamlar səsləndirərkən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin kəskin cavabı ilə üzləşdi: “Ermənistan prezidenti burada fürsətdən istifadə edərək Türkiyəyə yenidən hücum edir. Bunu etmək asandır, çünki bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam”.

Türkiyə 2019-cu ilin sonuna qədər Azərbaycan iqtisadiyyatına 12 milyard dollardan çox vəsait yatırıb. Azərbaycan isə Türkiyəyə 17,5 milyard dollar sərmayə qoyub.

*Türkiyə və Azərbaycanla bağlı “Bir millət, iki dövlət” ifadəsini əsaslandırın.*



LAYİHƏ

Şimal qonşumuz ***Rusiya*** hərbi-siyasi əməkdaşlıq da daxil olmaqla, bütün sahələrdə Ermənistanla sıx müttəfiq münasibətləri saxlayır. Buna baxmayaraq, Azərbaycan dünyanın bu böyük dövləti ilə normal münasibətlərin inkişafına xüsusi əhəmiyyət verir.

Cənubi Qafqazda sülh və təhlükəsizliyin təmin olunması Azərbaycan üçün həyati əhəmiyyət daşıyır. 2008-ci ildə Rusiya Gürcüstana hərbi müdaxilə etdikdə Azərbaycan çox çətin seçim qarşısında qalmışdı. Rusiya ilə sıx əməkdaşlıq münasibətlərini qoruyub saxlamaq ölkəmiz üçün olduqca vacib idi. Eyni zamanda bölgədə əsas strateji müttəfiqimiz olan Gürcüstanı da müdafiə etmək lazım gəlirdi. Azərbaycan hökuməti Rusiya ilə tərəfdaşlıq münasibətlərini qoruyub saxlaya bildi. Bununla Gürcüstan ərazisində Azərbaycan neftini və qazını nəql edən strateji kəmərlərin təhlükəsizliyi təmin olundu. Həmçinin Gürcüstana mümkün olan qədər diplomatik, siyasi dəstək də verildi. Hazırda minlərlə soydaşımızın yaşadığı Rusiya və Gürcüstanla əlaqələrimiz dinamik inkişaf edir.

*Gürcüstanla strateji münasibətlərin qurulmasının əhəmiyyətini müəyyən edin.*

Azərbaycan rəhbərliyi **İran İslam Respublikası** ilə qarşılıqlı faydalı əməkdaşlığın inkişafına xüsusi diqqət yetirir. **2004-cü ildə *Təbrizdə Azərbaycan Konsulluğunun açılması*** ölkələrimiz arasında əməkdaşlığın genişlənməsinə təkan vermişdir. 2016-cı ilin fevral ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İrana rəsmi səfəri zamanı qarşılıqlı faydalı əməkdaşlığı dərinləşdirməyə imkan verən sənədlər və razılaşmalar imzalanmışdır.

**2018-ci ilin avqustunda** Xəzəryanı ölkələrin – Azərbaycan, Rusiya, Türkmənistan, Qazaxıstan və İranın dövlət başçılarının Aktau şəhərində keçirilən sammitində imzalanmış "Xəzər dənizinin hüquqi statusu haqqında" konvensiya bu sahədə görülən işləri daha da sürətləndirmişdir.

**ABŞ, Avropa dövlətləri və beynəlxalq təşkilatlarla əməkdaşlıq.** Azərbaycan öz xarici siyasətində ***Amerika Birləşmiş Ştatları*** ilə normal münasibətlərin saxlanmasına xüsusi əhəmiyyət verir. ABŞ-la münasibətlərimiz strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. ABŞ Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Eyni zamanda Xəzər hövzəsində bütün beynəlxalq neft və qaz layihələrinin həyata keçirilməsində yaxından iştirak edir. Prezident İlham Əliyevin **2006-cı ildə** ABŞ-a ilk rəsmi dövlət səfəri iki ölkə arasında qarşılıqlı əlaqələrin möhkəmlənməsində böyük rol oynamışdır. Respublikamız ABŞ-ın beynəlxalq terrorizmə qarşı apardığı mübarizədə bu dövlətin etibarlı tərəfdaşlarından birinə çevrilmişdir.

*Araşdırın: hazırda dünyanın hansı ölkələri terrordan daha çox əziyyət çəkir?*

Azərbaycan ***Avropa Birliyinin*** "yeni qonşuluq" siyasətinə qoşulmuşdur. Respublikamız Cənubi Qafqaz bölgəsində və strateji əhəmiyyətli Xəzər hövzəsində təhlükəsizliyin təmin olunmasına böyük töhfə verir. Eyni zamanda Avropa dövlətləri ilə daha geniş münasibətlər qurulması üçün qətiyyətli addımlar atır. İngiltərə, Almaniya, Fransa və İtaliya ilə münasibətlərimiz yüksələn xətlə inkişaf edir.

NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində bu güclü hərbi-siyasi qurumla əməkdaşlıq davam etdirilir.



LAYİHƏ

Artıq iyirmi ildən çoxdur ki, Azərbaycanla Ermənistan arasında müharibəyə son qoymaq və ***Dağlıq Qarabağ münaqişəsini*** həll etmək üçün ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə danışıqlar aparılır. Lakin böyük dövlətlərin təcavüzkar Ermənistana himayədarlıq etməsi üzündən sülh danışıqları heç bir müsbət nəticə verməmişdir. 2004-cü ildə Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın haqlı mövqeyi ilə bağlı informasiya müharibəsində "hücum diplomatiyası"nın aparılması vəzifəsini irəli sürmüşdür. Bu diplomatiya nəticəsində erməni lobbisi və onların havadarları son illərdə müdafiə taktikası seçməyə məcbur olmuşlar.

*2015-ci il fevralın 7-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində "Ukraynadan əlavə – Avropada həll olunmamış münaqişələr" mövzusunda panel müzakirəsi keçirilmişdir. Paneldə dövlətimizin başçısı İlham Əliyev çıxış etmiş və sualları cavablandırmışdır.*

*Ermənistan nümayəndəsinin qərəzli sualına Prezident İlham Əliyev belə cavab verib: "...Ermənistan nümayəndəsinin atəş açılması ilə bağlı sualına cavab olaraq bildirim ki, əslində, həmişə günahı bizim üstümüzə atmaq Ermənistan tərəfinin taktikasıdır. Onlar bizim torpaqlarımızı işğal ediblər, beynəlxalq hüquq normalarını pozublar, Xocalıda soyqırımı törədiblər, tarixi və dini abidələrimizi məhv ediblər və bizi günahlandırırlar. Sual isə ondan ibarətdir ki, işğal olunmuş ərazilərdə Ermənistan əsgərlərinin nə işi var? Erməni əsgərinin Ağdamda nə işi var? Əgər o ölmək istəmirsə, onda qoy Ağdama getməsin, olduğu yerdə qalsın, Yerevanda, Gümrüdə, öz ölkəsində qalsın. Sizin özünüz üçün ölkənizdə kifayət qədər yeriniz var. Ermənistanda o qədər də çox insan qalmayıb. Sizin Ağdamda, Füzulidə nə işiniz var?"*

M *"Hücum diplomatiyası" ifadəsini mənbəyə istinad edərək təhlil edin.*

Azərbaycan Respublikası **2011-ci ildə** BMT-nin üzvü olan 155 dövlətin səsini toplayaraq bu nüfuzlu təşkilatın ***Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü*** seçilmişdir. Azərbaycan iki il ərzində bu təşkilatda ona verilmiş səlahiyyətləri uğurla icra etmişdir.

Azərbaycan Respublikası İslam Əməkdaşlığı Təşkilatına üzv olan dövlətlərlə qarşılıqlı faydalı əlaqələrin inkişafına böyük maraq göstərir. Həmçinin Cənubi Koreya, Yaponiya və Çinlə əməkdaşlığı genişləndirməyə çalışır. Son illərdə respublikamız dünyanın aparıcı dövlətləri ilə əlaqələri daha da genişləndirmişdir.

## SUAL VƏ TAPŞIRIQLAR:

1. *Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərini müəyyən edin.*
2. *İlham Əliyevin Prezidentliyi dövründə Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hansı mövqe tutmuşdur?*
3. *"Yeni qonşuluq" siyasətinin əsas məqsədlərini müəyyən edin.*
4. *Mövzuya aid xronoloji cədvəl qurun.*
5. *Azərbaycan Respublikasının Cənubi Qafqazın aparıcı və lider dövlətinə çevrilməsi haqqında təqdimat hazırlayın.*



LAYİHƏ

# 54. Mədəniyyətin inkişafında böyük uğurlar

Azərbaycan xalqı tarixin hər bir mərhələsində dünya mədəniyyətinə öz töhfələrini vermişdir. Hazırda xalqımız sürətli iqtisadi inkişafı ilə seçilən Qafqazın lider dövlətinə çevrilmişdir. Bəs mədəniyyətimiz bu inkişafa uyğunlaşa bilirmi? Mədəniyyət sahəsində hansı böyük uğurlar qazanılmışdır?

Heydər Əliyev Fondu, Mehriban xanım Əliyeva, “Mədəniyyət” kanalı, “Muğam” televiziya müsabiqələri, “Avroviziya” mahnı müsabiqəsi, ilk Avropa oyunları

**Təhsilin inkişafına dövlət qayğısı.** Azərbaycan dövləti müasir dövrdə orta ümumtəhsil və ali məktəb şəbəkəsinin inkişaf etdirilməsinə, uşaq və gənclərin dünya standartlarına cavab verən təhsillə təmin olunmasına, yüksəkixtisaslı kadrların hazırlanmasına xüsusi diqqət və qayğı göstərir. Son on ildə dövlət büdcəsindən təhsil sahəsinə ayrılan vəsaitin həcmi 3 dəfədən çox artmışdır. Dövlət büdcəsinin və ***Heydər Əliyev Fondunun*** maliyyə mənbələri hesabına son illərdə ***3 mindən çox yeni məktəb*** binası inşa edilmiş və ya əsaslı şəkildə təmir olunmuşdur. Görülmüş məqsədyönlü tədbirlər nəticəsində respublika üzrə bütün ümumtəhsil məktəblərində 1–11-ci sinif şagirdləri dövlət hesabına pulsuz dərsliklərlə təmin edilmişlər. Azərbaycanda təhsil islahatlarının genişləndirilməsi və bütün təhsil sisteminin dünya standartlarına uyğunlaşdırılması kimi çox mühüm vəzifəni həyata keçirmək üçün 2009-cu ildə Milli Məclis “Təhsil haqqında” yeni qanun qəbul etmişdir.

*“Təhsil haqqında” yeni qanunda ümumtəhsil məktəbi ilə bağlı hansı islahatlar nəzərdə tutulmuşdur? Araşdırın.*

Azərbaycan Respublikası Avropada vahid ali təhsil məkanının yaradılmasını nəzərdə tutan *Boloniya prosesinə* qoşulmuşdur. Azərbaycanın bu prosesə qoşulması ölkəmizdə ali təhsil sisteminin təkmilləşdirilməsinə və əsaslı islahatlar aparılmasına təkan vermişdir. Bu məqsədlə 2009 – 2013-cü illərdə Dövlət Proqramı həyata keçirilmişdir.

Azərbaycan dövləti gənclərimizin xarici ölkələrin ən qabaqcıl universitetlərində ali təhsil almasına həmişə xüsusi diqqət yetirmişdir. Bu mühüm məsələ ilə bağlı qəbul edilmiş dövlət proqramına uyğun olaraq hər il yüzlərlə gənc ABŞ və Qərbi Avropanın nüfuzlu ali məktəblərinə dövlət hesabına təhsil almağa göndərilir.

*Dünyanın nüfuzlu universitetlərində təhsil almış azərbaycanlılar haqqında məlumat toplayın.*

**Elmin inkişafı.** Respublikamızın iqtisadi imkanlarının yaxşılaşması elmin inkişafına getdikcə daha çox vəsait ayırmağa, iqtisadiyyatda aparılan islahatların elmi təminatına daha çox diqqət verməyə imkan yaratmışdır. Bu məqsədlə Milli Elmlər Akademiyasına elm və texnikanın inkişaf etdirilməsi, elmi tədqiqat işlərinin əlaqələndirilməsi, beynəlxalq elmi əməkdaşlığın təmin olunması sahəsində ali dövlət elmi təşkilatı statusu verilmişdir.

**2009-cu ildə** Azərbaycanda ***“Elmin inkişafı üzrə Milli Strategiya və Dövlət Proqramı”*** qəbul edilmişdir. Bu Proqram qəbul edildikdən sonra Azərbaycan alimləri fundamental elm sahələrində öz tədqiqatlarını genişləndirərək geologiya, neft və neft-kimya, biologiya, kimya, fizika, riyaziyyat sahələrində bir çox kəşflərə imza atmışlar.



LAYİHƏ

Onların gərgin axtarışlarının nəticəsi olaraq neftçıxarma sahəsində yeni istiqamət olan ***radiotexnologiya üsullarının*** tətbiq olunmasına başlanılmış, ***reaktiv mühərriklər üçün yeni yanacaq növləri*** kəşf olunmuş və mülki aviasiyada uçuşların təhlükəsizliyinin elmi əsasları işlənib hazırlanmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının Milli Ensiklopediyasının nəşri haqqında" və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamlarına əsasən, çoxlu elmi və bədii əsərlər oxucuların istifadəsinə verilmişdir.

Son onillikdə iqtisadiyyat, coğrafiya və xəritəçəkmə, Azərbaycan tarixi, filologiya və dilçilik sahələrində fundamental tədqiqatlar davam etdirilmişdir. Azərbaycan tarixi üzrə yazılan əsərlər xüsusilə böyük əhəmiyyətə malikdir. İşğal altında olan torpaqlarımızın tarixi yenidən yazılaraq bir çox dillərə tərcümə olunmuş və dünyaya yayılmışdır.

*2011-ci il aprelin 26-da Prezident İlham Əliyev Milli Elmlər Akademiyasının illik ümumi yığıncağındakı çıxışında bildirmişdir: "...Mən çox şadam ki, tarixçilərimiz çox sanballı və əsaslı əsərlər yaradırlar. Xüsusilə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mövcudluğu bizə diktə edir ki, bu sahəyə daha da böyük diqqət göstərək. Çünki bu bölgənin tarixi ermənilər tərəfindən daim saxtalaşdırılır, daim təhrif olunur. Şadam ki, alimlərimiz mənim çağırışıma müsbət cavab verərək qısa müddət ərzində bu bölgənin tarixi ilə bağlı çox gözəl və real faktlara əsaslanmış əsərlər yaratmışlar. Başlıcası, İrəvan xanlığının tarixi ilə bağlı yaradılmış əsərlər xüsusi məna daşıyır. Çünki əfsuslar olsun ki, dünya birliyi, demək olar, bilmirdi ki, bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranmışdır".*

M *Azərbaycan tarixi elminin inkişafının əhəmiyyətini müəyyən edin.*

**İncəsənət və idman sahəsində uğurlar**. Azərbaycanda incəsənətin müxtəlif sahələrinin inkişaf etdirilməsi dövlətimizin diqqət mərkəzində olmuşdur. Heydər Əliyev Fondunun da fəaliyyətində Azərbaycan mədəniyyətinə qayğı və onun inkişafı əsas yer tutur.

Mədəniyyət və incəsənət sahələrində nailiyyətlərimizin geniş şəkildə təbliği üçün Azərbaycan televiziyasında ***"Mədəniyyət"*** *kanalı* fəaliyyətə başlamışdır. Klassik musiqi sənətinin inkişafından ötrü ***Beynəlxalq Muğam Mərkəzi*** yaradılmışdır. "Muğam" televiziya müsabiqələrinin keçirilməsi Azərbaycan muğamlarının təbliği və populyarlaşdırılması baxımından çox əhəmiyyətlidir.

2009-cu ildən etibarən hər il Qəbələdə Beynəlxalq Musiqi Festivalı keçirilir. Festivalda keçmiş SSRİ respublikalarından olan musiqiçilərlə yanaşı, Avropa, ABŞ və İsrail musiqiçiləri də iştirak edirlər. Festival çərçivəsində klassik musiqi konsertləri ilə bərabər, caz və muğam gecələri də təşkil olunur.

LAYİHƏ



*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti*
*Mehriban Əliyeva*

**2011-ci ildə** azərbaycanlı müğənnilərin ***“Avroviziya” mahnı müsabiqəsində*** 39 dövlətdən olan iştirakçılar arasında birinci yeri tutmaları musiqi aləmində əsl mədəni hadisəyə çevrildi. Növbəti ildə “Avroviziya” mahnı müsabiqəsi Bakıdakı möhtəşəm “Kristal Zal”da böyük təntənə ilə keçirildi. Bu kimi beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsi, əsasən, respublikamızın dünya miqyasında təbliğinə, xalqımızın mədəniyyətinin tanınmasına xidmət edir.

***Bakıda ilk Avropa oyunlarının keçirilməsi*** Azərbaycanın ictimai-siyasi və mədəni həyatında baş vermiş çox mühüm hadisələrdən biridir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın məqsədyönlü fəaliyyəti nəticəsində Olimpiya stadionu, Bakı Atıcılıq Mərkəzi və digər müasir idman qurğuları istifadəyə verilmişdir.

2015-ci ilin iyun ayında Bakıda yüksək səviyyədə keçirilən ilk Avropa Oyunları zamanı Azərbaycan xalqının tarixi, mədəniyyəti, milli-mənəvi dəyərləri bütün dünyaya nümayiş etdirildi. İdmançılarımız Birinci Avropa Oyunlarında, sözün əsl mənasında, tarix yazmağa nail oldular. Onlar yarışlarda 21 qızıl, 15 gümüş və 20 bürünc medal qazandılar. Bununla da, Azərbaycan



*Bakı Olimpiya stadionu*

LAYİHƏ

qitə üzrə ikinci yeri tutmaqla idman ölkəsi olduğunu bir daha sübuta yetirdi.

Yeni əsrin ilk illərində mədəniyyətin müxtəlif sahələrinin inkişaf etdirilməsinə, maddi mədəniyyət abidələrinin qorunmasına yönəldilmiş bir sıra qanunlar qəbul edilmişdir. Beynəlxalq İnkişaf Assosiasiyası ilə Azərbaycan hökuməti arasında imzalanmış “Mədəni irsin qorunmasına yardım haqqında” sazişin müddəalarına uyğun olaraq, Bakıda Şirvanşahlar Saray-Kompleksində, Naxçıvanda Möminə xatun və Qarabağlar türbələrində, Şəki Xan sarayında bərpa və yenidənqurma işləri həyata keçirilmişdir.

Bakı şəhərində özünəməxsus memarlıq üslubunda inşa edilmiş ***Heydər Əliyev Mərkəzi*** müasir Bakının simvollarından biri hesab edilir. Hündürlüyü 190 metrə çatan nəhəng ***“Alov qüllələri”*** isə Bakının görünüşünə xüsusi gözəllik verən memarlıq kompleksidir.

Son illərin möhtəşəm memarlıq abidələrindən biri də Bakı şəhərində Şirvan-Abşeron memarlıq üslubunda tikilmiş dördminarəli Heydər məscididir. Bu məscid nəinki Azərbaycanın, bütövlukdə Qafqazın ən böyük dini memarlıq abidəsidir.



*Heydər Əliyev Mərkəzi*



*“Alov qüllələri”*



*Heydər məscidi*

## SUAL VƏ TAPŞIRIQLAR:

1. *Azərbaycanda təhsilin inkişaf istiqamətlərini müəyyən edin.*
2. *Elm sahələri ilə iqtisadiyyatın əlaqələrini izah edin.*
3. *Azərbaycan tarixinin tədqiqi və təbliğinin əhəmiyyətini izah edin.*
4. *Heydər Əliyev Fondunun fəaliyyətini əlavə məlumatlar əsasında dəyərləndirin.*
5. *Müasir dövrdə Azərbaycan memarlığının xüsusiyyətlərini nümayiş etdirəcək təqdimat hazırlayın.*
6. *İdman sahəsində uğurlarımız nəyin göstəricisidir? Fikrinizi əsaslandırın.*

LAYİHƏ

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


**Azərbaycan dilində**

1. Abdullayev M.Q. Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər (XIX əsrin 40-cı illərinə qədər). Bakı, 2005
2. Abışov V.V. Bakıda 1918-ci il mart soyqırımı. Bakı, 2017
3. Azərbaycan tarixi Atlası. Bakı, 2007
4. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I c. Bakı, 2014; II c, Bakı, 2014
5. Azərbaycan tarixi, V, VI və VII cild. Bakı, 2007
6. Azərbaycan Respublikasının tarixi (1991 – 2003) (elmi redaktor Y.M.Mahmudov). I c. Bakı, 2016
7. Azərbaycan Respublikasının tarixi (2003 – 2016) (elmi redaktor Y.M.Mahmudov), II c. Bakı, 2016
8. Azərbaycan tarixi üzrə qaynaqlar (S.S.Əliyarov və Y.M.Mahmudovun redaktəsi ilə). Bakı, 2007
9. Əliyev Q.Ə. Azərbaycan nəqliyyatı və iqtisadiyyatı (XIX əsr – XX əsrin ilk onillikləri). Bakı, 2001
10. Xəlilov A. Azərbaycan SSR 1920 – 1930-cu illərdə: hakimiyyətdaxili qarşıdurmalar. Bakı, 2015
11. İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı, 2009
12. Mahmudov Y.M. Real tarix və “böyük Ermənistan” uydurması. Bakı, 2017
13. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990
14. Rəsulzadə M.Ə. Çağdaş Azərbaycan tarixi. Bakı,1990
15. *https://mod.gov.az*

**Rus dilində**

16. Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX – начале XX вв.). Баку, 1999
17. Махмудов Я.М. Геноцид тюрко-мусульманского населения Азербайджана в 1918 – 1920 годах. Баку, 2015
18. *https://www.wdl.org/ru/*




LAYİHƏ

# Buraxılış məlumatı

**AZƏRBAYCAN TARİXİ 9**

*Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün*
*Azərbaycan tarixi fənni üzrə*

**DƏRSLİK**

**Tərtibçi heyət:**

Müəlliflər: **Yaqub Mahmudlu**
**Qabil Əliyev**
**Mehman Abdullayev**
**Leyla Hüseynova**
**Hafiz Cabbarov**

İxtisas redaktoru **Güntəkin Nəcəfli**

Buraxılışa məsul **Rafiq Kazımov**
Üz qabığının dizaynı **Nurlan Nəhmətov**
Dizayner və səhifələyici **Aytən Alışova**
Redaktor **Ülkər Məmmədova**
Korrektor **Nübar Qarayeva**
Texniki redaktor **Sevinc Yusifova**
Baş redaktor **Nərgiz Cabbarlı**
Texniki direktor **Xəqani Fərzalıyev**
Nəşriyyat direktoru **Sevil İsmayılova**

© **Azərbaycan Respublikası Təhsil Nazirliyi (qrif nömrəsi: 2020-045)**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 8,6. Fiziki çap vərəqi 12. Formatı $70x100^{1}/_{16}$.
Kəsimdən sonra ölçüsü: 165x240. Səhifə sayı 192.
Şriftin adı və ölçüsü: məktəb qarnituru 10-12. Ofset kağızı. Ofset çapı.
Sifariş______. Tiraj 130762. Pulsuz. Bakı – 2020

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: __________**

Nəşriyyat:
**"Şərq-Qərb" ASC**
**(Bakı, AZ1143, Hüseyn Cavid küç., 111)**

Çap məhsulunu istehsal edən:
**"Təhsil Nəşriyyat-Poliqrafiya" MMC**
**(Bakı, AZ1052, F.Xoyski küç., 149)**

LAYİHƏ

Pulsuz

## Əziz məktəbli!

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən
bir dərs ilində istifadə üçün verilir.

O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri
qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq,
onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli
saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli
yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!



LAYİHƏ